# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

## SƏKSƏN DÖRDÜNCÜ KİTAB

## NOYABR 2017 - YANVAR 2018

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində dövlət başçısının Türkiyə Respublikasına və Rusiya Federasiyasına səfəri, həmçinin Bolqarıstan Respublikası Prezidentinin Azərbaycana səfəri zamanı bu ölkələrin dövlət və hökumət rəhbərləri ilə görüş və danışıqları, enerji və qeyri-neft sektoru, kənd təsərrüfatı sahələrinə aid bağlanan müqavilələr, təhsil və mədəniyyət məsələləri ilə bağlı anlaşma və hərtərəfli əməkdaşlıq müzakirələrinə dair materiallar toplanmışdır.

Azərbaycan Prezidentinin bütün görüş və danışıqlarında Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli yolları prioritet məsələ kimi qaldırılır ki, bu da hər bir clddə öz əksini tapır.

Kitabda, həmçinin dövlət başçısının İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilən Qüds məsələsi ilə bağlı Fövqəladə Zirvə toplantısında, MDB dövlət başçılarının Moskvada keçirilən qeyri-rəsmi görüşündə və Bakıda «Asiyanın Qəlbi – İstanbul Prosesi» çərçivəsində «Gücləndirilmiş Asiyanın Qəlbi regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda 7-ci nazirlər konfransında çıxış və nitqləri də oxucuların ixtiyarına verilmişdir.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\dfrac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

## OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA AĞCABƏDİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ İDMANÇILARLA GÖRÜŞ

*28 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ağcabədidə Olimpiya İdman Kompleksinin açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı əvvəlcə Olimpiya İdman Kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Nəhəng idman infrastrukturunun yaradılması istiqamətində atılan addımlar Azərbaycanı idman ölkəsi kimi nəinki yerləşdiyi coğrafi arealda, həm də bütün dünyada lider mövqeyə yüksəldibdir. Buna dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin idmana göstərdiyi diqqət və qayğı sayəsində nail olunubdur. Çoxlu sayda olimpiya idman komplekslərinin, idman-sağlamlıq mərkəzlərinin tikilib istifadəyə verilməsi Azərbaycanı nəhəng idman hərəkatının yaşandığı məkanlardan biri kimi tanıdıbdır. Son illər Azərbaycan mötəbər beynəlxalq idman yarışlarına yüksək səviyyədə ev sahibliyi edib. Diqqət çəkən əsas məqamlardan biri də bədən tərbiyəsi və idmanın ölkəmizin bütün regionlarında kütləvi xarakter almasıdır. Buna nail olmaq üçün müxtəlif bölgələrdə olimpiya idman kompleksləri, idman qurğuları və stadionlar tikilir. Belə nəhəng idman qurğularından biri də Ağcabədidə inşa olunub. Ağcabədi Olimpiya İdman Kompleksi Prezident İlham Əliyevin «Abşeron və Ağcabədi rayonlarında olimpiya idman komplekslərinin tikintisi ilə bağlı tədbirlər haqqında» 2011-ci il 27 may tarixli Sərəncamı əsasında inşa edilibdir. Bu, ölkə id-*

*mançılarının ixtiyarına verilən sayca 42-ci Olimpiya İdman Kompleksidir.*

*Ağcabədi Olimpiya İdman Kompleksində yaradılan şərait barədə dövlət başçısına ətraflı məlumat verildi. Bildirildi ki, kompleksin tikintisinə 2012-ci ilin iyununda başlanılıb. Yüksək keyfiyyətlə aparılan tikinti işləri bu ilin noyabrında başa çatdırılıbdır. Bu kompleks müasirliyi ilə diqqəti cəlb edir. Ümumi ərazisi 5 hektar olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb. Kompleksdə 100 tamaşaçı tutumu olan 2 döşəkli güləş və cüdo, boks, ağır atletika, həmçinin 937 yerlik universal idman zalları yaradılıbdır. İdman kompleksində stolüstü tennis, bilyard, trenajor və fitnes zalları, yay kafesi, mağaza, bilet satışı kassası vardır. Binada, həmçinin məşq zalları, VİP loja, nəzarətçilər, məşqçilər, hakimlər üçün otaqlar, dopinq-nəzarət, soyunub-geyinmə və digər zəruri otaqlar yaradılıbdır. Baş plana əsasən, kompleksdə uzunluğu 104, eni isə 68 metr olan 810 yerlik futbol stadionu, habelə mini-futbol, voleybol və tennis meydançaları da vardır. Bir sözlə, burada idmanın müxtəlif növləri ilə məşğul olmaq üçün geniş imkanlar mövcuddur.*

*Belə komplekslərin yaradılması Azərbaycanın idman ölkəsi kimi nüfuzunu yüksəltməklə yanaşı, regionlarda yaşayan gənclərin idmana həvəsinin artırılması, onların potensialının üzə çıxarılması və ümumilikdə idmanın kütləviliyinin təmin edilməsində mühüm əhəmiyyət daşıyır. Kompleksin əhəmiyyətini artıran cəhətlərdən biri də burada müasir mehmanxananın yaradılmasıdır. Üçmərtəbəli 50 yerlik mehmanxanada idmançıların qalması və istirahəti üçün hər cür imkan vardır. Mehmanxanada birnəfərlik, ikinəfərlik, üçnəfərlik, VİP otaqlar və 95 yerlik konfrans zalı mövcuddur.*

*Qeyd olundu ki, buradakı üzgüçülük hovuzu ən müasir standartlara cavab verir. Hovuzun uzunluğu 25, eni isə 12,5 metrdir. Zalda üzgüçülük yarışlarını 100-dən çox tamaşaçı izləyə biləcəkdir. Kompleks, həmçinin qaz, su-kanalizasiya, elektrik, rabitə xətləri ilə təchiz olunub. Ətrafda geniş yaşıllıq zolaqları salınıb,*

*təhlükəsizlik-müşahidə kameraları quraşdırılıbdır. Komplekslə tanışlıqdan sonra Prezident İlham Əliyev rayon ictimaiyyətinin nümayəndələri və ağcabədili idmançılarla görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Ağcabədidə gözəl, böyük, möhtəşəm Olimpiya İdman Kompleksi açılır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Çox gözəl hadisədir, gözəl mərkəzdir. Burada idmanla məşğul olmaq üçün bütün şərait vardır. Demək olar ki, idmanın bütün növləri ilə həm idmançılar, həm də rayon sakinləri məşğul ola bilərlər. Gözəl idman zalları, üzgüçülük hovuzu, böyük stadion, açıq idman meydançaları və 1000 nəfərlik qapalı idman salonu – yəni bu çox gözəl idman obyektidir. Çox şadam ki, Ağcabədidə belə gözəl idman mərkəzi yaradılıbdır. İdman Azərbaycanda dövlət siyasətidir. Bildiyiniz kimi, idmançılarımız bizi beynəlxalq yarışlarda layiqincə təmsil edirlər, dünya, Avropa, olimpiya çempionlarımız vardır. İndi, demək olar ki, bütün mötəbər beynəlxalq yarışlarda Azərbaycanın bayrağı dalğalanır. Biz böyük idman tədbirlərini Azərbaycanda uğurla keçirmişik. 2 il bundan əvvəl Avropa oyunları, bu il isə İslam Həmrəyliyi oyunları ən yüksək səviyyədə keçirilmişdir.

Deyə bilərəm ki, Avropa oyunları Yay Olimpiya oyunları səviyyəsində keçirilmişdir. Həm Avropa, həm də İslam Həmrəyliyi oyunlarında Avropanı və müsəlman aləmini təmsil edən 100-dən çox ölkə iştirak etmişdir. Bu bir daha Azərbaycanı mədəniyyətlərarası dialoqun mərkəzi kimi, dünyaya təqdim etmişdir və bu, tarixi nailiyyətdir. Çünki 2 il ərzində bir ölkədə, bir şəhərdə həm Avropa, həm İslam Həmrəyliyi oyunları yüksək səviyyədə keçirilmiş, dünyanın bütün idman ictimaiyyəti bu oyunları maraqla izləmişdir. İdmançılarımız da bu oyunlarda ən yüksək nəticələr göstərmiş, Avropa oyunlarında 2-ci, İslam

Həmrəyliyi oyunlarında isə bütün müsəlman ölkələri arasında 1-ci yerə layiq görülmüşlər. Bu, Azərbaycanı bir daha dünyaya güclü idman ölkəsi kimi təqdim edir, bir daha göstərir ki, Azərbaycan idmançıları güclüdürlər və onlar istənilən yarışda ölkəmizi ləyaqətlə təmsil edirlər.

Əlbəttə, belə uğurlara nail olmaq üçün bu məsələlərlə bağlı işlər düzgün qurulmalıdır. Azərbaycanda idmanla məşğul olan bütün qurumlar çox fəal işləyir, yeniyetmə idmanı, uşaq idmanı inkişaf edir, gənc nəsil yetişir. Bu gün bizim qələbələrimizi şərtləndirən əsas amillər idman infrastrukturu, təlim-məşq toplanışları, beynəlxalq yarışların Azərbaycanda keçirilməsidir. Bütün bu amillər Azərbaycanda var və təsadüfi deyil ki, biz Yay Olimpiya oyunlarında da yüksək nəticə göstəririk. Avropa və İslam Həmrəyliyi oyunları Azərbaycanda keçirilmişdir. Adətən, deyirlər ki, öz ölkəsində idmançılara hətta divarlar da kömək edir. Ancaq Rio Yay Olimpiya oyunlarında medalların sayına görə 14-cü yerə qalxmaq təsdiqləyir ki, həm Avropa, həm də İslam Həmrəyliyi oyunlarındakı qələbələr təsadüfi deyildi. Bu qələbələr bizim gördüyümüz işlərin məntiqi nəticəsi idi.

Əlbəttə, idmanla məşğul olmaq üçün şərait olmalıdır. Bu gözəl şərait yaradılır. Ağcabədidə möhtəşəm Olimpiya İdman Kompleksi açılır. Bu, bölgələrdə açılan mərkəzlər arasında sayca 43-cüdür. Demək olar ki, bütün bölgələrimizdə gözəl olimpiya idman mərkəzləri vardır. Qarşıya məqsəd qoyulub ki, hər bir şəhərdə belə komplekslər yaradılsın. Növbəti illərdə də bu istiqamətdə işlər aparılacaqdır.

İdman sağlam həyat tərzidir. İdman gəncləri vətənpərvərlik ruhunda tərbiyə edir. İdman ölkələri dünya miqyasında tanıdır. Əgər biz Olimpiya oyunlarında yüksək nəticə göstərmiş ölkələrin siyahısına baxsaq görərik ki, onların tam əksəriyyəti inkişaf etmiş ölkələrdir. Yəni belə ölkələrdə idman daha çox inkişaf edə bilər. Azərbaycan inkişafda olan ölkədir. Ağcabədidə belə bir mərkəzin yaradılması onu göstərir ki, biz hətta iqtisadi cəhətdən o qədər

asan olmayan illərdə də sosial sahəyə, idman sahəsinə böyük investisiyalar qoyuruq.

İdman ictimai həyatımızın tərkib hissəsidir, bu, sosial siyasətimizin təzahürüdür. Ağcabədi rayonunda da belə obyektlərin sayı getdikcə çoxalır. Vaxtilə burada Azərbaycanın ən böyük xəstəxanalarından biri – Ağcabədi Mərkəzi Rayon Xəstəxanası tikilib istifadəyə verilmişdir. Mən bu gün maraqlandım, xəstəxana çox uğurla fəaliyyət göstərir, burada hər il pulsuz müayinə keçirilir və rayon sakinləri bu imkanlardan istifadə edirlər. Ağcabədidə Gənclər Mərkəzi, Şahmat məktəbi, Qarabağ Muğam Mərkəzi və digər obyektlər açılıb, 28 məktəb tikilib, 11 məktəb əsaslı təmir olunubdur. Bütün bu işləri görmək üçün vəsait lazımdır. Azərbaycan iqtisadiyyatı bu gün güclü iqtisadiyyatdır və bizim qarşımızda heç bir maliyyə problemimiz yoxdur. Ona görə bu il və növbəti illərdə sosial-iqtisadi infrastruktur sahəsində əlavə tədbirlər görüləcəkdir.

Növbəti illərdə Ağcabədidə kənd yollarının tikintisi davam etdiriləcəkdir. Bir neçə kənd yolu layihəsi icra edilib və gələn ildə də bu, nəzərdə tutulur. Çoxmənzilli yaşayış binalarının təmiri məsələsi də gündəlikdədir, abadlıq işlərinə də əlavə vəsait ayrılacaqdır. Bir sözlə, rayonun sosial-iqtisadi inkişafı əminəm ki, bundan sonra da uğurla təmin ediləcəkdir.

Burada kənd təsərrüfatı ilə bağlı yaxşı nəticələr vardır. Aqroparklar salınır, böyük taxılçılıq təsərrüfatları yaradılır. Bilirsiniz ki, mənim təşəbbüsümlə bir neçə il bundan əvvəl iri fermer təsərrüfatlarının yaradılması haqqında qərar verildi və ilk belə təsərrüfat – «Qarabağ Taxıl» müəssisəsi Ağcabədidə yaradılmışdır. Mən o müəssisənin fəaliyyəti ilə tanış olmuşam. Müəssisə öz fəaliyyətini genişləndirir və heyvandarlıq, bitkiçilik sahələrində də böyük imkanlar vardır. Ağcabədi heyvandarlıq sahəsində ənənəvi mərkəzlərdən biridir, bitkiçiliyə gəldikdə isə, pambıqçılığın da şöhrəti Ağcabədidə bərpa edilir. Sovet vaxtında Ağcabədi iri pambıqçılıq rayonlarından biri idi. İndi biz bu statusu qaytarırıq. Builki nəticələr də yaxşıdır,

ağcabədililər müəyyən edilmiş hədəfə çatıblar. Əminəm ki, növbəti illərdə əlavə tədbirlərin, o cümlədən meliorativ tədbirlərin görülməsi nəticəsində məhsuldarlıq daha da artmalıdır və artacaqdır. Biz növbəti illərdə ilk olaraq, məhsuldarlığa fikir verməliyik. Bunun üçün bütün tədbirlər vaxtında görülməlidir ki, məhsuldarlıq artsın.

Ağcabədi rayonunun timsalında ölkəmizin uğurlu sosial-iqtisadi inkişafını görürük. Həm sosial, həm mədəniyyət, təhsil, idman, kənd təsərrüfatı, emal sənayesi sahələrində nəticələr göz qabağındadır və biz, ümumiyyətlə, 2017-ci ili uğurla başa vururuq. Bu il nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapıbdır. Həm iqtisadi sahədə, xarici siyasət sahəsində, həm də hərbi sahədə çox böyük nailiyyətlərimiz vardır. İlin sonunda biz belə gözəl idman mərkəzinin açılışını qeyd edirik. Bu gün açılışda idmançılar da iştirak edirlər, ilk növbədə onları təbrik edirəm və tövsiyə edirəm ki, hər bir insan idmanla müntəzəm surətdə məşğul olsun. Sizi bir daha təbrik edirəm.

* * *

**Əli Cəfərov** (*Ağcabədi idman məktəbinin yetirməsi, ikiqat dünya və yeddiqat Avropa çempionu*): Möhtərəm cənab Prezident, Sizi Ağcabədi idmançıları, gəncləri və ictimaiyyəti adından salamlayıram. Rayonumuza «Xoş gəlmisiniz!» – deyirəm. Bu gün Ağcabədi idmançıları, gəncləri üçün tarixi bir hadisə yaşanır. Rayonumuzda möhtəşəm Olimpiya İdman Kompleksi istifadəmizə verilir.

Ümumiyyətlə, son 14 ildə ölkəmizdə olan inkişaf idmandan da yan keçməmişdir. Ölkəmizdə birinci Avropa oyunları, IV İslam Həmrəyliyi oyunları, «Formula-1» yarışları, Dünya Şahmat Olimpiadası və digər mötəbər yarışlar keçirilibdir. Həmin yarışlarda idmançılarımız ölkəmizi layiqincə təmsil edib, bayrağımızı ən yüksək zirvələrə qaldırıb, Dövlət himnimizi səsləndirmişlər.

Hazırda respublikamızın bütün bölgələrində idmanla məşğul olmaq üçün hər cür şərait vardır. Mən özüm Ağcabədi idman məktəbinin yetirməsiyəm, ikiqat dünya, yeddiqat Avropa çempionuyam. Hazırda idmançılarımız 2020-ci ildə Yaponiyada keçiriləcək Olimpiya oyunlarına səylə, böyük həvəslə hazırlaşırlar. Sizin bizə göstərdiyiniz yüksək diqqət və qayğıdan ruhlanaraq çalışacağıq ki, həmin oyunlarda ölkəmizi layiqincə təmsil edək, çoxlu sayda medallar qazanaq.

Cənab Prezident, bütün bu işlərin hamısı Sizin əməyinizin, xidmətinizin nəticəsidir. Ən əsası odur ki, bu kompleks də gələcəyimizə, gənclərimizin və idmançılarımızın ölkəmizi layiqincə təmsil etmələrinə xidmət edəcəkdir. Buna görə də Sizə və Sizinlə çiyin-çiyinə çalışan, Azərbaycan idmanının sürətli inkişafında böyük rolu olan Mehriban xanıma qədim Ağcabədinin idmançıları, gəncləri adından dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab Prezident, Sizə möhkəm idman sağlamlığı, uzun ömür arzulayıram.

**İlham Əliyev:** Sağ olun. Hansı idman növü ilə məşğulsan?

**Əli Cəfərov:** Karate ilə.

**İlham Əliyev:** Karate də bu il olimpiya idman növü oldu.

**Əli Cəfərov:** Bəli, çox sevindik.

**İlham Əliyev:** Hesab edirəm ki, bu işdə Azərbaycan karateçilərinin də zəhməti vardır. Çünki biz karateni ilk dəfə olaraq Avropa oyunlarının, sonra isə İslam Həmrəyliyi oyunlarının proqramlarına daxil etdik. Bundan sonra karate olimpiya idman növünə çevrildi. Ona görə 2020-ci ilə yaxşı hazırlaşın.

**Şahin Məmmədov** (*Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı*): Cənab Prezident, Minayə Əkbərova taekvondo üzrə yeniyetmələr arasında dünya çempionatında ikinci yeri tutubdur.

**İlham Əliyev:** Çox yaxşı, medallarınız da çoxdur. İndi burada gözəl idman zalları var, həm uşaqlar, yeniyetmələr, həm

idmançılar, həm də rayon sakinləri istifadə edə bilərlər. Fiziki hazırlıq hər bir insan üçün çox vacib olan məsələdir.

**İ d m a n ç ı l a r:** Allah Sizdən razı olsun. Sizə çox minnətdarıq.

**Ş a h i n M ə m m ə d o v:** Cənab Prezident, Yeni Qaradolaq kəndinin sakini Tofiq İsmayılov hər hektardan 50 sentner pambıq yığıb.

**İ l h a m Ə l i y e v:** Bu yaxınlarda «Əmək» ordenini təsis etdik ki, zəhmətkeşlərə verilsin. Ona görə yüksək məhsuldarlığı təmin edən zəhmətkeşlərə, əlbəttə, dövlət tərəfindən mükafat verilməlidir.

**T o f i q İ s m a y ı l o v:** Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Böyük sahəniz var?

**T o f i q İ s m a y ı l o v:** 40 hektar sahədə pambıq əkmişdim, hər hektardan 52 sentner məhsul götürdüm. Cəmi 208 ton pambıq tədarük etmişəm.

**İ l h a m Ə l i y e v:** Belə yüksək məhsuldarlığa nəyin hesabına nail olmusunuz?

**T o f i q İ s m a y ı l o v:** Bütün aqrotexniki qaydalara əməl etmişik. Mən 1979-cu ildən pambıqçılıqla məşğulam. Pambıq əkilməyən vaxtlarda da mən pambıq əkirdim.

**İ l h a m Ə l i y e v:** Təcrübəniz vardır. Biz pambıqçılığı bərpa etdik. Bu il pambıq tədarükü təqribən 200 min tona çatacaqdır. 2 il ərzində biz pambıq tədarükünü, demək olar ki, 8 dəfə artırdıq. Çox gəlirli sahədir. İnsanlar çalışır, işləyir, əməkhaqqı alırlar. Dolanışıq, məşğulluq üçün də çox vacib sahədir. Təsadüfi deyil ki, sovet vaxtında ulu öndərin təşəbbüsü ilə Azərbaycanda pambıqçılıq çox sürətlə inkişaf etmişdir. İllər olub ki, 1 milyon ton yığılıb, 800 min ton, demək olar ki, standart rəqəm idi. Ağcabədi də o vaxt ən böyük pambıqçılıq rayonlarından biri idi. O vaxt bir rayon təqribən 100 min ton pambıq verirdi. Sizin kimi vətəndaşların hesabına pambıqçılığı bərpa edəcəyik. Gərək sizin təcrübəniz həm rayonda, həm də başqa yerlərdə öyrənilsin.

Hazırda Ağcabədidə hektardan məhsuldarlıq təqribən 20 sentnerdir. Amma hələ yığım davam edir, bu rəqəm arta bilər.

**Ş a h i n M ə m m ə d o v:** Bəli, artacaqdır. Ötən il hər hektardan 24,2 sentner vermişik. Bu il bir az su qıtlığı yaranıb. Tofiq İsmayılov müşavirələrdə çıxış edib öz tövsiyələrini verir.

**İ l h a m Ə l i y e v:** İndi su məsələsi ilə bağlı problemi icra başçısı məruzə etdi. Biz bu problemi həll edəcəyik ki, su qıtlığı olmasın. Maksimum meliorativ tədbirlər görüləcəkdir. İndi meliorasiya ilə bağlı bizim bir neçə böyük layihəmiz var – kanalların çəkilişi, yeni su mənbələrinin dövriyyəyə daxil edilməsi. Çünki siz yaxşı bilirsiniz ki, su və müasir texnika pambıqçılıq üçün əsasdır. Texnikanız varmı?

**T o f i q İ s m a y ı l o v:** Texnika var və vaxtında çatdırılır.

**İ l h a m Ə l i y e v:** Kombayn müasirdir?

**T o f i q İ s m a y ı l o v:** Hamısı yenidir.

**İ l h a m Ə l i y e v:** Əlbəttə, sovet vaxtının kombaynlarını yaxşı xatırlayırsınız.

**T o f i q İ s m a y ı l o v:** Bəli, özüm işlətmişəm.

**İ l h a m Ə l i y e v:** İndi fərqi görürsünüz. İtki və əziyyət az, məhsuldarlıq isə çox. Özü də rahat, kabinənin içi böyük, kondisionerli. Sizə bir daha uğurlar arzu edirəm.

## Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev noyabrın 28-də Ağcabədi rayonunun ərazisində yerləşən Müdafiə Nazirliyinin «N» saylı hərbi hissəsində yaradılan şəraitlə tanış olmuşdur.*

*Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Bu gün Azərbaycan dünyada həm də peşəkar ordusu olan ölkə kimi tanınır. Şübhəsiz ki, belə ordusu olan xalqın müstəqilliyi də əbədi və sarsılmazdır. Azərbaycanda ordu quruculuğu*

*istiqamətində işlər ardıcıl surətdə aparılmaqla yanaşı, dünya təcrübəsi nəzərə alınmaqla həyata keçirilir. Milli ordunun formalaşması və bu sahədə inkişafın təməlinin qoyulması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 2003-cü ildən isə prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində çox mühüm addımlar atılıb. Bu tədbirlər ordumuzun gücünü daha da artırıb. Bu gün Azərbaycanı dünya birliyində layiq olduğu yerə gətirən amillər sırasında Silahlı Qüvvələrin döyüş qabiliyyəti, texniki təchizatı, zabit kadrlarının hazırlıq səviyyəsi, əsgərlərin mənəvi-psixoloji durumu mühüm yer tutur. Təsadüfi deyil ki, Azərbaycanın bölgədə ən yüksək mövqelərə malik ölkə olmasını şərtləndirən əsas amillər sabitlik, dinamik iqtisadi inkişaf və güclü ordudur. Ordu quruculuğu istiqamətində həyata keçirilən layihələr arasında yeni hərbi hissələrin inşası, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması mühüm yer tutur. Belə hərbi hissələrdən biri də Ağcabədi rayonunda yaradılan «N» saylı hərbi hissədir.*

*Hərbi hissədə qərargah binası, əsgər yataqxanaları, yeməkxana kompleksi, tibb məntəqəsi və digər binalar inşa olunub. Qərargah binasında komandirlərin otaqları, konfrans zalı və digər otaqlar vardır. Binada komandir heyətinin səmərəli və operativ işləməsi üçün bütün zəruri şərait mövcuddur.*

*Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hərbi hissənin əsgər yataqxanasında oldu, burada şəxsi heyət üçün yaradılmış sosial məişət şəraitinə baxdı.*

*Binada ideoloji, məişət və digər zəruri otaqlar hərbçilərin ixtiyarına verilib. Əsgərlərin idmanla məşğul olmaları üçün yataqxana kompleksində trenajor zalı da yaradılıbdır.*

*Prezident, Ali Baş Komandan İlham Əliyevə interaktiv təlim-məşq sistemi barədə məlumat verildi. Bildirildi ki, burada şəxsi heyətin sinif şəraitində atəş qabiliyyətinin artırılması təlimləri keçirilir.*

*Ali Baş Komandan İlham Əliyev hərbi hissənin yeməkxanasında oldu, hərbi qulluqçuların qidalanma şəraiti ilə maraqlandı.*

*Azərbaycanda son dövrlərdə ordunun modernləşdirilməsi, hərbi hissələrin müasirləşdirilməsi istiqamətində görülən işlər ardıcıl davam etdirilir. Bu hərbi hissədə yaradılan şərait bir daha sübut edir ki, son illər Azərbaycan Ordusu Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə maddi-texniki bazasını gücləndirib və haqlı olaraq, dünyanın ən güclü ordularından biri kimi tanınır. Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə istənilən an düşmənə sarsıdıcı zərbə vurmaqla, torpaqlarımızı işğaldan azad etməyə qadirdir.*

## Yeni Çörək və Un Məmulatları zavodunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ağcabədi rayonunda yeni Çörək və Un Məmulatları zavodunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevin yürütdüyü sənayeləşmə siyasətinə əsasən, qeyri-neft sənayesinin şaxələndirilməsi, mövcud təbii və iqtisadi resursların dövriyyəyə cəlb edilməsi, ənənəvi sənaye sahələri ilə yanaşı, yeni sənaye məhsulları istehsalı sahələrinin yaradılması, regionların sənaye potensialının gücləndirilməsi və sənayenin innovasiyalar əsasında inkişafının təmin edilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Belə tədbirlərdən biri də dövlət başçısının tapşırığına uyğun olaraq, ölkəmizdə dövlətin güzəştli kreditləri hesabına ən müasir texnologiya və avadanlıqlar əsasında çörək istehsalı müəssisələrinin yaradılmasıdır. Beynəlxalq standartlara cavab verən qabaqcıl texnologiyaların tətbiqi çörəkbişirmə sənayesində maya dəyərinin aşağı düşməsinə, keyfiyyətin yüksəlməsinə və çeşidin artmasına imkan yaradır. Son illər dövlətin güzəştli kreditləri hesabına müasir çörək zavodlarının yaradılması göstərir ki, ölkədə*

*çörəkbişirmə sənayesi dünyanın ən son texnologiyaları əsasında yenidən qurulur. Bu müəssisələrdə istehsal edilən məhsullar keyfiyyəti ilə seçilir, tez bir zamanda istehlakçıların rəğbətini qazanır. Bu layihələr ölkəmizin iqtisadi potensialını artırmaq, bölgələrdə mövcud sosial-iqtisadi infrastrukturu inkişaf etdirməklə yanaşı, həm də yeni iş yerlərinin açılmasında, əhalinin məşğulluğunun artırılmasında mühüm rol oynayır. Ağcabədidə yeni Çörək və Un Məmulatları zavodu da bu baxımdan mühüm əhəmiyyətə malikdir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısına məlumat verdi ki, hazırda Azərbaycanda gündəlik istehsal gücü 2,2 min ton olan 160-dan çox çörək istehsalı müəssisəsi fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ümumi dəyəri 113,3 milyon manat, gündəlik istehsal gücü 827,6 ton olan 30 Çörək zavodunun tikintisinə, müasir texnologiya və avadanlıqlarla təchiz edilməsinə 54 milyon manat güzəştli kredit verilib. Gündəlik istehsal gücü 443,6 ton olan müəssisələrdən 13-ü Bakının qəsəbələrində, gündəlik istehsal gücü 384 ton olan 17-si isə regionlardadır. Regionlarda yaradılan və müasir avadanlıqlarla təchiz olunan çörək zavodlarından biri də «Cahidoğlu» MMC-nin Ağcabədi Çörək və Un Məmulatları zavodudur.*

*Bildirildi ki, 6 hektar ərazidə yerləşən zavod 2 istehsal sahəsindən ibarətdir. Ümumi dəyəri 4 milyon manat olan zavodun qurulmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1,4 milyon manat güzəştli kredit verilib. Gündəlik istehsal gücü 20 ton olan zavodda 2 çörək istehsalı xətti, un məmulatları və qablaşdırma avadanlığı quraşdırılıbdır. Zavodda 7 növ çörək və 20 çeşiddə un məmulatları istehsal olunur. Gələcəkdə məhsulun çeşidinin daha da artırılması nəzərdə tutulub. İstehsal olunan çörək «Ağcabədi çörəyi» brendi ilə istehlakçılara təqdim edilir.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı, istehsal prosesinə və hazır məhsullara baxdı. Zavodda istehsal prosesi tam avto-*

*matlaşdırılıb. Xüsusi nəqliyyat vasitələri ilə un zavoda gətiriləröək, anbara boşaldılır. Sonra istehsal prosesində xəmirin mayalanması üçün süd emalından alınan pendir suyundan istifadə olunur ki, bu da istehsal edilən çörək və müxtəlif çeşidli un məmulatlarının daha dadlı və keyfiyyətli olmasına, eləcə də məhsulların saxlanma müddətinin artmasına şərait yaradır. Xəmirin mayalandırılmasında istifadə olunan pendir suyunun xammal bazasının yaradılması üçün gələcəkdə süd emalı sahəsinin təşkili nəzərdə tutulur. İstehsal olunan məhsulların istehlakçılara çatdırılması üçün kifayət qədər nəqliyyat vasitələri alınıb. Zavodda 50-dək yeni iş yeri yaradılıb və orta aylıq əməkhaqqı 400 manat təşkil edir.*

**İlham Əliyev:** Sizi təbrik edirəm.

**İşçilər:** Çox sağ olun. Allah köməyiniz olsun. Xeyirli iş görmüsünüz, hamı işləyir.

**İlham Əliyev:** Bəli, müəssisə daha da genişləndirilməlidir. Daha da çox iş yerləri açılacaqdır.

**İşçilər:** Sağ olun. Allah Sizi qorusun. Çox minnətdarıq, cənab Prezident.

# SABİRABAD RAYONUNA SƏFƏR

*28 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ağcabədi rayonuna səfərini başa çatdıraraq, Sabirabada gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Sabirabad şəhərində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Nazim İsmayılov rayonda görülən abadlıq-quruculuq işləri və həyata keçirilən sosial layihələr barədə Prezident İlham Əliyevə məlumat verdi.*

## Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Sabirabad rayonunda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Dövlət başçısı muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətdə millilik, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi yer tutur. Bu baxımdan bölgələrdə də üçrəngli bayrağımızın şərəfinə meydanlar, muzeylər yaradılır və xüsusi layihələr həyata keçirilir. Sabirabad Bayraq Muzeyinin inşasına 2017-ci ilin fevralında başlanılıb və sentyabrda başa çatdırılıbdır. Muzeyin binası 2 sərgi zalından və müxtəlif yardımçı otaqlardan ibarətdir. Sərgi zallarında 6 bölmə yaradılıb. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi və bayraqları, orta əsrlərə aid döyüşçülərin geyimləri, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyətinə*

*dair sənədlər, SSRİ və müstəqillik dövrünün konstitusiyaları, gerbləri, bayraqları, poçt markaları, orden və medallar nümayiş olunur.*

*Bayraq Muzeyinin yerləşdiyi meydanın ərazisi son vaxtlar genişləndirilərək, 2 hektara çatdırılıb. Hündürlüyü 97 metr olan Dövlət bayrağı dirəyinin postament hissəsinin ətrafı abadlaşdırılıb və yaşıllıq salınıb, yeni işıqlandırma sistemi yaradılıb, uşaqlar üçün attraksionlar qoyulub. Meydandakı 2 fəvvarə yenidən qurulubdur.*

**Sabirabad Sənaye Məhəlləsinin təməlqoyma mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Sabirabad Sənaye Məhəlləsinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*İqtisadiyyat naziri Şahin Mustafayev ölkəmizdə sənaye məhəllələrinin yaradılması istiqamətində görülən işlər haqqında dövlət başçısına məlumat verdi. Bildirildi ki, Azərbaycanda ilk sənaye məhəlləsi Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Neftçalada yaradılıb. Bu ilin sentyabrında dövlət başçısının iştirakı ilə açılışı olan həmin məhəllədə indi 9 müəssisə və 1 kiçik sahibkarlıq emalatxanası fəaliyyət göstərir. Neftçala Sənaye Məhəlləsində 474 yeni iş yeri açılıb. Sahibkarların marağı nəzərə alınaraq, ərazinin genişləndirilməsi nəzərdə tutulur.*

*Daha bir sənaye məhəlləsi Azərbaycan Prezidentinin 2016-cı il 13 iyun tarixli Sərəncamına əsasən Masallıda yaradılacaqdır.*

*Dövlət başçısına məlumat verildi ki, ümumilikdə 10 hektar, ilkin mərhələdə isə 3,54 hektar ərazini əhatə edəcək Masallı Sənaye Məhəlləsində 3 istehsalat korpusu, inzibati və texniki binalar, köməkçi sahələr tikiləcəkdir. İnşasına bu ilin iyulunda başlanılan məhəllədə 2018-ci ilin aprel ayında müəssisələrin fəaliyyətə başlaması nəzərdə tutulub. Tikintiyə cəlb edilmiş işçilərin sayı 200 nəfərdir. Burada sahibkarlar tərəfindən 33 layihə*

*təklif olunub. Layihələrin əsas istiqamətləri mebel, tikinti materialları, plastik tara, xalça, süfrə suyu, qida və kənd təsərrüfatı məhsullarının istehsalıdır. Müəssisələrin işə düşməsi nəticəsində 600-dən çox yeni iş yeri açılacaqdır.*

*Prezident İlham Əliyevə təqdim olunan daha bir layihənin icrasına – Hacıqabul Sənaye Məhəlləsinin tikintisinə gələn ilin yanvarında başlanılacaqdır. Dövlət başçısının bu ilin iyulunda imzaladığı müvafiq sərəncama əsasən yaradılacaq məhəllədəki müəssisələr ağır maşınqayırma, xüsusi vaqonqayırma, avtomobil və kompozit materialları istehsalı sahələrində ixtisaslaşacaqdır. Məhsulların satış bazarları isə MDB, Yaxın Şərq və Afrika ölkələri olacaqdır.*

*Azərbaycan Prezidentinin bir gün əvvəl imzaladığı sərəncama əsasən, Sabirabadda da sənaye məhəlləsi yaradılacaqdır. 20 hektar ərazidə salınacaq bu sənaye mərkəzində yun tədarükü, pambıqtəmizləmə, taxta, plastik məmulatlar və tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının emalı müəssisələri və Logistika Mərkəzinin fəaliyyət göstərməsi planlaşdırılır.*

*Prezident İlham Əliyev Sabirabad Sənaye Məhəlləsinin təməlini qoydu.*

## SABİRABAD RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Sabirabad Rayon Mərkəzi Xəstəxanasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı xəstəxananın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ötən əsrin 70-ci illərində inşa olunan xəstəxananın binası yararsız vəziyyətə düşdüyündən dövlət başçısının tapşırığı ilə yeni binanın tikintisinə başlanılıb. Yeni xəstəxana üçün 4,77 hektar torpaq sahəsi ayrılıb. Ərazinin 1,2 hektarında dördmərtəbəli 3 binadan ibarət xəstəxana kompleksi inşa olunub. Tikinti işlərinə 2012-ci ildə başlanılıb və bu ilin oktyabrında başa çatdırılıbdır. Binalar milli memarlıq baxımından da göz oxşayır. Bu səhiyyə müəssisəsində 553 tibb işçisi çalışacaqdır. Onların 70-i həkimdir. Bu tibb ocağındakı cərrahiyyə, terapiya, pediatriya, ginekologiya, doğum, nevrologiya, anesteziologiya və reanimasiya, hemodializ, fizioterapiya, infeksion, poliklinika, təcili təxirəsalınmaz yardım şöbələri, klinik laboratoriya, şüa diaqnostika kabinetləri tibbin ən son nailiyyətləri olan avadanlıq və cihazlarla təmin edilib. Xəstəxananın yardımçı binalarında qazanxana, su anbarı və generatorlar quraşdırılıb. Ərazi abadlaşdırılıb, yaşıllıq zolağı salınıbdır.*

*Beləliklə, ən müasir standartlar səviyyəsində tikilmiş və təchiz olunmuş bu xəstəxanada əhalinin müayinəsi və müalicəsinin yüksək səviyyədə təşkili üçün hər cür imkanlar yaradılıbdır. Bura-*

*dakı şərait onu deməyə əsas verir ki, son illərdə səhiyyə sahəsində baş verən dəyişiklik bu sektorun dünyanın ən müasir tibbi texnika və avadanlıqları ilə təmin olunması ilə bağlıdır. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində regionlarda ilk dəfə açıq ürək əməliyyatı, qaraciyərin köçürülməsi və digər mürəkkəb əməliyyatların aparılmasına imkan yaranıbdır. Bu illər ərzində regionlarda yüzlərlə tibb ocağının, müalicə-diaqnostika mərkəzlərinin inşası səhiyyə sisteminin inkişafından xəbər verir. Yeni tikilən tibb ocaqları, ölkəyə gətirilən müasir tibbi avadanlıqlar ilk növbədə, bir məqsədə – Azərbaycan əhalisinin sağlam olması kimi mühüm missiyanın yerinə yetirilməsinə xidmət edir.*

*Sonra Prezident İlham Əliyev Sabirabad rayon ictimaiyyətinin nümayəndələri və xəstəxananın kollektivi ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Şadam ki, sizinlə yenidən görüşürəm. Mən Sabirabadda dəfələrlə olmuşam. Bu mənim prezident kimi, sayca səkkizinci səfərimdir. Bu səfərlər zamanı biz bir çox obyektlərin açılışında bərabər iştirak etmişik. Bu gün də gözəl səhiyyə ocağının açılışını bir yerdə qeyd edirik. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm.

Həm xarici görünüşü, həm də daxili şəraiti baxımından zövq oxşayan 205 çarpayılıq Sabirabad Rayon Mərkəzi Xəstəxanası ən yüksək standartlara cavab verir. Bu çox gözəl memarlıq abidəsidir. Burada dünyanın aparıcı şirkətlərinin ən qabaqcıl avadanlıqları quraşdırılıb, bütün şərait yaradılıbdır. Bütün şöbələr, o cümlədən cərrahiyyə, dializ, reanimasiya, terapiya şöbələri fəaliyyət göstərir. Bir sözlə, Sabirabad şəhərində açılan bu xəstəxana dünya səviyyəsində seçilən xəstəxanalardan biri olacaqdır.

Ümumiyyətlə, ölkəmizin bütün bölgələrində gözəl imkanlar vardır. Bu onu göstərir ki, Azərbaycan bundan sonra da sosial sahədə böyük uğurlara imza atacaqdır. Çünki belə xəstəxanaların tikintisi maliyyə vəsaiti tələb edir və bu, təmin olunur. Azərbaycan iqtisadiyyatı inkişaf edir, maliyyə vəziyyətimiz sabitdir, siyasətimiz sosial yönümlüdür və sosial sahənin inkişafı bizim prioritetimizdir. Ölkəmizin bütün bölgələrində müasir xəstəxanalar istifadəyə verilibdir. Hesab edirəm, 2019-cu ildə bir dənə də şəhər qalmayacaq ki, orada müasir tibb ocağı olmasın. Gələn il təqribən 6 yeni Mərkəzi Rayon Xəstəxanası açılacaqdır. 2019-cu ildə qalan xəstəxanalar da istifadəyə veriləcək və beləliklə, Azərbaycanın hər bir şəhərində ən müasir tibbi xidmət göstəriləcəkdir.

Səhiyyə sahəsində görülmüş işlər öz nəticəsini verir. Çünki bizim bütün göstəricilərimiz müsbətə doğru dəyişir, insan ömrünün uzunluğu artır, həyat keyfiyyəti yaxşılaşır, ana və uşaq ölümü azalır. Bütün bunlar beynəlxalq səhiyyə təşkilatları tərəfindən də qiymətləndirilir. Bu gün Azərbaycan səhiyyə infrastrukturu baxımından dünya miqyasında qabaqcıl yerlərdədir. Bununla paralel olaraq, Azərbaycan, hesab edirəm, yeganə ölkədir ki, burada hər bir vətəndaş dövlət hesabına ildə bir dəfə pulsuz müayinədən keçir. Biz bu layihəyə bir neçə il bundan əvvəl başlamışıq. Artıq vətəndaşlarımızın əksəriyyəti keyfiyyətli müayinədən keçir və artıq öz sağlamlığı, səhhəti ilə bağlı bütün bilgiləri alır. Bu bizə imkan verir ki, xəstəliklər vaxtında müəyyən edilsin və lazımi müalicə təyin olunsun. Hər il 5 milyondan çox insan dövlət hesabına pulsuz müayinədən keçir. Belə gözəl tibb ocaqlarının yaradılması bizə bu təşəbbüsü irəli sürməyə imkan verdi. Çünki əgər şərait olmasaydı, biz bu proqramı icra edə bilməzdik.

Bir sözlə, Bakı şəhərində, bütün rayonlarda yeni səhiyyə ocaqlarının tikintisi prosesi, demək olar ki, başa çatır. Biz bu işlərə 2004-cü ildən başlamışıq. O vaxt birinci növbədə, müalicə-diaqnostika mərkəzləri, ondan sonra mərkəzi rayon xəs-

təxanaları, ixtisaslaşmış xəstəxanalar yaradıldı. Bu gün səhiyyə sisteminin maddi-texniki bazası yüksək standartlara tam cavab verir.

Əvvəlki dövrlərdə də Sabirabad rayonunda sosial məsələlərin həllinə həmişə böyük diqqət göstərilmişdir. Son illər ərzində burada 30-a yaxın məktəb tikilib və təmir olunub, Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, «ASAN xidmət» Mərkəzi istifadəyə verilibdir. Bölgələr üzrə ilk rayonlardan biri Sabirabad idi ki, burada «ASAN xidmət» Mərkəzi yaradıldı. Yəni biz bütün bu işləri ona görə görürük ki, burada insanlar daha da yaxşı yaşasınlar, daha da yaxşı xidmətlərə malik olsunlar, həmçinin səhiyyə, təhsil, idman, ictimai xidmətlər yüksək səviyyədə təmin edilsin və biz buna nail oluruq.

Sabirabad rayonunda infrastruktur layihələri də icra edilir. Mənə verilən məlumata görə, qazlaşdırılma artıq 90 faizə çatıbdır. Ümid edirəm ki, gələn il Sabirabadda qazlaşdırılma 100 faizə çatacaqdır. Elektrik enerjisi ilə bağlı məsələlər öz həllini tapıb. Biz içməli su layihəsini sizinlə birlikdə 3 il bundan əvvəl istifadəyə vermişik, kənd yollarının tikintisi uğurla gedir. Bu gün mən 2 böyük layihənin açılışını qeyd edəcəyəm, gələn il də yeni kənd yolları layihəsi icra olunacaqdır. Beləliklə, hesab edirəm ki, gələn il Sabirabad rayonunun əksər kəndlərinin yolları tam təmirli olacaqdır. Çünki bu günə qədər 4 layihə icra edilibdir. Bu layihələr 100 mindən çox əhalini əhatə edir. Rayon əhalisinin sayı təqribən 180 minə yaxındır. Növbəti layihə də bir neçə min insanı əhatə edəcək və beləliklə, biz kənd yolları məsələlərini də həll etmiş olacağıq.

Yadımdadır, səfərlərimin birində vətəndaşlar körpü tikintisi ilə bağlı müraciət etmişdilər. Biz onu vaxtında icra etdik və mən də açılışa gəlmişdim. Yəni Sabirabad üçün nə lazımdırsa, artıqlaması ilə edirik. Yeni təşəbbüslər də irəli sürülür. Onlardan biri də bu yaxınlarda mənim tərəfimdən irəli sürülüb. Bu təşəbbüs ondan ibarətdir ki, Sabirabadda böyük sənaye məhəlləsi yaradılsın. Bu gün mən o məhəllənin təməlini qoy-

dum və əminəm ki, yaxın gələcəkdə Sabirabad böyük sənaye mərkəzinə çevriləcəkdir.

Sənaye məhəllələrinin yaradılması prosesi bir neçə il bundan əvvəl başlanmışdır. Biz birinci məhəlləni Neftçala rayonunda yaratdıq və bu yaxınlarda onun açılışını etdik. Ondan sonra daha 2 rayonda – Masallı və Hacıqabulda sənaye məhəllələrinin yaradılması istiqamətində işlər başlanmışdır. Dördüncü sənaye məhəlləsi Sabirabadda yaradılacaqdır. Çünki burada çox böyük insan potensialı, təcrübəli mütəxəssislər vardır.

Azərbaycanın gələcək inkişafı kənd təsərrüfatının və sənayenin inkişafı ilə bağlıdır. Ona görə bu gün mənə Sabirabad Sənaye Məhəlləsinin layihəsi təqdim olundu. Mən fürsətdən istifadə edərək, sabirabadlı iş adamlarına müraciət edirəm ki, onlar öz təkliflərini versinlər. Sənaye məhəlləsində bütün işlər, o cümlədən tikinti, istehsalat sahələrinin inşası, rabitə, infrastruktur, kommunikasiyalar, işıq, qaz, yollar, müəssisələrin yaradılması dövlət vəsaiti hesabına təmin ediləcəkdir. Qaldı ki sahibkarlara, onlar öz təkliflərini versinlər, avadanlıq alsınlar. Bu məsələdə də dövlət onlara kömək göstərəcək, güzəştli kreditlər, investisiya təşviqi sənədi verəcək və tezliklə burada böyük sənaye məhəlləsinin fəaliyyəti təmin ediləcəkdir.

Gələn il Sabirabadın inkişafı ilə bağlı infrastruktur layihələrinin – xüsusilə yeni kanal layihəsinin icrası nəzərdə tutulur. Bilirəm ki, bu məsələ Sabirabad zəhmətkeşlərini çox narahat edir. Bu layihə başlanmışdı, sonra yarımçıq qaldı. Mən göstəriş verdim, maliyyə vəsaiti nəzərdə tutulacaq və gələn il bu layihə tam başa çatacaqdır. Beləliklə, ən azı 11 min hektar torpağın suvarılması ilə bağlı heç bir problem olmayacaqdır.

Yeni əkin sahələri dövriyyəyə cəlb ediləcəkdir. Zəhmətkeşlər, fermerlər, yerli icra orqanları birlikdə baxsınlar ki, burada hansı kənd təsərrüfatı məhsulları yetişdirilməlidir. Sabirabadın çox böyük potensialı vardır. Əlbəttə, ənənəvi kənd təsərrüfatı sahələri var, o cümlədən pambıqçılıq. Biz pambıqçılığın bərpasını da Sabirabaddan başladıq. Uzun fasilədən sonra birinci müşavirə

Sabirabadda keçirildi. Biz ulu öndər Heydər Əliyevin ənənələrini bərpa etdik. Birinci tanış olduğum tarla Fatma xanımın tarlası idi. Orada zəhmətkeşlərlə yaxşı görüş oldu, sonra müşavirə keçirildi. Beləliklə, 2 il ərzində biz pambıq tədarükünü 8 dəfə artıra bilmişik. 2015-ci ildə cəmi 35 min ton pambıq yığılmışdısa, bu il biz artıq 190 min tona çatmışıq. Təqribən 200 min ton, bəlkə ondan da çox pambıq tədarük edəcəyik. Texnika alınır, gübrələr verilir, suvarma işləri təmin olunur, vəsait ayrılır. Dövlət bu sahəni tam nəzarətə götürüb. Pambıqçılığın inkişafı sürətlə gedir və bilirsiniz ki, bu, məşğulluğu da artırır. Mənə verilən məlumata görə, indi 20 min insan pambıqçılıq sahəsində işləyir, hər gün əməkhaqqı alır, evinə pul aparır, həm dövlətə, həm özünə xeyir verir və ölkəmiz də inkişaf edir.

Növbəti illərdə də həm Sabirabadda, həm də bütün başqa rayonlarda suvarma ilə bağlı nə lazımdırsa, biz onu edəcəyik. İndi bütün layihələr təhlil edilir. Biz bu il qarşıya hədəf qoymuşuq ki, bu vaxta qədər suvarılmayan 150 min hektar torpaqda suvarmanı təmin edək. Biz bu hədəfə yaxınlaşırıq. Gələn il isə qarşıya məqsəd qoyulub ki, ən azı əlavə 100 min hektarda suvarma işləri təmin edilsin. Görün məhsuldarlıq, iş yerləri, ölkəmizin ümumi daxili məhsulu nə qədər artacaqdır.

Planlarımız çoxdur. Gələn il fəal işləməliyik. Baxmayaraq ki, son illər ölkə iqtisadiyyatı üçün o qədər də asan illər olmamışdır, bu il də uğurla başa çatır. Təbii ki, neftin qiymətinin aşağı düşməsi, dünyada gedən iqtisadi-maliyyə böhranı bizə də təsir etdi. Ancaq hesab edirəm ki, biz bu sınaqdan şərəflə çıxdıq. Heç bir sosial proqramı ixtisar etmədik, nəzərdə tutulmuş bütün məsələlər öz həllini tapdı. Biz hətta böhranlı illərdə xəstəxanalar açırıq. Bu gün Ağcabədidə böyük Olimpiya İdman Kompleksi, Tərtərdə 1170 ailə üçün 34 binadan ibarət köçkün şəhərciyi açılıbdır. Ancaq 1 gündə! Mən hələ yolları, hərbi hissələri demirəm. İndi Quşçuluq fabriki açılacaqdır. Yəni 1 gündə baxın nə qədər böyük işlər görülür və biz bu açılışlarda birlikdə iştirak edirik. Əminəm ki, 2018-ci il də

ölkəmiz üçün uğurlu olacaq və biz gələn ili də uğurla başa vuracağıq. Sizi bir daha təbrik edirəm.

* * *

**E l m i r a  Z e y n a l o v a** (*xəstəxananın həkimi*): Möhtərəm cənab Prezident, Sizi Sabirabadın səhiyyə işçiləri və əhalisi adından bir daha salamlayırıq. Sabirabada xoş gəlmisiniz! Bu gün Sabirabad camaatı böyük sevinc içindədir. Sizin tapşırığınızla belə gözəl, müasir standartlara cavab verən böyük səhiyyə ocağı inşa edilib və bu gün Sabirabad əhalisinin istifadəsinə verilibdir. Bizə göstərdiyiniz etimada, bu gözəl səhiyyə ocağını sabirabadlılara bəxş etdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Sizi əmin edirik ki, belə gözəl şəraitdə biz daha yaxşı işləyəcəyik və vətəndaşlarımıza layiqincə xidmət göstərəcəyik.

Möhtərəm cənab Prezident, hamıya yaxşı məlumdur ki, Siz insanların sağlamlığına ciddi fikir verirsiniz. Sizin tapşırığınızla əhalimiz hər il kütləvi surətdə tibbi müayinədən keçirilir. Bu tibbi müayinələrin keçirilməsi belə gözəl şəraitdə daha geniş, mütəşəkkil şəkildə təşkil olunacaqdır. Bu baxımdan bizə yaradılan şəraitə görə Sizə və Mehriban xanıma da dərin minnətdarlığımızı bildiririk.

Möhtərəm cənab Prezident, Sabirabad rayonu gündən-günə abadlaşır, gözəlləşir, yeni-yeni təhsil müəssisələri, tibb ocaqları yaradılır, parklar salınır. Bütün bunlara görə bir daha Sizə dərin minnətdarlığımızı bildiririk. Çox sağ olun, var olun, Allah Sizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Bu müasir xəstəxana siz həkimlər üçün gözəl iş yeridir. Həm də vətəndaşlar belə gözəl şəraitdə yüksək səviyyədə müalicə olunacaqlar.

*Sonra dövlət başçısı Sabirabad rayonundan olan fermer Fatma Hüseynova ilə söhbət etdi.*

**İ l h a m  Ə l i y e v:** Fatma xanım, necəsiniz?

**F a t m a  H ü s e y n o v a:** Çox sağ olun, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** İşləriniz necə gedir?

**F a t m a  H ü s e y n o v a:** Əla. Bu il 30 hektarda pambıq əkmişdim.

**İ l h a m  Ə l i y e v:** Məhsuldarlıq necədir?

**F a t m a  H ü s e y n o v a:** Məhsuldarlıq da yaxşıdır, hektardan 55 sentneri keçmişəm. Hələ yığım davam edir.

**İ l h a m  Ə l i y e v:** Bax, hamı Fatma xanımdan nümunə götürməlidir – 55 sentner.

**F a t m a  H ü s e y n o v a:** Sabirabadlılar Sizi çox sevirlər. Biz Sizi də, Mehriban xanımı da həddən artıq çox sevirik.

**İ l h a m  Ə l i y e v:** Mən də sizi çox sevirəm.

**F a t m a  H ü s e y n o v a:** Bizim məktəbimiz ulu öndərimizin adı ilə bağlıdır. O məktəb ulu öndərin göstərişi ilə tikilib. İndi bir korpusu təmir olunub, biri yarımçıq qalıbdır.

**İ l h a m  Ə l i y e v:** Yaxşı, indi onun təmiri ilə bağlı tapşırıq verəcəyəm. Sağ olun.

## Qalaqayın–Osmanlı–Çölbeşdəli–Zalqarağac–Çölağaməmmədli–Azadkənd–Muğan–Gəncəli avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Sabirabad rayonunda əsaslı şəkildə bərpa olunaraq, yenidən qurulmuş Qalaqayın–Osmanlı–Çölbeşdəli–Zalqarağac–Çölağaməmmədli–Azadkənd–Muğan–Gəncəli avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Azərbaycan Prezidentinin 2017-ci il 7 iyul tarixli Sərəncamı ilə əsaslı təmir olunan 60 kilometrlik yolun 19,6 kilometrlik hissəsi istismara hazırdır. 15 yaşayış məntəqəsini birləşdirən bu yolda 41 min sakinin rahat və təhlükəsiz gediş-gəlişi təmin olunacaqdır.*

*Dövlət başçısına məlumat verildi ki, hər birinin eni 3 metr olan ikizolaqlı bu avtomobil yolu 4-cü texniki dərəcəlidir. Yolun*

*bütün infrastrukturu müasir tələblər səviyyəsində qurulub. Lazımi yerlərdə təhlükəsizlik dirəkləri basdırılıb, yol nişanları, göstərici lövhələr quraşdırılıb, yol-cizgi xətləri çəkilib, suötürücü borular salınıbdır.*

*Sabirabadda yenidən qurulan bu yol dövlətin öz vətəndaşlarının firavanlığına və rahatlığına göstərdiyi diqqət və qayğının daha bir təzahürüdür.*

*Prezident İlham Əliyev əsaslı şəkildə yenidən qurulmuş avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

## Nizami kəndində «Sabirabad Quşçuluq» MMC-nin Əmtəəlik Yumurta və Quş Əti İstehsalı fabrikinin fəaliyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Sabirabad rayonunun Nizami kəndində «Sabirabad Quşçuluq» MMC-nin Əmtəəlik Yumurta və Quş Əti İstehsalı fabrikinin fəaliyyəti ilə tanış olmuşdur.*

*Azərbaycan regionlarının mövcud potensialının daha da inkişaf etdirilməsi, xüsusilə ixrac yönümlü və idxalı əvəz edən kənd təsərrüfatı məhsulları istehsalının artırılması, yeni istehsal və emal sahələrinin yaradılması Prezident İlham Əliyev tərəfindən qarşıya qoyulan əsas vəzifələrdəndir. Bu istiqamətdə nəzərdə tutulan tədbirlərdən biri də quş əti və yumurta istehsalının sənaye üsulu ilə artırılması, ölkə əhalisinin quşçuluq məhsullarına tələbatının bütövlükdə yerli istehsal hesabına ödənilməsi məqsədilə quşçuluğun kompleks inkişafının təmin edilməsidir. Buna nail olmaq üçün daha çox investorun cəlb edilməsi barədə Prezident İlham Əliyevin yerli icra strukturları qarşısında qoyduğu vəzifələrə uyğun olaraq, Sabirabad rayonunun Nizami kəndində quşçuluq müəssisəsi yaradılıbdır.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısına məlumat verdi ki, son illər ərzində nazirliyin Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə illik istehsal gücü 60,5 min ton quş əti,*

*126 milyon ədəd damazlıq və 273 milyon ədəd əmtəəlik yumurta olan 40 quşçuluq təsərrüfatına 133,4 milyon manat dövlətin güzəştli krediti verilibdir. Fabriklər dünyanın inkişaf etmiş ölkələrinin aparıcı şirkətləri tərəfindən müasir texnologiyalar əsasında istehsal olunmuş avadanlıqlarla təchiz edilibdir. Belə layihələrdən biri də «Sabirabad Quşçuluq» MMC tərəfindən yaradılmış müasir Əmtəəlik Yumurta və Quş Əti İstehsalı fabrikidir. Bu fabrik «Hacıqabul Quşçuluq» MMC-nin törəmə müəssisəsidir.*

*Bildirildi ki, 1978-ci ildə fəaliyyətə başlamış və respublikada ilk özəlləşdirilmiş Quşçuluq fabriki olan «Hacıqabul Quşçuluq» MMC-də hazırda gündə 1 milyon, o cümlədən 970 min ədəd əmtəəlik və 30 min ədəd damazlıq yumurta istehsal edilir. Fabrik tərəfindən bu ilin ötən dövrü ərzində İraqa və Əfqanıstana 5,5 milyon ədəd əmtəəlik yumurta ixrac olunub. İlin sonunadək ixrac həcminin 10 milyon ədədə çatdırılması nəzərdə tutulub. İxrac coğrafiyası genişləndirilərək, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya və Belarusa 4,5 milyon ədəd əmtəəlik yumurta ixracı planlaşdırılır.*

*Qeyd olundu ki, fabrikin ərazisində 10 ferma binası, hər birinin tutumu 2,5 min ton olan 6 silos və gücü saatda 5 ton olan Yem zavodu tikilibdir. Müəssisənin inşasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 1 milyon manat güzəştli kredit və təşviqi sənəd verilibdir. Fabrikdə ildə 109 milyon ədəd əmtəəlik yumurta, 1,4 min ton quş əti və 750 min baş ətlik kənd toyuğunun istehsalı nəzərdə tutulubdur. İstehsal olunan əmtəəlik yumurta və quş əti «Sabirabad Quşçuluq» brendi ilə istehlakçılara təqdim ediləcəkdir. Layihənin icrası nəticəsində 150 nəfər daimi iş yeri ilə təmin olunacaqdır.*

## Əsaslı təmirdən sonra Suqovuşan–Qaralar–Qəfərli–Əhmədabad–Nərimankənd–Həşimxanlı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də tamamilə bərpa edilərək, yenidən qurulmuş Suqovuşan–Qaralar–Qəfərli–Əhmədabad–Nərimankənd–Həşimxanlı avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, yeni körpülərin və yolayrıcılarının tikilməsi, magistral yolların salınması sosial yönümlü tədbirlər olmaqla yanaşı, həm də ölkəmizin iqtisadi qüdrətinin nümayişi baxımından mühüm əhəmiyyət kəsb edir. İndi ölkədə həyata keçirilən nəhəng infrastruktur layihələri Azərbaycanın potensialının tam üzə çıxarılmasına hərtərəfli zəmin yaradır, geniş imkanlar açır. Dövlət başçısının tapşırıqlarına əsasən, regionlarda yol-nəqliyyat infrastrukturunun daha da müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Hazırda respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıbdır. Ölkəmizdə beynəlxalq və respublika səviyyəli yolların salınması ilə bağlı silsilə layihələr reallaşdırıldığından indi kənd yollarının çəkilişi ön plandadır. Rəmzi «40 yol» layihəsinin gerçəkləşdirilməsi məqsədilə dövlət büdcəsindən və Prezidentin ehtiyat fondundan kifayət qədər vəsait ayrılır.*

*«Azəravtoyol» Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov məlumat verdi ki, yeni yol 20 min nəfər əhalinin yaşadığı 10 yaşayış məntəqəsini birləşdirir. Ümumi uzunluğu 43 kilometr olan 4-cü texniki dərəcəli yolun hərəkət hissəsinin eni 6 metr, 2 hərəkət zolağının hər birinin eni isə 3 metrdir. Yenidən qurulma zamanı burada genişmiqyaslı torpaq işləri görülüb, qum-çınqıl və 2 laydan ibarət 12 santimetr qalınlığında asfalt-beton döşənibdir. 144 metr uzunluğunda müxtəlif diametrli suötürücü borular tikilib, kifayət qədər yol təhlükəsizlik dirəkləri, yol nişanları və göstərici lövhələr quraşdırılıb, cizgi xətləri çəkilibdir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

**RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS VERNER İOHANNİSƏ**

Hörmətli cənab Prezident!

Rumıniyanın milli bayramı – Birlik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Rumıniyanı strateji tərəfdaşlıq münasibətləri birləşdirir. İnanıram ki, daim genişlənən dostluq əlaqələrimiz, ikitərəfli və çoxtərəfli qaydada müvəffəqiyyətlə davam edən əməkdaşlığımız bundan sonra da ölkələrimizin tərəqqisinə, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Rumıniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 noyabr 2017-ci il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2017-ci il*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm.

Bu bayram günündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2017-ci il*

**LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VORAÇİTƏ**

Hörmətli cənab Prezident!

Laos Xalq Demokratik Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Laos xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *29 noyabr 2017-ci il*

## XORVATİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ MARTİNA DALİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Xorvatiya Respublikası Baş Nazirinin müavini, İqtisadiyyat, Sahibkarlıq və Peşə naziri, Azərbaycan–Xorvatiya iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın həmsədri xanım Martina Daliçin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox yaxşı səviyyədə olduğunu dedi. Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin Azərbaycana səfərini xatırladan Prezident İlham Əliyev bu səfərin uğurla keçdiyini bildirdi və ölkələrimiz arasında müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin həyata keçirilməsindən məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi baxımından qarşılıqlı ticarət, investisiya qoyuluşu, ölkələrimizin daha çox şirkətinin birgə çalışmasının önəmini vurğuladı. Prezident İlham Əliyev bu baxımdan iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın fəaliyyətinin əhəmiyyətini qeyd etdi. Azərbaycan–Avropa İttifaqı əlaqələrinə toxunan Prezident İlham Əliyev bu yaxınlarda «Şərq Tərəfdaşlığı» Sammitinin uğurla keçirildiyini və yaxşı nəticələr verdiyini bildirərək, sammitdə qəbul edilən Bəyannamənin əhəmiyyətini vurğuladı, Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzərində danışıqlar aparıldığını və bu sazişin əməkdaşlığımızın qarşılıqlı maraq doğuran bütün sahələrini, o cümlədən siyasi, iqtisadi, enerji, mədəniyyət sahələrini əhatə edəcəyinə ümidvar olduğu-*

*nu bildirdi. Dövlət başçısı Azərbaycan ilə Xorvatiya arasında energetika sahəsində uzunmüddətli əməkdaşlığın yaxşı perspektivlərə malik olduğunu ifadə edərək, Xorvatiyanın «Cənub Qaz Dəhlizi» Məşvərət Şurasında mütəmadi iştirak etməsindən məmnun olduğunu bildirdi.*

*Xorvatiya Baş Nazirinin müavini, İqtisadiyyat, Sahibkarlıq və Peşə naziri, Azərbaycan–Xorvatiya iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın həmsədri Martina Daliç Xorvatiyanın Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin və Baş nazir Andrey Plenkoviçin salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. Martina Daliç Bakıya gəlişindən məmnunluğunu ifadə edərək, ölkəmizdə özlərini evdəki kimi hiss etdiklərini bildirdi. O, ölkələrimiz arasında ikitərəfli münasibətlərin çox yüksək səviyyədə olduğunu vurğulayaraq, iki dövlət başçısının əməkdaslığımızın genişlənməsi baxımından birgə səylərinin önəmini qeyd etdi. Xanım Martina Daliç sərmayə qoyuluşu, ticarət və digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu və iqtisadi əməkdaşlıq üzrə birgə Komissiyanın uğurla fəaliyyət göstərdiyini qeyd etdi.*

*Prezident İlham Əliyev Xorvatiya Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin və Baş Nazir Andrey Plenkoviçin salamlarına və ən xoş arzularına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Xorvatiya Prezidentinə və Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## KOSTA-RİKA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ ETİQAD NAZİRİ MANUEL QONZALES SANZ İLƏ GÖRÜŞ

*29 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Kosta-Rika Respublikasının Xarici İşlər və Etiqad naziri Manuel Qonzales Sanzı qəbul etmişdir.*

*Kosta-Rikanın Xarici İşlər və Etiqad naziri Manuel Qonzales Sanz ölkələrimiz arasında ikitərəfli münasibətlərin qarşılıqlı etimad üzərində qurulduğunu qeyd etdi. Azərbaycanda Kosta-Rikanın səfirliyinin açılmasına toxunan Manuel Qonzales Sanz bildirdi ki, bu, ölkəsinin strateji qərarıdır. O qeyd etdi ki, Kosta-Rika Azərbaycanı regionda əsas tərəfdaşı kimi qəbul edir və Azərbaycan vasitəsilə regional əməkdaşlıq həyata keçirmək əzmindədir.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev ölkələrimiz arasında səmimi dostluq münasibətlərinin mövcud olduğunu diqqətə çatdırdı. Dövlətimizin başçısı Kosta-Rikanın Azərbaycanda səfirlik açmasının önəmini qeyd etdi və səfirliyin fəaliyyətinin həm ikitərəfli münasibətlərin genişləndirilməsi, həm də regional əlaqələrin inkişaf etdirilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Görüş zamanı iki ölkə arasında qarşılıqlı sərmayə qoyuluşu, ticarət əlaqələri və kənd təsərrüfatı sahələrində əməkdaşlıq üçün kifayət qədər imkanların olduğu vurğulandı və bu istiqamətdə əlaqələrimizin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.*

## CİSCO ŞİRKƏTİNİN QLOBAL İNNOVASİYALAR ÜZRƏ VİTSE-PREZİDENTİ QAY DİTRİXİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 29-da Cisco şirkətinin qlobal innovasiyalar üzrə vitse-prezidenti Qay Ditrixin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qay Ditrix təmsil etdiyi şirkətin ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini və Azərbaycanın Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə səmərəli əməkdaşlıq etdiyini bildirdi. Prezident İlham Əliyevlə əvvəlki görüşlərini məmnunluqla xatırladan qonaq həmin görüşlərdən sonra çox yaxşı nəticələrin əldə olunduğunu vurğuladı. Azərbaycanla bağlı bir sıra mühüm layihələr üzərində işlədiklərini qeyd edən Qay Ditrix Cisco şirkətinin ölkəmizlə əməkdaşlığa böyük önəm verdiyini və Azərbaycanda işlərin qısa zaman ərzində səmərəli şəkildə icrası üçün hər cür imkanların olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Cisco şirkəti ilə Azərbaycanın uğurlu əməkdaşlıq etdiyini bildirdi. Dövlət başçısı öz növbəsində, şirkətin rəhbərliyi ilə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı və həmin görüşlərdən keçən dövr ərzində əlaqələrimizin inkişafı üçün yaxşı əsasların yarandığını qeyd etdi, bu əməkdaşlığın bundan sonra da genişləndiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*İnformasiya texnologiyaları sahəsinin Azərbaycan üçün prioritet sahələrdən biri olduğunu diqqətə çatdıran Prezident İlham Əliyev ölkəmizdə bu istiqamətdə həyata keçirilən genişmiqyaslı işlərin Azərbaycan iqtisadiyyatının sürətli inkişafı baxımından əhəmiyyətini qeyd etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Türkiyə Prezidenti və Türkiyənin Xarici İşlər naziri ilə birlikdə bu yaxınlarda Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı mərasimində iştiraklarını məmnunluqla xatırlatdı. Azərbaycanın və Türkiyənin regional əməkdaşlığa verdiyi töhfəyə toxunan Prezident İlham Əliyev bu baxımdan bütün üçtərəfli əməkdaşlıq formatlarında ölkələrimizin iştirak etməsinin önəmini qeyd etdi və bildirdi ki, bu həm ikitərəfli, həm də çoxtərəfli əməkdaşlığımızın genişləndirilməsi işinə xidmət edən təşəbbüslərdir. Dövlətimizin başçısı bu gün keçirilən Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli görüşünü də yaxşı hadisə kimi dəyərləndirdi.*

*Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu Prezident Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlət başçısına çatdırdı. Mövlud Çavuşoğlu bir ay bundan əvvəl Bakı–Tbilisi–Qars dəmir yolunun işə düşməsi ilə bağlı keçirilən mərasimlərdə iştiraklarını xatırlatdı və bu tədbirdən Türkiyənin qürur duyduğunu vurğuladı. O, gələcəkdə Azərbaycanın Türkiyə ilə birgə həyata keçirəcəyi böyük layihələrin, o cümlədən TANAP layihəsinin önəmini qeyd etdi. Mövlud Çavuşoğlu iki dövlət başçısının liderliyi sayəsində ikitərəfli münasibətlərimizin bütün sahələrdə*

*durmadan inkişaf etdiyini vurğuladı. Qonaq Azərbaycan və Türkiyənin iştirakı ilə üçtərəfli formatda həyata keçirilən işbirliyinin regional və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsinə, bölgədə sabitliyin və iqtisadi inkişafın genişləndirilməsinə xidmət etdiyini bildirdi.*

*Söhbət zamanı «Asiyanın qəlbi» – İstanbul prosesi» konfransının Azərbaycanda keçirilməsinin və beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmi vurğulandı. Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## PAKİSTAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ XAVACA MƏHƏMMƏD ASİFİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Pakistan İslam Respublikasının Xarici İşlər naziri Xavaca Məhəmməd Asifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Pakistan ikitərəfli münasibətlərinin yüksək səviyyədə olduğunu vurğuladı, ölkələrimiz arasında tərəfdaşlıq əlaqələrinin, qarşılıqlı dəstəyin önəmini qeyd etdi və bu əlaqələrin möhkəmlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin rolunu nəzərə çatdırdı. Dövlət başçısı bildirdi ki, Azərbaycan ilə Pakistan bütün məsələlərlə bağlı daim bir-birini dəstəkləyir, siyasi, iqtisadi, ticari, hərbi əməkdaşlıq əlaqələri yaxın müttəfiqlər səviyyəsində inkişaf edir. Bildirdi ki, Pakistan bizim üçün ən yaxın müttəfiq və dost ölkələrdəndir. Dövlət başçısı Pakistanın beynəlxalq təşkilatlarda Azərbaycanın mövqeyini müdafiə etməsini yüksək qiymətləndirdi. Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli formatına toxunan dövlətimizin başçısı bu əməkdaşlığın müxtəlif sahələrdə əlaqələrimizin daha da möhkəmlənməsi işinə xidmət edəcəyini əminliklə vurğuladı.*

*Pakistan İslam Respublikasının Xarici İşlər naziri Xavaca Məhəmməd Asif ölkələrimiz arasında çox yaxın qardaşlıq münasibətlərinin mövcud olduğunu dedi. Əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi, hərbi və digər sahələrdə uğurla inkişaf etdiyini, əməkdaşlığımızın daha da genişlənməsi*

*üçün yaxşı imkanların olduğunu diqqətə çatdıran qonaq beynəlxalq təşkilatlarda ölkələrimizin bir-birinə verdiyi qarşılıqlı dəstəyin önəmini qeyd etdi. Pakistanlı qonaq Azərbaycan–Türkiyə–Pakistan üçtərəfli formatının sabitliyin, regional və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi. O xüsusilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi ilə bağlı Pakistanın beynəlxalq təşkilatlar çərçivəsində qardaş Azərbaycanın mövqeyini dəstəklədiyini vurğuladı.*

*Söhbət zamanı «Asiyanın qəlbi» – İstanbul prosesi» konfransının Əfqanıstanda sabitlik və inkişafa nail olunması işinə böyük töhfə verdiyi qeyd olundu.*

## HİNDİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ MOBAŞAR CAVED AKBARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 noyabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 30-da Hindistan Respublikasının Xarici İşlər üzrə Dövlət naziri Mobaşar Caved Akbarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Azərbaycana səfərindən böyük məmnunluq hissi keçirdiyini vurğulayan Hindistanın Xarici İşlər üzrə Dövlət naziri Mobaşar Caved Akbar dövlət başçısına Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərlikləri ilə ölkəmizdə əldə edilən sabitlik və inkişafla bağlı Hindistanın Baş naziri, rəhbərliyi və xalqı adından təbriklərini çatdırdı.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Azərbaycanın müstəqillik illərində böyük uğurlar əldə etdiyini, sabit və sürətlə inkişaf edən ölkəyə çevrildiyini vurğuladı.*

*Dövlətimizin başçısı Hindistan Respublikasının Xarici İşlər üzrə Dövlət naziri Mobaşar Caved Akbarın ölkəmizə bu səfərinin ikitərəfli münasibətlərimizin perspektivlərinin müzakirə edilməsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Söhbət zamanı «Asiyanın qəlbi» – İstanbul prosesi» çərçivəsində Bakıda keçiriləcək Nazirlər Konfransının regional əməkdaşlığın gücləndirilməsi, Əfqanıstana beynəlxalq səviyyədə göstərilən dəstəyin artırılması baxımından önəmi qeyd edildi.*

**TAİLAND KRALI ƏLAHƏZRƏT**
**MAHA VAÇİRALONQKORNA**

Əlahəzrət!

Tailand Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Tailand xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 dekabr 2017-ci il*

## «ASİYANIN QƏLBİ» – İSTANBUL PROSESİ» ÇƏRÇİVƏSİNDƏ «GÜCLƏNDİRİLMİŞ ASİYANIN QƏLBİ» REGİONUNA DOĞRU TƏHLÜKƏSİZLİK VƏ İQTİSADİ BAĞLANTILAR» MÖVZUSUNDA YEDDİNCİ NAZİRLƏR KONFRANSINDA İŞTİRAK

*1 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani dekabrın 1-də Bakıda «Asiyanın qəlbi» – İstanbul prosesi» çərçivəsində «Gücləndirilmiş «Asiyanın qəlbi» regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda keçirilən yeddinci Nazirlər Konfransında iştirak etmişlər.*

*Əfqanıstanın Xarici İşlər naziri Səlahuddin Rabbani konfransı açıq elan etdi. O, çıxışında bu tədbirə yüksək səviyyədə ev sahibliyi etdiyinə görə Azərbaycan hökumətinə təşəkkürünü bildirdi.*

**Səlahuddin Rabbani:** İlk növbədə, fürsətdən istifadə edərək, iştirakçı və dəstəkləyici ölkələrin Xarici İşlər nazirlərini, yüksək səviyyəli nümayəndələrini, regional və beynəlxalq təşkilatların rəsmilərini gözəl Bakı şəhərində «Asiyanın qəlbi» – İstanbul prosesi» çərçivəsində «Gücləndirilmiş «Asiyanın qəlbi» regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda keçirilən yeddinci Nazirlər Konfransında salamlamaq istərdim. Biz səmimi qonaqpərvərliyə və bu mühüm konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığımızı bildiririk. Biz bu gün Bakıda yeddinci Nazirlər Konfransında görüşürük. Bu görüş Əfqanıstanın və «Asiyanın qəlbi» regionunda sülhün və tərəqqinin

təbliği ilə bağlı qarşıda duran hədəfə çatmaq məqsədi daşıyan bu prosesin uğuru üçün eyni öhdəliyi paylaşdığımızı bir daha təsdiqləyir.

*Səlahuddin Rabbani «Asiyanın qəlbi» olan regionda sülhün və əmin-amanlığın təmin edilməsi baxımından bu tədbirin önəmini vurğuladı. Səlahuddin Rabbani əsas diqqətin regionda iqtisadi inkişafa və əməkdaşlığın daha da dərinləşməsinə yönəldiyini diqqətə çatdırdı. O, terrorla mübarizədə etimadın yaradılması tədbirlərinə rəhbərlik edən ölkələrin proqram və layihələrini həyata keçirməklə bağlı fəal rolunu xüsusi vurğuladı. 2011-ci ildən başlayan prosesin artıq 7-ci dəfədir reallaşdığını, gələn il tədbirin Türkiyədə keçiriləcəyini dedi.*

*Sonra dövlətimizin başçısı konfransda nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Hörmətli cənab Prezident Əşrəf Qani!

Nümayəndə heyətlərinin rəhbərləri!

Xanımlar və cənablar!

«Asiyanın qəlbi» – İstanbul prosesi»nin iştirakçı və dəstəkləyici ölkələrini və təşkilatlarını Bakıda keçirilən yeddinci Nazirlər Konfransında salamlayıram.

Zati-aliləri möhtərəm Prezident Məhəmməd Əşrəf Qaniyə nazirlərin Bakı toplantısının açılışında iştirakı üçün mənim dəvətimi qəbul etdiyinə görə minnətdarlığımı ifadə edirəm.

Azərbaycan «Asiyanın qəlbi» – İstanbul prosesi»ni Əfqanıstanda sülhün, barışığın, təhlükəsizliyin və iqtisadi inkişafın əldə edilməsi istiqamətində dialoq və əməkdaşlıq üçün dəyərli mexanizm hesab edir. 2012-ci ildə prosesə qoşulandan bəri biz bu çoxtərəfli platformada fəal şəkildə iştirak etməkdəyik.

Beynəlxalq hüququn norma və prinsiplərinə hörmət və riayət edilməsi, xüsusilə suverenlik, ərazi bütövlüyü və dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı, suveren bərabərliyə hörmət və daxili işlərə qarışmama regional

və beynəlxalq təhlükəsizliyin təmin edilməsində təməl olmaqla, sabitlik və yəqinlik təmin edir. Bu prinsiplər «İstanbul prosesi» çərçivəsində bizim münasibətlərimiz və əməkdaşlığımız üçün zəmin təşkil edir və bu, «Asiyanın qəlbi» bəyannamələrində bir daha vurğulanmışdır. Müstəqilliyinin bərpasının ilk illərindən Azərbaycanın təhlükəsizliyi Ermənistanın hərbi təcavüzü nəticəsində ciddi təhdidlərlə üzləşmişdir. Azərbaycan ərazisinin beşdəbir hissəsinin davam etməkdə olan işğalından və yüz minlərlə vətəndaşının məcburən öz torpaqlarından qovulmasından əziyyət çəkən ölkə kimi, sülh, təhlükəsizlik və sabitliyin dəyərini tam anlayır. Ermənistan 20 ildən çoxdur ki, Azərbaycanın təqribən 20 faiz ərazisini – Dağlıq Qarabağı və ölkəmizin digər 7 rayonunu işğal altında saxlayır. 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb. Ermənistan azərbaycanlılara qarşı Ermənistanda, Dağlıq Qarabağda və Azərbaycanın digər 7 rayonunda etnik təmizləmə siyasəti həyata keçiribdir.

İşğal olunmuş ərazilərdəki vəziyyət beynəlxalq ictimaiyyətə məlumdur. ATƏT işğal olunmuş torpaqlara 2 dəfə faktaraşdırıcı və qiymətləndirmə missiyaları göndərib və onların hesabatlarında həmin torpaqlarda vandalizm aktlarının törədildiyi göstərilibdir. Şəhərlərimiz və kəndlərimiz, binalar, məzarlar və qəbiristanlıqlar, məscidlər Ermənistan tərəfindən dağıdılıbdır.

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul etmişdir. Status-kvo qəbuledilməzdir. Bunu təkcə Azərbaycan deyil, həm də ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələr deyir. Bu ölkələrin prezidentləri bir neçə dəfə bəyan ediblər ki, status-kvo dəyişdirilməlidir, bu qəbuledilməzdir.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri əsasında həll olunmalıdır. Azərbaycanın ərazi bütövlüyü tam şəkildə bərpa edilməlidir.

Hörmətli qonaqlar, Azərbaycan Əfqanıstanın qarşısında duran çağırışların öhdəsindən gəlməsində onu dəstəkləyən birinci və ən fəal ölkələr sırasındadır. Biz ikitərəfli səylər və eləcə də çoxtərəfli platforma çərçivəsində fəal iştirakımızla Əfqanıstanda ölkənin sabitliyinə, sülh şəraitində yenidən qurulma və inkişafına yardım işinə sadiq olaraq qalırıq.

Əfqanıstanın rifahı və tərəqqisi iqtisadi artım və regional əməkdaşlıq məsələləri ilə qarşılıqlı şəkildə bağlıdır və regionun ümumi təhlükəsizlik mühitindən asılıdır. Çox önəmlidir ki, Əfqanıstanın yenidən qurulması və iqtisadi inkişafı məsələlərinə səylərimizin yönəldilməsi ilə yanaşı, biz ölkənin indiyədək əldə etdiyi tərəqqini qoruyub saxlamaq üçün Əfqanıstanın üzləşdiyi təhlükəsizlik çağırışlarını həll etməkdə davam edirik.

Belə ki, terrorizm, radikal ekstremizm və separatizmin bütün forma və ifadə vasitələrindən qaynaqlanan təhlükəsizlik təhdidləri ilə mübarizədə birgə səylərimizin davam etdirilməsi və bu məqsədlə regional əməkdaşlığın artırılması vacibdir.

Azərbaycan ikitərəfli müstəvidə, eləcə də idarəçilik, hərbi, hüquq-mühafizə və minaların təmizlənməsi sahələri üzrə təlimlər vasitəsilə Əfqanıstanla öz təcrübəsini bölüşməyə sadiqdir. Biz Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələrindən sonrakı Qətiyyətli Dəstək Missiyasına qüvvə, multimodal tranzit, təlim və maliyyə yardımı təchiz etməklə töhfə veririk.

Şəffaf, korrupsiyaya və rüşvətə dözümsüz olan Azərbaycanın Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi – «ASAN xidmət» Əfqanıstanla fəal şəkildə əməkdaşlıq edir. Bu əməkdaşlıq vətəndaşlara ictimai və fərdi xidmətlər göstərən «bir pəncərə» mərkəzlərinin yaradılması ilə Əfqanıstanın ictimai xidmətlərinin inkişaf etdirilməsinə yönəlibdir.

Azərbaycan geniş regional bağlılıq vasitəsilə Əfqanıstanın regional iqtisadiyyata inteqrasiyası, eləcə də öz qonşu və daha geniş region ölkələri ilə ticarətin canlandırılması üçün Əfqanıstanla əməkdaşlıq edir.

Azərbaycanın təşəbbüskarı olduğu və davam etməkdə olan regional bağlılıq layihələri, o cümlədən bu yaxınlarda açılışı olmuş Bakı–Tbilisi–Qars dəmir yolu, yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Azərbaycan ilə İran arasında dəmir yolu şəbəkələrini əlaqələndirən Xəzər dənizi sahilindəki Logistika Mərkəzi kimi, strateji təməl komponentləri, Şərq–Qərb və Şimal–Cənub istiqamətləri üzrə çoxtərəfli imkanlara malik transregional infrastrukturun inkişafında keyfiyyətcə yeni nailiyyətləri nümayiş etdirir. Bu layihələr Əfqanıstanın qlobal bazara çıxışını asanlaşdıracaq və bölgədə yükdaşımaların daha qısa, daha sürətli və daha səmərəli şəkildə həyata keçirilməsinə imkan yaradacaq bağlılığı təmin edəcəkdir.

Azərbaycan, Əfqanıstan, Gürcüstan, Türkiyə və Türkmənistan tərəfindən bu yaxınlarda imzalanmış Lapis-Lazuli razılaşması Əfqanıstanı birbaşa Avropa ilə əlaqələndirəcək başlıca beynəlxalq, ticarət və nəqliyyat dəhlizi razılaşmasıdır. Bu, Əfqanıstanın Avrasiya boyu ticarəti artırmaq üçün infrastrukturun qurulması və təkmilləşdirilməsi vasitəsilə bağlılığa nail olmaq səylərində əldə olunmuş mühüm mərhələdir. Azərbaycan bu razılaşmanın bir hissəsi olaraq tranzit və nəqliyyat baxımından Əfqanıstan üçün çoxsaylı seçimlərin təmin edilməsinə töhfə verməkdən məmnundur.

Əfqanıstanın regional ticarət, tranzit və nəqliyyat üçün vacib qovşaq qismində rolunu nəzərə alaraq, bu coğrafi mövqenin faydalarını bölüşmək və Əfqanıstanda davamlı inkişafı dəstəkləmək baxımından Əfqanıstan üzrə Regional İqtisadi Əməkdaşlıq Konfransının rolu çox mühümdür.

Əfqanıstana yardım yalnız insan həmrəyliyi məsələsi deyil. Bu, bütün region üçün regional iqtisadi əməkdaşlıq kontekstində ölkənin təhlükəsizliyini təmin etmək və böyük potensialını aşkarlamaqdan ibarətdir. «Asiyanın qəlbi» regionunda sülhün, təhlükəsizliyin və rifahın təmin edilməsinin 2 əsas istiqaməti üzrə strateji müzakirələrin aparılması məqsədilə Bakıda keçirilən Nazirlər Konfransının mövzusu «Gücləndirilmiş «Asiyanın

qəlbi» regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» seçilmişdir. Əminik ki, uyğun coğrafi mövqeyi, xalqının əzmkarlığı və hökumətin səyləri ilə Əfqanıstan «Asiyanın qəlbi» regionunda regional ticarət və bağlılıqda vacib tərəfə çevriləcəkdir.

İnanıram ki, 2015–2025-ci transformasiya onilliyində Əfqanıstana dəstək olmaq üçün birgə səylərimiz Əfqanıstanın layiq olduğu təhlükəsiz, vahid, çiçəklənən və qonşuları ilə sülh şəraitində yaşayan ölkə olmaq məqsədlərinə nail olması üçün mühüm pillədir.

Əfqanıstanın suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə Azərbaycanın dəstəyini vurğulayır və Milli Birlik Hökumətinin qardaş və dost əfqan xalqı üçün vahid və sülh şəraitində çiçəklənən gələcəyə nail olmaq istiqamətində səylərinə uğurlar arzulayıram. Sağ olun.

* * *

**M ə h ə m m ə d Ə ş r ə f Q a n i** *(Əfqanıstan İslam Respublikasının Prezidenti)*: Biz regional əməkdaşlığa ehtiyacın heç vaxt indiki qədər böyük olmadığı bir vaxtda görüşürük. Qarşımızda duran böyük iqtisadi imkanlar bizi cəlb edir, zərərli transmilli şəbəkələr və cinayətkar təşkilatlar isə bizə təhlükə törədir. Coğrafiya bizi qonşulara çevirib. Ümumi baxış, liderlik, siyasi iradə, idarəçiliyə güclü diqqət bizi bir-birindən asılı olan dünyada regional və qlobal təhlükəsizlik çərçivəsində milli təhlükəsizlik və tərəqqiyə can atan tərəfdaşlara çevirəcəkdir.

Cənab Prezident, icazə verin, bizi tarixi və gündən-günə gözəlləşən Bakı şəhərində qəbul etdiyinizə görə Sizə və Azərbaycan xalqına təşəkkür edim. Sizin şimal marşrutunun açılması ilə bağlı rəhbərliyiniz bizim təhlükəsizliyimiz üçün mühüm əhəmiyyət kəsb edir və onun çoxmodullu nəqliyyat sistemində Lapis-Lazuli dəhlizinə çevrilməsi regional və qlobal iqtisadi bağlılıqda aparıcı rol oynayacaqdır. Sizin cəsur əsgərləriniz

bizim təhlükəsizliyimizə, Beynəlxalq Təhlükəsizliyə Dəstək Qüvvələrinə və Qətiyyətli Dəstək Missiyasına öz töhfələrini veriblər. Biz Sizin hərbi dəstəyin artırılması ilə bağlı son bəyanatınızı alqışlayırıq. Siz özünüzə miras qalmış elan olunmamış müharibədən, məcburi köçkünlük, yoxsulluq, cinayətkarlıq və korrupsiyadan qaynaqlanan problemlərinizi həll edərək, bizim problemlərimizi və perspektivlərimizi dərindən başa düşdüyünüzü nümayiş etdirmisiniz. 2000-ci ildən başlayaraq, ümumi daxili məhsulun yüksəlməsi timsalında Sizin problemlərin öhdəsindən gəlməkdə əldə etdiyiniz uğur sabitlik və rifah axtarışımızda bizə inam verir. Davamlı islahatlar və ya nümunələr vasitəsilə iqtisadiyyatınızı sistematik olaraq şaxələndirməyiniz bizi sevindirir. Siz birbaşa təlim və paylaşma vasitəsilə bizə ən yaxşı formada texniki yardım göstərirsiniz. Mən bu gün ölkələrimiz arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması üzrə sazişin, eləcə də digər sazişlərin imzalanmasını səbirsizliklə gözləyirəm.

*«Asiyanın qəlbi» – İstanbul prosesi»nə dəstək verən bütün ölkələrə və beynəlxalq təşkilatlara minnətdarlıq edən prezident Məhəmməd Əşrəf Qani hazırda Əfqanıstanın təhlükəsizliyinin təmin edilməsi üçün «Yol xəritəsi»nin həyata keçirildiyini və ölkəsinin Asiya regionunda tutduğu mövqeyi xüsusi vurğuladı, əfqan xalqının və hökumətinin mövcud problemlərin aradan qaldırılması yolunda əzmlə çalışdığını diqqətə çatdırdı. Bu istiqamətdə İŞİD və terrorizmin bütün təzahürlərinə qarşı mübarizə aparıldığını, narkotiklərin qarşısının alınması ilə bağlı tədbirlərin görüldüyünü bildirən Məhəmməd Əşrəf Qani son illərdə Əfqanıstanda infrastrukturun yaradılması, qonşu ölkələrlə ticari və iqtisadi əlaqələrin genişləndirilməsi sahəsində görülən işlərdən də bəhs etdi. Əfqanıstanın təbii ehtiyatlarından səmərəli istifadə və ölkədə kənd təsərrüfatının inkişafı sahəsində geniş fəaliyyət proqramına başlanıldığını və uğurla icra edildiyini diqqətə çatdırdı.*

* * *

*«Asiyanın qəlbi» – İstanbul prosesi» «Asiyanın qəlbi» regionunda sabitlik, sülh və çiçəklənmənin təşviqi və Əfqanıstanın bütün region ilə bağlantısının genişləndirilməsi üçün siyasi dialoq və sıx regional əməkdaşlıq üçün vacib regional platformadır.*

*«Asiyanın qəlbi» – İstanbul prosesi»ndə iştirak edən dövlətlər və təşkilatlar sırasına Əfqanıstan İslam Respublikası, Azərbaycan Respublikası, Çin Xalq Respublikası, Hindistan Respublikası, İran İslam Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Pakistan İslam Respublikası, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı, Tacikistan Respublikası, Türkiyə Respublikası, Türkmənistan, Birləşmiş Ərəb Əmirlikləri və Birləşmiş Millətlər Təşkilatı daxildir. Bu proses çoxsaylı digər dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir. Regional sülh, sabitlik və çiçəklənməyə töhfə vermək əzminə və Əfqanıstanla ənənəvi dostluq əlaqələrinə malik olan Azərbaycan 2012-ci ildə «Asiyanın qəlbi» – İstanbul prosesi»nə qoşulubdur.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*1 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dekabrın 1-də ölkəmizdə işgüzar səfərdə olan Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək görüşü olmuşdur.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qanini qarşıladı.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*Görüşdə ölkələrimiz arasında əlaqələrin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə olundu. Bakıda keçirilən «Asiyanın qəlbi» – İstanbul prosesi» çərçivəsində yeddinci Nazirlər Konfransının əhəmiyyəti qeyd edildi.*

*Bu səfərin ölkələrimiz arasında münasibətlərin daha da genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.*

*Görüşdə qarşılıqlı maraq doğuran ikitərəfli məsələlər müzakirə edildi.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*1 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin nümayəndə heyətlərinin iştirakı ilə dekabrın 1-də geniş tərkibdə görüşü olmuşdur.*

*Dövlət başçıları görüşdə çıxış etdilər.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli cənab Prezident, əziz qonaqlar, Azərbaycana bir daha xoş gəlmisiniz! Cənab Prezident, Sizi görməkdən çox məmnunam. Gəlişinizə görə minnətdaram. Bu Sizin ölkəmizə artıq üçüncü səfərinizdir. Eyni zamanda, bizim bir çox beynəlxalq tədbirlər zamanı görüşmək imkanımız olub. Çox yaxşı şəxsi münasibətlərimiz qurulub. Həmçinin ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir.

Əvvəlcə, mən Sizi və hökumətinizi ölkənizdə inkişaf sahəsində əldə etdiyiniz nailiyyətlərə görə təbrik etmək istərdim. Yanaşmanız Əfqanıstan üçün islahatların yaxşı sürətlə getməsini mümkün etdi. Şadam ki, əməkdaşlığımızın bir hissəsi islahatlarla, xüsusən də dövlət sektoru və digər sahələrlə bağlıdır.

Biz dostuq, biz tərəfdaşıq. Çox güclü siyasi münasibətlərimiz vardır. Bir-birimizi beynəlxalq təşkilatlarda dəstəkləyirik. İqtisadi və ticari sahələrdə böyük potensial mövcuddur. Bunları Sizinlə artıq müzakirə etdik. Onların sırasında daşımalar və enerji sahələri vardır. Bu gün keçirdiyimiz təkbətək görüşümüzdən sonra nümayəndə heyətlərimiz gündəliyimizi daha geniş şəkildə müzakirə edəcəklər. Mən ikitərəfli iqtisadi fəaliyyət sahəsində çox sıx çalışmaq üçün aidiyyəti rəsmi şəxslərə müvafiq göstərişlər vermişəm.

Cənab Prezident, bir daha xoş gəlmisiniz!

**M ə h ə m m ə d Ə ş r ə f Q a n i**: Bismillahir-rəhmanir-rəhim.

Cənab Prezident, Bakıya gəlməyimiz məmnunluğa çevrilibdir. Buraya səfərimi, eləcə də mümkün olan hər bir beynəlxalq tədbirdə Sizinlə görüşməyi səmimiyyətlə arzulayırdım. Əvvəlcə, böyük nailiyyətlərlə bağlı Sizi bir daha təbrik etmək istərdim. İcazə verin, illər boyu verdiyiniz dəstəyə görə Əfqanıstan xalqı adından Sizə bir daha minnətdarlığımı bildirim. NATO qüvvələrinin marşrutu, demək olar ki, kəsildiyi zaman Siz öz hava dəhlizinizi açdınız.

Bakının gözəlləşdirilməsinə, onun yüklərin sürətli çatdırılma mərkəzinə çevrilməsinə böyük həcmdə resurslar ayırdınız. İndi isə artıq Lapis-Lazuli sazişi imzalanıbdır.

Fikrimcə, aramızda səmimi şəxsi münasibətlər, o cümlədən ölkələrimiz arasında yaxşı gələcəyi olan əlaqələr qurulubdur. İcazə verin, öz mülahizələrimi bildirim. Sonra isə göstərişlərimiz əsasında həmkarlarımız işləyə bilərlər. Əvvəlcə, Sizin təcrübənizdən öyrənməyi çox arzulayırıq. Rabitə Nazirliyimiz hazırda «ASAN xidmət»i ölkəmizdə həyata keçirir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*1 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan–Əfqanıstan sənədlərinin dekabrın 1-də imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında iqtisadi-ticarət sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Əfqanıstanın Maliyyə naziri Eklil Əhməd Hakimi imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında Saziş»i Azərbaycanın İqtisadiyyat naziri Şahin Mustafayev və Əfqanıstanın Maliyyə naziri Eklil Əhməd Hakimi imzaladılar.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Əfqanıstan İslam Respublikasının Ali Təhsil Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Əfqanıstanın Xarici İşlər naziri Səlahuddin Rabbani imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında təhlükəsizlik və hüquq-mühafizə fəaliyyəti sahəsində Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Əfqanıstanın Xarici İşlər naziri Səlahuddin Rabbani imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Əfqanıstan İslam Respublikası Hökuməti arasında hava xidmətləri haqqında Saziş»i Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Əfqanıstanın Xarici İşlər naziri Səlahuddin Rabbani imzaladılar.*

# ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*1 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani dekabrın 1-də sənədlərin imzalanması mərasimindən sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Əvvəlcə, mənim dəvətimi qəbul edərək, Azərbaycana səfərə gəldiyinə görə cənab Prezidentə təşəkkürümü bildirmək istəyirəm. Bu səhər biz «Asiyanın qəlbi» – İstanbul prosesi»nin yeddinci Nazirlər Konfransının açılışını etdik.

Fürsətdən istifadə edərək, Əfqanıstanın böyük sosial və iqtisadi nailiyyətlərinə görə cənab Prezidenti və ölkəsinin hökumətini təbrik etmək istərdim. Bizim cənab Prezidentlə çoxsaylı görüşlərimiz olub. İlk görüşümüzü xatırlayıram və o zaman cənab Prezidentin Əfqanıstanın inkişafı ilə bağlı gələcəyə baxışı məndə dərin təəssürat yaratdı. Şadam ki, onun planları həyata keçir. Əminəm ki, onun başladığı islahatlar, transformasiya və inkişaf yaxşı nəticələr verəcəkdir. Bir dost və tərəfdaş ölkə kimi, Azərbaycan bu inkişaf yolunda Əfqanıstanla çiyin-çiyinə dayanmaqdan fəxr edir.

Ölkələrimiz arasındakı diplomatik münasibətlərin tarixinə nəzər salsaq, hazırda əməkdaşlığımız ən yüksək səviyyədədir. Biz yaxşı tərəfdaş və dostuq. Dediyim kimi, biz cənab

Prezidentlə mütəmadi qaydada görüşürük və bu, Prezident Əşrəf Qaninin Azərbaycana üçüncü səfəridir. Bunun özü bizim tərəfdaşlığımızın nə dərəcədə yüksək olmasının göstəricisidir.

Bizim gözəl siyasi əlaqələrimiz vardır. Beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun həll edilməsi məsələsində Əfqanıstanın ədalətli mövqeyinə görə minnətdarıq. Azərbaycan da öz növbəsində, bütün beynəlxalq təşkilatlarda Əfqanıstanı dəstəkləyir. Biz Qətiyyətli Dəstək Missiyasının iştirakçısıyıq. Biz multimodal tranzit və hava məkanımızdan istifadəni təmin edirik. Qərar qəbul etmişik ki, Əfqanıstanda xidmət aparan hərbçilərimizin sayını artıraq və bununla da Əfqanıstanda sabitlik, sülh və inkişafa töhfə verək.

Tamamilə aydındır ki, sabitlik yalnız iqtisadi və sosial inkişaf yolu ilə təmin oluna bilər. Həmin səbəbdən müzakirə etdiyimiz mövzular arasında hər zaman iqtisadi xarakterli məsələlər vardır. Burada biz böyük potensial görürük. Bu gün biz ikitərəfli iqtisadi əməkdaşlığa dair çox vacib məsələləri müzakirə etdik. Müzakirə olunan məsələlər onu göstərir ki, gündəliyimiz olduqca genişdir. Bu gün imzalanan sazişlər də bizə imkan verəcək ki, məqsədlərimizə uğurla nail olaq. Biz iqtisadi əməkdaşlıq və islahatlarla bağlı bütün məsələlərin müzakirəsi üçün birgə işçi qrup yaradacağıq.

Biz fəxr edirik ki, Əfqanıstan «ASAN xidmət»in təcrübəsindən yararlanan dövlətlərdən olacaqdır. «ASAN xidmət» Azərbaycanda dövlət xidmətləri sahəsində həqiqətən, inqilab etdi. Əhali arasında bu qurumun bəyənilmə reytinqi 98 faiz, yəni 100 faizə yaxındır və bu qurum doğrudan da dövlət xidmətləri sahəsində böyük dəyişikliklər etdi. Çox şadıq ki, biz bu xidmətləri əfqan qardaşlarımız üçün təmin edəcəyik. Azərbaycan müstəqillik dövründə bir sistemdən digərinə – planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçdi. Ölkəmiz xaos, dağıntı, tənəzzül və 1000 faizlik inflyasiyadan inkişaf, tərəqqi və

firavanlığa, işsizliyin və yoxsulluğun aşağı səviyyədə olduğu bir vəziyyətə keçid etdi.

Hesab edirəm ki, bizim bu təcrübəmiz əfqan qardaşlarımız üçün maraqlı ola bilər. Praktiki əməkdaşlıq məsələləri sırasında biz bu gün qarşılıqlı ticarətin həcminin artırılması yollarını müzakirə etdik. Burada böyük potensial mövcuddur. Biz Azərbaycanın dövlət və özəl sektora məxsus sərmayəsinin Əfqanıstana qoyuluşunu müzakirə etdik. Sənaye inkişafı və kənd təsərrüfatı, enerji, neft və qaz, mədən sənayesi sahələrində də böyük potensial vardır.

Əlbəttə, biz nəqliyyat şəbəkəsinə dair də müzakirələr apardıq. Azərbaycan və Əfqanıstan irimiqyaslı nəqliyyat layihələrinin iştirakçılarıdır. Bu gün konfrans zamanı hər ikimiz çıxışımızda Lapis-Lazuli nəqliyyat layihəsinə toxunduq. Bu, bütün iştirakçı dövlətlər üçün çox vacib layihədir. Eyni zamanda, Azərbaycan öz qonşu və tərəfdaş ölkələri ilə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsini başa çatdırıb ki, bu, Asiyadan Avropaya və geriyə yeni yol açır. Bu yol mövcud olan digər marşrutlar arasında ən qısa yoldur.

Beləliklə, nəqliyyat şəbəkəsinin yaradılması yalnız yeni imkanlar yaratmır, o həmçinin inkişafa da töhfə verir. Biz öz ölkəmizdə də bunun şahidi oluruq. Hətta kənd yollarını tikəndən sonra biz dərhal istehsalda artım, bazarlara asan çıxış və inkişafın canlanmasını müşahidə edirik. Bu səbəbdən ölkələrimizin Mərkəzi Asiya və Avropa dəmir yolları şəbəkələri ilə birləşdirilməsi həqiqətən də tarixi nailiyyətdir.

Azərbaycan şirkətləri Əfqanıstanda podratçı və investor qismində işləmək arzusundadırlar və buna hazırdırlar. Bizim müvafiq təcrübəmiz var və biz Əfqanıstandakı qardaşlarımıza faydalı olmaq istəyirik. Nəzərə alsaq ki, prezident və onun həmkarları Əfqanıstanda nəhəng layihələr həyata keçirir və müəyyən planlar artıq mövcuddur, burada birgə biznes fəaliyyəti üçün böyük potensial vardır.

Biz bu gün kreditlər, müqavilələr, birgə müəssisələrlə də bağlı müzakirələr apardıq və artıq qeyd etdiyim kimi, iqtisadiyyat, nəqliyyat və enerji sahələrindəki gündəliyimiz olduqca genişdir. Biz razılığa gəldik ki, müvafiq dövlət qurumları bu məsələlərlə gündəlik qaydada məşğul olacaq, mütəmadi surətdə prezidentlərə hesabat verəcəklər. Ümid edirəm ki, bizim müdaxiləmizə ehtiyac yaranmayacaq, işlər vaxtında və lazımi qaydada aparılacaqdır.

Qarşıdan gələn dövrdə ölkələrimiz arasında iqtisadi sahədə daha da güclü əməkdaşlığın şahidi olacağıq. İqtisadi əməkdaşlığımız siyasi əməkdaşlıqla eyni səviyyədə olmalıdır. Bu bizim məqsədimizdir. Cənab Prezident, bir daha Sizi salamlayır və bu gün bizimlə olduğunuz üçün təşəkkürümü bildirirəm.

## Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin bəyanatı

Cənab Prezident!

Hörmətli nazirlər, azərbaycanlı dostlar!

Əvvəlcə, bizi qəbul etdiyinizə görə minnətdaram. Hər dəfə Bakıya gəldikdən sonra ümidlə qayıdıram. Bütün həmkarlarım da belə düşünürlər. Xatırlamaq kifayətdir ki, rəhmətlik atanız və Siz hansı çətinliklərlə üzləşmişdiniz – müharibə, qaçqın və məcburi köçkünlər, səviyyəsi 40 faizi aşan yoxsulluq, həcmi 5 milyard manat olan ümumi daxili məhsul. Nailiyyətləriniz çox yaxşı misaldır, çünki uzun müddət əvvəl, məsələn 6–8 il əvvəl mövcud olanları öyrəndikdə, görürük ki, onlar keçmişdə qalıbdır.

Əfqanlar buraya gəldikdən sonra öz ölkələrində dəyişiklik etmək inamı ilə Vətənə qayıdırlar. Bunların əyani sübutu «ASAN xidmət»dir. Maliyyə naziri səfər etdikdən sonra bu təcrübə dərhal tətbiq olunmağa başlandı. Müvafiq qurum yaradıldı və o, Rabitə Nazirliyinin tabeliyinə verildi.

Cənab Prezident, Azərbaycan böyük məsuliyyət hissi olan qlobal iştirakçıdır. Mən Çikaqoda keçirilmiş NATO Sammitin-

dəki çıxışınızı xatırlayıram. Həmin vaxt Siz ilk dəfə olaraq «Şimal dəhlizi» və böyük sərmayələr proqramını qeyd etdiniz. Cənab Prezident, Sizin gördüyünüz işlər, sadəcə desək, NATO-nun missiyasını mümkün etdi.

Bakı əməliyyatları ən sürətlə icra edən məkan nüfuzunu qazanıbdır. NATO komandanları və generalları ilə söhbət etdikdə, onlar bu marşrutun səmərəliliyini, etibarlılığını və tam şəffaflığını qeyd edirlər. Heç kəsin heç bir problemi olmur. İndi isə həmin dəhliz müdrik rəhbərliyiniz və göstərişlərinizlə bir tərəfdən, Lapis-Lazuli yoluna, digər tərəfdən isə multimodal daşımalar sisteminə çevrilir. Onun sayəsində biz Avropaya, Sizin ölkəyə və əksinə, çıxış əldə edirik. Bu, uzaqgörənliyin və müdrikliyin, rəhbərlik keyfiyyətlərinin, olduqca böyük diqqətin bariz nümunəsidir. Siz bu keyfiyyətlərlə tanınırsınız və biz onların sayəsində nəticə qazanırıq.

Biz Azərbaycanın beynəlxalq hüquqa əsaslanan ədalətli, əsaslı mövqeyini daim tam dəstəkləyəcəyik və dəstək verməyə hər zaman hazırıq. Biz hərbi qulluqçularınızın sayının artırılması ilə əlaqədar bu yaxınlarda Brüsseldə bəyan etdiyiniz qərarı çox yüksək qiymətləndiririk. Hərbçiləriniz mübarizdirlər, şərəflə xidmət edirlər. Bu bizim üçün böyük şərəfdir.

Cənab Prezident, qeyd etdiyiniz iqtisadi gündəlik olduqca genişdir, çoxşaxəlidir və böyük fayda gətirir. Orada olan məsələlərin hər birinin işlənib hazırlanmasından etibarən, söyləyə bilərəm ki, yaratdığımız çərçivə bizi daha da yaxınlaşdırır. O, Azərbaycan biznes dairələrini, dövlət şirkətlərini ölkəmizə gətirir. Əlbəttə, vaxt keçdikcə Azərbaycan və Əfqanıstan xalqları daha böyük harmoniyaya nail olacaqlar, dostluq, tərəfdaşlıq və qarşılıqlı fayda dəyərlərini artıracaqlar. Yaradılmış işçi qrupu indicə imzalanmış sazişlər baxımından öz işini davam etdirəcəkdir. Çox səmimiyyətlə arzulayırıq ki, Azərbaycanın özəl və dövlət sektoru ölkəmizə gəlsin. Maliyyə Nazirliyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində aparılmış dəyişikliklər təcrübəsi, sənaye inkişafı və xüsusən də yaradılmış Neft Fondu əla misallardır. Çünki Əfqanıstandakı

vəziyyət Azərbaycanın müharibədən sonrakı durumla üzləşdiyi çağırışlarla eynidir. Digərləri bunu görmür.

Cənab Prezident, Sizin rəhbərliyinizin xüsusiyyəti ondan ibarətdir ki, Siz bizim bugünkü yox, gələcək günümüzü görürsünüz. Azərbaycanın durumu inkişaf, fayda gətirən gələcək durum kimi götürülə bilər.

*Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani Azərbaycanın iqtisadi sahədə əldə etdiyi uğurlu təcrübələrin ölkəsində də tətbiq edilməsindən məmnunluğunu ifadə etdi. Əfqanıstanın dövlət başçısı Bakıda keçirilən «Asiyanın qəlbi» – İstanbul prosesi» çərçivəsində «Gücləndirilmiş «Asiyanın qəlbi» regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda yeddinci Nazirlər Konfransının yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi:*

– Bu konfransa ev sahibliyi etdiyinizə görə dərindən minnətdaram. Tədbir nəticələrə və əlaqələrin qurulmasına yönəlibdir. İndi biz artıq nəzəriyyə haqqında deyil, regional şəbəkələri qurmaq, aydın reallığı təmin etmək üçün işlər haqqında danışırıq. Atacağınız hər bir addım konsolidasiyaya, dərin və hərtərəfli dostluğa, ortaq dəyərlərə və birgə iş aparmağa yönələcəkdir.

Sağ olun, cənab Prezident.

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİF İLƏ GÖRÜŞ

*1 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifi qəbul etmişdir.*

*Xarici İşlər naziri Məhəmməd Cavad Zərif İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Məhəmməd Cavad Zərif Bakıda keçirilən «Asiyanın qəlbi» – İstanbul prosesi» çərçivəsində «Gücləndirilmiş «Asiyanın qəlbi» regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda yeddinci Nazirlər Konfransının təşkili ilə bağlı göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə minnətdarlıq etdi. O, İran ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini və əlaqələrin genişləndirilməsi işində Azərbaycan Prezidentinin verdiyi dəstəyə görə təşəkkürünü bildirdi. Ölkələrimiz arasında siyasi dialoqun gücləndirilməsində böyük irəliləyişlərin əldə edildiyini deyən iranlı nazir iqtisadi əməkdaşlığımızın da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu nəzərə çatdırdı. Məhəmməd Cavad Zərif Azərbaycan ilə İranın üçtərəfli formatlarda iştirakının önəmini qeyd etdi.*

*Prezident İlham Əliyev İran İslam Respublikasına son səfərini məmnunluqla xatırladaraq, orada keçirilən üçtərəfli sammiti beynəlxalq səviyyədə mühüm tədbir kimi dəyərləndirdi və səfər zamanı İran Prezidenti ilə səmərəli müzakirələrin aparıldığını qeyd etdi.*

*Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında ikitərəfli əməkdaşlıq, dostluq əlaqələri uğurla inkişaf edir. Azərbaycan Prezidenti İlham Əliyev bu əlaqələrin gələcəkdə də genişlənəcəyinə və inkişafına əminliyini ifadə etdi.*

*Dövlətimizin başçısı Prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## ESTONİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SVEN MİKSER İLƏ GÖRÜŞ

*1 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 1-də Estoniya Respublikasının Xarici İşlər naziri Sven Mikseri qəbul etmişdir.*

*Estoniyanın Xarici İşlər naziri Sven Mikser Bakıda keçirilən «Asiyanın qəlbi» – İstanbul prosesi» çərçivəsində «Gücləndirilmiş «Asiyanın qəlbi» regionuna doğru təhlükəsizlik və iqtisadi bağlantılar» mövzusunda yeddinci Nazirlər Konfransının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Sven Mikser ölkəsinin Avropa İttifaqına sədrliyi dövründə Azərbaycana səfər etməsindən məmnunluğunu ifadə etdi. Estoniyalı nazir bu yaxınlarda Brüsseldə keçirilən «Şərq Tərəfdaşlığı» Sammitinin önəmini vurğulayaraq, bu sammitdə iştirakına görə Prezident İlham Əliyevə təşəkkür etdi. Sven Mikser Avropa İttifaqı–Azərbaycan əlaqələrinin uğurla inkişaf etdiyini qeyd edərək, bu əlaqələrin gələcəkdə də inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Dövlət başçısı İlham Əliyev «Şərq Tərəfdaşlığı» Sammitinin uğurla keçirildiyini vurğulayaraq, orada aparılan müzakirələrin, qəbul olunmuş Birgə Bəyannamənin əhəmiyyətini qeyd etdi. Azərbaycan–Avropa İttifaqı əlaqələrinə toxunan dövlətimizin başçısı bu təşkilatın üzv dövlətləri ilə yaxın tərəfdaşlıq əlaqələrinin qurulduğunu və artıq 9 üzv dövlətlə strateji tərəfdaşlıq bəyannamələrinin imzalandığını vurğuladı. Prezident İlham Əliyev hazırda Azərbaycan ilə Avropa İttifaqı arasında yeni saziş üzrə fəal danışıqların aparıldığını qeyd etdi və yaxın zamanlarda bu prosesin başa çatacağına ümidvar olduğunu bildirdi. Dövlət başçısı Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığında energetika,*

*nəqliyyat və digər sahələrdə böyük irəliləyişlərə nail olunduğunu vurğuladı. Bakıda keçirilən yeddinci Nazirlər Konfransının əhəmiyyətinə toxunan Prezident İlham Əliyev Azərbaycanın Əfqanıstanda sülhməramlı missiyaya fəal şəkildə dəstək göstərdiyini vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Estoniya arasında da ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini bildirdi. Estoniya şirkətlərinin Azərbaycanda informasiya-kommunikasiya texnologiyaları sahəsində iştirakının önəmini vurğulayan dövlət başçısı ölkələrimizin ticarət, turizm, nəqliyyat və digər sahələrdə əməkdaşlığının genişlənməsi üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

**AVROPA GİMNASTİKA İTTİFAQININ PREZİDENTİ FƏRİD QAYIBOVA**

Sizi Avropa Gimnastika İttifaqının prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ürəkdən təbrik edir, bu vəzifədə sizə uğurlar arzulayırıq.

İlk dəfə olaraq Azərbaycan nümayəndəsi Avropa İdman Federasiyasına rəhbərlik edəcəkdir. Bu, Azərbaycanda son illər ərzində gimnastika idman növünün sürətli inkişafının Avropa gimnastika ailəsi tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür. Gimnastika üzrə dünya və Avropa çempionatlarının Azərbaycanda yüksək səviyyədə keçirilməsi, ölkəmizdə ən yüksək standartlara cavab verən Milli Gimnastika Arenasının və bölgələrdə gimnastika bölmələrinin yaradılması haqlı olaraq Avropa Gimnastika İttifaqı tərəfindən yüksək qiymətləndirilmişdir.

Sizin də Avropa Gimnastika İttifaqının vitse-prezidenti kimi fəaliyyətinizin bu vəzifəyə seçilməyinizdə böyük rolu olubdur.

Bir daha sizi təbrik edir, sizə uğurlar arzulayırıq.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti,**
**Milli Olimpiya Komitəsinin prezidenti**

**MEHRİBAN ƏLİYEVA**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti,**
**Azərbaycan Gimnastika Federasiyasının prezidenti**

Bakı, *3 dekabr 2017-ci il*

## XƏZƏR RAYONUNUN ZİRƏ QƏSƏBƏSİNDƏ «BAKU AGROPARK»DA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*4 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Xəzər rayonunun Zirə qəsəbəsində «BAKU AGROPARK»ın birinci mərhələsi çərçivəsində görülən işlərlə tanış olmuşdur.*

*İqtisadiyyat naziri Şahin Mustafayev və sahibkar Səməd Qurbanov dövlət başçısına aqropark barədə məlumat verdilər.*

*Bildirildi ki, «BAKU AGROPARK» MMC-nin müasir istixana kompleksinin ümumi layihə dəyəri 68 milyon manata yaxındır. İkinci mərhələdə daha 10 hektar sahədə şüşə tipli müasir istixana və 1 hektar sahədə şitilxananın tikilməsinə 24,7 milyon manat, üçüncü mərhələdə isə 10 hektar sahədə şüşə tipli müasir istixananın yaradılmasına 21 milyon manat investisiya qoyulacaqdır.*

*Qeyd edək ki, hazırda ölkədə 3000 hektara yaxın sahədə mövcud və tikilməkdə olan istixana təsərrüfatları vardır. Bunun 2463 hektarı mövcud, 463 hektarı isə tikilməkdə olan istixana təsərrüfatlarıdır. Fəaliyyətdə olan istixana təsərrüfatlarından bu il avqustun 1-dək 302,3 min ton tərəvəz məhsulları yığılıb. İstehsal olunan məhsullar əsasən ixrac edilir. Görülən işlərin nəticəsidir ki, bu ilin 10 ayı ərzində tərəvəz ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 64,5 faiz artıb. Bu artım 259,7 min ton və ya 184,2 milyon dollar təşkil edib. Son illərdə regionlarda və Bakı şəhərinin qəsəbələrində 312 hektar sahədə ümumi dəyəri 400 milyon manat olan 58 müasir istixana kompleksinin yaradıl-*

*masına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 200 milyon manat güzəştli kredit verilibdir.*

*Diqqətə çatdırıldı ki, «BAKU AGROPARK»ın birinci mərhələsində 10 hektar sahədə illik istehsal gücü 3300 ton pomidor məhsulu olan istixana kompleksi yaradılıb. Birinci mərhələdə layihə üzrə infrastrukturun yaradılmasına 21,7 milyon manat investisiya qoyulub. İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən isə bu mərhələ üzrə 10 milyon manat güzəştli kredit ayrılıbdır.*

*Dördüncü nəslə aid istixana kompleksi Niderland texnologiyasından istifadə olunmaqla qurulub. Kompleksin texniki zonasında su, gübrə çənləri qoyulub, qazanxana və sutəmizləmə sistemi quraşdırılıbdır. İstixananın suvarılmasını təmin etmək üçün 21 min kubmetr tutumu olan su hövzəsi yaradılıb. İstixanada yüksək keyfiyyət göstəricilərinə malik olan ekoloji təmiz məhsullar istehsal edilir. Daha bir üstün cəhət isə istehsal prosesinin tam avtomatlaşdırılmasıdır. Bu isə öz növbəsində, yerli mütəxəssislərin intellektual və peşəkarlıq səviyyəsinin artırılmasını, bu sahədə yüksəkixtisaslı kadrların formalaşmasını şərtləndirir. Kompleksin idarə olunmasında və yerli kadrların yetişdirilməsində Avropa mütəxəssislərinin xidmətindən istifadə olunur. Burada yüksək əmək təhlükəsizliyinə və gigiyenik-sanitar normalara riayət olunur, işçilərin işə gətirilməsi və aparılması təmin edilir. İstehsal olunan məhsullar «Tomat.az» brendi ilə əsasən ixrac edilir.*

*Bu müəssisənin yaradılması ölkə iqtisadiyyatının, o cümlədən qeyri-neft sektorunun inkişafına töhfə verməklə yanaşı, Azərbaycanın ixrac yönümlü məhsullarının sayının və çeşidinin artırılmasında da rol oynayır. Belə layihələrin icrası həm də əhalinin məşğulluğunun təmin edilməsi baxımından əhəmiyyətlidir. Hazırda kompleksdə 140 nəfər işlə təmin olunubdur. Müəssisə tam fəaliyyətə başladıqdan sonra yeni iş yerlərinin sayı da artacaqdır.*

*Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Salam, necəsiniz?

**V a l i d ə M ə l i k o v a** (*aqronom*): Sağ olun, xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Burada iş şəraiti yaxşıdır, necə işləyirsiniz?

**V a l i d ə M ə l i k o v a**: İş şəraitimiz çox yaxşıdır. Bizim üçün belə bir şərait yaratdığınıza görə sağ olun. Hər şey çox yaxşıdır, ürəyimizcədir, müasirdir. Əməkhaqqımız da bizi qane edir. Ən əsası odur ki, işləyənlər arasında qadınlar çoxluq təşkil edir.

**Z ə r i f ə B e h b u d o v a** (*aqrotexnik)*: Xoş gəlmisiniz! Bizə bu şəraiti yaratdığınıza görə öz adımdan, yoldaşlarımız adından Sizə çox təşəkkür edirəm. Burada əməyi keçən hər bir insana, Səməd bəyə minnətdarlığımızı bildiririk. Allah sizlərdən razı olsun.

**İ l h a m Ə l i y e v:** Sağ olun, Sizi təbrik edirəm, gözəl müəssisə açılır, müasir standartlara cavab verir. Burada 10 hektarda gözəl park salınıb. İş şəraiti də, məhsuldarlıq da yaxşıdır. Ən son texnologiyalardır. Ölkəmizin iqtisadi potensialını artıran müəssisədir. Burada ixrac yönümlü məhsullar istehsal olunur. Bu da bizim iqtisadiyyatımızın şaxələndirilməsi üçün çox vacibdir. İndiki şəraitdə biz bu məsələyə xüsusi diqqət göstəririk. Kənd təsərrüfatının inkişafı prioritet məsələdir. Mənə verilən məlumata görə, ölkəmizdə 400 hektardan çox sahədə yeni istixana kompleksləri salınır. Orada yetişdiriləcək məhsulun, demək olar ki, hamısı xaricə ixrac olunacaqdır. İndi biz özümüzü tərəvəzlə təmin etmişik və ölkəmizə ən çox gəlir gətirən sahə məhz pomidorla bağlıdır. Bu ilin 10 ayında pomidor ixracından ölkəyə 130 milyon dollar gəlib. Təsəvvür edin, əgər biz növbəti mərhələdə 400 hektarda yeni istixana komplekslərini istifadəyə versək – bu da təbii ki, olacaq – bizim ixrac imkanlarımız qat-qat artacaqdır. Bu, yeni iş yerləri deməkdir, burada təqribən 200-ə yaxın vətəndaş işlə təmin olunubdur. Bura qadınlar üçün də iş yeridir. Bu da çox önəmlidir. Görürəm ki, burada işləyənlərin əksəriyyəti qadınlardır, iş şəraiti də yaxşıdır.

**V a l i d ə M ə l i k o v a:** Bəli, iş şəraitimiz çox yaxşıdır. Çox yaxşı əməkhaqqı ilə təmin olunmuşuq. Biz də çalışırıq ki, ekoloji

təmiz və keyfiyyətli məhsul istehsal edək. Bizdə tam ekoloji təmiz məhsul istehsal olunur, kimyəvi maddələrdən istifadə etmirik. İnanırıq ki, bu müəssisənin yaradılması iqtisadiyyatımızın inkişafına töhfə verəcəkdir. Nəticədə həm Azərbaycanımız, həm də biz, burada çalışanlar qazanacağıq.

**İlham Əliyev:** Sağ olun.

## XXIII BEYNƏLXALQ «BAKUTEL–2017» TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

Hörmətli iştirakçılar!

Sizi ölkəmizin paytaxtı Bakı şəhərində XXIII Beynəlxalq «BakuTel–2017» informasiya və kommunikasiya texnologiyaları sərgisi və konfransının öz işinə başlaması münasibətilə təbrik edir, hər birinizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Mütəmadi təşkil edilən sərginiz Azərbaycanla yanaşı, bir çox dünya ölkələri və eləcə də şirkətlər üçün yüksək texnologiyalar sahəsində son nailiyyətlərin təqdim olunduğu beynəlxalq platforma rolunu oynayır.

İnformasiya-kommunikasiya texnologiyaları indiki mərhələdə dayanıqlı inkişafın təmin edilməsi, intellektual potensialın gücləndirilməsi və biznesin irəliləməsinin əlverişli vasitəsi olmuş, cəmiyyətdə şəffaflığın artırılmasının vacib amilinə çevrilmişdir. Bu sahənin prioritet elan edildiyi və dövlət idarəçiliyinin bütün səviyyələrində elektron xidmətlərin maksimum istifadəsinin vüsət aldığı ölkəmizdə mövcud İKT infrastrukturunun müasir standartlara uyğunlaşdırılması istiqamətində işlər sistemli şəkildə ardıcıl aparılmaqdadır.

Ötən illər ərzində qəbul olunmuş müvafiq qanunlar və normativ hüquqi aktlar İKT sahəsinin irəliləyişi yolunda geniş imkanlar açmaqla bərabər, azad bazar və sağlam rəqabət prinsiplərinin gözlənilməsinə, vətəndaşların və dövlət orqanlarının İKT-dən istifadəsinə lazımi şərait yaratmışdır. Hazırda respublikamızda «Elektron hökumət»in formalaşdırılmasına böyük diqqət yetirilir, «Elektron hökumət» portalı vasitəsilə

dövlət orqanlarının informasiya sistemləri arasında informasiya mübadiləsi reallaşdırılır, «Elektron imza»nın istifadəsi üçün infrastruktur davamlı təkmilləşdirilir. 2013-cü ilin fevralında Azərbaycanın ilk telekommunikasiya peykinin orbitə buraxılması müstəqillik dövründə qazandığımız ən yüksək texniki nailiyyətlərdəndir. İndi növbəti telekommunikasiya peykinin orbitə çıxarılmasına hazırlaşırıq.

Ölkəmizin ərazisində rəqəmli yayıma keçidin tam təmin edilməsi sayəsində əhali indi radio-televiziya verilişlərini keyfiyyətli, fasiləsiz izləmək imkanına malikdir. Poçt və telekommunikasiya sahəsində xidmətlərin çeşidi və həcmi artmış, bütövlükdə infrastruktur müasirləşdirilmişdir.

Ənənəvi «BakuTel» sərgisi İKT sahəsində uğurların nümayişi və qabaqcıl texnoloji yeniliklərin təqdimatı olduğu kimi, həmçinin biznes əlaqələrinin qurulması və təcrübə mübadiləsi, eyni zamanda, ölkəmizlə yaxından tanışlıq imkanı deməkdir. İnanıram ki, sərgi və konfrans çərçivəsində keçiriləcək səmərəli görüşlər, dinləniləcək məruzə və çıxışlar yeni təşəbbüslərin müvəffəqiyyətlə gerçəkləşməsinə və qarşılıqlı münasibətlərimizin daha da dərinləşməsinə öz töhfəsini verəcəkdir.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 dekabr 2017-ci il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ**

Hörmətli cənab Prezident!

Finlandiya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə və dost Finlandiya xalqına ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 dekabr 2017-ci il*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ YENİ TƏYİN EDİLMİŞ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 4-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə yeni təyin edilmiş xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Bakıya ilk dəfədir gəldiyini və burada şahidi olduğu inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını bildirən Toivo Klaar Azərbaycan ilə daha yaxından tanış olmaqda maraqlı olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Toivo Klaarın Azərbaycana, o cümlədən ölkəmizin regionlarına gələcəkdə də tez-tez səfərlər edəcəyinə ümidvar olduğunu bildirdi və ona fəaliyyətində uğurlar arzuladı.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti və münaqişənin həlli ilə bağlı danışıqlar prosesi ətrafında fikir mübadiləsi aparıldı.*

## RUSİYA FEDERASİYASININ RABİTƏ VƏ KÜTLƏVİ KOMMUNİKASİYALAR NAZİRİ NİKOLAY NİKİFOROV İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Rusiya Federasiyasının Rabitə və Kütləvi Kommunikasiyalar naziri Nikolay Nikiforovu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən rabitə və texnologiyalar sahəsində uğurla inkişaf etdiyi qeyd olundu.*

*Rusiyanın Rabitə və Kütləvi Kommunikasiyalar naziri Nikolay Nikiforov Azərbaycan Prezidenti İlham Əliyev ilə 2011-ci ildə Kazan şəhərində İnformasiya Texnologiyaları Parkında görüşdüklərini, o zaman Prezident İlham Əliyevin orada Xatirə kitabında fəaliyyət göstərməyə başlayan şirkətlərə yazdığı ürək sözlərini məmnunluqla xatırlatdı. Nikolay Nikiforov qeyd etdi ki, bu gün o, azərbaycanlı həmkarı ilə ölkəmizdə fəaliyyətə başlayan bir sıra startap layihələri ilə də artıq tanış olub. Rusiyalı qonaq iki ölkənin texnologiya sahəsində əməkdaşlıq proqramının genişlənməsinin vacibliyini qeyd etdi.*

*Nikolay Nikiforov XXIII Beynəlxalq «BakuTel–2017» sərgisində 20-dən çox ölkənin, 190-dan artıq şirkətin, o cümlədən Rusiya Federasiyası şirkətlərinin və eləcə də müxtəlif ölkələrin bir sıra nazirlərinin iştirak etdiyini vurğuladı və bu tədbirin artıq rabitə sahəsində mütəxəssislərin ənənəvi görüş yerinə çevrildiyini məmnunluqla qeyd etdi.*

*Prezident İlham Əliyev XXIII Beynəlxalq «BakuTel–2017» sərgisinin önəmini qeyd edərək, Rusiya Federasiyasının bu tədbirdə*

*yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə etdi. Bu sərginin artıq ənənəvi xarakter aldığını qeyd edən dövlət başçısı bunu müasir texnologiyalarla bağlı beynəlxalq əhəmiyyətli bir tədbir kimi dəyərləndirdi. Prezident İlham Əliyev Nikolay Nikiforovun ölkəmizə bu səfərinin əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Söhbət zamanı Azərbaycanın tranzit imkanlarından istifadə edilərək, poçt, TASIM layihəsi çərçivəsində əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## TÜRKİYƏ RESPUBLİKASININ NƏQLİYYAT, DƏNİZÇİLİK VƏ KOMMUNİKASİYA NAZİRİ ƏHMƏD ARSLAN İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Kommunikasiya naziri Əhməd Arslanı qəbul etmişdir.*

*Görüşdə ikitərəfli münasibətlərimizin bütün sahələrdə, o cümlədən informasiya texnologiyaları sahəsində uğurla inkişaf etdiyi bildirildi.*

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Kommunikasiya naziri Əhməd Arslanın XXIII Beynəlxalq «BakuTel–2017» sərgisində iştirakının önəmini qeyd etdi, bu sərginin artıq 20 ildən çox keçirildiyini və hər dəfə də Türkiyədən olan şirkətlərin iştirak etməsindən məmnunluğunu bildirdi. Nəqliyyat sahəsində əldə edilən uğurlara toxunan dövlət başçısı ölkələrimizin kommunikasiya, informasiya texnologiyaları sahəsində, xüsusilə TASIM layihəsi çərçivəsində birgə fəaliyyətinin önəmini vurğuladı. Oktyabr ayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin açılışı mərasimini xatırladan dövlətimizin başçısı bildirdi ki, bu tədbir bir daha Azərbaycan və Türkiyənin başladığı bütün təşəbbüslərin gözəl nəticələr verdiyini göstərdi. Prezident İlham Əliyev ölkələrimiz arasında rabitə sahəsində də birgə fəaliyyət üçün çox yaxşı imkanların olduğunu bildirdi.*

*Türkiyə Respublikasının Nəqliyyat, Dənizçilik və Kommunikasiya naziri Əhməd Arslan XXIII Beynəlxalq «BakuTel–2017» sərgisində 20-dən çox ölkənin 190-dan artıq şirkətinin iştirak etməsinin önəmini vurğuladı və bu tədbirin yüksək səviyyədə keçi-*

*rilməsi münasibətilə təbriklərini çatdırdı. Əhməd Arslan Prezident İlham Əliyevin rəhbərliyi ilə informasiya texnologiyaları sahəsində Azərbaycanda işlərin uğurla həyata keçirildiyini qeyd edərək, bu istiqamətdə gələcəkdə regional səviyyədə birgə iş fəaliyyətinin davam etdiriləcəyinə əmin olduğunu bildirdi. Qonaq iki ölkənin müvafiq qurumları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini vurğuladı.*

## İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MƏHƏMMƏD CAVAD AZƏRİ CƏHROMİ İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də İran İslam Respublikasının Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən rabitə və informasiya texnologiyaları istiqamətində uğurlu inkişafından məmnunluq bildirildi.*

*Prezident İlham Əliyev XXIII Beynəlxalq «BakuTel–2017» sərgisinin 20 ildən artıqdır ki, keçirildiyini qeyd edərək, İran şirkətlərinin bu sərgidə daim iştirak etməsindən və bu sərgidə İranın nazir səviyyəsində təmsil olunmasından məmnunluğunu ifadə etdi. Bu yaxınlarda İran İslam Respublikasına səfərini xatırladan dövlətimizin başçısı İranın Ali Rəhbəri və İran Prezidenti ilə keçirdiyi görüşlərin əlaqələrimizin inkişafına böyük töhfə verdiyini vurğuladı. Prezident İlham Əliyev informasiya-kommunikasiya və rabitə sahəsində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu və İranın Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhrominin səfəri zamanı əməkdaşlığın perspektivləri ətrafında səmərəli müzakirələrin aparılacağına əminliyini vurğuladı.*

*Rabitə və İnformasiya Texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı. O*

*eyni zamanda, Kirmanşah şəhərində zəlzələ ilə əlaqədar Azərbaycan Prezidentinin başsağlığı verməsi və Azərbaycanın İran xalqı ilə həmrəylik nümayiş etməsi ilə bağlı İran Prezidentinin minnətdarlığını çatdırdı. Nazir ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini vurğulayaraq, bu əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə ümidvar olduğunu bildirdi.*

*Prezident İlham Əliyev İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HOULİN ÇJAO İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Çjaonu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında uzun illər uğurlu əməkdaşlığın həyata keçirildiyi vurğulandı.*

*Dövlətimizin başçısı Azərbaycanda XXIII Beynəlxalq «BakuTel–2017» sərgisində dünyanın bir çox ölkələrindən 190-dan artıq şirkətin iştirak etməsindən məmnunluğunu bildirərək, Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Çjaonun «BakuTel–2017»də iştirakını sərginin artıq mühüm beynəlxalq tədbirə çevrilməsinin göstəricisi kimi dəyərləndirdi.*

*Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi Houlin Çjao XXIII Beynəlxalq «BakuTel–2017» sərgisinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda son illər rabitə və informasiya-kommunikasiya sahələrində nailiyyətlərin əldə olunduğunu qeyd etdi. Qonaq bu səfəri zamanı Azərbaycanda rabitə və informasiya-kommunikasiya sahələrində bir sıra startap layihələri ilə tanış olduğunu və bu layihələrin bir hissəsinin reallaşacağına əminliyini bildirdi.*

*Söhbət zamanı Azərbaycan ilə Beynəlxalq Telekommunikasiya İttifaqı arasında əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## «BAKUTEL–2017» SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva dekabrın 6-da Bakı Ekspo Mərkəzində XXIII Beynəlxalq «BakuTel–2017» telekommunikasiya və informasiya texnologiyaları sərgisi ilə tanış olmuşlar.*

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə dövlət başçısına və xanımına sərgi barədə məlumat verdi.*

*Bildirildi ki, builki sərgidə 20 ölkədən 192 şirkət iştirak edir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Beynəlxalq Telekommunikasiya İttifaqı, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu və Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə keçirilən sərgidə ABŞ, Rusiya, Birləşmiş Ərəb Əmirlikləri, Çin, Finlandiya, Fransa, İsveç, Niderland Krallığı, Türkiyə və digər ölkələr təmsil olunur.*

*Nazir Ramin Quluzadə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumlarının, müəssisələrinin məhsul və xidmətləri, həyata keçirdiyi layihələri barədə də məlumat verdi.*

*Qeyd olundu ki, 2019-cu ildən etibarən veriləcək yeni nəsil şəxsiyyət vəsiqələrində vətəndaşlar «Elektron imza» sertifikatı ilə təmin olunacaqlar. Bunun üçün müvafiq infrastruktur artıq hazırdır. Gələn ildən «Elektron imza»ların dövlətlərarası qarşılıqlı tanınması prioritet istiqamətlərdən olacaqdır. Bu imzanın aktiv istifadə edilə biləcəyi məkan «Elektron hökumət» portalıdır. Hazırda bu portal vasitəsilə vətəndaşlar 89 dövlət və qeyri-dövlət qurumunun xidmətlərindən yararlana bilirlər.*

*«Güzəştli mənzil sistemi» artıq portala inteqrasiya olunub, burada «Elektron ipoteka sistemi» yaradılıbdır. Ümumilikdə bu il portala 40 yeni xidmət əlavə olunubdur. Görmə qabiliyyəti məhdud olan insanlar üçün hazırlanan «Danışan kitabxana»ya Heydər Əliyev Fondunun təşəbbüsü ilə 200 kitab əlavə edilibdir.*

*Sonra dövlət başçısına və xanımına «Baktelecom» və «Aztelekom»un il ərzində həyata keçirdiyi layihələrlə bağlı məlumat verildi. Müasir texnologiya sayəsində əlavə avadanlıq olmadan, bir xətt üzərindən əhaliyə telefon, internet və televiziya xidmətləri göstərilir. Eyni zamanda, dördüncü nəsil simsiz rabitə texnologiyası üzərindən xidmət də həyata keçirilir. Artıq Bakıda və Xaçmazın 4 kəndində bu texnologiya test qaydasında tətbiq edilib. Bir il ərzində layihə Abşeron yarımadasını da əhatə edəcəkdir. «İctimai internet» layihəsi çərçivəsində 18 məkan pulsuz internetlə təmin olunub. Avropada birinci internet provayderinin təmin etdiyi ən geniş pulsuz «Wi-Fi» zonası Bakıdadır.*

*Daha sonra «AzInTelecom»un beynəlxalq səs trafiki mübadiləsinin təşkili, telekommunikasiya vasitələrinin sertifikatlaşdırılması, eləcə də Data Regional Mərkəzinin texniki imkanları vasitəsilə «bulud» əsaslı xidmətləri barədə məlumat verildi. Beynəlxalq səs trafikinin təşkili üçün istifadə edilən kommutasiya şəbəkəsi tam surətdə yenilənərək, IP əsaslı yeni Beynəlxalq Kommutasiya Sistemi qurulubdur.*

*Yeni yaradılan xidmət mərkəzlərindən biri də «Şəbəkə»dir. Hazırda respublika üzrə 5 «Şəbəkə» xidmət mərkəzi fəaliyyət göstərir. Onlardan 4-ü paytaxt Bakıda yerləşir, digəri isə Cəlilabad şəhərindədir. Xidmət şəbəkəsinin Bakının bütün rayonlarını əhatə etməsi üçün işlər aparılır. Növbəti mərhələdə isə «Şəbəkə» mərkəzlərinin ölkənin bütün böyük şəhər və rayonlarında açılması nəzərdə tutulur.*

*Diqqətə çatdırıldı ki, bu il 25 yaşını qeyd edən «Azərmarka» Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 2017-ci ildə bir sıra işlər görülüb. «Azərbaycan poçt markalarında» adlı kitab həm*

*yerli, həm də əcnəbi filatelistləri ölkəmizin mədəni irsi ilə tanış edir.*

*«Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin stendi ilə tanışlıq zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya qurumun həyata keçirdiyi layihələr barədə məlumat verildi. 2010-cu ildə yaradılmış və Qafqazda ilk peyk operatoru olan «Azərkosmos» «Azərspace-1» peyki vasitəsilə öz müştərilərinə yüksək etibarlı peyk əsaslı teleradio yayımı, səs, video məlumatlarının ötürülməsi və digər xidmətləri təqdim edir. Yüksəkixtisaslı peşəkar heyətə və texniki imkanlara malik olan «Azərkosmos» ASC-nin yaradılmasından ötən dövr ərzində bu qurum ölkədə və bütünlüklə regionda İKT sektorunun aparıcı qüvvələrindən birinə çevrilibdir.*

*Sərgidəki Yüksək Texnologiyalar Parkında yerli startapçılar tərəfindən hazırlanan məhsullar nümayiş olunur. «Made in Azerbaijan» brendi altında İnformasiya Texnologiyalarının İnkişafı Dövlət Fondundan qrant almış, Yüksək Texnologiyalar Parkının İnkubasiya Mərkəzində fəaliyyət göstərən startapçıların layihələri böyük maraqla qarşılanır.*

*Sonra Prezident İlham Əliyev «Euronews» və «Rossiya-24» televiziya kanallarının suallarını cavablandırdı.*

*Sərgidə virtual cərrahiyyə barədə də məlumat verildi. Dünya təcrübəsində ilk dəfə Azərbaycan cərrahları artırılmış reallıq eynəkləri ilə üzün bərpası əməliyyatını keçiriblər. Üzdə aparılan rekonstruktiv cərrahi əməliyyatlara yüksək funksional və estetik tələblər qoyulur. Bu metodika nəticəsində qısa müddətə yüksək dəqiqlik, təhlükəsizlik və estetik nəticələrə nail olmaq mümkündür.*

*Sərgidəki «Oyun zonası»nda Yüksək Texnologiyalar Parkının biznes inkubatorunda fəaliyyət göstərən yerli startaplar – «Pazl xalça» və «Yüksəklik» oyunlarını təqdim edirlər. «Pazl xalça» oyunu Azərbaycan xalçaçılıq məktəblərinin, xalça növlərinin öyrənilməsini və tarixi dəyərlərə sevgi ruhunun aşılanmasını təbliğ edəcəkdir. «Yüksəklik» virtual reallıq döyüş oyunudur.*

*Oyun düşmənə qarşı vuruşan qəhrəman əsgərlərimizə həsr edilib. Oyunu hazırlayanlar 2016-cı ilin aprel ayında cəbhə xəttində Milli Ordumuzun qəhrəmanlıqla işğaldan azad etdiyi Lələtəpə yüksəkliyindən ilhamlanıblar. Burada, həmçinin «Omarov's Game Studio» şirkətinin təqdim etdiyi oyunlar da nümayiş olunur. Şirkət 1 il ərzində qlobal bazarda auditoriyası 3 milyondan artıq olan 4 oyun istifadəyə veribdir.*

*Rusiya Federasiyası da sərgidə geniş təmsil olunur. Rusiyanın 5 şirkəti televiziya şəbəkələri və onlayn video üçün platformalar, bu sahədə müxtəlif xidmətlərini təklif edir. Bundan başqa, Rusiyanın stendində mobil şəbəkələrin optimallaşdırılması və radioölçmələr, peşəkar texniki təlimlər, eləcə də şəbəkənin idarə edilməsi və nəzarət üzrə həll variantlarının hazırlanması və tətbiqi sahəsində ixtisaslaşmış xidmətlər nümayiş olunur.*

*Fransa «BakuTel–2017» sərgisində 4 şirkətlə təmsil olunur. Bunlar qlobal proqram hazırlığı üzrə dünyada tanınmış şirkətlərdir. Eyni zamanda, Fransa stendlərində sənaye üçün qabaqcıl texnologiyalar, batareyaların hazırlanması və quraşdırılması, həmçinin yaşayış və qeyri-yaşayış binaları, məlumat mərkəzləri, ofis məkanları üçün şəbəkə avadanlığı və müşahidə sistemləri təqdim olunur. Bu ölkənin şirkətləri alıcılara təhlükəsiz mobil rabitə həlləri, iOS və Android telefonlarının zənglərini, mobil məlumat axınlarını, mesajların, elektron və poçt mübadiləsini şifrələyən sistemlərini təklif edir.*

*«BakuTel–2017» sərgisində iştirak edən ölkələr arasında Sloveniya da vardır. Bu ölkə 10 ildən artıqdır ki, «BakuTel» sərgisində iştirak edir. Sloveniya pavilyonunda İKT avadanlıqları, yeni texnologiyalar nümayiş olunur. Stendlərdə rabitə, dəmir yolu, energetika, təhlükəsizlik sahələrində İKT məhsulları barədə məlumat verilir.*

*Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Türkiyə Respublikasının pavilyonuna gəldilər. Türkiyə digər sərgilərdə olduğu kimi, «BakuTel–2017»də də geniş təmsil olunur. Qardaş ölkənin ümumilikdə 4 aparıcı şirkəti burada*

*məhsullarını təqdim edir. Bu məhsullar arasında peyk sistemləri, rabitə, mobil və milli poçt operatorlarının xidmətləri yer alıb. Türkiyə bu sərgiyə böyük maraq göstərir və hər il şirkətlərin təklif etdiyi xidmət və məhsulların çeşidi artır.*

*Kanada artıq 8 ildir ki, «BakuTel» sərgisində təmsil olunur. Budəfəki sərgidə Kanadanın 5 şirkəti simsiz, məlumat və sabit kommunikasiya şəbəkələri, telekommunikasiya cihazları ilə bağlı məhsullarını nümayiş etdirir.*

*«BakuTel–2017»nin fəal iştirakçıları arasında İran İslam Respublikası da vardır. İranın 9 şirkəti sərgidə intellektual məhsullarını nümayiş etdirir. Yüksək səviyyəli bu məhsullar böyük maraqla qarşılanır. Burada əsasən startap layihələri barədə məlumat verilir. İran şirkətlərinin də «BakuTel» sərgisinə marağı ildən-ilə daha da artır.*

*Gürcüstanın 4 şirkəti «BakuTel–2017»də məhsullarını təqdim edir. Bu şirkətlər inşaat sənayesi üçün innovativ platformalar və İKT layihələri, startap və interaktiv dil öyrənmək üçün tətbiq ilə bağlı məhsullarını nümayiş etdirir.*

*İtaliya–Azərbaycan Ticarət Palatasının da sərgidə stendi vardır. Burada telekommunikasiya, naviqasiya, Yerin fəzadan müşahidəsi, ətraf mühitin idarə edilməsi, kəşfiyyat, elm və orbital infrastrukturlar üçün yüksək texnologiyalar üzrə həllər sahəsində 40 illik təcrübəsi olan İtaliya şirkəti məhsullarını nümayiş etdirir. Şirkət ölkəmizlə İKT sahəsində əməkdaşlıqda maraqlıdır.*

*Xorvatiya da «BakuTel» sərgisinə böyük maraq göstərir. Sərgidə bu ölkənin 5 şirkəti «bulud» və üztanıma texnologiyaları, mehmanxanalar, səhiyyə müəssisələri, aviasiya sənayesinin idarə edilməsi üçün proqram təminatı təqdim edir.*

*Birləşmiş Ərəb Əmirliklərinin stendində İT aktivlərinin ömrünü uzatmağa imkan verən məlumat mərkəzləri üçün texniki xidmətlər təklif olunur. Burada, həmçinin video, audio və məlumat siqnallarının qəbulu və yayılması üzrə texnologiyalar maraqla qarşılanır.*

*«Bestcomp» Cənubi Qafqaz və Orta Asiyanın İKT üzrə aparıcı şirkətidir. 2017-ci ildə şirkət ABŞ-ın Çikaqo şəhərində ilin ən yaxşı tərəfdaşı seçilibdir. Sərgidə şirkətə məxsus innovativ həllər nümayiş etdirilir. Həmçinin Mingəçevir Yüksək Texnologiyalar Parkının rezidenti olan «Htech İnvest» şirkətinin Azərbaycanda istehsal etdiyi «Acer» kompüterləri təqdim olunur. Sərgidə iştirak edən «AzQtel» Məhdud Məsuliyyətli Cəmiyyət Azərbaycanda 4G texnologiyası əsasında genişzolaqlı mobil internet xidməti göstərən operatordur. «Sazz» internet brendi ilə tanınan şirkət ölkənin ən böyük internet provayderlərindən biridir. Abşeron yarımadasında, eləcə də digər şəhərlərdə simsiz, limitsiz və yüksəksürətli internet təqdim etmək məqsədilə şirkət sərgidə ən son texnologiyaları nümayiş etdirir.*

*«Huawei» şirkəti Azərbaycan bazarına 2002-ci ildə daxil olub. 2004-cü ildə şirkətin ölkəmizdə nümayəndəliyi, 2011-ci ildə isə filialı təsis edilibdir. «Huawei» hər zaman İKT sənayesinin inkişafını təbliğ etməyi, ticarət və mədəniyyət əlaqələri mövzusunda yardımçı olmağı qarşısına məqsəd qoyub. İndiyədək şirkət Azərbaycandakı bütün əsas telekommunikasiya operatorları ilə əməkdaşlıq qurub və əhalinin təxminən yarısını əhatə edən telekommunikasiya şəbəkəsi yaradıbdır.*

*«Nokia» şirkəti də «BakuTel–2017» sərgisində təmsil olunur. Şirkət bütün dünyanı birləşdirən texnologiyalar hazırlayır və «Nokia Bell» laboratoriyalarının tədqiqat və innovasiyasından istifadə edərək, xidməti provayderlərini, iri müəssisələri və istehsalçıları ən mükəmməl və fasiləsiz İKT xidmətləri ilə təmin edir.*

*Dövlət başçısı «Microsoft» korporasiyasının stendi ilə də tanış oldu. «Microsoft» 1975-ci ildə təsis olunub və proqram təminatı istehsalında dünya lideridir. Korporasiya geniş çeşidli proqram məhsulları hazırlayır və istehsal edir. Onların arasında stolüstü və şəbəkə əməliyyat sistemləri, müştəri–server əlaqələri üçün server tətbiqləri vardır. Şirkət ölkəmizdə 2005-ci ildən fəaliyyət göstərir.*

*Sonra dövlət başçısı İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva Bakı Ekspo Mərkəzinin foyesində «Azərmarka» tərəfindən 25 il ərzində dövriyyəyə buraxılan ən maraqlı poçt markalarından ibarət fotoqalereyaya baxdılar.*

## BAKI–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ MAGİSTRALININ 45–202 KİLOMETRLİK HİSSƏSİNDƏ TİKİLƏCƏK AVTOMOBİL YOLUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*7 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonuna səfəri zamanı, Bakı–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45–202 kilometrlik hissəsində tikiləcək yeni yolun təməlqoyma mərasimində iştirak etmişdir.*

*«Azəravtoyol» ASC-nin sədri Saleh Məmmədov dövlət başçısına avtomobil yolunun layihəsi barədə məlumat verdi.*

*Bildirildi ki, layihə çərçivəsində Bakı–Rusiya Federasiyası ilə dövlət sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən başlayaraq, Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən Gəndob yaşayış məntəqəsinə qədər 97 kilometr uzunluğunda, oradan da Rusiya Federasiyası sərhədinə doğru 22 kilometr yeni yolun tikintisi nəzərdə tutulur. Beləliklə, 4 hərəkət zolaqlı yeni yolun uzunluğu 119 kilometr, eni 15 metr olacaqdır. 119-cu kilometrdən sərhədə doğru 38 kilometr uzunluğunda yeni yolun tikintisi isə davam edir. Yolun H.Z.Tağıyev qəsəbəsindən başlayaraq, Gəndob yaşayış məntəqəsinə qədər olan hissəsinin 1-ci texniki dərəcəyə uyğun tikilməsi nəzərdə tutulur. Yola hər hansı bir maneənin çıxmasının qarşısını almaq üçün körpü və birləşmələr inşa ediləcək, yol hər iki tərəfdən çəpərlənəcəkdir. Əsas qəsəbə və rayon mərkəzlərindən magistrala giriş-çıxış yolları çəkiləcəkdir. Bu işlər tam başa çatdıqdan sonra yolun ümumi uzunluğunun 157 kilometr təşkil edəcəyi gözlənilir. Layihələndirilən magistral yol*

*əsasən yaşayış məntəqələrindən və sənaye müəssisələrindən kənar keçir. Tikiləcək yolun ətraf mühitə, o cümlədən faunaya mənfi təsirini azaltmaq məqsədilə heyvanlar üçün yolaltı keçidlərin tikintisi və səsboğucu qurğuların quraşdırılması nəzərdə tutulur.*

*Qeyd edək ki, 2005-ci ildə Azərbaycan «Şimal–Cənub» Beynəlxalq Nəqliyyat Dəhlizi haqqında Sazişə qoşulub. Bu dəhliz Avropa ölkələrinin, Rusiyanın, Orta Asiya və Qafqaz regionlarının körfəz ölkələrinə və Hindistana çıxışına, Xəzəryanı ölkələrin Qara dəniz limanları ilə ticarət əlaqələrinin intensivləşdirilməsinə şərait yaradır. Dəhlizin Azərbaycan ərazisindən keçən avtomobil yollarının uzunluğu 520 kilometrdir. Bunlardan, Bakı–Quba–Rusiya sərhədi istiqamətində yolun uzunluğu 208 kilometr, Bakı–Ələt–Astara yolunun uzunluğu isə 312 kilometrdir. Qeyd edilən mövcud yolların yaşayış məntəqələrindən keçməsi sürət həddinin aşağı, vaxt sərfiyyatının çox olmasına səbəb olur. Yaşayış məntəqələrindən keçmədən, mövcud yollara alternativ yolların tikintisi magistral yollarda nəqliyyatın sıxlığını aradan qaldırmaq, ölkədə avtomobil yolları şəbəkəsinin müasirləşdirilməsi və genişləndirilməsi, avtomobil yolları istifadəçilərinə yüksək xidmət göstərilməsi, yollarda yüksək sürət rejiminin və təhlükəsizlik tələblərinin təmin edilməsi məqsədi daşıyır. Belə ki, yüksək standartlara və normativlərə uyğun olan avtomobil yollarında maksimal sürət həddi olacaq, bu yollarda nəqliyyat vasitələri daha rahat və təhlükəsiz hərəkət edə biləcəkdir.*

*Sonra dövlət başçısı yeni yolun təməlini qoydu.*

## QUBA RAYONUNA SƏFƏR

*7 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonuna səfərə gəlmişdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva əvvəlcə ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydular.*

*Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev dövlət başçısına abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

### Quba «ASAN həyat» kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 7-də Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin Quba «ASAN həyat» kompleksinin açılışında iştirak etmişlər.*

*Dövlət başçısı və xanımı kompleksin rəmzi açılışını bildirən lenti kəsdilər.*

*Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıbdır. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin edilib. Bu xidmətlər bürokratik əngəlləri və mümkün korrupsiya hallarını aradan qaldırır. 2012-ci il iyulun 13-də bu sahədə daha mühüm islahata imza atıldı. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində olan «ASAN xidmət» mərkəzləri yaradıldı. Bu qurumun yaradıl-*

*masında məqsəd vətəndaşlara birbaşa xidmət göstərəcək «ASAN xidmət» mərkəzlərinin vahid şəkildə idarə edilməsi idi. Buraya xidmət mərkəzlərində fəaliyyət göstərən dövlət orqanları əməkdaşlarının işinin əlaqələndirilməsi, nəzarət və qiymətləndirmənin aparılması, dövlət orqanlarının informasiya bazalarının qarşılıqlı inteqrasiyası, elektron xidmətlərin təşkili prosesinin sürətləndirilməsi və bu sahədə idarəetmə sisteminin təkmilləşdirilməsi daxildir. 2012-ci ildən başlayaraq, Bakının bir neçə rayonunda «ASAN xidmət» sakinlərin istifadəsinə verildi. Daha sonra bu proses regionları da əhatə etməyə başladı. Hazırda bu mərkəzlərə daxil olan müraciətlər arasında şəxsiyyət vəsiqələrinin alınması və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, notariat fəaliyyəti, eləcə də miqrasiya və əmlak məsələləri ilə bağlı olanlar üstünlük təşkil edir. Əgər əvvəllər «ASAN xidmət» mərkəzlərində 23 hüquqi xidmət həyata keçirilirdisə, indi 10 dövlət orqanı tərəfindən 32 növ xidmət göstərilir. Eyni zamanda, özəl şirkət və müəssisələr tərəfindən vətəndaşlara 250-yə yaxın müxtəlif xidmətlər göstərilir. Bütün bunlar dövlət qulluqçusu–vətəndaş münasibətlərində yeni yanaşmanın formalaşmasında Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin mühüm tərkib hissəsidir.*

*Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin beynəlxalq əlaqələri də vardır. Artıq Azərbaycanın «ASAN xidmət» modeli əsasında Əfqanıstanda dövlət xidmətlərinin göstərilməsi sahəsində eyniadlı qurum «Asan Khedmat» təsis edilibdir. Bundan başqa, İtaliya, Koreya Respublikası, Fransa, İndoneziya və İSESKO təşkilatı ilə əməkdaşlığa dair «Anlaşma Memorandumu» imzalanıbdır. 2014-cü ildə «ASAN xidmət» İSO 9001:2008 və OHSAS 18001:2007 standartı üzrə beynəlxalq dərəcəli sertifikatlara layiq görülübdür. «ASAN xidmət», həmçinin Britaniya Əməyin Mühafizəsi Şurası tərəfindən beynəlxalq müsabiqənin qalibi olubdur. «ASAN xidmət» 2015-ci il BMT-nin «Dövlət xidmətlərinin göstərilməsinin təkmilləşdirilməsi» kateqoriyasında 1-ci yerə layiq görülərək, xüsusi mükafat və diplomla təltif olunubdur. Bu faktların özü bir daha*

*təsdiqləyir ki, Azərbaycan brendi olan «ASAN xidmət»ə dünyada böyük maraq vardır.*

*Prezidentin hüquq-mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi, şöbə müdiri Fuad Ələsgərov və Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov dövlət başçısına Quba «ASAN həyat» kompleksi barədə ətraflı məlumat verdilər.*

*Bildirildi ki, bu kompleks Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sayca 12-ci mərkəzidir. Şəhərin Heydər Əliyev prospektində yerləşən, öz möhtəşəmliyi ilə seçilən Quba regional «ASAN həyat» kompleksinin tikintisi yüksək səviyyədə həyata keçirilib. Kompleksin tikintisinə bu ilin əvvəlində başlanılıb. Kompleks 4 mərtəbəli inzibati binadan və 6 ictimai iaşə obyektindən ibarətdir. Burada «ASAN xidmət» Mərkəzi, «ASAN təlim» Mərkəzi, ABAD Mərkəzi, ABAD məktəbi yaradılıb.*

*Dövlət başçısı mərkəzlə tanış oldu. Kompleksin «ASAN xidmət» Mərkəzində Ədliyyə, Daxili İşlər, Vergilər, İqtisadiyyat, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Əmlak Məsələləri Dövlət Komitəsi, Dövlət Gömrük Komitəsi, Dövlət Miqrasiya Xidməti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Milli Arxiv İdarəsi, ümumilikdə 10 dövlət orqanı tərəfindən vətəndaşlara 32 növ xidmət göstəriləcəkdir. Mərkəzdə 112 növ funksional yardımçı xidmətlər, o cümlədən bank, sığorta, hüquqi yardım, tərcümə və digər xidmətlər təşkil ediləcəkdir. Mərkəzdə çalışacaq əməkdaşların sayı 170, könüllülərin sayı isə 45 nəfərdir. Quba «ASAN xidmət» Mərkəzi Quba, Qusar, Xaçmaz və Şabran rayonları ərazisində qeydiyyatda olan 500 minə yaxın vətəndaşa xidmət göstərəcəkdir.*

*Dövlət başçısı Quba «ASAN xidmət» Mərkəzini işə saldı.*

*Bildirildi ki, bu günə kimi «ASAN xidmət» mərkəzlərinə daxil olan müraciətlərin sayı 18 milyon 600 minə çatıb. Regionlarda 10 səyyar «ASAN xidmət» avtobusu və səyyar «ASAN qatar» vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi davam etdirilir.*

*2013-cü ilin iyun ayından etibarən təqribən 1 milyon 250 min vətəndaşa səyyar formada xidmət göstərilib.*

*Prezident İlham Əliyevə «Ready 2.0» avadanlığı haqqında məlumat verildi. Bu avadanlıq «ASAN xidmət» mərkəzlərində hazır sənədlərin vətəndaşlara avtomatlaşdırılmış qaydada verilməsi üçün hazırlanmış cihazın yeni versiyasıdır. Mərkəzdə kommunal xidmətlərin göstərilməsi üçün ayrıca bölmə yaradılıb. Burada «Azərişıq» ASC, «Azərsu» ASC və «Azəriqaz» İB tərəfindən xidmətlər təqdim olunacaqdır. Qeyd edildi ki, paytaxt Bakıda fəaliyyət göstərən 2 «ASAN kommunal» xidmətində bu günədək 217 min vətəndaş müraciəti qeydə alınıbdır.*

*Mərkəzlə tanışlıq zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya yeni layihələr barədə də məlumat verildi.*

*Bildirildi ki, «ASAN viza 2.0» sistemi Azərbaycan vətəndaşları üçün xarici ölkələrə səfər vizalarının alınmasına elektron müraciətin təmin edilməsi üçün yaradılıb. Bu ilin yanvar ayından 260 min elektron viza verilib. Bu, ötən illə müqayisədə 5 dəfə çoxdur. Bu ilin 9 ayı ərzində verilən vizaların 35 faizdən çoxu «ASAN viza» vasitəsilə verilib. Əcnəbilərə göndərilən rəy sorğularına əsasən, məlum olub ki, onlar Azərbaycana gəlmək və burada göstərilən xidmətlərə görə ölkəyə 4,6 bal veriblər. Bu da kifayət qədər yaxşı göstəricidir. Bu sistem vasitəsilə gələcəkdə Azərbaycan vətəndaşlarının da xarici ölkə səfirliklərindən viza alması prosedurlarının həyata keçirilməsi planlaşdırılır.*

*Yeni layihələrdən biri də doğum evlərində körpələrə fərdi identifikasiya nömrələrinin verilməsinin təmin edilməsi üçün aparılan inteqrasiya işləridir. Bildirildi ki, 2017-ci ilin yanvarından etibarən 118500 yeni doğulmuş uşağa fərdi identifikasiya nömrələri verilib. Bununla əlaqədar bütün tibb müəssisələri və vətəndaş vəziyyəti aktlarının qeydiyyatı şöbələri sistemə qoşulubdur.*

*«Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu»nun təqdimatı zamanı bildirildi ki, 10 tanınmış beynəlxalq şirkət tərəfindən təsis edilmiş konsorsium Azərbaycanın etibarlı və*

*çevik qlobal tərəfdaşı olmaq niyyətini əks etdirir. Konsorsiumun əsas missiyası Azərbaycandan qlobal bazara innovativ və rəqabətədavamlı keyfiyyətli məhsullarla xidmətləri təqdim etməkdir. Konsorsium dəyişən iqtisadiyyat şəraitində dövlətlərin, müəssisələrin, biznes qurumlarının maraqlarına uyğun olaraq, yenilikçi həllərin təmin edilməsi üçün etibarlı qlobal tərəfdaşa çevrilməyi hədəfləyir. Bundan əlavə, beynəlxalq bazara ölkəmizdə tətbiq edilən innovativ məhsulları və xidmətləri təqdim edərək, sahibkarlıq fəaliyyətinə dəstək verməyi qarşıya məqsəd qoyan konsorsium artıq bir sıra dövlətlərlə əməkdaşlıq danışıqları aparır və beynəlxalq nümayəndəliklərinin yaradılmasına başlayıbdır.*

*Maliyyə xidmətlərinin «bir pəncərə» prinsipi ilə təqdim edilməsi üçün isə «ASAN finance» elektron portalının yaradılması nəzərdə tutulur ki, bu portal vasitəsilə iş yeri və gəlirlər, kreditlər barədə informasiyaların əldə olunması, müraciətlərin göndərilməsi və ödənişlərin edilməsi həyata keçiriləcəkdir. Bununla da vətəndaşlar üçün maliyyə xidmətləri vahid məkanda cəmlənəcəkdir. Bank xidmətlərindən əlavə, sığorta xidmətlərinin göstərilməsi, kiçik və orta sahibkarlığın kreditləşdirilməsi, təhsil haqqı üzrə kredit müraciətlərinin təmin edilməsi mümkün olacaqdır. Maliyyə qurumları üçün isə dövlət informasiya sistemlərindən məlumatların avtomatik rejimdə əldə olunması asanlaşacaqdır.*

*Dövlət başçısına «Tikilməkdə olan çoxmənzilli yaşayış binalarının və həmin tikinti obyektlərinin inşası ilə məşğul olan fiziki və hüquqi şəxslərin Elektron reyestri» barədə də məlumat verildi. Burada reyestrin funksional imkanları, fəaliyyəti və tikinti sahəsində qeyri-rəsmi əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı tikinti şirkətlərində səyyar monitorinqlərin keçirilməsinin nəticələri əks olunub. Bildirildi ki, 2018-ci ildə Şəki, Mingəçevir şəhərlərində və İmişli rayonunda regional «ASAN həyat» komplekslərinin istifadəyə verilməsi planlaşdırılır.*

*Prezident İlham Əliyevə növbəti illərdə inşası və istifadəyə verilməsi nəzərdə tutulan digər «ASAN xidmət» mərkəzlərinin layihələri də təqdim olundu.*

*Qeyd edək ki, «ASAN həyat» konsepsiyası «ASAN xidmət» Mərkəzi ilə yanaşı, ictimai iaşə obyektlərinin istifadəyə verilməsini də nəzərdə tutur. Belə ki, vətəndaşlar operativ və nümunəvi xidmətlə yanaşı, bu konseptin istirahət və əyləncə imkanlarından da istifadə edə biləcəklər. «ASAN həyat» kompleksi vətəndaşın rahatlığı üçün həyat standartlarının yaxşılaşdırılmasına xidmət edən müxtəlif halları əhatə edir.*

*Quba «ASAN həyat» kompleksinin kinoteatrında Azərbaycan filmləri ilə yanaşı, xarici ölkələrin filmləri də nümayiş etdiriləcəkdir. Burada, həmçinin yay kinozalı da yaradılıb. «ASAN təlim» Mərkəzində isə «ASAN xidmət» mərkəzlərində fəaliyyət göstərən əməkdaşlara, digər dövlət orqanları və funksional xidmət əməkdaşlarına «ASAN» təcrübəsi əsasında formalaşmış vətəndaş axınının idarə olunması, etik davranış və digər təlimlərin keçirilməsi təmin olunacaqdır.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin ABAD Mərkəzində də oldular.*

*ABAD publik hüquqi şəxsin direktoru Rüfət Elçiyev məlumat verdi ki, kompleksdəki ABAD Mərkəzinin əsas məqsədi şimal regionunda yeni ailə brendləri yaratmaq, ailə təsərrüfatlarının məhsullarının daxili və xarici bazarda satışını təşkil etmək, özünüməşğulluq proqramının icrasına dəstək göstərməkdir.*

*Sonra dövlət başçısı ABADçı ailələrin hazırladıqları yeni məhsullara baxdı.*

*Qeyd edildi ki, ABAD publik hüquqi şəxs tərəfindən Azərbaycanın 19 şəhər və rayonundan sənətkarlıqla bağlı 143, kənd təsərrüfatı sahəsi üzrə isə 24 ailə seçilibdir. Bu günədək Masallıda 6, Balakəndə 12 ailəyə monoblok-konteyner şəklində zəruri istehsal avadanlıqları təqdim olunubdur. ABADa qoşulan ailələrin məhsullarının sərgi-satışını həyata keçirmək üçün İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu ərazisi, Heydər Əliyev Beynəlxalq*

*Aeroportu, Bakı Dəmir Yolu Vağzalı, Şamaxının Dəmirçi kəndində ABAD sərgi-satış mərkəzləri yaradılıbdır. Hazırda ABAD sərgi-satış mərkəzlərində 167 ABADçı ailənin ümumilikdə 1900-dək çeşiddə əl işləri, 25 çeşiddə ərzaq məhsulları təqdim olunur.*

*ABAD məktəbində isə xalçaçılıq, tətbiqi incəsənət və nəzəri kurslar olmaqla, 3 istiqamət üzrə dərslər keçiriləcəkdir. Məktəbdə şimal regionunda dekorativ-tətbiqi xalq sənətkarlığı ilə məşğul olan ABADçı ailələrin sayının artırılması istiqamətində iş aparılacaq, təlimlər keçiriləcək, o cümlədən ərzaq məhsullarının istehsalı ilə məşğul olan ailə təsərrüfatları üçün biznes-planlaşdırma, marketinq, maliyyə-mühasibat kimi sahələrdə nəzəri kurslar təşkil olunacaqdır.*

*Quba «ASAN həyat» kompleksinin ərazisində geniş abadlıq-quruculuq işləri aparılıb. Ümumi sahəsi 1,58 hektar olan kompleksin ərazisində fəvvarə, avtomobillər və avtobuslar üçün dayanacaq tikilib, park və uşaq oyun meydançası yaradılıbdır.*

*Prezident İlham Əliyev Quba «ASAN həyat» kompleksinin əməkdaşları ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Quba rayonunun həyatında çox əlamətdar bir gündür. Qubada «ASAN xidmət» Mərkəzi fəaliyyətə başlayır. Bu münasibətlə sizi ürəkdən təbrik edirəm, sizə uğurlar arzulayıram.

Qubada «ASAN xidmət» Mərkəzinin yaradılması çox gözəl hadisədir. Bu, sayca 12-ci mərkəzdir. Mərkəzlərdən 5-i Bakıda yaradılıb, 7-si də Quba daxil olmaqla, digər bölgələrdə. «ASAN xidmət» artıq 5 ildir ki, fəaliyyət göstərir. 5 il ərzində Azərbaycan xalqının rəğbətini qazana bilibdir. Bu illər ərzində «ASAN xidmət» mərkəzlərinə 18 milyondan çox müraciət daxil olubdur və «ASAN xidmət»in fəaliyyətini bəyənmə əmsalı 100 faizə yaxındır. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, bu doğrudan da ictimai xidmətlər sahəsində böyük bir inqilab-

dır. «ASAN xidmət» Azərbaycan brendidir, Azərbaycanın intellektual məhsuludur. O məhsul ki, bu gün biz onu xaricə ixrac edirik. Bir neçə ölkə «ASAN xidmət»lə maraqlanır. Bizim «ASAN xidmət» bir neçə ölkə ilə müvafiq sənədlər imzalayıb və artıq bir neçə ölkədə «ASAN xidmət» mərkəzləri yaradılır.

«ASAN xidmət» beynəlxalq təşkilatlar tərəfindən də çox yüksək qiymətə layiq görülüb. BMT ictimai xidmətlər sahəsində «ASAN xidmət»ə yüksək mükafat veribdir. Bir neçə mötəbər beynəlxalq təşkilat artıq «ASAN xidmət»lə uğurlu əməkdaşlıq edir.

Bildiyiniz kimi, stasionar mərkəzlərlə yanaşı, 10 avtobus səyyar xidmət göstərir, «ASAN qatar» xidməti artıq fəaliyyətə başlayıbdır. Əlbəttə, biz çalışmalıyıq ki, gələcək illərdə ölkəmizin hər bir yerində «ASAN xidmət» mərkəzləri olsun. İstəyirəm bizim ictimaiyyət onu da bilsin ki, gələn il 3 «ASAN xidmət» Mərkəzinin açılışı nəzərdə tutulur – Mingəçevir, Şəki və İmişli şəhərlərində. Gələn il 5 mərkəzin tikintisinə start veriləcəkdir və 2019-cu ildə onların açılışı nəzərdə tutulur. Biz istəyirik ki, 2019-cu ilin sonuna qədər ölkəmizdə 20 «ASAN xidmət» Mərkəzi fəaliyyət göstərsin. Beləliklə, «ASAN» bütün bölgələrə gəlir, hər bir vətəndaşa çox gözəl xidmət göstərir. «ASAN»ın öz davranış qaydaları vardır.

Şadam ki, «ASAN»da çalışanların mütləq əksəriyyəti gənclərdir və bu mərkəzdə 170 gənc işlə təmin olunub, 40-dan çox könüllü fəaliyyət göstərəcəkdir. 5 il ərzində 10000-dən çox könüllü «ASAN xidmət»də fəaliyyət göstəribdir. Yüzlərlə könüllü artıq işlə təmin olunubdur. Azərbaycanda könüllülər hərəkatına təkan verən də «ASAN» olubdur. Həmin könüllülər ölkəmizdə keçirilmiş mötəbər beynəlxalq yarışlarda – Avropa oyunlarında, İslam Həmrəyliyi oyunlarında böyük xidmətlər göstəriblər. Ümumiyyətlə, könüllü olmaq çox böyük və şərəfli missiyadır. Bu, insanın niyyətini göstərir. Onu göstərir ki, insan öz vətəndaşlarına təmənnasız gözəl xidmət göstərməyə çalışır. Hesab edirəm ki,

ölkəmizdə «ASAN xidmət»ə, o cümlədən könüllülərin fəaliyyətinə görə çox böyük rəğbət vardır.

Biz «ASAN»ın funksiyalarını genişləndiririk və mənim tərəfimdən müvafiq sərəncamlar imzalanıbdır. «ASAN xidmət» fəaliyyətə başlayanda sadəcə olaraq, ictimai xidmətlər göstərirdi. Bu gün artıq «ASAN kommunal», «ASAN viza», ABAD mərkəzləri yaradılır. O sahələrdə ki, ölkə üçün prioritet sayılır. O sahələrdə ki, qüsurlar, nöqsanlar vardır.

Bilirsiniz ki, biz indi turizmin inkişafı ilə çox ciddi məşğuluq və bu ilin 10 ayında Azərbaycana gələn turistlərin sayı 20 faiz artıbdır. Keçən il 24 faiz artmışdır. Turistlərin gəlişini əngəlləyən əsas məsələ viza məsələsi idi. Mən əvvəlki dövrlərdə müvafiq dövlət qurumlarına dəfələrlə ciddi tapşırıqlar vermişdim ki, viza məsələsində çox ciddi islahatlar aparılmalıdır. Ancaq o islahatlar yarımçıq qalmışdı. Biz bu məsələni «ASAN»a tapşırdıq. Bu gün mənə məlumat verildi ki, bu ilin əvvəlindən 250 min xarici vətəndaş «ASAN viza»dan istifadə edərək, ölkəmizə gəlmişdir. Kommunal ödənişlər sahəsində çox böyük problemlər, çatışmazlıqlar, qüsurlar var idi. İndi «ASAN kommunal» çox gözəl xidmət göstərir. Kiçik biznesin, ailə biznesinin inkişafı ölkə iqtisadiyyatı üçün çox böyük əhəmiyyət daşıyır. İnkişaf etmiş ölkələrin ümumi daxili məhsulunda əsas payı məhz kiçik və orta sahibkarlıq təşkil edir. Ona görə Azərbaycanda bu sahəyə təkan vermək üçün ABAD mərkəzləri yaradılır. O mərkəzlərin, fermerlərin, ailə təsərrüfatlarının məhsulu bu gün burada nümayiş etdirilir.

Bir müddət bundan əvvəl göstəriş vermişəm ki, qanunsuz məşğulluqla daha da səmərəli şəkildə mübarizə aparılmalıdır. Bu bizi daim narahat edən məsələlərdən biridir. Azərbaycanda işsizliklə bağlı görülən tədbirlər işsizliyi kəskin şəkildə aşağı salıbdır. Amma belə bir vəziyyətlə üzləşdik ki, indi qanunsuz məşğulluq problemə çevrilibdir. İnsanlar işlə təmin edilir, amma heç bir qeydiyyata düşmür, vergi ödəmir və gələcəkdə sosial təminatdan, pensiya təminatından məhrum olurlar. Biz bu vəzifəni «ASAN»a tapşırandan sonra çox gözəl sistem

yaradıldı. Tikintilərdə qanunsuz çalışan 5000 insan artıq cəmi bir neçə ay ərzində əmək müqavilələri əsasında işləməyə başladı. 5000 böyük rəqəmdir. Nəzərə alsaq ki, Bakıda gedən tikintilərdə 13 min insan çalışır, onların da 5000-i qanunsuz işləyirdi. İndi onlar əmək müqavilələri bağlayıblar, dövlətə vergi ödəyəcəklər və gələcəkdə onların iş stajı olacaq, pensiya da alacaqlar. Yəni harada ki, nöqsanlar, çatışmazlıqlar var, «ASAN» belə məsələlərin həllində ön cəbhədədir.

«ASAN xidmət» korrupsiyaya, rüşvətxorluğa qarşı ən səmərəli vasitədir. Əlbəttə, bu bəla ilə bütün ölkələr mübarizə aparmalıdır, o cümlədən Azərbaycan. Biz mübarizə aparırıq, cəza tədbirləri, inzibati tədbirlər görülür. Amma ən çox effekt verən, ən səmərəli tədbirlər sistem xarakterli tədbirlərdir, institusional tədbirlərdir. «ASAN» bu məsələni də öz üzərinə götürüb. Bütün dövlət qurumlarında vətəndaşlara münasibət, öz işinə məsuliyyətli yanaşma «ASAN»dakı kimi olmalıdır. «ASAN» bu gün təkcə Azərbaycanı tanıtdıran və təbliğ edən milli brendimiz deyil, «ASAN» bu gün Azərbaycanda yeni, müasir, mədəni, xalqımızın mentalitetinə xas olan dəyərləri tətbiq edir, onları təbliğ edir və beləliklə, ictimai həyatda «ASAN»ın çox böyük rolu vardır.

Əminəm ki, bu mərkəzin çox uğurlu fəaliyyəti olacaqdır. Çünki hər yeni mərkəzdə yeniliklər vardır. Hər dəfə yeni mərkəzin açılışında olarkən yeni ideyalar, innovasiyalar haqqında mənə məlumatlar verilir və hər bir yeni mərkəz daha da geniş funksiyalara malik olur. Əminəm ki, Quba «ASAN xidmət» Mərkəzi bütün vətəndaşlara – təkcə Quba sakinlərinə deyil, ətraf rayonların sakinlərinə də – bu mərkəzdən 500 min əhali istifadə edə bilər – çox yaxşı xidmət göstərəcəkdir. Sizi bu gözəl hadisə münasibətilə ürəkdən təbrik edirəm, minnətdarlığımı bildirirəm və sizə işinizdə böyük uğurlar arzulayıram.

* * *

**T ü n z a l ə  P i r i y e v a** *(«ASAN həyat» kompleksinin əməkdaşı)*: Möhtərəm cənab Prezident!

Hörmətli Mehriban xanım!

Qubaya xoş gəlmisiniz! Sizin təşəbbüsünüzlə artıq bu gün Qubada da «ASAN xidmət» Mərkəzi fəaliyyətə başladı. Bu gün kiçikdən böyüyədək hər bir kəs belə bir mərkəzin – kompleksin Qubada açılmasına çox sevinir. Çünki bu kompleksdə hər kəs üçün – həm uşaqlar, həm gənclər, həm də bütün əhali üçün əyləncə, istirahət və ən əsası, rahat dövlət xidmətləri əldə etmək mümkündür. Bunun üçün Sizə dərin təşəkkürümüzü bildiririk.

Vətəndaşlara daim şəffaflıqla xidmət göstərən, eləcə də ən qabaqcıl innovasiyaları özündə cəmləşdirən «ASAN xidmət» mərkəzləri Sizin qeyd etdiyiniz kimi, Azərbaycan brendidir. Bu məhz Sizin əsərinizdir. Biz bu gün əminliklə deyə bilərik ki, vətəndaşlarımız bu mərkəzlərin xidmətindən tam razıdırlar. Bəyənmə əmsalı da, qeyd etdiyiniz kimi, 100 faiz təşkil edir.

Bu gündən etibarən həm qubalılar, həm də bütün şimal bölgəsinin əhalisi «ASAN həyat» kompleksinin xidmətlərindən rahatlıqla istifadə edəcəklər. Buna görə bir daha qubalılar adından Sizə dərin təşəkkürümü bildirirəm.

Möhtərəm cənab Prezident, mən Qubada böyüyüb boya-başa çatmışam. Səyyar «ASAN»da könüllü olmuşam. Bu gün isə artıq bu mərkəzin işçisiyəm. Mən və bütün gənclərimiz çox gözəl dərk edirik ki, cənab Prezident, Sizin və Mehriban xanımın gördüyü işlər bizim gələcəyimiz üçündür. Sizin sayənizdə biz bu günümüzə və uğurlu gələcəyimizə inanırıq.

Cənab Prezident, biz Sizin siyasətinizi daim izləyirik. Demək olar ki, hər ay Azərbaycanda beynəlxalq əhəmiyyətli tədbirlər keçirilir. Sizin də vurğuladığınız kimi, artıq dünya ölkələri bizdən nələrisə öyrənməyə çalışır. Bu məhz Sizin uğurlu siyasətinizin nəticəsidir. Mən də hər zaman istəmişəm ki, bu uğurlu siyasətin bir parçası olum, bu yöndə azacıq da olsa, öz töhfəmi verə bilim. Siz göstəriş vermisiniz ki, «ASAN» standartları bütün sahələrə tətbiq olunsun. Bu isə bizim – «ASAN» əməkdaşlarının məsuliyyətini

ikiqat artırır. Ona görə də həm öz adımdan, həm əməkdaşlarımız adından Sizə söz verir və əmin edirəm ki, bundan sonra da Sizin uğurlu siyasətinizi daim dəstəkləyəcək və layiqli davamçılarınız olacağıq.

Bir daha Sizə təşəkkürümü bildirirəm.

**İlham Əliyev:** Təşəkkür edirəm, sağ olun.

**Fəxriyyə Balakişiyeva** *(kompleksin əməkdaşı)*: Möhtərəm cənab Prezident! Hörmətli Mehriban xanım!

Mən də Sizi salamlayıram. Bu gün Qubada istifadəyə verilən «ASAN xidmət»lə yanaşı, «Ailə Biznesinə Asan Dəstək» – ABAD Mərkəzi də fəaliyyətə başlayacaqdır. Bu, region sakinlərini hədsiz dərəcədə sevindirir. Çünki sakinlərimizin əksəriyyəti kənd təsərrüfatı ilə, sahibkarlıqla məşğuldur və onların dəstəyə ehtiyacı vardır. Artıq ABAD Mərkəzinin regionumuza gəlməsi nəticəsində həmin şəxslərə dəstək veriləcək, onlar öz zəhmətlərinin qarşılığını görəcək və daha səylə çalışacaqlar.

Eyni zamanda, Quba şəhərində ilk ABAD məktəb də fəaliyyətə başlayacaqdır. Regionumuzda Azərbaycanın adət-ənənələrini özündə əks etdirən və vaxt keçdikcə itməkdə olan kifayət qədər peşə sahələri var ki, məhz ABAD məktəblər sayəsində həmin peşələr təkrar inkişaf edəcək və iqtisadiyyatımıza töhfə verəcəkdir. ABAD məktəbin yaradılması ilə regionumuzun rifahı yüksələcək, vətəndaşlarımızın həyat səviyyəsi daha da yaxşılaşacaqdır.

Sizin də vurğuladığınız kimi, artıq kiçik ailə biznesi ilə məşğul olan şəxslər də, kiçik və orta sahibkarlar da iqtisadiyyata, sosial inkişafa öz töhfələrini verəcəklər. Biz dəfələrlə şahidi olmuşuq ki, hansı regionda «ASAN xidmət» fəaliyyətə başlayıbsa, özü ilə birlikdə yeni bir mədəniyyət də gətirib. Artıq bizim regionumuzda da gənclər daha çox inkişaf edəcək, bölgəmizin sosial proqramlarına qoşulacaqlar. Biz regionumuzun ən böyük Yeni il şənliyinin «ASAN həyat» kompleksində keçirilməsi barədə rayon icra hakimiyyətinə və «ASAN xidmət»in rəhbərliyinə müraciət etmişdik. Müraciətimizə müsbət cavab verildi. Bu biz gəncləri daha çox birləşdirəcək və daha çox sosiallaşdıracaqdır. Artıq əminliklə deyə

bilərik ki, «ASAN xidmət» məhz biz gənclərin mərkəzinə çevriləcəkdir.

Bu gün biz gənc kadrlar olaraq, «ASAN xidmət» Mərkəzində nəinki sadəcə ictimai xidmətlər göstəririk, həmçinin özümüz də dövlət qulluqçusu təlimlərinə cəlb olunuruq. «ASAN»ın 5 əsas prinsipi var – operativlik, şəffaflıq, nəzakətlilik, rahatlıq və məsuliyyətlilik. «ASAN xidmət» mərkəzləri məhz bu prinsipləri əsas tutaraq, yeni nəsil gənc dövlət qulluqçuları yetişdirən bir məktəbə çevrilibdir. Biz də Sizin sayənizdə həmin məktəbin sadiq davamçıları, sadiq dövlət qulluqçuları olmaqdan fəxr edirik. Buna görə, cənab Prezident, Sizə və hörmətli Mehriban xanıma dərin təşəkkürümüzü bildiririk.

## Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 7-də Quba Bayraq Muzeyinin açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, muzeyin inşasına 2017-ci ilin martında başlanılıb və tikinti işləri noyabr ayında başa çatdırılıbdır. Muzey binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Sərgi zalında ümumilikdə 6 bölmə yaradılıb. Burada Azərbaycanın xanlıqlar dövrünün xəritəsi, xanlıqların bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar nümayiş olunur. Muzeydə nümayiş olunan Azərbaycan Xalq Cümhuriyyətinə aid sənədlər, Azərbaycanın SSR və müstəqillik dövrlərində qəbul olunmuş konstitusiyaları, gerblər, bayraqlar, poçt markaları, orden və medallar da böyük maraqla qarşılanır.*

*Muzey Quba Bayraq Meydanında yerləşir. Meydanın ərazisi də abadlaşdırılıb və yaşıllıq sahələri salınıbdır. İndi bu ərazi də şəhərin gözəl və maraqlı yerlərindən birinə çevrilibdir.*

*Belə layihələrin icrası Azərbaycanda dövlət atributlarına yüksək diqqət və qayğını aydın şəkildə nümayiş etdirir, gənc nəsildə vətənpərvərlik hisslərinin daha da artırılmasında mühüm rol oynayır.*

*Azərbaycanda dövlət atributlarına, o cümlədən üçrəngli, ay-ulduzlu bayrağımıza hörmət, sevgi və ehtiram ümummilli lider Heydər Əliyevin bizə ən böyük əmanətidir. Azərbaycanın şanlı bayrağının ucalarda dalğalanması üçün dahi şəxsiyyət tarixi işlər görübdür. Məhz ümummilli liderin səyləri nəticəsində bayrağımız ikinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı ilə bərpa edilərək, muxtar respublikanın Dövlət bayrağı kimi qəbul edilibdir. Prezident İlham Əliyev də dövlət atributlarına xüsusi diqqətlə yanaşır. Təsadüfi deyil ki, bu gün ölkəmizdə həyata keçirilən dövlət siyasətində millilik, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi yer tutur. Bu baxımdan paytaxtla yanaşı, bölgələrimizdə də müvafiq tədbirlər görülür. Belə işlər sırasında Bayraq meydanları və muzeylərinin yaradılmasının böyük əhəmiyyəti vardır. Qubada yaradılan Bayraq Muzeyi də bu mənada xüsusi önəm daşıyır.*

## «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Quba filialının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 7-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Quba filialının açılışında iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva filialın rəmzi açılışını bildirən lenti kəsdilər.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin sədri Vidadi Muradov dövlət başçısı İlham Əliyevə və xanımı Mehriban Əliyevaya burada görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, «Azərxalça» ASC-nin Quba filialının binasının ümumi sahəsi 1300 kvadratmetrdir. Burada 150 toxucu və 12 inzibati-*

*təsərrüfat işçisi çalışacaqdır. Bina toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanadakı müxtəlifölçülü 43 dəzgahda əsasən Quba, Qusar, Xaçmaz, Siyəzən, Şabran rayonlarının kəndlərində hazırlanmış tarixi və orijinal Şirvan çeşniləri əsasında xalçaların toxunmasına üstünlük veriləcəkdir. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikanın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıbdır. Emalatxana zəruri xammal və ləvazimatlarla – müxtəlif rəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilibdir.*

*Dövlət başçısına məlumat verildi ki, buradakı toxucular Quba şəhərinin və rayonun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın hazırlıq-tədris kurslarında iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları «Azərxalça» ASC-nin tədris sertifikatını alacaqlar. Filialın xalça-satış salonunda isə «Azərxalça» ASC-də toxunan xalça və xalça məmulatlarının sərgisi və satışı həyata keçiriləcəkdir.*

*Qeyd edək ki, Azərbaycan xalçaları bütün dövrlərdə dünyanı heyran qoyub. Bu baxımdan milli naxışlarımızın şöhrəti dünyanı qarış-qarış gəzib, daim böyük diqqətə səbəb olubdur. Buna görə də hazırda Azərbaycanda xalçaçılığın inkişafına xüsusi diqqət yetirilir. Dövlət başçısının həmin sahənin daha da inkişafı ilə bağlı qəbul etdiyi qərarlar isə bu baxımdan xüsusilə əhəmiyyətlidir. Prezident İlham Əliyevin sərəncamı ilə «Azərxalça» ASC-nin yaradılması bu istiqamətdə dövlət tərəfindən görülən işlərin məntiqi davamıdır. Bu qurumun əsas məqsədi xalça və xalça məmulatlarının istehsalı, ixracı, onların ölkə daxilində və xaricdə satışının təşkilidir. Bununla yanaşı, «Azərxalça» ASC xalça və xalça məmulatlarının istehsalında yeni texnologiyaların tətbiqi, maddi-texniki bazanın müasirləşdirilməsi və ondan səmərəli istifadə, habelə bu sahənin inkişafı ilə bağlı digər işlərin yerinə yetiril-*

*məsini də qarşısına məqsəd qoyub. İlkin mərhələdə «Azərxalça»nın bir neçə rayonda filiallarının yaradılması nəzərdə tutulurdu. ASC-nin ilkin mərhələdə yaradılması nəzərdə tutulan 10 filialından ikisi – Füzuli və Şəmkir rayon filialları artıq tam gücü ilə fəaliyyət göstərir. Hər iki filialın Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilməsi dövlət başçısının bu sahəyə göstərdiyi diqqətin nümunəsidir. Hazırda digər filialların binalarının tikintisi davam etdirilir. Bundan başqa, yerlərdə «Azərxalça»nın xalçaçılıq üzrə hazırlıq-tədris kursları, ustad dərsləri təşkil edilib, işçi potensialının öyrənilməsi və gücləndirilməsi üçün müvafiq tədbirlər görülübdür. Bütün bu işlər Azərbaycanda xalçaçılığın inkişafına böyük təkan verəcək, həmin sahəni stimullaşdıracaq, gənclər arasında xalçaçılığa olan marağı daha da artıracaqdır.*

*Sonra dövlət başçısı filialın xalçaçıları ilə görüşüb söhbət etdi.*

**İlham Əliyev:** Sizi yeni Xalça fabrikinin açılışı münasibətilə təbrik edirəm. Bu çox gözəl hadisədir. Azərbaycanın qədim xalçaçılıq sənəti vardır. Ölkəmizin müxtəlif bölgələrində özünəməxsus xalçaçılıq əsərləri mövcuddur. Bu da bizim milli sərvətimizdir. Quba da həmişə xalçaçılıq mərkəzlərindən biri olub. Qubanın xalçaları həm ölkəmizin, həm də xarici ölkələrin muzeylərində nümayiş etdirilir. Qubada həmişə çox güclü xalçaçılıq ənənələri olubdur. Hazırda Qubada xalça istehsal edən bir neçə müəssisə fəaliyyət göstərir. Onlardan biri də «Azərxalça»nın bu fabrikidir. Biz «Azərxalça»nı bu yaxınlarda yaratmışıq. Artıq «Azərxalça»nın xətti ilə 10 fabrik istifadəyə verilib. Mən Horadiz və Şəmkir Xalça fabriklərinin açılışlarında olmuşam. Bu gün biz bu fabrikin açılışını qeyd edirik. Eyni zamanda, 7 digər fabrik fəaliyyətdədir. Gələn il isə ölkəmizin müxtəlif yerlərində əlavə 10 Xalça fabriki də açılacaqdır. Beləliklə, 20 yeni Xalça fabriki işə düşəcəkdir.

Bu fabriklərdə işləyənlərin mütləq əksəriyyəti qadınlardır. Burada qadınlar üçün yaxşı iş şəraiti yaradılıbdır. Qadınların məşğulluğu bizim üçün çox vacibdir. Xalçaçılıq qadın sənətidir.

Bəli, qadınlar bu sənəti yaşadırlar. Hər fabrikdə təqribən 150 iş yeri yaradılır və 20 fabrikdə ən azı 3000 qadın işlə təmin olunacaqdır.

Xalçaçılıq bizim milli sərvətimizdir. Siz bu sərvəti qoruyursunuz, bu sənəti yaşadırsınız. Biz də kömək edirik ki, bu sənət daimi olsun və nəsildən nəslə davam etsin.

**X a l ç a ç ı:** Çox sağ olun, bütün bunlar Sizin sayənizdədir. Allah Sizdən razı olsun. Bu sənət bizə nənələrimizdən miras qalıbdır.

**İ l h a m Ə l i y e v:** Bəli, onlar sizi öyrədiblər, siz də gəncləri öyrədirsiniz. Mən burada gəncləri də görürəm. Buna çox sevinirəm. Yəni bu sənətə çox böyük maraq vardır. Ölkəmizin dünyada təbliği işində xalçaçılıq bəlkə də ən öndə gedən sənətlərdən biridir. Xalçaçılıq sənəti iqtisadi cəhətdən də ölkəmizi gücləndirir. Çünki bu, ixrac məhsuludur. Biz çalışmalıyıq və çalışırıq ki, qeyri-neft ixracını artıraq. Əlbəttə, ilk növbədə, sənayenin, kənd təsərrüfatının, eyni zamanda, xalçaçılığın inkişafı bizə belə imkanlar yaradacaqdır.

Sumqayıtda Əyirici-Boyaq fabrikinin açılışına da hazırlaşırıq. Yəni elə etməliyik ki, bütün xammal daxildə istehsal olunsun. Boyalar, iplər, hətta bütün dəzgahlar, yun tədarükü olacaqdır. Ona görə də bugünkü hadisə çox böyük məna daşıyır. Biz gərək xalçaçılığı birlikdə qoruyaq. Sizi təbrik edirəm.

**X a l ç a ç ı:** Cənab Prezident, çox hörmətli Mehriban xanım, Sizi Qubada görməyimizə çox şadıq. Xoş gəlmisiniz! Biz çox sevinirik ki, Quba rayonunda çoxlu müəssisələr, iş yerləri açmısınız, çox səy göstərmisiniz. Buna görə biz çox sevinirik, Sizə çox minnətdarıq.

Mən özüm 45 ildir toxucuyam, qızım, gəlinlərim də toxucudur, çoxlu sayda yetirmələrim vardır. Hamısı da bu sənəti sevə-sevə davam etdirirlər. Bizə diqqət göstərdiyinizə, belə yüksək şəraitə görə Sizə çox minnətdarıq. Çox sağ olun.

**İ l h a m Ə l i y e v:** Burada gənclər də öyrənirlər?

**X a l ç a ç ı:** Gənclər də öyrənirlər. Bildiyimizi gənclərə öyrədirik, əsirgəmirik.

**İ l h a m Ə l i y e v:** Çox yaxşı.

**G ə n c x a l ç a ç ı:** Cənab Prezidentimiz, hörmətli Mehriban xanım, xoş gəlmisiniz! Çox sağ olun ki, bizim bu gözəl rayonumuza gözəllik qatdınız. Allah Sizdən razı olsun. Bizim gözəl gənclərimiz Sizin sayənizdə toxuculuq müəssisəsinə həvəslə gəlib işləyirlər. Mən özüm gənc toxucuyam, bu kurslara yeni başlamışam. Çox sağ olun ki, bizim üçün belə gözəl, isti, işıqlı şəraiti olan müəssisəni açmısınız. Allah Sizdən razı olsun. Bu gün «ASAN xidmət»imizin də açılışı oldu. Çox sağ olun ki, rayonumuzda belə gözəl şərait yaradırsınız.

**İ l h a m Ə l i y e v:** «ASAN xidmət» Quba və qonşu rayonlarda yaşayan 500 min vətəndaşa xidmət göstərəcəkdir. Bu gün o mərkəzin açılışı oldu. Məsləhət görürəm ki, siz də gedib o mərkəzin xidmətlərindən istifadə edəsiniz. Orada əhaliyə çox gözəl xidmət göstəriləcəkdir. Orada 170, burada isə 150 iş yeri yaradılıb. İş yerlərinin yaradılması prosesi davam etməlidir. Orada da işləyənlərin əksəriyyəti qadınlardır. Biz çalışırıq ki, qadınların məşğulluq məsələsini həll edək.

**X a l ç a ç ı l a r:** Çox sağ olun, çox minnətdarıq. Allah Sizi qorusun.

## Əsaslı təmir edilmiş Rustov–Xanəgah–Gürdəh, Rustov–Nöydün–Şuduq, Rustov–Məckəxacə, Rustov–Bağçalı–Yekdar avtomobil yollarının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Quba rayonunun əsaslı təmir edilmiş Rustov–Xanəgah–Gürdəh, Rustov–Nöydün–Şuduq, Rustov–Məckəxacə, Rustov–Bağçalı–Yekdar avtomobil yollarının açılışında iştirak etmişdir.*

*Hazırda respublikanın yol infrastrukturunun yenidən qurulması, müasir səviyyəyə çatdırılması ilə bağlı uğurlu layihələr icra edilir. Əsas məqam isə odur ki, son dövrlərdə respublikanın kənd və qəsəbələrini birləşdirən yolların inşası və yenidən qurulması geniş vüsət alıb. Prezident İlham Əliyevin sərəncam və göstərişlərinə əsasən regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilən dövlət proqramlarında xüsusi yer tutan bu layihələr ölkəmizin bütün bölgələrini əhatə edir.*

*Quba rayonunda 6000 nəfərin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Rustov–Xanəgah–Gürdəh, Rustov–Nöydün–Şuduq, Rustov–Məckəxacə, Rustov–Bağçalı–Yekdar avtomobil yollarının tikintisi də Prezident İlham Əliyevin 2013-cü, 2014-cü, 2015-ci və 2016-cı illərdə imzaladığı müvafiq sərəncamlarına əsasən həyata keçirilib. Bu yolların istifadəyə verilməsi bölgədə turizmin, kənd təsərrüfatının inkişafına, əhalinin və nəqliyyatın rahat, təhlükəsiz hərəkətinin təmin olunmasına imkan yaradacaqdır. Yeni yolların istifadəyə verilməsi həm də sübut edir ki, bu il həyata keçirilməsi nəzərdə tutulan «40 yol layihəsi»nin icrası istiqamətində işlər uğurla davam edir.*

*Dövlət başçısına görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, Qubanın bu yeni yollarının ümumi uzunluğu 32 kilometrdən çoxdur. 4-cü texniki dərəcəyə aid ikizolaqlı yolların hərəkət hissəsinin eni 6 metrdir. Layihə çərçivəsində müxtəlif diametrli 27 suötürücü boru tikilib, yol təhlükəsizlik dirəkləri, yol*

*nişanları və göstərici lövhələr quraşdırılıb, 1 aşırımlı dəmir-beton konstruksiyalı 4 körpü inşa edilibdir.*

*Sonra dövlət başçısı əsaslı surətdə yenidən qurulan yolların rəmzi açılışını bildirən lenti kəsdi.*

**KENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB UHURU KENYATTAYA**

Hörmətli cənab Prezident!

Keniya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Keniya xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 dekabr 2017-ci il*

## SUDAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ABBAS MUSTAFA ƏHMƏD ABDALLAY İLƏ GÖRÜŞ

*8 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 8-də Sudan Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Abbas Mustafa Əhməd Abdallayın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Abbas Mustafa Əhməd Abdallay Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Abbas Mustafa Əhməd Abdallay etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı ölkələrimiz arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu qeyd edərək, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, ölkələrimiz beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən BMT-də və İslam Əməkdaşlıq Təşkilatında fəal əməkdaşlıq həyata keçirir. Dövlət başçısı ümidvar olduğunu bildirdi ki, Abbas Mustafa Əhməd Abdallay səfirlik fəaliyyəti dövründə əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən iqtisadiyyat, investisiya, humanitar sahələrdə daha da möhkəmlənməsi istiqamətində səylərini əsirgəməyəcəkdir.*

*Səfir Abbas Mustafa Əhməd Abdallay Sudan Respublikasının Prezidenti Ömər Həsən Əhməd əl-Bəşirin salamlarını dövlətimizin başçısına çatdırdı. Abbas Mustafa Əhməd Abdallay qeyd etdi ki, Sudan Respublikasının Prezidenti ona dost Azərbaycanla iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylər göstərilməsi ilə bağlı tapşırıq veribdir.*

*Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan səfir bildirdi ki, bu məsələ ilə bağlı Sudan Respublikasının mövqeyi dəyişməzdir və dəyişməz olaraq qalacaqdır. Azərbaycanın işğal altındakı bütün torpaqları azad olunmalı və ərazi bütövlüyü bərpa edilməlidir.*

*Səfir Abbas Mustafa Əhməd Abdallay ölkəsinin Azərbaycanla iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsində maraqlı olduğunu diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Sudan Respublikasının Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində tutduğu ədalətli mövqeyə görə təşəkkürünü bildirdi.*

*Dövlətimizin başçısı Sudan Respublikasının Prezidenti Ömər Həsən Əhməd əl-Bəşirin salamlarına görə minnətdarlıq etdi, onun da salamlarını Sudan Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ KOMİTƏ SƏDRİ LEONİD KALAŞNİKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də Rusiya Federasiyası Dövlət Dumasının MDB Məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə İş üzrə Komitəsinin sədri Leonid Kalaşnikovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin möhkəmlənməsində parlamentlərarası əməkdaşlığın rolu qeyd edildi.*

*Prezident İlham Əliyev Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsi ilə Rusiya Federasiyası Dövlət Dumasının MDB Məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə İş üzrə Komitəsinin birgə Komissiyasının Bakıda keçirilən iclasının bu əməkdaşlığa verdiyi töhfəni vurğuladı. Dövlət başçısı parlamentlər səviyyəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini bildirdi.*

*Dövlət Dumasının MDB Məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə İş üzrə Komitəsinin sədri Leonid Kalaşnikov Rusiya Federasiyası Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Azərbaycana gəldiyi ilk gündən Bakıda gedən inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu bildirdi.*

*Dekabrın 12-də ulu öndər Heydər Əliyevin anım gününün qeyd olunacağını vurğulayan Leonid Kalaşnikov bildirdi ki, bu böyük şəxsiyyətin xatirəsi Rusiyada bu günə kimi dərin hörmətlə yad edilir.*

*Dövlət başçısı İlham Əliyev Rusiya Federasiyası Dövlət Dumasının Sədri Vyaçeslav Volodinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rusiya Federasiyası Dövlət Dumasının Sədrinə çatdırmağı xahiş etdi.*

## ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2017-ci il*

*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri dekabrın 12-də Fəxri xiyabana gələrək, xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət etmişlər.*

*Milli Məclisin üzvləri, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişlər.*

*Prezident İlham Əliyev ulu öndərin məzarı önünə əklil qoydu.*

*Azərbaycanın Dövlət himni səsləndirildi.*

*Dövlət başçısı İlham Əliyev və ailə üzvləri ulu öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə gül dəstələri qoydular.*

*Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin xatirələri də yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.*

*Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş Nazir Artur Rasi-zadə, Milli Məclisin Sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak etdilər.*

*Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi.*

*1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev əslində sosial-iqtisadi böhran keçirən Azərbaycanı ötən əsrin 70–80-ci illərində keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.*

*1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük qayıdış idi və ulu öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.*

*Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar ümummilli liderimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilibdir. Bütün ilboyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.*

*Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü – dekabrın 12-də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın ümummilli liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.*

## TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*12 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı fövqəladə Zirvə toplantısında iştirak etmək üçün İstanbula gəlmişdir.*

# İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ QÜDS MƏSƏLƏSİ İLƏ BAĞLI FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*13 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə dekabrın 13-də İstanbulda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) hazırkı sədri Türkiyə Respublikasının təşəbbüsü ilə keçirilən Qüds məsələsinə dair fövqəladə Zirvə toplantısında iştirak etmişdir.*

*«Qüdslə həmrəylik üçün birlikdə hərəkət» devizi altında keçirilən Zirvə toplantısına 50-dək ölkədən dövlət və hökumət başçıları qatılıbdır.*

*Əvvəlcə birgə foto çəkdirildi.*

*Tədbir müqəddəs Quran ayələrin oxunması ilə başlandı.*

*Zirvə toplantısında çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Fələstin Prezidenti Mahmud Abbası, digər dövlət və hökumət başçılarını salamladı.*

*İslamın ilk qibləsi və 3 müqəddəs məscidindən biri olan Əl-Aqsanın yerləşdiyi Qüds şəhərinin tarixi və hüquqi statusuna edilən təcavüzü müzakirə etmək üçün bir araya gəldiklərini diqqətə çatdıran Rəcəb Tayyib Ərdoğan ABŞ Prezidenti Donald Trampın dekabrın 6-da beynəlxalq hüquqa məhəl qoymayaraq, Qüdsü İsrailin paytaxtı kimi tanıdığını bildirdi və diqqətə çatdırdı ki, BMT Təhlükəsizlik Şurasının vaxtilə qəbul etdiyi qərara əsasən, heç bir ölkə Qüdsdə səfirlik aça bilməz. Türkiyə Prezidenti qeyd etdi ki, Fələstin məsələsi ədalətli şəkildə həll olunmadan beynəlxalq və qlobal sülhdən söhbət gedə bilməz. Əks təqdirdə beynəlxalq hüquqa və BMT-yə etimad sarsılar.*

*Qüds bizim üçün qırmızı xətdir və «Hərami-Şərif» əbədiyyətə qədər müsəlmanların olacaqdır – deyən Rəcəb Tayyib Ərdoğan sammit iştirakçılarını Qüdsü Fələstin Dövlətinin işğal altında olan paytaxtı kimi tanımağa dəvət etdi və müstəqil Fələstin Dövləti ideyasından heç vaxt vaz keçməyəcəklərini bildirdi.*

*Fələstin Dövlətinin Prezidenti Mahmud Abbas bütün dünya ölkələrinin Donald Trampın qərarına qarşı olduğunu və göstərilən həmrəyliyin bu niyyətin həyata keçməyəcəyinə əminlik yaratdığını vurğuladı. Bildirdi ki, bütün ümmət birləşərək, Qüdsün işğalına qarşı mübarizə aparmalı, bu şəhərin xarakterinin dəyişdirilməsinə icazə verməməlidir. Mahmud Abbas ABŞ Prezidentinin bu addımının beynəlxalq müqavilələri və BMT Təhlükəsizlik Şurasının qərarlarını açıq təhdid etdiyini və bununla da Birləşmiş Ştatların sülh prosesində vasitəçilik missiyasını itirdiyini diqqətə çatdırdı. Qüdsün əvvəllər də olduğu kimi, Fələstin Dövlətinin paytaxtı olacağını, əks təqdirdə sabitlikdən və sülhdən söhbət gedə bilməyəcəyini, Fələstin Dövlətinin tanınması prosesinin sürətləndirilməsini vurğuladı.*

*İordaniya kralı II Abdullah qeyd etdi ki, müsəlmanların qəlbində xüsusi yeri olan Qüdslə bağlı ABŞ-ın qərarı olduqca təhlükəlidir. Bu qərar bölgədə sülhü və sabitliyi təhdid edir. Qüdsün hər 3 dinin bir araya gəldiyi tarixi şəhər olduğunu vurğulayan kral II Abdullah bu tarixi dəyişdirməyə çalışan hər kəsə qarşı çıxacaqlarını bildirdi və qeyd etdi ki, bir neçə gün öncə Ərəb Liqasının İordaniyada keçirilən Zirvə görüşündə də vəziyyətin nə qədər təhlükəli olduğu bəyan edilibdir. İordaniya Kralı əminliklə bildirdi ki, müsəlmanların Qüdsdə olan haqları əbədidir və biz bütün məsələləri bir kənara qoyub Qüdsü müdafiə etməliyik.*

*Sonra İslam Əməkdaşlıq Təşkilatının baş katibi Yusif əl-Osaymin çıxış etdi. O, əsas məqsədi bütün müsəlman ümmətinin hüquqlarının qorunması olan bu toplantının əhəmiyyətindən danışdı, ABŞ Prezidentinin Qüdslə bağlı verdiyi qərarın bütün beynəlxalq normalara zidd olduğunu, bu qərarın ABŞ-ın sülh prosesində iş-*

*tirakını heçə endirdiyini bildirdi. Yusif əl-Osaymin vurğuladı ki, təşkilata üzv ölkələr ABŞ-ın təktərəfli qəbul etdiyi bu qərara qarşı çıxmalı, Qüdsün xarakteri və ədalətin arxasınca gedən Fələstin xalqının hüquqları qorunmalıdır.*

*İran Prezidenti Həsən Ruhani bildirdi ki, Qüds müsəlmanların ilk qibləsi və üçüncü müqəddəs şəhəridir. ABŞ administrasiyasının bu yanlış qərarına müsəlman aləminin dərhal reaksiya verməsinin əhəmiyyətli olduğunu vurğulayan Həsən Ruhani Birləşmiş Ştatların bu qərarının arxasında təhlükəli meyillərin dayandığını diqqətə çatdırdı. İran dövlətinin başçısı BMT qərarlarının da belə məsələlər qarşısında aciz qaldığını vurğuladı, bu toplantının ABŞ-a qarşı güclü qınama qərarı qəbul edəcəyinə əminliyini ifadə etdi.*

*Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bismillahir-rəhmanir-rəhim!

Hörmətli Türkiyə Respublikasının Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan!

Hörmətli baş katib!

Zati-aliləri!

Zirvə görüşünün iştirakçıları!

İlk növbədə, fövqəladə İslam Zirvə görüşünün təşkilinə görə Prezident Ərdoğana təşəkkür edirəm. Prezident Ərdoğanın təşəbbüsü ilə keçirilən bu Zirvə görüşü Türkiyənin islam həmrəyliyi işinə verdiyi töhfənin növbəti təzahürüdür.

Amerika Birləşmiş Ştatları Prezidentinin beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnaməsinə zidd olan Qüds şəhərinin İsrailin paytaxtı kimi tanınması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi ilə bağlı qərarı bizdə böyük narahatlıq doğurur. Bu qərar Fələstin–İsrail münaqişəsinin ədalətli və hərtərəfli nizama salınması işinə mənfi təsir edə, Yaxın Şərqdə təhlükəli fəsadlara

gətirib çıxara bilər. Hesab edirik ki, Amerika Birləşmiş Ştatları bu qərara yenidən baxmalıdır.

Azərbaycan ardıcıl olaraq Fələstin–İsrail münaqişəsinin sülh yolu ilə, Şərqi Qüdsün Fələstin Dövlətinin paytaxtı olmaqla, 2 dövlət prinsipi əsasında həllini dəstəkləyir. Bir neçə il bundan əvvəl Azərbaycan Fələstin Dövlətinə yardım məqsədilə İslam Maliyyə Təhlükəsizlik Şəbəkəsinin təsis konfransına və Qüds şəhərinin inkişafına dəstək məqsədilə donor konfransına ev sahibliyi etmişdir. 2017-ci ilin iyul ayında Azərbaycanda BMT-nin Fələstin xalqının ayrılmaz hüquqlarının həyata keçirilməsinə dair Komitənin, BMT-nin humanitar məsələlər üzrə əlaqələndirmə ofisinin, İƏT və müxtəlif qeyri-hökumət və vətəndaş cəmiyyəti təşkilatlarının iştirakı ilə Qüds məsələsinə dair Beynəlxalq konfrans keçirilmişdir. Konfransda Şərqi Qüdsün işğalı və Əl-Aqsa məscidində ibadət edənlərə qarşı tətbiq olunan məhdudiyyətləri qınayan bəyanat qəbul edilmişdir. Biz hər zaman olduğu kimi, bu gün də Fələstin xalqının yanındayıq.

Azərbaycan islam həmrəyliyi işinə böyük töhfə verir, biz İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüyük. Azərbaycanın təşəbbüsü ilə İƏT Gənclər Forumu, İƏT Əmək Mərkəzi və İƏT-ə üzv dövlətlərin Jurnalistlər Assosiasiyası yaradılıbdır. 2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilibdir. Azərbaycan islamofobiyaya qarşı fəal mübarizə aparan ölkələrin ön sırasındadır. 2017-ci ildə Azərbaycanda IV İslam Həmrəyliyi oyunları keçirilibdir. Bu möhtəşəm idman, dostluq, qardaşlıq bayramı bir daha bütün dünyaya göstərdi ki, islam sülh, mərhəmət, bərabərlik dinidir.

Əməkdaşlığı və qarşılıqlı dəstəyi gücləndirmək üçün digər bir imkan bu ay Bakıda keçiriləcək «İslam həmrəyliyi ili»nin qeyd olunması ilə bağlı Beynəlxalq konfrans olacaqdır.

Fürsətdən istifadə edərək, İƏT-ə, onun üzv dövlətlərinə və dünyadakı müsəlman cəmiyyətlərinə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycana göstərdikləri ədalətli dəstəyə görə təşəkkürümü ifadə etmək istərdim. 20 ildən

artıqdır ki, Ermənistan Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu daxil olmaqla, 20 faiz torpaqlarını işğal altında saxlayır. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. İşğal olunmuş ərazilər tamamilə etnik təmizləməyə məruz qalıb və talan edilibdir. Ermənistan məscidlər və islam abidələri daxil olmaqla, bütün mədəni abidələri məhv edibdir.

Bununla bərabər, Ermənistan müxtəlif müsəlman ölkələri ilə dostluq münasibətləri qurmaq istəyir. Bu, ən böyük riyakarlıqdır. Dünya müsəlmanları bilməlidirlər ki, müqəddəs məscidlərimizi dağıdan Ermənistan müsəlman ölkələrinin dostu ola bilməz!

1993-cü ildə BMT Təhlükəsizlik Şurası Ermənistan silahlı qüvvələrinin Azərbaycan torpaqlarından dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edibdir. Lakin Ermənistan onları yerinə yetirməkdən imtina edir. İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlar da oxşar qərar və qətnamələr qəbul ediblər. Azərbaycan heç vaxt erməni işğalı ilə barışmayacaq, münaqişə yalnız və yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri, ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Təşəkkür edirəm.

* * *

*Zirvə toplantısında İstanbul Bəyannaməsi qəbul olundu.*

* * *

*Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyəyə səfəri dekabrın 13-də başa çatdı.*

## BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İXRACIN TƏŞVİQİ ÜZRƏ NAZİRİ BARONESSA RONA FEYRHEDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 14-də Böyük Britaniyanın Ticarət və İxracın Təşviqi üzrə naziri, hökumətlərarası birgə Komissiyanın həmsədri baronessa Rona Feyrhedin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Böyük Britaniya arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, energetika və digər sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əməkdaşlığımızın bundan sonra da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu qeyd edildi.*

*Ölkələrimiz arasında iqtisadi əlaqələrin yaxşı tarixə malik olduğunu və Böyük Britaniyanın Azərbaycanın ən böyük xarici investoru olduğunu vurğulayan prezident İlham Əliyev bp şirkətinin Azərbaycanın qlobal enerji layihələrində əsas tərəfdaşı olmasının önəmini qeyd etdi. Eyni zamanda, Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi istiqamətində böyük işlərin görüldüyünü diqqətə çatdıran dövlətimizin başçısı gələcəkdə qeyri-energetika sahəsində də Böyük Britaniya şirkətlərinin həm investor, həm də podratçı kimi iştirakının genişlənməsində ölkəmizin maraqlı olduğunu bildirdi. Dövlət başçısı baronessa Rona Feyrhedin ölkəmizə səfərinin iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi.*

*Böyük Britaniyanın Ticarət və İxracın Təşviqi üzrə naziri, iqtisadi əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyanın həmsədri baronessa Rona Feyrhed Azərbaycanın müstəqillik illəri ərzində əldə etdiyi nailiyyətlərin çox böyük təəssürat yaratdığını bildirdi. Energetika sahəsində əməkdaşlığa toxunan baronessa Rona Feyrhed bp–Azərbaycan əlaqələrini çox mühüm tərəfdaşlıq əlaqələri kimi dəyərləndirərək, hökumətinin bu sahədə əməkdaşlığın bundan sonra da davam etdirilməsi işinə sadiq qalacağını vurğuladı. Britaniya hökumətinin Azərbaycanla ikitərəfli münasibətlərə çox böyük önəm verdiyini deyən qonaq Azərbaycanın ölkəsinin mühüm strateji tərəfdaşı olduğunu bir daha qeyd etdi.*

*Görüşdə energetika sahəsində əməkdaşlığın perspektivləri ətrafında məsələlərə toxunularaq, «Şahdəniz-2» layihəsinin uğurlu icrasının və «Azəri–Çıraq–Günəşli» müqaviləsinin uzadılmasının əhəmiyyəti vurğulandı.*

*Söhbət zamanı, həmçinin infrastruktur sahəsində Britaniya şirkətlərinin iştirakı, ticarət, qarşılıqlı sərmayə qoyuluşu, alternativ enerji, kənd təsərrüfatı, turizm, təhsil sahələrində əlaqələrin genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCANIN GƏNC ALİMLƏRİNİN I QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycanın gənc alimlərinin I qurultayının öz işinə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə uğurlar arzulayıram!

Qloballaşmanın böyük vüsət aldığı müasir dövrdə elmin əhəmiyyətinin gündən-günə artması və yüksək texnologiya sahələrinin sürətlə genişlənməsi çevik innovasiya fəallığı və yeni yanaşmalar tələb edir. Mövcud şərait düşünən və araşdıran gəncliyin intellektual potensialının tam üzə çıxarılması üçün əlverişli zəmin hazırlanmasını ön plana çıxarır. Ümidvaram ki, gənc alimlərimizin ilk mötəbər məclisi zamanın çağırışlarına cavab olaraq, bu istiqamətdə fəaliyyətin aparıcı meyillərinin müəyyənlik qazanmasına təkan verəcəkdir. Mədəniyyətlər arasında əsrlərboyu körpü rolunu oynamış Azərbaycanın qədim dövrün elmi nailiyyətlərinin qorunub saxlanılmasında və dünya elm xəzinəsinin daha da zənginləşdirilməsində özünəməxsus yeri vardır. Tarixi ənənələrlə müasirliyin ahəngdar vəhdətində davamlı yeniləşən ölkəmizdə elmin prioritetləri dünya elminin hazırkı inkişaf tendensiyalarına uyğun olub, milli strateji maraqların konseptual şəkildə həllinə yönəlibdir. Dinamik yüksəlişimiz də xalqımızın elmi potensialdan yaradıcılıqla və səmərəli istifadənin nəticəsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının və ali təhsil müəssisələrimizin fəaliyyəti respublikamızda kreativ düşüncəli və eyni zamanda, dəyərlərimizə sadiq gənc alimlər nəslinin formalaşması baxımından xüsusi əhəmiyyətə malikdir. Müvəffəqiyyətlə gerçəkləşdirilən «2007–2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı» gənclərimizin

elmə daha yaxından cəlb olunması və dünya elminə inteqrasiyası istiqamətində atılmış mühüm addımlardandır. Proqram çərçivəsində beynəlxalq miqyasda tanınmış ali təhsil ocaqlarında təhsil alan gənclərimizin elmdə varislik prinsiplərini davam etdirərək, sanballı tədqiqatları ilə ölkəmizin müasir dünya elm məkanında layiqli təmsilçiləri olacaqlarına inanıram.

Gənclərin həyatımızın bütün sahələrində fəal iştirakı və innovativ təşəbbüslərinin dəstəklənməsi Azərbaycanda gənclər siyasətinin başlıca prinsipləridir. Dövlətimizin daimi diqqət və qayğısı sayəsində gənc alimlərimiz, heç şübhəsiz, tükənməz enerji ilə çalışaraq, müstəqil Azərbaycanın inkişafı naminə bundan sonra da töhfələrini əsirgəməyəcəklər.

Əminəm ki, qurultayınızda səmərəli fikir mübadiləsi aparılacaq, əhəmiyyətli təkliflər irəli sürüləcək və elmimizin gələcəyi ilə bağlı dolğun fəaliyyət proqramı qəbul olunacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2017-ci il*

## QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

Hörmətli Nursultan Abişeviç!

Qazaxıstan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Qardaş Qazaxıstan dövlətçiliyin möhkəmləndirilməsində, sosial-iqtisadi və humanitar sahələrdə mühüm uğurlar qazanmış, dünya birliyinin fəal və nüfuzlu üzvünə çevrilmişdir. İnanıram ki, ortaq tarixi keçmişə və milli-mənəvi dəyərlərə malik xalqlarımızın iradəsinə uyğun olaraq, Azərbaycan–Qazaxıstan dövlətlərarası münasibətləri, qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan dostluq və tərəfdaşlığımız bundan sonra da birgə səylərimizlə inkişaf edəcəkdir.

Hörmətli Nursultan Abişeviç, bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Qazaxıstan xalqına daim sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2017-ci il*

**BƏHREYN KRALI ƏLAHƏZRƏT
ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Bəhreyn arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 dekabr 2017-ci il*

**QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ**

Əlahəzrət!

Qətər Dövlətinin milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Qətər xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 dekabr 2017-ci il*

## SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*15 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıt şəhərinə səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov Prezident İlham Əliyevə abidənin yerləşdiyi Heydər Əliyev parkında və şəhərdə görülən işlər barədə ətraflı məlumat verdi.*

## SUMQAYIT KİMYA SƏNAYE PARKINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ, YENİ MÜƏSSİSƏLƏRİN TƏMƏLQOYMA VƏ AÇILIŞI ZAMANI ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıt Kimya Sənaye Parkında görülən işlərlə tanış olmuş, yeni müəssisələrin təməlqoyma və açılışı mərasimlərində iştirak etmişdir.*

*Bu layihə Prezident İlham Əliyevin 2011-ci il 21 dekabr tarixli Fərmanına uyğun olaraq həyata keçirilib. Fərmana əsasən Sumqayıt Kimya Sənaye Parkı və İqtisadiyyat Nazirliyinin tabeliyində parkın idarəedici təşkilatı olan «Sumqayıt Kimya Sənaye Parkı» Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. Hazırda parkda istehsalat və tikintidə 5700 nəfərdən çox işçi çalışır.*

*İqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçısına burada görülən işlərlə bağlı məlumat verdi.*

*Bildirildi ki, Sumqayıt Kimya Sənaye Parkının ümumi ərazisi 505,6 hektardır. Ərazidəki köhnə binalar və qurğular sökülüb, parkın müasir tələblərə cavab verən infrastrukturunun birinci mərhələsi üzrə tikinti-quraşdırma işləri başa çatdırılıbdır. Sumqayıt Kimya Sənaye Parkında, həmçinin inzibati binanın, laboratoriyaların, texniki peşə məktəbinin, işçilər və tələbələr üçün yataqxana binasının, sərgi-konfrans və logistika mərkəzlərinin, gömrük, tibb, dəmir yolu və yanğınsöndürmə məntəqələrinin, anbarların, yükləmə-boşaltma mərkəzlərinin və digər obyektlərin yaradılması işləri davam etdirilir.*

*Parkın rezidentləri 7 il müddətinə mənfəət, əmlak və torpaq vergilərindən, eləcə də parka istehsal məqsədilə gətirilən texnika, texnoloji avadanlıqlar və qurğulara görə əlavə dəyər vergisindən, həmçinin gömrük rüsumundan azad olunublar. Rezidentlərin qeydiyyatı «bir pəncərə» sistemi ilə həyata keçirilir. Artıq 15 müəssisəyə Sumqayıt Kimya Sənaye Parkının rezidenti statusu verilibdir.*

*Diqqətə çatdırıldı ki, 2013-cü ildən fəaliyyətə başlayan «Azərtexnolayn» MMC Türkiyə, Almaniya və Çin texnologiyası əsasında polad və polietilen borular, mexaniki və hidrotexniki avadanlıqlar istehsal edir. Parkın rezidentlərindən biri olan STP Məhdud Məsuliyyətli Cəmiyyəti müxtəlif istehsalat sahələri üzrə ixtisaslaşmış zavodlar kompleksidir. «SOCAR Polymer» Məhdud Məsuliyyətli Cəmiyyətin illik istehsal gücü 180 min ton polipropilen və 120 min ton yüksək sıxlıqlı polietilen təşkil edəcəkdir. Bu, son 40 ildə öz növünə və miqyasına görə Azərbaycanın neft-kimya sənayesində həyata keçirilən ən böyük layihələrdən biridir.*

*Sumqayıt Kimya Sənaye Parkının rezidentləri arasında «Alco Lubricant Company» Məhdud Məsuliyyətli Cəmiyyəti də vardır. Bu gündən fəaliyyətə başlayan müəssisədə il ərzində avtomobil, hava və dəniz nəqliyyatında, kənd təsərrüfatı, sənaye və energetika sahələrində istifadə olunan 30 min ton müxtəlif növ yüksəkkeyfiyyətli sürtkü yağlarının istehsalı nəzərdə tutulubdur. Almaniya texnologiyası əsasında yaradılan müəssisədə 100 nəfər daimi iş yeri ilə təmin olunacaqdır. «MST Engineering Services» Məhdud Məsuliyyətli Cəmiyyətində ABŞ-ın «Parker» texnologiyası əsasında ildə 30 min ədəd yüksək təzyiqə davamlı xortum və fitinq istehsalı nəzərdə tutulur. Bu məhsullara neft-kimya, maşınqayırma və digər sənaye sahələrində böyük tələbat vardır. Müəssisə bu gündən fəaliyyətə başlayıbdır.*

*«Bakı Əlvan Metallar və Ferroərintilər Zavodu» Məhdud Məsuliyyətli Cəmiyyəti İtaliya texnologiyası əsasında yaradı-*

*lacaqdır. Burada istehsal olunacaq məhsullar daxili bazarın tələbatını tam ödəməklə yanaşı, xarici bazarlara da ixrac ediləcəkdir.*

*Silisium və kalsium istehsalat müəssisəsində ildə 5000 ton tikinti qatqıları istehsal olunacaqdır. «Azerbaijan Fibro Cement» Məhdud Məsuliyyətli Cəmiyyətində ildə 6 milyon kvadratmetr fibro-sement lövhələr istehsal ediləcəkdir. «Tabaterra» Qapalı Səhmdar Cəmiyyətinin Tütün fabrikində ildə 7 milyard ədəd siqaret istehsalı nəzərdə tutulub. Dekabrın 15-də fabrikin tikintisinə başlanılıbdır.*

*SOCAR Karbamid zavodunda ildə 650–660 min ton azot gübrəsi istehsal ediləcəkdir. Hazırda layihə üzrə tikinti-quraşdırma işləri davam etdirilir və bu işlərə 1800 nəfər cəlb edilib. Bu, sənaye parkında həyata keçirilən ən iri investisiya layihəsidir. «SumPlast» Məhdud Məsuliyyətli Cəmiyyəti sənayedə istifadə üçün polimerdən beynəlxalq standartlara cavab verən kisə və torbaların istehsalını həyata keçirəcəkdir. Layihənin növbəti mərhələsində polipropilendən böyük ölçülü toxunma torbaların və konteynerlərin istehsalı planlaşdırılır.*

*Bildirildi ki, Sumqayıt Kimya Sənaye Parkında 67 MVt gücündə 110/35/6.3 kV-luq yarımstansiyanın inşası da başa çatdırılıb. Yarımstansiyanı qidalandırmaq üçün 500 MVa gücündə olan Sumqayıt Elektrik Stansiyasından 110 kV-luq ikidövrəli kabel hava xətti çəkilib, müasir tələblərə cavab verən avadanlıqlar, o cümlədən yerli ATEF MMC tərəfindən istehsal olunan 80 MVa-lıq 2 güc transformatoru quraşdırılıbdır. Parkın kabel şəbəkəsi də STP MMC-dən alınmaqla, bütünlükdə yerli məhsullar hesabına təmin edilibdir. Mərkəzləşdirilmiş SCADA sisteminə qoşulan yarımstansiyanın yaradılmasında əsas məqsəd sənaye parkındakı müəssisələri fasiləsiz və keyfiyyətli elektrik enerjisi ilə təmin etməkdir.*

*Sonra Prezident İlham Əliyev parkın ərazisində «AzerFloat» Qapalı Səhmdar Cəmiyyətinin Şüşə zavodunun təməlini qoydu.*

*Məlumat verildi ki, «AzerFloat» Qapalı Səhmdar Cəmiyyəti Almaniyanın bu sahədə böyük təcrübəsi olan şirkətin texnologiyası əsasında yaradılacaqdır. Müəssisədə il ərzində termoformasiya metodu ilə 8 milyon kvadratmetr şüşə istehsal olunacaqdır. Məhsulların yüksək keyfiyyəti ilə yanaşı, rəqabətqabliyyətli olmasına da xüsusi diqqət yetiriləcəkdir. Müəssisənin istifadəyə verilməsi ilə Azərbaycanın bu sahədə ixrac potensialı da güclənəcəkdir. Zavodun məhsullarının Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixrac edilməsi planlaşdırılır. Yeni müəssisədə 180 nəfər işlə təmin olunacaqdır. Zavodun 2019-cu ildə fəaliyyətə başlaması nəzərdə tutulur.*

*Dövlət başçısı Sumqayıt Kimya Sənaye Parkının ərazisində «Azərxalça» Açıq Səhmdar Cəmiyyətin Əyirici-Boyaq fabrikinin də təməlini qoydu. Müəssisədə yun ipliklər və təmiz yun istehsal ediləcəkdir. Fabrik İtaliya, Fransa və Türkiyə texnologiyası ilə fəaliyyət göstərəcəkdir. Müəssisədə ildə 370 ton iplik və 195 ton təmiz yun istehsalı nəzərdə tutulur. Burada əhalidən alınan xam yun emal ediləcək, daha sonra onlardan ipliklər və təmiz yun əldə olunacaqdır. Fabrikdə, həmçinin boya prosesi də həyata keçiriləcəkdir. İdxaldan asılılığı azaldacaq bu fabrikdə 100 nəfər işlə təmin ediləcəkdir.*

*Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında «Gilan Sənaye Qrupu»na daxil olan «Aqrokimya Azərbaycan» Məhdud Məsuliyyətli Cəmiyyətin Pestisidlər zavodunun birinci mərhələsinin açılışında iştirak etdi.*

*Məlumat verildi ki, müasir texnologiyaların tətbiqinə əsaslanan ilk bitki mühafizəsi vasitələri istehsal edən Pestisidlər zavodunun yaradılmasında məqsəd aqrar sektorun bu məhsullara olan tələbatını yüksək səviyyədə təmin etməklə, idxalın əvəzlənməsinə, eləcə də gələcəkdə ixrac imkanlarına nail olmaqdır.*

*Ümumi ərazisi 18,3 hektar olan zavodun istehsal sahəsi 21,4 min kvadratmetrdir. Kompleks 5 istehsal, 4 qablaşdırma, 5 məhsul və xammalsaxlama bölmələrindən ibarətdir. Müəssisənin birinci mərhələsinin illik istehsal gücü 10 min tondur, ikinci*

*mərhələdə istehsalın həcmini 20 min tona çatdırmaq nəzərdə tutulub. Burada 145 çeşiddə pestisid istehsal ediləcək və məhsulun keyfiyyəti zavodun daxilində beynəlxalq standartlara uyğun qurulmuş laboratoriyada müəyyənləşdiriləcəkdir. Bu müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9,5 milyon manat güzəştli kredit verilib. Zavod İtaliya və Türkiyənin aparıcı şirkətlərinin ən son texnologiyalarından istifadə olunmaqla qurulub. İstehsalda gələcəkdə yerli xammaldan daha çox istifadə edilməsi nəzərdə tutulur. İdxal olunan məhsullarla müqayisədə yerli istehsalın üstünlüyü 35–40 faiz təşkil edir. Perspektivdə isə bir sıra məhsul növlərinin xammal təminatı yerli istehsal hesabına təmin olunacaq və ixrac potensialı yaranacaqdır.*

*Bunlardan əlavə, zavodun ərazisində inzibati bina, yeməkxana, laboratoriya, qazanxana və su anbarları vardır. Zavodda 100 yeni iş yeri yaradılıb. Layihənin ikinci mərhələsində bəzi məhsulların xammalının və yarpaq gübrəsi istehsalının təşkil olunması nəzərdə tutulur.*

*Dövlət başçısı müəssisəni işə saldı.*

*Prezident İlham Əliyevə zavodda istehsal olunacaq hazır məhsulların nümunələri təqdim olundu. Bu məhsulların kənd təsərrüfatı və digər sahələrdə istifadəsi, eləcə də zavodun istehsal bölmələrinin fəaliyyəti barədə ətraflı məlumat verildi.*

*Qeyd edildi ki, hazırda ölkənin pestisidlərə olan tələbatı 9,1 min ton təşkil edir. Bununla yanaşı, 182 min hektar ərazidə yaradılmaqda olan aqroparkların, 463 hektar sahədə istixana təsərrüfatlarının və əlavə 36 min hektarda əkilməsi nəzərdə tutulan şəkər çuğunduru sahələrinin pestisidlərə olan tələbatı 681 ton proqnozlaşdırılır. Beləliklə, ölkənin pestisidlərə olan ümumi tələbatı 9,8 min ton təşkil edəcəkdir. Zavodun fəaliyyətə başlaması bu məhsullara olan daxili tələbatın tam ödənilməsinə imkan verəcəkdir.*

*Beləliklə, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, aqrar sektorda innovativ texnologiyaların və*

*pestisidlərin tətbiqi kənd təsərrüfatı məhsullarının intensiv metodla yetişdirilməsinə, məhsuldarlığın və keyfiyyətin artırılmasına, eləcə də yüksək rəqabətqabliyyətliliyin təmin olunmasına imkan verəcəkdir.*

*Sonra Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkının rezidenti – «STDC» Məhdud Məsuliyyətli Cəmiyyətin layihəsi olan məlumatların emalı, qeydə alınması və ötürülməsi mərkəzinin – Data Mərkəzin açılışında iştirak etdi.*

*Dövlət başçısına mərkəz barədə məlumat verildi.*

*Bildirildi ki, ümumi investisiya dəyəri 60 milyon ABŞ dolları olan Data Mərkəzdə yüksək gücə malik texnoloji hesablama, kommunikasiya və təhlükəsizlik avadanlıqlarından istifadə edilib. Data Mərkəzin yaradılmasında məqsəd İKT sahəsində istehsal yönümlü fəaliyyəti stimullaşdırmaq, bu sahədə innovasiyaların tətbiqinə, eləcə də tətbiqi elmi-tədqiqat işlərinin genişləndirilməsinə, ixrac yönümlü layihələrin icrasına nail olmaq və bu sahəyə xarici investisiyaları cəlb etməkdir. Müəssisə müxtəliftipli informasiyaların emalı, saxlanılması və ötürülməsi, informasiya təhlükəsizliyinin təmin olunması sahəsində beynəlxalq və yerli müştərilərə xidmət göstərəcəkdir. Burada nəzarət və digər sistemlərin idarə edilməsi 4 növbəli iş rejimi ilə bütün sutkanı əhatə edəcəkdir.*

*Prezident İlham Əliyev Data Mərkəzini işə saldı.*

*Belə mərkəzin açılması ölkəmizdə yüksək texnologiyaların tətbiqinə, informasiya texnologiyalarının inkişaf etdirilməsinə, yerli yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsinə və informasiya təhlükəsizliyinin təmin edilməsinə xidmət edəcəkdir. Layihə çərçivəsində gələcəkdə Azərbaycan ərazisindəki müxtəlif mərkəzlərdə yüksəkməhsuldarlıqlı hesablama mərkəzlərinin yaradılması planlaşdırılır. Qeyd olunan hesablama mərkəzləri əməliyyatların uçotunun aparılması üçün elektron kitab funksiyasını yerinə yetirən blokçeyn texnologiyaları əsasında istənilən növ paylanmış reyestrlərin tranzaksiyalarının təsdiqi və müdafiəsi əməliyyatları üzrə etibarlı infrastruktur ya-*

*radacaqdır. Blokçeyn sistemi iştirakçılar tərəfindən keçirilmiş bütün tranzaksiyalar haqqında informasiyanı özündə saxlayan şəffaf paylanmış məlumatlar bazasıdır. İndiyədək respublikamızda ölkədaxili blokçeyn tranzaksiyalarının təsdiqi, xarici özəl və publik blokçeyn şəbəkələrlə inteqrasiya üçün nəzərdə tutulmuş infrastruktur mövcud deyildi. Data Mərkəzi işə düşdükdən sonra Azərbaycan iqtisadiyyatının müxtəlif sahələri üzrə blokçeyn texnologiyalarının tətbiqi və inkişafı əhəmiyyətli dərəcədə artacaqdır. Layihə çərçivəsində ilkin mərhələdə 100 nəfər işlə təmin olunubdur.*

*Sonra Prezident İlham Əliyev Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşdü.*

*Dövlət başçısı görüşdə çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Bu gün Sumqayıt Kimya Sənaye Parkında bir neçə müəssisə fəaliyyətə başlayır, bir neçə müəssisənin isə təməli qoyulur. Bu çox gözəl, əlamətdar hadisədir. Bu bir daha onu göstərir ki, Sumqayıt Kimya Sənaye Parkının yaradılması çox düzgün və vaxtında verilmiş qərardır. Bu gün 4 müəssisənin açılışı qeyd olunur, 3 müəssisənin isə təməli qoyulur. Sumqayıt Kimya Sənaye Parkının yaradılması Azərbaycanda sənaye sahəsində aparılan siyasətin təzahürüdür. Bu ərazidə dövlət tərəfindən bütün lazımi tədbirlər görülübdür. 500 hektar sahədə bütün kommunikasiya, rabitə, nəqliyyat, bir sözlə, bütün infrastruktur layihələri dövlət tərəfindən icra edilibdir. Özəl sektor isə öz növbəsində, ölkəmiz üçün vacib olan sahələrə investisiya qoyuluşunu təmin edib. Sumqayıt Kimya Sənaye Parkının timsalında biz dövlət–özəl sektor tərəfdaşlığının gözəl nəticələrini görürük. Bu müəssisələrdə minlərlə insan işlə təmin olunur. Hazırda parkın 15 rezidenti vardır. Qoyulan və qoyulacaq sərmayələrin məbləği milyardlarla dollar həcmindədir. Əgər biz

hələ ki, inşası davam edən bütün layihələri də nəzərə alsaq, 2,7 milyard dollar sərmayə qoyuluşu nəzərdə tutulur.

Bu gün ölkə iqtisadiyyatı, sənaye potensialı üçün vacib olan müəssisələr fəaliyyətə başlayır. O müəssisələr ki, idxaldan asılılığı aradan götürəcəkdir. Bu məni çox sevindirir. Çünki bizim əsas məqsədlərimizdən biri də odur ki, yerli istehsal artsın, iş yerləri yaradılsın və idxaldan asılılıq azalsın. Bu gün böyük Şüşə zavodunun təməli qoyuldu. Bu zavod fəaliyyətə başlayandan sonra, Azərbaycanda şüşə idxalı dayandırılacaqdır. Əksinə, Azərbaycan özü şüşə ixrac edəcəkdir. Nəzərə alsaq ki, bu gün Bakıda və digər şəhərlərdə yüzlərlə yaşayış binası, müasir göydələnlər tikilir, şüşəyə tələbat çox böyük olacaqdır.

Siz bilirsiniz ki, biz son vaxtlar xalçaçılığın inkişafına çox böyük diqqət göstəririk və artıq qısa müddət ərzində 10 Xalça fabriki açılıbdır. Gələn il də 10 fabrik açılacaq və bütövlükdə 30 Xalça fabrikinin yaradılması nəzərdə tutulur. Bu fabriklərin uğurlu fəaliyyəti üçün yerli xammal lazımdır və Əyirici-Boyaq fabrikinin təməli də bu gün qoyuldu. Bu, dövlət investisiyası hesabına yaradılacaq müəssisədir. Beləliklə, biz bütün xalçaçıları – həm bu fabriklərdə çalışan, həm də fərdi qaydada işləyən xalça ustalarımızı öz xammalımızla təmin edəcəyik.

Bu gün eyni zamanda, Siqaret fabrikinin təməli qoyuldu. Bu fabrikin də çox böyük əhəmiyyəti vardır. Biz indi siqaret idxalından asılıyıq. Əlbəttə, biz istəyirik ki, Azərbaycanda siqaret istehlakı azalsın, insanlar bu pis vərdişdən əl çəksinlər. Ancaq hələ ki, belə deyil. Daxili istehsal xarici istehsalı əvəzləməlidir. Bu fabrikdə istehsal olunacaq məhsul daxili tələbatın 50 faizini ödəyəcək və əminəm ki, gələcəkdə biz daxili tələbatımızı 100 faiz ödəyəcəyik, eyni zamanda, xarici bazarlara da ixrac edəcəyik. Bu gün Azərbaycanda tütünçülük çox sürətlə inkişaf edir. Əlbəttə ki, tütünçülüyün son məhsulu olan siqaret istehsalı da Azərbaycanda yaradılır.

Pestisid zavodunun tikintisi artıq öz həllini tapıb. Bu da çox vacib sahədir. Mənim göstərişimlə bu sahəyə böyük diqqət

ayrılır. Çünki bu günə qədər biz bu sahədə də idxaldan asılıyıq. İndi daxili tələbatı bu parkda yaradılan zavod tam ödəyəcək. Gələcəkdə – növbəti mərhələdə isə ixrac imkanı da yaradılacaqdır. Bu, kənd təsərrüfatının inkişafına çox böyük təkan verəcək. Çünki kənd təsərrüfatı sənaye istehsalı ilə bərabər, bizim əsas, prioritet istiqamətimizdir. Düzgün aqrotexniki tədbirlərin görülməsi nəticəsində biz məhsuldarlığı –yüksək dərəcədə artıra bilərik.

Müasir və çox böyük imkanlara malik olan Data Mərkəzin açılması da çox əlamətdar hadisədir. Bu, dünyanın ən son texnologiyalarına əsaslanan mərkəzdir. Azərbaycan bu sahədə də dünya miqyasında liderlik nümayiş etdirir. Bildiyiniz kimi, blokçeyn texnologiyası bu gün dünyada çox böyük diqqətə malik olan sahədir. Bir çox ölkələr, şirkətlər bu texnologiyanı öz ölkələrinə gətirmək üçün çalışırlar, fəaliyyət göstərirlər. Burada da Azərbaycan ön sıralardadır. Belə böyük və müasir, bütün dünya standartlarına cavab verən Data Mərkəzin yaradılması onu göstərir ki, biz gələcəyə baxırıq, biz ölkəmizi dünyada gedən mütərəqqi proseslərə uyğun şəkildə inkişaf etdiririk. Bu həm elm mərkəzidir, həm sənaye müəssisəsidir, həm də böyük biznes sahəsidir.

Bir sözlə, bir gündə Sumqayıtda 7 müəssisəyə təkan verilir, onların fəaliyyəti təmin edilir. Əgər biz Sumqayıt Kimya Sənaye Parkının digər rezidentlərini də əlavə etsək, görərik ki, bu doğrudan da dünya miqyasında böyük bir sənaye mərkəzidir. Çünki hazırda «SOCAR Polymer» və Karbamid zavodlarının tikintisi davam edir. Bu 2 layihənin ümumi sərmayə həcmi 1 milyard 700 milyon dollardır. Bu bizə imkan verəcək ki, həm yerli istehsalı, yerli xammalı təmin edək, həm də ki, böyük ixrac imkanları yaradacaqdır.

Qeyd etdiyim kimi, bu sənaye parkında bütövlükdə 15 rezident vardır. Həm xarici, həm də daxili investorlar burada fəaliyyət göstərirlər. Əgər biz vaxtında bu qərarı qəbul etməsəydik və dövlət öz tərəfindən bütün lazımi tədbirləri görməsəydi, o

cümlədən maliyyə dəstəyini göstərməsəydi, əlbəttə ki, bu gün bu park da olmayacaqdı və biz bu gözəl imkanlardan məhrum olacaqdıq. Əminəm ki, Sumqayıt Kimya Sənaye Parkının fəaliyyəti gələcəkdə daha da genişləndiriləcəkdir. Burada böyük ərazilər var, yeni layihələr təqdim olunur, yeni layihələr nəzərdən keçirilir. Ona görə bu parkın çox böyük gələcəyi vardır.

Sumqayıt bu gün Cənubi Qafqazda Bakıdan sonra ikinci böyük sənaye şəhəridir. Burada yaradılan sənaye müəssisələri ən yüksək standartlara cavab verir. Bu, yeni iş yerlərinin yaradılması deməkdir. Mənə verilən məlumata görə, hazırda Sumqayıt Kimya Sənaye Parkında 8000-dən çox insan işləyir – həm tikintidə, həm də müəssisələrin idarə olunmasında. Gələcəkdə bu rəqəm daha da artacaqdır. Deməli, Sumqayıtda işsizliklə bağlı bütün məsələlər öz həllini tapacaq. Biz gələcəkdə də Sumqayıtın hərtərəfli inkişafı üçün öz dəstəyimizi verəcəyik.

O ki qaldı sənaye zonalarının yaradılmasına, bu proses ölkəmizdə geniş vüsət alıb. Neftçala Sənaye Məhəlləsi fəaliyyətə başlayıb, Hacıqabul, Masallı, Sabirabad rayonlarında oxşar zonalar yaradılır. Mingəçevir Yüngül Sənaye Parkında birinci böyük fabrikin açılışı gələn ilin əvvəlində nəzərdə tutulubdur.

Azərbaycanda sənayeləşmə prosesi sürətlə gedir. Bunun təməlində bizim siyasətimiz, xarici və yerli investorların inamı dayanır. Çünki ancaq sabit olan ölkələrə investisiya cəlb olunur. Azərbaycan o ölkələrdəndir ki, çox yüksək beynəlxalq nüfuza malikdir, iqtisadi cəhətdən uğurla inkişaf edir. Davos Forumunun hesablamalarına görə, ölkə iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə biz 35-ci yerdəyik. Bu gün Sumqayıtda bu 7 müəssisənin, bundan əlavə, bu müəssisələri qidalandıran yarımstansiyaların fəaliyyətə başlaması bir daha bizim düzgün siyasətimizi göstərir və biz 2017-ci ili uğurla başa vururuq.

Sumqayıtın ümumi inkişafı məni çox sevindirir. Mən 18-ci dəfədir ki, Sumqayıtda səfərdəyəm. Bu il ikinci dəfədir gəlirəm. Şəhərdə bütün infrastruktur layihələri, demək olar ki, başa çatmaq

üzrədir. Fasiləsiz içməli su ilə təminat 94 faizə çatıbdır, qazlaşdırılma 100 faizdir, elektrik enerjisi ilə heç bir problem yoxdur, yeni yollar salınır. Biz bu il Bilgəh–Sumqayıt sahilboyu yeni yolun salınmasını təmin etdik. Sosial obyektlər, məktəblər, xəstəxanalar, Olimpiya İdman Kompleksi, Paralimpiya Mərkəzi, «ASAN xidmət» Mərkəzi yaradılıb. Bu gün biz «Kimyaçı» Mədəniyyət sarayının əsaslı təmirdən sonra açılışını qeyd edəcəyik. Yəni həm sosial, həm də iqtisadi sahədə, sənaye sahəsində çox böyük inkişaf vardır. Sumqayıt bulvarı isə – mən bunu bulvarın açılışında da demişəm – bir möcüzədir. Çünki qısa müddət ərzində belə bulvarın salınması doğrudan da çox böyük hadisədir. İnsanların rahat yaşaması, işlə təmin olunması üçün bütün işlər görülür. Bir daha demək istəyirəm ki, Sumqayıt dünya miqyasında böyük müasir sənaye mərkəzinə çevrilir. Bir məsələni də qeyd etməliyəm ki, bütün müəssisələr ən yüksək ekoloji standartlara malikdir. Bunu mən xüsusi tapşırmışam. Çünki bilirsiniz ki, vaxtilə Sumqayıtın ekoloji vəziyyəti çox ağır idi. Hətta bütün beynəlxalq reytinqlərdə dünyanın ekoloji cəhətdən ən problemli şəhərlərindən biri idi. Bu gün isə Sumqayıt ekoloji cəhətdən bəlkə də ən gözəl və təmiz şəhərlərdən biridir. Bax, biz buna nail ola bilmişik. Sumqayıtın ekoloji vəziyyətinin daim yaxşılaşdırılması diqqət mərkəzindədir və bu gün buranın təmiz havası, gözəl iqlimi əminəm ki, sumqayıtlılar üçün də çox önəmlidir.

Biz ili uğurla başa vururuq. 11 ayda sənaye istehsalı qeyri-neft sahəsində 3,5 faiz, qeyri-neft iqtisadiyyatımız 2,4 faiz, kənd təsərrüfatı 4 faizdən çox artıbdır – budur əsas iqtisadi göstəricilərimiz. Valyuta ehtiyatlarımız artır, maliyyə vəziyyətimiz də çox sabitdir. Bu gün Azərbaycan belə gözəl əsərlər yaradır və xalqımıza bəxş edir.

Burada, bu görüşdə iştirak edən bütün vətəndaşlar bu gün açılışında və təməlinin qoyulmasında iştirak etdiyim müəssisələrin nümayəndələridir. Mən sizi qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm, sizə uğurlar arzulayıram. Sağ olun.

* * *

**Ş ə h l a  A b d u l l a y e v a** *(«Azərikimya» İstehsalat Birliyinin əməkdaşı)*: Möhtərəm cənab Prezident, Sizi əməksevər sumqayıtlılar adından salamlayıram. Bizim gündən-günə gözəlləşən Sumqayıt şəhərimizə gəldiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Siz hamıdan yaxşı bilirsiniz ki, Sumqayıt böyük kimya sənayesi şəhəri kimi yenilənib. Sumqayıtın kimya sənayesi mərkəzi kimi formalaşmasında ulu öndərimiz Heydər Əliyevin misilsiz rolu olub. Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu dövrlərdə Sumqayıtda neft-kimya sənayesi yenilənib və müasir texnologiyalara uyğun olaraq yeni müəssisələr yaradılıbdır. Buna görə də Sumqayıtın adı ulu öndərimizin daim diqqət və qayğı göstərdiyi şəhər kimi, ölkəmizin şanlı tarixinə yazılıbdır.

Cənab Prezidentimiz, biz çox sevinirik ki, Siz ulu öndərimizin layiqli davamçısı kimi, bizim doğma Sumqayıt şəhərimizə daim diqqət və qayğı göstərirsiniz. Buna görə Sizə minnətdarıq. Son zamanlar Sumqayıt Kimya Sənaye Parkının yaradılması bunun bariz nümunələrindən biridir. Burada müxtəlif zavodlar, fabriklər tikilib. Biz dəqiq bilirik ki, insanlar işsiz qalmayacaq. Son zamanlar Cənubi Qafqazın ən iri sənaye şəhərlərindən birinə çevrilən Sumqayıtımız üçün Sizə minnətdarıq. Çox sağ olun, cənab Prezident.

Hamı yaxşı bilir ki, gənclər şəhəri Sumqayıt gündən-günə gözəlləşir, abadlaşır. Bu, insanlarımızı sevindirir. Biz bunu insanların simasından, çöhrəsindən hiss edirik. Sumqayıta gələn qonaqlar şəhərimizin gözəlliyinə, gözoxşayan bulvara, yeni tikilmiş binalara heyran qalırlar. Biz bilirik ki, onlar şəhərimizə həsəd aparırlar. Bunun üçün biz, cənab Prezident, Sizə və Sizinlə çiyin-çiyinə böyük əzmlə xalqımıza xidmət göstərən Mehriban xanıma minnətdarıq. Sizdən biz sumqayıtlıların salamlarını Mehriban xanıma çatdırmağı xahiş edirik. Biz sumqayıtlılar həmişə Sizinləyik. Allah Sizi və ailənizi qorusun.

**İ l h a m  Ə l i y e v:** Çox sağ ol, təşəkkür edirəm.

**Z a u r  Q a s ı m o v** *(«Gilan Sənaye Qrupu»nun baş direktor müavini)*: Cənab Prezident, bu mürəkkəb zamanda Sizin yürütdüyünüz çevik siyasət nəticəsində iqtisadiyyatın bütün sahələri üzrə məqsədyönlü tədbirlər həyata keçirilir. Respublikamızın şəhərlərində iri sənaye müəssisələri, texnoparklar, regionlarda isə sənaye zonaları yaradılır. Aqrar sahədə intensiv metodlara keçidin və müasir texnologiyaların tətbiqinin təmin olunması üçün «Gilan Sənaye Qrupu» Sizin tapşırığınıza uyğun olaraq «Aqrokimya Azərbaycan» müəssisəsinin yaradılması qərarına gəlib. Sizin tapşırığınıza əsasən bu müəssisə məhz Sumqayıt Kimya Sənaye Parkında yerləşdirilərək, rezident statusunu alıb və rezidentlərə verilən dövlət dəstəyi mexanizmlərindən tam faydalanıbdır. Müəssisəmiz aqrar sahəyə dəstək verməklə yanaşı, bazarın tələbatına uyğun olaraq, 10 min ton bitki mühafizə vasitəsi istehsalı gücünə malikdir və bununla da dünya standartlarına uyğun 145 çeşiddə pestisid istehsalı ilə məşğul olacaqdır.

Möhtərəm cənab Prezident, yerli istehsalçılara verdiyiniz dəstəyə görə Sizə dərin təşəkkürümüzü bildiririk. Sizi əmin edirik ki, bizim müəssisə də Sizin rəhbərliyinizlə aqrar sahədə həyata keçirilən siyasətə öz töhfəsini verəcəkdir.

## Bayraq Muzeyinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Bayraq Muzeyinin açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyev muzeyin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Muzeylə tanış olan dövlət başçısına məlumat verildi ki, binanın inşasına 2017-ci ilin fevralında başlanılıb və sentyabr ayında tikinti işləri başa çatdırılıbdır. İnşaat işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 10 min kvadratmetr olan muzeyin üçmərtəbəli binasında 2 sərgi zalı, inzibati və yardımçı otaqlar yaradılıb. Sərgi zallarında 6 bölmə fəaliyyət göstərəcəkdir. Burada Azərbaycan xanlıqlar dövrünün xəritəsi, bayraqları, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər nümayiş olunur. Muzeyin eksponatları arasında XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti dövrünə aid sənədlər, keçmiş Azərbaycan SSR-in və müstəqil Azərbaycan Respublikasının konstitusiyaları, gerblər, bayraqlar vardır. Ekspozisiyalarda müxtəlif illərə aid poçt markaları, orden və medallar da nümayiş olunur.*

*Bayraq Muzeyi Sumqayıt Dənizkənarı Bulvarın ərazisində yerləşir. Muzeyin məhz bu ərazidə inşa edilməsi şəhər sakinləri ilə yanaşı, qonaqların da buradakı eksponatlarla tanış olmalarına imkan yaradır.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, bulvarın sahilində gəmilərin yanalması üçün uzunluğu 800 metr olan körpü inşa edilib. Burada 10 metr hündürlüyündə estakada salınıb. Ərazidə müasir işıqlandırma sistemi və oturacaqlar quraşdırılıbdır.*

*Qeyd edək ki, belə muzeylərin yaradılması gənc nəslə vətənpərvərlik hissinin aşılanması, onların Vətənə, dövlətə məhəbbət ruhunda yetişməsi və bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.*

**Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər**

**təşkilatının inzibati binasının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlət başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycanda regionların sürətli sosial-iqtisadi inkişafı göstərir ki, Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strategiyanı uğurla davam etdirir. Paytaxtla yanaşı, bölgələr də inkişaf edir. Regionlarda yeni inzibati binaların tikintisi davam etdirilir. Azərbaycanın aparıcı siyasi qüvvəsi olan və 2017-ci ildə yaranmasının 25 illiyini qeyd edən Yeni Azərbaycan Partiyası ölkə həyatının bütün sahələrində yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Sıraları getdikcə genişlənən partiyanın ümumi amallar naminə uğurlu fəaliyyətində rayon təşkilatlarının da böyük rolu vardır. Yeni Azərbaycan Partiyası rayon təşkilatlarının yeni inşa olunmuş inzibati binaları da müasirliyi ilə seçilir və həmin binalarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılır.*

*Son illərdə Sumqayıt şəhərində çoxlu sosial təyinatlı infrastruktur obyektləri tikilib istifadəyə verilibdir. Bu sırada inzibati binalar da xüsusi əhəmiyyət kəsb edir. Sumqayıt şəhərinin ictimai-siyasi həyatında mühüm rol oynayan partiyanın yeni inzibati binasında yaradılan şərait təsdiqləyir ki, Yeni Azərbaycan Partiyası müstəqil Azərbaycanın daha parlaq gələcəyi naminə fəaliyyətində bundan sonra da səylərini əsirgəməyəcəkdir.*

*Üçmərtəbəli binanın foyesində Yeni Azərbaycan Partiyasının yaradıcısı ulu öndər Heydər Əliyevin büstü qoyulub, Heydər Əliyev guşəsi yaradılıbdır. Binada inzibati otaqlar, həmçinin deputat otağı, 300 yerlik iclas zalı vardır. İclas zalında Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bağlı müxtəlif tədbirlərin, seminarların və konfransların yüksək səviyyədə keçirilməsi mümkündür. Burada şəhərin həyatında baş verən əlamətdar günlərlə*

*bağlı tədbirlər keçiriləcəkdir. Binada müxtəlif xidmət otaqları da fəaliyyət göstərəcəkdir.*

*Respublikanın hər yerində olduğu kimi, Sumqayıt şəhərində də Yeni Azərbaycan Partiyasının üzvləri fəallıqları ilə seçilirlər. Onlar şəhərin ictimai-siyasi həyatında fəal iştirak edir, Sumqayıtın sosial-iqtisadi inkişafına töhfələrini verirlər. Hazırda Yeni Azərbaycan Partiyası Sumqayıt şəhər təşkilatının 26150 nəfər üzvü vardır.*

## «Azərikimya» İstehsalat Birliyinin «Kimyaçı» Mədəniyyət sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Dövlət Neft Şirkətinin «Azərikimya» İstehsalat Birliyinin «Kimyaçı» Mədəniyyət sarayında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Dövlət Neft Şirkətinin «Azərikimya» İstehsalat Birliyinin Müşahidə Şurasının sədri Muxtar Babayev görülən işlərlə bağlı dövlət başçısına ətraflı məlumat verdi.*

*Bildirildi ki, Sumqayıtda «Kimyaçı» Mədəniyyət sarayı 1986-cı ildə istifadəyə verilib. 2011-ci ildə Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri zamanı «Kimyaçı» Mədəniyyət sarayının mövcud vəziyyəti ilə tanış olub, bu mədəniyyət ocağının əsaslı şəkildə yenidən qurulması ilə bağlı tapşırıqlar veribdir. 2013-cü ilin oktyabr ayında isə burada əsaslı təmir işlərinə başlanılıb. Elə həmin il dövlətimizin başçısı Sumqayıta səfəri zamanı Mədəniyyət sarayında və ətraf ərazidə aparılan abadlıq-quruculuq işləri ilə tanış olub. Yenidən qurulma işləri bu ilin sentyabr ayında tam başa çatdırılıb, işlər yüksək keyfiyyət və müasir dizaynla yerinə yetirilib. Üçmərtəbəli binanın ümumi sahəsi 6900 kvadratmetrdir. Saraydakı 750 tamaşaçı-yerlik konsert zalı yüksək səviyyədə qurulub. Zalın yenidən qurulması zamanı müasir akustik sistemlərdən istifadə olunub. Həmçinin binada qonaq,*

*qrim və rejissor otaqları yaradılıb. Sahəsi 270 kvadratmetr olan rəqs zalı, kafe və dərnək otaqları da mədəniyyətsevərlərin ixtiyarına verilibdir.*

*«Kimyaçı» Mədəniyyət sarayında təsviri və tətbiqi incəsənət, əl ilə toxuma dərnəkləri fəaliyyət göstərir.*

*Dövlət başçısına Mədəniyyət sarayındakı xalça-qobelen haqqında da məlumat verildi. Bildirildi ki, müəllifi Xalidə Seyidova olan bu xalça 1980-ci ildə toxunub. Yun tərkibli xovsuz toxunuşlu, sadə və mürəkkəb keçirtmə əl işi olan xalça bir-birinə birləşdirilmiş 6 hissədən ibarətdir. Ara sahənin üzərində Azərbaycanın görkəmli tarixi şəxsiyyətlərinin və mədəniyyət xadimlərinin portretləri, Qobustan qayaüstü təsvirləri və xalça naxışları təsvir olunubdur.*

*Prezident İlham Əliyev sumqayıtlı sənətkarların əl işləri ilə tanış oldu.*

*Sarayda xanəndəlik, zərb alətləri, rəqs, instrumental ifaçılıq dərnəkləri də fəaliyyət göstərir.*

*Azərbaycan zəngin mədəniyyəti ilə həmişə fəxr edib. Azərbaycanın mədəni dəyərləri dünya mədəniyyətinin ayrılmaz parçasıdır. Son illərdə Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycanda mədəniyyət sahəsinin inkişafı istiqamətində çox mühüm və tarixi işlər görüblər. Bu baxımdan yeni mədəniyyət ocaqlarının yaradılması, mövcudlarının isə əsaslı şəkildə yenidən qurulması ilə bağlı layihələrin coğrafiyası son illərdə daha da genişlənib. «Azərikimya» İstehsalat Birliyinin «Kimyaçı» Mədəniyyət sarayının əsaslı şəkildə yenidən qurulması da bu işlərin ardıcıl surətdə davam etdirilməsini nümayiş etdirir.*

*Mədəniyyət Sarayının qarşısındakı 5 hektarlıq meydanda geniş abadlıq-quruculuq və yaşıllaşdırma işləri aparılıb, kommunikasiya xətləri və işıqlandırma sistemi yenidən qurulub, fəvvarə və 100 avtomobil-yerlik dayanacaq yaradılıbdır.*

## Lüdviqşafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də Sumqayıtda Lüdviqşafen parkında əsaslı təmirdən sonra yaradılan şəraitlə tanış olmuşdur.*

*Son illərdə Azərbaycanda həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bölgələrin daha da gözəlləşməsi, regionların simasına yeni elementlərin daxil olması ilə müşayiət olunur. Ölkəmizin bütün bölgələrində müasir səviyyədə ictimai yerlərin, bulvarların, parkların və xiyabanların yaradılması tədbirləri davam etdirilir. Bu proses Sumqayıtda da geniş vüsət alıb. Bu sahədə görülən işlər sakinlərin rahatlığı, asudə vaxtlarının daha da səmərəli təşkili məqsədini daşımaqla yanaşı, müasirləşən Sumqayıtın gözəlliyinə əlavə çalarlar qatır.*

*Sumqayıtın Lüdviqşafen parkında geniş abadlıq-quruculuq işləri aparılıb, yaşıllıq zolaqları salınıbdır. Burada aparılan yenidən qurulma işləri ərazinin gözəlliyini daha da artırır. Görülən bu işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni parkların, istirahət məkanlarının və guşələrinin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması Sumqayıtın daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.*

*Şəhərin 9-cu mikrorayonunun ərazisində yerləşən Lüdviqşafen parkı müasir səviyyədə yenidən qurulub. Bu istirahət məkanı Sumqayıt şəhəri ilə qardaşlaşmış Almaniyanın Lüdviqşafen şəhərinin şərəfinə salınıbdır.*

*Onu da deyək ki, Lüdviqşafen şəhərində də Sumqayıt parkı mövcuddur. Bu park 1997-ci ildə Sumqayıt–Lüdviqşafen əlaqələrinin 20 illiyi münasibətilə salınıb. Ümumi ərazisi 2 hektar olan parkda sakinlərin istirahəti üçün geniş imkanlar yaradılıbdır – yenidən qurulma işləri zamanı müasir işıqlandırma*

*sistemi yaradılıb, yaşıllıq zolaqları salınıb, dekorativ ağaclar və gül kolları əkilibdir. Bu park Sumqayıtın gəzməli yerlərinə daha bir ünvan əlavə edib. Mövcud istirahət mərkəzlərinin, parkların, xiyabanların yenidən qurulması, yeni istirahət guşələrinin açılması ilk növbədə, sosial layihədir. Bununla yanaşı, belə layihələrin icrası ölkəmizin iqtisadi potensialını nümayiş etdirir.*

## «Baku Steel Company» MMC-nin Sumqayıt Boruyayma zavodunun yenidən qurulmadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 15-də «Baku Steel Company» MMC-nin Sumqayıt Boruyayma zavodunun yenidən qurulmadan sonra açılışında iştirak etmişdir.*

*Dünyada maliyyə və iqtisadi böhranın davam etdiyi bir dövrdə Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və sənayenin əsaslı şəkildə inkişafı başlıca prioritetlərdəndir. Qarşıya qoyulan əsas məqsədlərdən biri də ölkəmizin bütün regionlarında sənayeni daha da inkişaf etdirməkdir. Ölkənin qeyri-neft sektoruna yönəldilən investisiyalar Azərbaycan iqtisadiyyatının daha da inkişafına və keyfiyyətli yerli məhsullar istehsalının genişləndirilməsinə hərtərəfli təkan verir. Bu baxımdan «Baku Steel Company» MMC-nin Sumqayıt Boruyayma zavodu ölkə iqtisadiyyatına mühüm töhfədir. Belə zavodların fəaliyyəti ölkə iqtisadiyyatının sənayeləşdirilməsinin sürətləndirilməsinə, yeni təşəbbüslər nəzərə alınmaqla, sənayenin modernləşməsinə, rəqabətqabliyyətli müasir və prioritet istehsal sahələrinin yaradılmasına, sənayenin innovasiyalar əsasında inkişafının və yeni iş yerlərinin açılmasının təmin edilməsinə xidmət edir. Hazırda enerjidən səmərəli istifadə edilən, yüksək əlavə dəyər yaradan və ən son elmi-texniki yeniliklərə əsaslanan rəqabətqabliyyətli sənaye istehsalının genişlən-*

*dirilməsi üçün respublikamızda yenidən qurulma tədbirləri ardıcıl xarakter daşıyır. «Baku Steel Company» MMC-nin Sumqayıt Boruyayma zavodunda da bu istiqamətdə tədbirlər davam etdirilir.*

*«Baku Steel Company» MMC-nin Müşahidə Şurasının sədri Rasim Məmmədov dövlət başçısına görülən işlərlə bağlı ətraflı məlumat verdi.*

*Bildirildi ki, Azərbaycanda Boruyayma zavodu 1947-ci ildə yaradılıb, tam gücü ilə istehsal fəaliyyətinə isə 1952-ci ilin dekabrında başlayıbdır. Keçmiş SSRİ ərazisində tikişsiz boru istehsal edən 26 müəssisədən biri olan bu zavodda çalışanların sayı 12 min nəfər, onun illik istehsal gücü isə 1 milyon ton məhsul təşkil edibdir. 1979-cu ildə ulu öndər Heydər Əliyevin tapşırığına əsasən, zavodun ərazisində neft sənayesi üçün qazma borularının istehsalı sahəsi yaradılıb. Bununla da zavod keçmiş SSRİ məkanında qazma borusu istehsal edən 3 müəssisədən birinə çevrilibdir. Zavodda istehsal olunan qazma, qoruyucu, nasos-kompressor, neft-qaz boruları, həmçinin ümumi təyinatlı borular neft və maşınqayırma sənayesində geniş istifadə edilib. 1995-ci ildə zavod fəaliyyətini tamamilə dayandırıb. İstehsal sahələri və qurğuları texniki cəhətdən yararsız hala düşüb. 2016-cı ilin oktyabr ayında «Baku Steel Company» MMC-nin Oksigen zavodunun açılışı zamanı prezident İlham Əliyev Sumqayıt Boruyayma zavodunun əsaslı yenidən qurulması və fəaliyyətə başlaması barədə tapşırıqlar verib. Həmin tapşırıqlar əsasında zavod qısa müddət ərzində yenidən qurulub və fəaliyyətə başlaması üçün tam hazır vəziyyətə gətirilibdir.*

*Dövlət başçısı zavodu işə saldı.*

*Məlumat verildi ki, yenidən qurulmadan sonra zavodun illik istehsal gücü 90 min tondan 200 min tona çatdırılıb. Müəssisədə quraşdırılan müasir avadanlıqlar keyfiyyətli məhsul əldə etməyə imkan verir. Quraşdırılan avadanlıqlar dünyanın bu sahədə aparıcı şirkətlərinin məhsuludur. Müəssisədə 531 nəfər daimi işlə təmin edilib ki, onların da orta aylıq əməkhaqqı 1500 manatdır.*

*Zavodda 3 növbə üzrə 24 saatlıq rejimdə fəaliyyət göstərən 180 yerlik yeməkxana da inşa edilibdir.*

*Müəssisənin mərkəzi sınaq laboratoriyası ABŞ, Avropa, Çin və Tayvanda istehsal olunan müasir avadanlıqlarla təchiz edilib. Laboratoriyada metalın bərkliyini, möhkəmliyini, axma həddini və nisbi uzanmasını təyin edən avadanlıq quraşdırılıb, mikro və makrostruktur analizlər üçün hər növ mikroskoplar, metalın kimyəvi tərkibini təyin edən spektrometr qoyulubdur. Azərbaycan istehsalı olan borular daxili bazarda satılmaqla yanaşı, xarici ölkələrə də ixrac ediləcəkdir. Müəssisənin məhsullarının Almaniya, Hollandiya, Belçika, İtaliya, Avstriya, Türkiyə, Rusiya, Qazaxıstan, Litva və Ukraynaya ixracı nəzərdə tutulur.*

*Zavodun ərazisində geniş abadlıq işləri aparılıb, 38 min kvadratmetr sahədə yaşıllıq sahəsi salınıbdır.*

## 2017-ci İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK

*Milli Olimpiya Komitəsi*

*18 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü Mehriban Əliyeva dekabrın 18-də Milli Olimpiya Komitəsində keçirilən 2017-ci ilin idman yekunlarına həsr olunmuş mərasimdə iştirak etmişlər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Milli Olimpiya Komitəsinin foyesində «IV İslam Həmrəyliyi oyunları Azərbaycan fotoqraflarının gözü ilə» mövzusunda sərgi ilə tanış oldular.*

*Dövlət başçısı tədbirdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Əziz dostlar, 2017-ci il başa çatır. Bu il Azərbaycan idmançıları xalqımızı böyük qələbələrlə sevindirmişlər. Azərbaycanda idmanın inkişafı çox sürətlə gedir. Hər il idmançılarımız müxtəlif beynəlxalq yarışlarda yüksək nəticələr göstərirlər, medallar qazanırlar. Bu il də medalların sayı kifayət qədər çoxdur. Azərbaycan idmançıları bu il beynəlxalq yarışlarda 851 medal qazanmışlar ki, onlardan 347-si qızıl medaldır. Keçən illə müqayisədə medalların sayı daha çoxdur. Bu onu göstərir ki, idmanın inkişafı dinamik xarakter daşıyır və idmançılarımız ardıcıl olaraq böyük qələbələr qazanırlar.

Bu il bir çox idman qələbələrimiz olubdur. Onların arasından bir neçə hadisəni bu gün qeyd etmək istərdim. Bizim şahmatçılarımız üçüncü dəfə Avropa çempionu olublar. Bu, böyük qələbədir, böyük nəticədir. Bu nəticə onu göstərir ki, bizim idmançılarımız həm döyüş, həm komanda, həm də intellektual idman növlərində ən yüksək pilləyə qalxırlar. Şahmat üzrə Avropa çempionatında birinci olmaq doğrudan da böyük nailiyyətdir, böyük qələbədir.

Bu il bizim 2 idmançımız – Məhəmmədrəsul Məcidov və Hacı Əliyev boks və sərbəst güləş üzrə üçqat dünya çempionu olublar. Bu, tarixi qələbədir. Olimpiya idman növündə üçqat dünya çempionu olmaq böyük uğurdur, böyük qələbədir.

Azərbaycan idman məktəbinin yetirməsi – azərbaycanlı idmançı Ramil Quliyev bu il ilk dəfə olaraq yüngül atletika üzrə dünya çempionu olubdur. Bu da tarixi qələbədir.

Komanda idman növlərində də idmançılarımız çox yaxşı nəticələr göstəriblər. Bakıda keçirilmiş voleybol üzrə qadınlar arasında Avropa çempionatında voleybolçu qızlarımız 4-cü yerə layiq görüldülər. Onlar hətta medal qazanmağa da çox yaxın idilər. Yarımfinal görüşündə qələbəyə çox yaxın idilər. Ancaq hesab edirəm ki, Avropada voleybol kimi çox məşhur idman növündə 4-cü olmaq da böyük nailiyyətdir. Əlbəttə ki, bizim futbolçularımız – hamımız üçün doğma olan «Qarabağ» komandası tarixdə ilk dəfə olaraq Çempionlar Liqasının final mərhələsində iştirak etmişdir. Bu, Azərbaycan futbolunun böyük qələbəsidir və komanda ölkəmizi, xalqımızı, Qarabağı bu oyunlarda ləyaqətlə təmsil etmişdir.

Mən xatırlayıram, biz Olimpiya stadionunu inşa edərkən bəzi fikirlər səslənirdi ki, bu qədər böyük arena bəlkə də bizə lazım deyil, Tofiq Bəhramov adına 30 minlik stadionumuz, digər stadionlarımız var və bu arena heç vaxt dolmayacaq. Ancaq bu gün həyat göstərir ki, «Qarabağ» futbol klubunun oyunlarına 60 mindən çox tamaşaçı gəlmişdi. Bu gün Bakı Olimpiya stadionu dünya miqyasında seçilən olimpiya stadionlarından biridir.

Təsadüfi deyil ki, bir neçə ildən sonra UEFA Avropa Liqasının final görüşü, həmçinin futbol üzrə Avropa çempionatının bir neçə oyunu bu stadionda keçiriləcəkdir.

Bu il Azərbaycan Gimnastika Federasiyasının nümayəndəsi Fərid Qayıbov Avropa Gimnastika İttifaqının prezidenti seçilmişdir. Bu da tarixi nəticədir. Çünki bu günə qədər heç vaxt Azərbaycan nümayəndəsi Avropa İdman Federasiyasına rəhbərlik etməmişdir. Bu da son illər Azərbaycanda gimnastika idman növünün, ümumiyyətlə, idmanın inkişafının təzahürüdür. Ölkəmizdə keçirilmiş bir çox beynəlxalq yarışlar artıq Azərbaycanı bütün dünya idman ictimaiyyətinə çox dinamik inkişaf edən, müasir, güclü ölkə kimi təqdim etdi və bunun nəticəsidir ki, bizim nümayəndələrimiz indi Avropanın idman ailəsində də yüksək vəzifələr tuturlar.

Əlbəttə, bu il ən böyük qələbəmiz Bakıda keçirilmiş İslam Həmrəyliyi oyunlarında Azərbaycan idmançılarının qələbələri olubdur. Bu oyunlar, sözün əsl mənasında, böyük idman, dostluq, qardaşlıq bayramı idi. Azərbaycan bütün müsəlman ölkələrinin aparıcı idmançılarını qəbul etdi və əminəm ki, onlar öz vətənlərinə ən xoş təəssüratlarla qayıtmışlar. Burada keçirilən oyunlar bir daha Azərbaycanın gücünü göstərdi. Göstərdi ki, Azərbaycan dünya miqyasında böyük idman ölkəsidir. 2015-ci ildə Avropa oyunlarında 2-ci, 2017-ci ildə İslam Həmrəyliyi oyunlarında isə 1-ci yerə Azərbaycan komandası layiq görüldü. Bu oyunlarda 3000-dən çox idmançı, minlərlə mütəxəssis, qonaq iştirak edib və Azərbaycan həqiqətləri ilə tanış olublar.

Mən sadəcə olaraq, bir neçə önəmli idman hadisəsini diqqətinizə çatdırdım. Ancaq qələbələrin sayı çox olubdur. Qeyd etdiyim kimi, 851 medal qazanmışıq və sevindirici hal ondan ibarətdir ki, həm döyüş, həm komanda, həm də intellektual idman növlərində bizim idmançılarımız çempiondurlar, qalibdirlər.

Bakıda keçirilmiş mötəbər beynəlxalq yarışlar bütün dünyanın diqqətini cəlb edir. Onu da qeyd etməliyəm ki, bu il ikinci dəfə

olaraq Bakıda «Formula-1» yarışı keçirildi. Ümumi rəyə görə – bu, artıq xarici mətbuatda da qeyd olunub – 20 yarışın arasında «Formula-1» ilin ən yaxşı yarışı hesab olunub. Bu da bizim böyük nailiyyətimizdir, böyük uğurumuzdur. Bir çox «Formula-1» yarışlarından fərqli olaraq, bizim yarışımız şəhər yarışıdır və bu eyni zamanda, bütün dünyaya – yarım milyardlıq tamaşaçı auditoriyasına Bakı şəhərinin gözəlliyini nümayiş etdirir. Təsadüfi deyil ki, 2016-cı ildə ölkəmizə gələn turistlərin sayı 24 faiz və 2017-ci ilin 11 ayında isə daha 20 faiz artmışdır. Əlbəttə, bunun səbəbləri təkcə «Formula-1» yarışı deyil, Azərbaycanda gedən inkişaf, sabitlik, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi, müasir infrastruktur, şəhərimizin gözəlliyi, müasir hotellər, viza rejiminin sadələşdirilməsidir. Hesab edirəm ki, «Formula-1» ölkəmizin təbliğatı üçün nadir yarışdır. Yəni 500 milyon tamaşaçı bu yarışı müntəzəm olaraq izləyir və bir daha demək istəyirəm ki, Bakının gözəlliyini, Azərbaycanın qüdrətini görür.

Beləliklə, təkcə sadaladığım bu hadisələr, bu qələbələr deməyə əsas verir ki, Azərbaycan, sözün əsl mənasında, güclü idman ölkəsidir. Əminəm ki, idmançılarımız bundan sonra da bizi qələbələrlə sevindirəcəklər. Azərbaycanda idmanın inkişafına çox böyük diqqət göstərilir, dövlət siyasəti aparılır, idmanın maddi-texniki bazası möhkəmləndirilir. Bakının idman qurğuları dünyanın ən yüksək standartlarına cavab verir. Bölgələrdə də olimpiya idman mərkəzlərinin tikintisi davam etdirilir. Bu il Abşeron və Ağcabədi rayonlarında 2 gözəl Olimpiya İdman Kompleksi yaradılıbdır. Gələn il dövlət büdcəsində bölgələrdə 3 mərkəzin tikintisi nəzərdə tutulub. Onlardan biri istifadəyə veriləcək, ikisində isə tikinti işləri gedəcəkdir. Ondan sonrakı illərdə də biz bu siyasəti davam etdirəcəyik. Bu günə qədər bölgələrdə 43 Olimpiya İdman Kompleksi yaradılıbdır ki, bunlar gənclər, idmançılar, rayon sakinləri üçün çox gözəl imkanlar yaradır.

Əlbəttə, bu istiqamətdə işlər bundan sonra da davam etdiriləcəkdir. Əminəm ki, idmançılarımız bizi beynəlxalq yarışlarda

bundan sonra da sevindirəcəklər. Bütün bu uğurların səbəbləri aydındır. İdmana dövlət dəstəyi, idmançılarımıza qayğı göstərilir. İdmanla məşğul olan bütün qurumlar – Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, federasiyalar, klublar, idman cəmiyyətləri – hamı bir nöqtəyə vurur. Yəni bizim məqsədimiz Azərbaycanda idmanın inkişaf etdirilməsidir, Azərbaycanın dünyada güclü idman ölkəsi kimi tanıtdırılmasıdır və idmanın kütləviliyinin təmin olunmasıdır. Regional olimpiya mərkəzlərinin tikintisinin səbəbi də məhz budur ki, idman kütləvi xarakter alsın.

Mən hər zaman idmançılarla görüşəndə qeyd edirəm ki, hər bir insan idmanla məşğul olmalıdır. Fiziki sağlamlıq hər bir insan üçün çox önəmlidir. Biz son illər ərzində bu istiqamətdə bir çox vəzifələri icra etmişik. Bütün bölgələrdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikilibdir. Dövlət tərəfindən təşkil olunan dispanserizasiya, müayinədən keçmə işləri aparılır. Hər il 5 milyondan çox insan dövlət hesabına tibbi müayinədən keçir. Ekoloji vəziyyət yaxşılaşır, təmiz içməli su layihələrinin icrası geniş vüsət alıbdır. Əlbəttə, fiziki hərəkət sağlamlıq üçün əsas amillərdən biridir. İdmanın kütləviliyi idman nəticələri əldə etmək üçün yox, sadəcə olaraq, ona görə vacibdir ki, hər bir insan özünü yaxşı hiss etsin.

Mən şadam ki, gənc idmançılarımız da bizi qələbələrlə sevindirirlər. Yeniyetmə, uşaq idmanı olmadan idman uğurlarından danışmaq mümkün deyil. Gənc nəsil də yetişir, artıq yarışlara çıxır, qələbələr qazanır və beləliklə, idman uğurlarımızın ardıcıllığı təmin olunur. Əgər biz iştirak etdiyimiz bütün Yay Olimpiya oyunlarının nəticələrinə fikir versək görərik ki, hər dəfə daha böyük sayda medallar qazanırıq. Yəni idmançıların hazırlığı, gənclərin, yeniyetmələrin idman bölmələrinə gəlmələri bu nəticəni təmin edir. Son Rio Yay Olimpiya oyunlarında Azərbaycan medalların sayına görə dünya miqyasında 14-cü yerə qalxmışdır. Bu, tarixi qələbədir. Bu qələbəni bir neçə il bundan əvvəl təsəvvür belə etmək mümkün deyildi. Bu qələbəni biz cəmi 25 il ərzində qazanmışıq. Müstəqilliyimizin 25 illiyinə təsadüf

edən Rio Olimpiya oyunlarında biz belə böyük qələbəni qazanmışıq və müstəqilliyimizə bunun çox böyük töhfəsi olmuşdur. Azərbaycan xalqı bir daha bütün dünyaya göstərdi ki, Azərbaycanda idman yüksək səviyyədədir. Əgər idman nəticələrinə fikir versək görərik ki, əksər hallarda idman ancaq inkişaf etmiş ölkələrdə sürətlə inkişaf edir. Çünki idmanın inkişafı üçün böyük vəsait lazımdır.

Ona görə idmanın inkişafı inkişafımızın ümumi kontekstində mühüm yer tutur. Azərbaycan hər bir istiqamət üzrə son illər uğurlu inkişaf yolu keçibdir. Güclü iqtisadi imkanlarımız, beynəlxalq mövqelərimizin gücləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın çox hörmətli ölkə kimi qəbul edilməsi bizim ümumi uğurlarımıza şərait yaradır. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılar cəmiyyətdə böyük hörmətə malikdirlər. Onu da qeyd etmək istəyirəm ki, idmançılarımızın mütləq əksəriyyəti, xüsusilə bizim tanınmış idmançılarımız məişətdə də gənclər üçün nümunədir. İdmançılarımızın qələbələri və dövlət tərəfindən onların mükafatlandırılması uşaq, yeniyetmə, gənc idmançılarda ruh yüksəkliyi yaradır. Onlar da görkəmli çempionlar kimi olmaq, uğurlar qazanmaq, bayrağımızı qaldırmaq istəyirlər və istəyirlər ki, xalq onları da tanısın və hörmət etsin.

İdmana sadəcə olaraq, bir sahə kimi baxmaq mümkün deyil. İdman hər bir ölkənin ictimai həyatında çox böyük rol oynayır. Təsadüfi deyil ki, ölkələr beynəlxalq yarışlarda, dünya çempionatlarında, xüsusilə Olimpiya oyunlarında daha yüksək yer tutmağa çalışır. Çünki bu, ölkələrə daha böyük şöhrət gətirir. İslam Həmrəyliyi oyunlarının tarixçəsinə nəzər salsaq görərik ki, nə qədər gərgin mübarizə getmişdir. Avropa oyunlarında da gərgin mübarizə getmişdir. Bu 2 mötəbər yarışda birinci, ikinci yerləri tutmaq bizim tarixi qələbəmizdir. İdmanın inkişafı bundan sonra da diqqət mərkəzində olacaqdır. Bu il biz Milli Olimpiya Komitəsinin 25 illiyini qeyd etdik. O tədbirdə mən öz fikirlərimi bildirdim. Bundan sonra da Azərbaycan dövləti idmançılara öz qayğısını əsirgəməyəcək, idmanın inkişafı üçün nə lazımdırsa, biz

onu edəcəyik. İdmançılara isə yeni qələbələr, yeni uğurlar arzulayırıq.

Mən bu fürsətdən istifadə edərək – biz hər il ilin sonunda görüşürük – bütün idmançıları qarşıdan gələn Yeni il bayramı və Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edirəm, sizə yeni uğurlar, yeni qələbələr arzulayıram. Sağ olun.

* * *

*Sonra 2017-ci ildə yüksək nailiyyətlər qazanmış idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olundu.*

*Azərbaycan Prezidenti ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Ağayar Axundzadəyə, Zemfira Məftahəddinovaya, Nağı Babayevə, Firat Hüseynova, Vaqif Davudova, Qərib Əliyevə və Kamal Əhmədova «Əməkdar bədən tərbiyəsi və idman xadimi», Aslan Şirəliyevə «Əməkdar jurnalist», Kamil İsgəndərova «Əməkdar həkim» fəxri adlarının döş nişanlarını və vəsiqələrini təqdim etdi.*

*Dövlət başçısı İlham Əliyev Elxan Məmmədova, Tahir Gözələ və Fərid Qayıbova Azərbaycan Respublikası Prezidentinin Fəxri diplomunu təqdim etdi.*

*Ölkəmizdə idmanın inkişafında xüsusi xidmətləri olan Əhəd Əliyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədlər təqdim olundu.*

*Tədbirdə, həmçinin Azər Həsənov, Namiq Əsgərov, Güloğlan Cabbarov, Xəyal Əhmədov, Faiq Həsənov, Rəsul Məmmədov Milli Olimpiya Komitəsi prezidentinin fəxri fərmanları ilə təltif edildilər.*

*Prezident İlham Əliyev 2017-ci ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə yeni mənzillərin orderlərini təqdim etdi.*

*Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar*

*incəsənət xadimi Zərifə Salahova Azərbaycan Prezidenti İlham Əliyevə və xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim etdi.*

## AZƏRBAYCAN MEMARLARININ XIX QURULTAYININ İŞTİRAKÇILARINA

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan memarlarının XIX qurultayının öz işinə başlaması münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Özünəməxsus inkişaf yolu keçmiş çoxəsrlik Azərbaycan memarlığı xalqımızın mədəniyyət salnaməsini bəzəyən və qədim Şərq memarlığının mühüm nailiyyətlərini özündə əks etdirən möhtəşəm abidələrlə zəngindir. Ənənəvi memarlığın başlıca prinsiplərinə sadiq istedadlı sənətkarlarımız bu əsərləri yaradarkən təbiətlə ahəngdarlığın qorunmasını həmişə diqqətdə saxlamışlar.

Milli sərvətimiz olan İçərişəhər ölkəmizin ərazisində yüz illər bundan əvvəlki şəhərsalma sənətinin parlaq təzahürüdür. Burada ucaldılmış və müasirlik ruhunu indiyədək qoruyub saxlamış Qız qalası doğma Bakının qədim rəmzlərindəndir. Orta əsr şəhər mədəniyyətini təcəssüm etdirən Şirvanşahlar Sarayı Kompleksi mühəndis-memarlıq həllinin kamilliyinə görə bu gün də heyranlıq doğurur. Fəxr edirik ki, dünya memarlığı xəzinəsində memarlıq sənətimizin qiymətli nümunələri vardır.

Bizim memarlıq irsimiz öz tarixinin bütün mərhələlərində ardıcıl uğurlu yaradıcılıq axtarışlarının nəticəsi olaraq və milli memarlıq baxımından düzgün həllini tapmış sənət inciləri ilə davamlı surətdə zənginləşmişdir. Qədimliklə müasirliyi özündə birləşdirən Bakıda Avropa və Şərq memarlığının sintezi əsasında ucaldılmış yaraşıqlı binalar sırasına daimi yeniləşmə rəmzi kimi modern üslublu nadir memarlıq abidələrinin əlavə

edilməsi təkrarsız görkəmə malik paytaxtımızın panoramını daha da dolğunlaşdırır.

Müstəqillik illərindəki çoxsaylı möhtəşəm tikililər sayəsində regionlarımızın memarlıq mənzərəsi dəyişərək, yeni şəkil almışdır. Memarlarımız böyük quruculuq yolunda inamla irəliləyən Azərbaycanın inkişafına töhfələr vermiş, şəhər və qəsəbələrimizin mənzərəsini ildən-ilə daha da gözəlləşdirən, küçə və meydanlarımızı bəzəyən dəyərli əsərlər meydana gətirmişlər. Onlar bu gün də yeni yaradıcılıq uğurları ilə yanaşı, tarixi mədəni irsimizin bərpası və gələcək nəsillər üçün qorunub saxlanılmasında bilik, qüvvə və bacarıqlarını əsirgəmirlər.

İnanıram ki, qurultayınızda şəhərlərimizin memarlıq görkəminin milli özünəməxsusluğu, tariximizə və mədəniyyətimizə uyğunluğu barədə səmərəli fikir mübadiləsi və müzakirələr aparılacaq, ölkə memarlığının gələcək inkişafı ilə bağlı əhəmiyyətli qərarlar qəbul olunacaqdır.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 dekabr 2017-ci il*

## DÜNYA BANKININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 18-də Dünya Bankı Qrupuna daxil olan Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyinin icraçı vitse-prezidenti və baş icraçı direktoru xanım Keiko Hondanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Keiko Honda Dünya Bankının prezidenti Cim Yen Kimin salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq təmsil etdiyi qurumun ölkəmizlə uğurlu əməkdaşlıq həyata keçirdiyini, Azərbaycanda aparılan iqtisadi islahatları yaxından izlədiklərini və görülən işləri yüksək qiymətləndirdiklərini bildirdi. Azərbaycanda iqtisadi çətinliklərin arxada qoyulması, ölkədə sabitliyə və inkişafa nail olunması münasibətilə dövlət başçısına təbriklərini çatdıran Keiko Honda Azərbaycan iqtisadiyyatının inkişafı və şaxələndirilməsi istiqamətində əldə edilən uğurların önəmini qeyd etdi.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev Dünya Bankının Azərbaycanda həyata keçirilən iqtisadi islahatlara verdiyi davamlı dəstəyi yüksək qiymətləndirdi və təşkilat tərəfindən ölkəmizə ayrılan maliyyə vəsaitlərinin önəmini qeyd etdi. Dövlət başçısı bu il Azərbaycanla Dünya Bankı Qrupu arasında əməkdaşlığın 25 illiyinin qeyd olunduğunu məmnunluqla bildirərək, ötən dövr ərzində Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi tərəfindən ölkəmizdə xarici investorların həyata keçirdiyi bir sıra mühüm investisiya layihələrinə, eləcə də qlobal əhəmiyyətli «Cənub Qaz Dəhlizi» layihəsinə verilən dəstəyin önəmini vurğuladı. Prezident İlham Əliyev «Cənub*

*Qaz Dəhlizi» layihəsinin nəinki Azərbaycan, o cümlədən Avropa da daxil olmaqla, geniş bir coğrafiyanı əhatə edən region üçün mühüm əhəmiyyət daşıdığını qeyd etdi. Ölkəmizin maliyyə qabiliyyətli etibarlı tərəfdaş olduğunu, üzərinə götürdüyü öhdəlikləri daim yerinə yetirdiyini qeyd edən dövlət başçısı TANAP layihəsi ilə bağlı işlərin qrafikə uyğun, uğurla həyata keçirildiyini və vaxtında tamamlanacağını bildirdi.*

*Prezident İlham Əliyev qeyd etdi ki, bu il Azərbaycan iqtisadiyyatı artıq sabitləşmə dövrünə qədəm qoyub. İqtisadiyyatımızda neft amilini nəzərə almasaq, görərik ki, bu il qeyri-neft sektorunda 2,5 faiz, qeyri-neft sənaye sahəsində 3 faizdən çox, aqrar sektorda isə 4 faizdən çox inkişafa nail olunub. Neftin qiymətinin aşağı düşməsinin ümumi daxili məhsulun həcminə mənfi təsir göstərməsinə baxmayaraq, qeyri-neft sektoru ümumi daxili məhsulun 70 faizini təşkil edib. Dövlət başçısı qeyd etdi ki, gələcəkdə «Cənub Qaz Dəhlizi»nin işə düşməsi, «Əsrin müqaviləsi»nin müddətinin uzadılması, əlavə investisiya qoyuluşu, qlobal nəqliyyat layihələrinin uğurla həyata keçirilməsi Azərbaycan iqtisadiyyatının inkişaf perspektivlərinə nikbinliklə baxmaq üçün əsas verir.*

*Görüşdə Azərbaycan ilə Çoxtərəfli İnvestisiya Zəmanəti Agentliyi arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı Dünya Bankının prezidenti Cim Yen Kimin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Dünya Bankının prezidentinə çatdırmağı xahiş etdi.*

## RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru Aleksandr Jilkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi qeyd olundu, Rusiya Federasiyasının ayrı-ayrı regionları, o cümlədən Həştərxan vilayəti ilə əməkdaşlığın əlaqələrimizin möhkəmləndirilməsi işinə töhfə verdiyi bildirildi.*

*Həştərxanda Azərbaycan Biznes Mərkəzinin inşa olunduğunu deyən qubernator Aleksandr Jilkin bildirdi ki, bu biznes mərkəzi vilayətdə logistik qovşağın yaradılmasına xidmət edəcəkdir. Aleksandr Jilkin Həştərxanda görülən işlərə verdikləri dəstəyə görə Azərbaycan Prezidentinə, Heydər Əliyev Fonduna, Azərbaycanın Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban Əliyevaya, Fondun vitse-prezidenti Leyla Əliyevaya xüsusi təşəkkürünü ifadə etdi.*

*Həştərxan vilayətinin qubernatoru Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günündə ulu öndərin adını daşıyan və Heydər Əliyev Fondunun dəstəyi ilə əsaslı təmir və yenidən qurulma işlərinin aparıldığı məktəbdə olduğunu və məktəb şagirdlərinin Prezident İlham Əliyevə salam göndərdiklərini vurğuladı.*

*Azərbaycan ilə Rusiya arasında tərəfdaşlıq münasibətlərinin, xüsusən ticari, iqtisadi və regional əməkdaşlığın genişləndirilməsi işində Həştərxan vilayətinin rolunu vurğulayan Prezident İlham Əliyev bununla bağlı qubernator Aleksandr Jilkinə təşəkkürünü bildirdi.*

*Görüşdə 2018-ci ildə Həştərxan vilayəti tərəfindən Xəzər dənizində səyahət gəmilərinin buraxılması və bunun Xəzər hövzəsi ölkələri arasında turizmin inkişafına töhfə verəcəyi qeyd olundu, Həştərxan vilayəti ilə Azərbaycan arasında nəqliyyat-logistika əlaqələrinin genişləndirilməsi, Azərbaycanın kənd təsərrüfatı məhsullarının vilayət vasitəsilə Rusiya bazarlarına çıxarılması sahəsində birgə tədbirlər haqqında danışıldı.*

*Söhbət zamanı bu gün Bakıda keçiriləcək Həştərxan Biznes Mərkəzinin təməlqoyma mərasiminin önəmi vurğulandı, turizm, səhiyyə, kənd təsərrüfatı, təhsil, texnologiya sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı ölkələrimiz arasında əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirdi, birgə layihələrin həyata keçirilməsi ilə bağlı yaxşı nəticələrin əldə olunduğunu vurğuladı. İstanbulda İran Prezidenti Həsən Ruhani ilə qısa söhbətini xatırladan Prezident İlham Əliyev söhbət zamanı ikitərəfli münasibətlərimizin uğurlu inkişafı ilə bağlı fikir mübadiləsi apardıqlarını qeyd etdi. İranın Xarici İşlər nazirinin Azərbaycana 1 ayda ikinci dəfə səfər etməsinin əlaqələrimizin yüksək səviyyəsinin göstəricisi olduğunu deyən dövlətimizin başçısı bu səfərin ikitərəfli münasibətlərimizin gündəliyi ilə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını bildirdi.*

*Azərbaycan–Türkiyə–İran Xarici İşlər nazirlərinin üçtərəfli görüşünə toxunan Prezident İlham Əliyev bu görüşlərin artıq mütəmadi xarakter almasının önəmini qeyd etdi, qardaş qonşu dövlətlərin nazirləri arasında keçirilən bu görüşü yaxşı bir təşəbbüs kimi dəyərləndirdi.*

*İran İslam Respublikasının Xarici İşlər naziri Məhəmməd Cavad Zərif Prezident Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı.*

*İranın Xarici İşlər naziri ölkəmizə son ayda ikinci dəfə səfər etməsinin və Azərbaycan Prezidenti ilə görüşünün ikitərəfli münasibətlərimizin inkişafı baxımından önəmini vurğuladı. O, Həsən Ruhaninin prezidentliyi dövründə əlaqələrimizin çox yüksək səviyyəyə qalxmasından İran tərəfinin böyük məmnunluq hissi keçirdiyini bildirdi.*

*Bakıda keçirilən Azərbaycan–Türkiyə–İran Xarici İşlər nazirlərinin üçtərəfli görüşünə toxunan Məhəmməd Cavad Zərif bu formatda görüşlərin əhəmiyyətini vurğuladı və gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı ölkələrimiz arasında bank, enerji, nəqliyyat, ticarət, sərmayə qoyuluşu sahələrində əlaqələrin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

*Dövlətimizin başçısı İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

**YAPONİYA İMPERATORU**
**ƏLAHƏZRƏT AKİHİTOYA**

Əlahəzrət!

Yaponiyanın milli bayramı – Təvəllüd Gününüz münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Yaponiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *20 dekabr 2017-ci il*

## TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Nazir Mövlud Çavuşoğlu Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Türkiyəli nazir ölkələrimiz arasında ikitərəfli əlaqələrin daha da möhkəmləndirilməsində çoxsaylı qarşılıqlı səfərlərin və görüşlərin önəmini vurğuladı. Prezident İlham Əliyevlə ötən görüşünü və bu il Bakı–Tbilisi–Qars dəmir yolunun açılışını məmnunluqla xatırladan Mövlud Çavuşoğlu gələcək illərdə də dövlət başçılarının rəhbərliyi ilə önəmli layihələrin həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi. Azərbaycan–Türkiyə–İran Xarici İşlər nazirlərinin üçtərəfli görüşünün əhəmiyyətinə toxunan Mövlud Çavuşoğlu bu görüşlərin gələcəkdə də davam etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Azərbaycan–Türkiyə ikitərəfli münasibətlərinin ən yüksək səviyyədə olduğunu bildirən Prezident İlham Əliyev əlaqələrimizin möhkəmləndirilməsində mütəmadi xarakter daşıyan yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. Dövlət başçısı ölkələrimizin həmişə bir-birinə qarşılıqlı dəstək verməsinin və bir-birinin yanında olmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev bu gün Bakıda keçirilən Azərbaycan–Türkiyə–İran Xarici İşlər nazirlərinin üçtərəfli görüşünün*

*əməkdaşlığımızın möhkəmləndirilməsi baxımından əhəmiyyət daşıdığını diqqətə çatdırdı.*

*Bakı–Tbilisi–Qars dəmir yolunun açılışına toxunan dövlət başçısı bunu təkcə regional deyil, beynəlxalq səviyyəli mühüm tədbir kimi dəyərləndirdi.*

*Görüşdə TANAP layihəsinin uğurla həyata keçirilməsinin əhəmiyyəti qeyd olundu.*

*Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## AMERİKA YƏHUDİ TƏŞKİLATLARI PREZİDENTLƏRİ KONFRANSININ İCRAÇI DİREKTORU MALKOLM HONLAYN İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Amerika Yəhudi Təşkilatları Prezidentləri Konfransının icraçı direktoru Malkolm Honlaynı qəbul etmişdir.*

*Malkolm Honlayn Prezident İlham Əliyevlə bundan əvvəl keçirdikləri görüşləri məmnunluqla xatırlatdı. Qonaq Bakıya hər dəfə gəldikdə burada gördüyü dəyişikliklərin və inkişafın onda dərin təəssürat yaratdığını qeyd etdi. O, Bakıda keçiriləcək «2017–İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransda iştirakından məmnunluğunu ifadə etdi.*

*Prezident İlham Əliyev Bakıda keçiriləcək «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» Beynəlxalq konfransının əhəmiyyətini qeyd edərək, Amerika Yəhudi Təşkilatları Prezidentləri Konfransının icraçı direktoru Malkolm Honlaynın bu tədbirdə iştirakının önəmini vurğuladı, konfransın dinlər və xalqlar arasında əlaqələrin möhkəmləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi.*

*Söhbət zamanı Azərbaycanda bütün xalqların və dinlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının sülh və firavanlıq şəraitində yaşaması üçün hər cür şəraitin yaradıldığı, ölkəmizdə bərqərar olan multikulturalizm mühitinin bir nümunə olduğu qeyd edildi, Bakının beynəlxalq miqyaslı mötəbər tədbirlərin keçirildiyi bir məkana çevrildiyi vurğulandı.*

*Görüşdə Azərbaycan–ABŞ münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi də qeyd olundu.*

## XALQ RƏSSAMI ÖMƏR ELDAROVA «HEYDƏR ƏLİYEV» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*20 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də Xalq rəssamı, heykəltəraş Ömər Eldarova «Heydər Əliyev» ordenini təqdim etmişdir.*

*Prezident İlham Əliyev Xalq rəssamı, heykəltəraş Ömər Eldarovu qarşıdan gələn yubileyi münasibətilə təbrik etdi, ona yeni yaradıcılıq uğurları arzuladı. Ömər Eldarovun sənətinin artıq neçə onilliklərdir hamımızı sevindirdiyini vurğulayan dövlət başçısı onun yaratdığı əsərlərin xalqımızın maddi mədəniyyət nümunəsinə çevrildiyini bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Ömər Eldarovun yaratdığı əsərlər ölkəmizdə, həmçinin bir çox keçmiş sovet respublikalarında məşhurdur. Ulu öndər Heydər Əliyevin Ömər Eldarovun sənətini hər zaman yüksək qiymətləndirdiyini deyən dövlət başçısı onun yaratdığı əsərlərin yüksək mədəniyyət nümunəsi olduğunu vurğuladı. Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin və görkəmli alim, akademik Zərifə Əliyevanın, həmçinin Azərbaycan mədəniyyətinin bir sıra məşhur simalarının – Məhəmməd Füzulinin, Natəvanın, Hüseyn Cavidin, Üzeyir Hacıbəylinin, Niyazinin və digərlərinin abidələrinin müəllifi olan Ömər Eldarovun ölkəmizin hüdudlarından uzaqlarda da tanındığını, onun yaratdığı abidələrin xarici ölkələrdə də ucaldıldığını məmnunluqla qeyd etdi. Ömər Eldarovun Rəssamlıq Akademiyasının rektoru kimi fəaliyyətini yüksək qiymətləndirildiyini diqqətə çatdıran prezident İlham Əliyev gənc kadrların hazırlanmasında onun böyük rol oynadığını qeyd etdi. Vətəninə*

*və xalqına ləyaqətlə xidmət etdiyini, dərin istedada malik şəxsiyyətin böyük maraq doğurduğunu vurğuladı. Prezident İlham Əliyev Ömər Eldarovu fəaliyyətinin və xidmətlərinin dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirildiyini, 1997-ci ildə xalqımızın ümummilli lideri tərəfindən «İstiqlal» ordeni ilə, 2009-cu ildə Heydər Əliyev mükafatı ilə, 2012-ci ildə «Şərəf» ordeni ilə təltif olunduğunu, indi isə Azərbaycanın ən yüksək mükafatına – «Heydər Əliyev» ordeninə layiq görüldüyünü bildirdi, ona fəaliyyətində yeni uğurlar arzuladı və mükafatı Ömər Eldarova təqdim etdi.*

*Xalq rəssamı, heykəltəraş Ömər Eldarov onun fəaliyyətini yüksək qiymətləndirdiyinə və «Heydər Əliyev» ordeni ilə təltif etdiyinə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi və bundan qürur duyduğunu dedi. Ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini dərin ehtiramla yad edən Ömər Eldarov ümummilli liderin bir çox abidələrinin müəllifi olmaqdan şərəf hissi duyduğunu vurğuladı və qeyd etdi ki, bundan sonra da xalqımıza və Vətənimizə öz yaradıcılığı ilə xidmət göstərməkdə davam edəcəkdir.*

## IBM KORPORASİYASININ BAŞ VİTSE-PREZİDENTİ ERİK KLEMENTİ İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də IBM korporasiyasının baş vitse-prezidenti Erik Klementini qəbul etmişdir.*

*Erik Klementi təmsil etdiyi şirkətlə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti arasında yaxşı əməkdaşlığın həyata keçirildiyini və bu səfəri zamanı Azərbaycanla əməkdaşlığın perspektivlərinin müzakirə edildiyini qeyd edərək, IBM şirkətinin ölkəmizlə uzunmüddətli əlaqələr qurmaqda maraqlı olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı IBM şirkətinin Azərbaycanda fəaliyyəti üçün geniş imkanların olduğunu qeyd etdi. Prezident İlham Əliyev ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sektorunun prioritet təşkil etdiyini vurğulayaraq, bu sahədə artıq böyük nailiyyətlərin əldə olunduğunu bildirdi. Bu yaxınlarda Azərbaycanda «BakuTel–2017» sərgisinin keçirildiyini deyən dövlət başçısı sərgini beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi baxımından önəmli tədbir kimi dəyərləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, ölkəmiz böyük iqtisadi potensiala və perspektivlərə malikdir və xarici şirkətlərin fəaliyyəti üçün çox cazibədardır. Dövlət başçısı IBM şirkəti ilə Azərbaycan arasında gələcəkdə uğurlu əməkdaşlığın həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ RAVVİN MARK ŞNAYER İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 20-də ABŞ Etnik Anlaşma Fondunun prezidenti ravvin Mark Şnayeri qəbul etmişdir.*

*Söhbət zamanı Prezident İlham Əliyevin Nyu York şəhərində ABŞ Etnik Anlaşma Fondunun prezidenti ravvin Mark Şnayerlə görüşü məmnunluqla xatırlandı.*

*Görüşdə Bakıda keçiriləcək «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» Beynəlxalq konfransın müxtəlif xalqların və millətlərin bir-birinə daha da yaxınlaşması və əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı, Azərbaycanda multikulturalizmin dövlət siyasətinin prioritet sahələrindən biri olduğu bildirildi, bütün dinlərin və mədəniyyətlərin nümayəndələrinin, o cümlədən yəhudi icmasının ölkəmizdə dostluq şəraitində birgə yaşadığı məmnunluqla qeyd edildi.*

*Görüşdə, həmçinin Azərbaycan ilə ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı.*

## «2017–İSLAM HƏMRƏYLİYİ İLİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*21 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Bakıda Heydər Əliyev Mərkəzində keçirilən «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın açılışı mərasimində iştirak etmişdir.*

*Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə elan edilmiş «İslam həmrəyliyi ili»nin yekunlaşması ilə bağlı keçirilən konfrans Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən birgə təşkil olunubdur.*

*Beynəlxalq konfransın açılışında 40-a yaxın ölkədən 150-dək nümayəndə, o cümlədən tanınmış dövlət, din və elm xadimləri, 8 beynəlxalq təşkilatın rəhbərləri və təmsilçiləri, müxtəlif ölkələrin dövlət başçılarının xüsusi nümayəndələri, dini konfessiya rəhbərləri, hökumətin və parlamentin üzvləri, diplomatik korpusun və ictimaiyyətin nümayəndələri iştirak edirdi.*

*Konfrans müqəddəs Quran ayələrinin oxunması ilə başlandı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda nitq söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli din xadimləri!

Hörmətli xanımlar və cənablar!

Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilmişdir. İl ərzində Azərbaycanda və bir çox ölkələrdə beynəlxalq konfranslar, tədbirlər keçirilmişdir. Sonuncu beynəlxalq konfrans isə bu gün Bakıda öz işinə başlayır. Mən konfransda iştirak etmək üçün ölkəmizə gəlmiş bütün qonaqları səmimiyyətlə salamlayıram, onlara «Xoş gəlmisiniz!» – deyirəm. Qeyd etməliyəm ki, bu gün konfransda 40-a yaxın ölkədən 150-dək xarici qonaq iştirak edir. Hörmətli qonaqlarımızın iştirakı bu konfransın və bu mövzunun əhəmiyyətini bir daha göstərir.

Azərbaycan islam həmrəyliyi işinə böyük töhfələr verir. Bu məsələ bizim üçün prioritet məsələlərdən biridir. Azərbaycan qədim tarixə malik olan bir ölkədir. Azərbaycan xalqı əsrlərboyu öz milli-mənəvi dəyərlərini yaşadıb, qoruyubdur. İslam dəyərləri isə milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir. Ölkəmizdə dini sahədə hökm sürən əmin-amanlıq, qarşılıqlı anlaşma, müsəlmanlar arasında mövcud olan birlik, dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi bu gün ölkəmizi gücləndirən amillərdən biridir.

Xalqımız qədim tarixə malikdir. Bizim dini memarlıq abidələrimiz bunun əyani sübutudur. Biz fəxr edirik ki, müsəlman aləminin ən qədim məscidlərindən biri olan, 743-cü ildə inşa edilmiş, Azərbaycan xalqı tərəfindən qorunmuş və bir neçə il bundan əvvəl əsaslı şəkildə bərpa edilmiş Şamaxı Cümə

məscidi və digər tarixi dini abidələrimiz bizim böyük sərvətimizdir.

Azərbaycan beynəlxalq aləmdə müsəlman ölkələri ilə çox yaxın münasibətlər qura bilibdir. Biz cəmi 26 ildir ki, müstəqil dövlət kimi yaşayırıq. Bu illər ərzində ikitərəfli və üçtərəfli formatlarda, beynəlxalq təşkilatlar çərçivəsində müsəlman ölkələri ilə əlaqələrimiz inkişaf edir, gündən-günə güclənir. Biz BMT və digər beynəlxalq təşkilatlarda bir-birimizi dəstəkləyirik. Keçən il İslam Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı çox önəmli qətnamə qəbul edilib və Kontakt qrupu yaradılıbdır. Onu da qeyd etməliyəm ki, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının çox fəal üzvüdür, ölkəmizdə bir çox konfranslar, tədbirlər keçirilibdir. Azərbaycanın təşəbbüsü ilə İƏT-in Gənclər Forumu, Əmək Mərkəzi və Jurnalistlər Assosiasiyası yaradılıbdır. Eyni zamanda, Azərbaycan İSESKO-nun fəal üzvüdür. İSESKO islam aləminin təhsil, elm, mədəniyyət təşkilatıdır və bu təşkilat çərçivəsində Azərbaycan çox uğurlu fəaliyyət göstərir. Beləliklə, İSESKO və bütün müsəlman aləmi Azərbaycana daim diqqət və dəstək göstərir. Bir neçə il bundan əvvəl İSESKO tərəfindən Bakı şəhəri «İslam mədəniyyətinin paytaxtı» elan edilmişdir və bir il ərzində ölkəmizdə, Bakıda bir çox tədbirlər keçirilmişdir. Qeyd etməliyəm ki, gələn il isə bizim digər qədim şəhərimiz – Naxçıvan «İslam mədəniyyətinin paytaxtı» adına layiq görülübdür.

Ölkə daxilində islam həmrəyliyi tam təmin olunubdur. Biz çalışırıq və çalışmalıyıq ki, bütün müsəlman aləmində birlik, həmrəylik təmin olunsun. Azərbaycan bu istiqamətdə öz töhfəsini verir, önəmli addımlar atır. Bizim beynəlxalq təşkilatlar çərçivəsində və dünya gündəliyində duran məsələlərin həlli işində onlara münasibətimiz bir daha göstərir ki, islam həmrəyliyi bizim üçün sadəcə olaraq, bir şüar deyil, bizim üçün bu, əsas istiqamətlərdən biridir.

Bununla bərabər, Azərbaycanda bütün dinlərin nümayəndələri eyni, bərabər hüquqlara malikdir. Azərbaycanda bütün

xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır, heç bir ayrı-seçkilik yoxdur, olmayıb və ola da bilməz. Bu bizim böyük sərvətimizdir.

Ölkəmizdə dinlərarası, mədəniyyətlərarası dialoqla bağlı bir çox mötəbər beynəlxalq tədbirlər keçirilibdir. Onların arasında BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumunu qeyd edə bilərəm. Bir neçə dəfə keçirilmiş və ənənəvi xarakter almış Mədəniyyətlərarası Dialoq Forumu və Bakı Humanitar Forumu da ilk növbədə, öz işini dinlərarası, mədəniyyətlərarası dialoqa həsr etmişdir. Belə beynəlxalq tədbirlərin ölkəmizdə keçirilməsi təbiidir. Çünki ilk növbədə, Azərbaycan sivilizasiyalar arasında həmişə müsbət rol oynayıb və Asiya ilə Avropa arasında həm coğrafi, həm mədəni və bu gün siyasi baxımdan da bir körpü rolunu oynayır. Digər tərəfdən, Azərbaycan o ölkələrdəndir ki, burada dini, milli zəmində heç bir problem yoxdur, hətta kiçik bir anlaşılmazlıq belə, yoxdur. Əksinə, Azərbaycanda yaşayan bütün millətlər, bütün dinlərin nümayəndələri bizim dəyərli vətəndaşlarımızdır və ölkəmizin ümumi inkişafına öz töhfələrini verirlər. Ona görə məhz Azərbaycanın dinlərarası dialoq işində fəal olması təbiidir.

Mən bir daha qeyd etmək istəyirəm ki, ölkə daxilində bu məsələlər ən yüksək səviyyədə həllini tapıbdır. Biz istəyirik ki, həm müsəlman aləmində, həm Avropada, ümumiyyətlə, dünyada dinlərarası dialoq güclənsin. Əfsuslar olsun ki, son vaxtlar biz tam əks mənzərə ilə üzləşirik – dözümsüzlük, islamofobiya, ksenofobiya, antisemitizm artır. Bu, bəşəriyyət üçün böyük təhlükədir və böyük bəladır. Din xadimlərinin, ictimai xadimlərin, siyasətçilərin, geniş ictimaiyyətin bu məsələ ilə bağlı fikri və mövqeyi, əlbəttə ki, dünya ictimaiyyəti üçün də çox önəmlidir. Bakıdan, yüksək mötəbər kürsülərdən dəfələrlə dünyaya çağırış edilmişdir ki, dinlərarası münasibətlər hər bir ölkə üçün önəmlidir. Dünyada əksər ölkələr çoxmillətli və çoxkonfessiyalı ölkələrdir. Belə olan halda, bu mövzu vətəndaş sülhü, vətəndaş həmrəyliyi üçün, hər bir ölkə üçün xüsusi əhəmiyyət kəsb edir.

Biz öz tərəfimizdən ölkə daxilində bütün məsələləri ən yüksək səviyyədə həll edirik. Əminəm ki, bölgədə və dünyada Azərbaycan təcrübəsi öyrənilir.

Azərbaycan keçən ili «Multikulturalizm ili» elan etmişdi. Multikulturalizm bizim dövlət siyasətimizdir, eyni zamanda, həyat tərzimizdir. Azərbaycanda yaşayan bütün dinlərin, millətlərin nümayəndələri bunu təsdiq edə bilərlər. Multikulturalizmin alternativi yoxdur. Alternativ dünyanı, ölkələri sarsıdan çox təhlükəli meyillər – islamofobiya, ksenofobiya, antisemitizmdir. Dünya Azərbaycanın timsalında görür ki, multikulturalizm yaşayır. Lakin multikulturalizmlə bağlı bəzən çox bədbin fikirlər səslənir, özü də yüksək səviyyədə. Buna baxmayaraq, biz hamımız çalışmalıyıq ki, bu ülvi dəyərləri qoruyaq, möhkəmləndirək. Multikulturalizm hər bir ölkə üçün adi hala çevrilməlidir.

Qeyd etdiyim kimi, Azərbaycanın islam ölkələri ilə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində həm özəl münasibətləri var, həm də Azərbaycan bu təşkilat çərçivəsində fəal rol oynayır və böyük dəstəyə malikdir. Bizim Avropa ölkələri ilə də sıx əlaqələrimiz vardır. Avropa İttifaqına üzv 9 ölkə ilə Azərbaycan strateji tərəfdaşlıq sənədi imzalayıbdır. Yəni bu da Avropa İttifaqı üzvlərinin üçdəbir hissəsidir. Avropa İttifaqı ilə də bizim çox sıx əlaqələrimiz vardır. Bir sıra məsələlər ətrafında çox ciddi iş gedir və bu ilin əvvəlində Avropa İttifaqı ilə Azərbaycan arasında gələcək saziş üzərində iş başlanmışdır. Bu bir daha ölkəmizin həm beynəlxalq gündəlikdə duran məsələlərə münasibətini, eyni zamanda, bizim siyasətimizi əks etdirir. Azərbaycan xalqı öz milli-mənəvi köklərinə çox bağlıdır. Müstəqil Azərbaycan dövlətinin təməli məhz bu milli dəyərlərdir. Bizim milli dəyərlərimiz isə ümumbəşəri dəyərlərin tərkib hissəsidir. Bizim coğrafi yerləşməmiz, tariximiz, Azərbaycan ərazisindəki keçmiş sivilizasiyaların rolu, əlbəttə, Azərbaycanı dinlərarası, mədəniyyətlərarası dialoqun aparılmasında əvəzolunmaz ölkəyə çevirir.

Bir məsələni də qeyd etməliyəm ki, əlbəttə, bu istiqamətdə dövlət siyasəti aparılır və aparılacaqdır. Ancaq bizim bu istiqamətdəki siyasətimiz ictimai rəyə söykənir. Çünki Azərbaycan cəmiyyəti, Azərbaycan xalqı bu duyğularla, bu fikirlərlə yaşayır. Bizim uğurlu inkişafımız göstərir ki, dinlərarası, millətlərarası münasibətlər lazımi səviyyədə olanda inkişaf da, sabitlik də olur və bütün Azərbaycan vətəndaşları gələcəyə də nikbinliklə baxırlar.

Bu il biz İslam Həmrəyliyi oyunlarını yüksək səviyyədə keçirdik. IV İslam Həmrəyliyi oyunları Bakıda keçirildi. 50-dən artıq ölkədən 3000-dən çox idmançı, minlərlə qonaq gəlmişdi. Bu həm böyük idman yarışı, həm də bir dostluq, qardaşlıq bayramı idi. Bütün islam ölkələrinin aparıcı idmançıları Bakıda idilər. Əlbəttə, biz fəxr edirik ki, Azərbaycanın milli komandası bu yarışların qalibi oldu, 1-ci yerə layiq görüldü. Amma əsas məsələ bunda deyil. Əsas məsələ ondadır ki, bu oyunlar bir daha göstərdi ki, islam həmrəyliyi var və gənc nəsil gərək gələcəkdə bu gözəl dəyərləri daim dərk etsin və gücləndirsin. 2 il bundan əvvəl isə Bakıda tarixdə ilk dəfə olaraq Avropa oyunları keçirilmişdir. Digər qitə oyunlarından fərqli olaraq, Avropa oyunları 2015-ci ilə qədər heç vaxt keçirilməmişdi. İlk Avropa oyunları Azərbaycanda keçirildi və Avropadan 5000-dən çox idmançı burada yarışırdı, minlərlə qonaq gəlmişdi. Azərbaycan komandası bu oyunlarda 2-ci yerə layiq görüldü.

Yəni bu 2 hadisə özlüyündə bir göstəricidir. Əlbəttə, bunlar böyük, möhtəşəm idman tədbirləri idi. Amma həm Avropa, həm İslam oyunlarının 2 il ərzində bir şəhərdə, bir ölkədə keçirilməsi həm Avropa, həm islam aləminin bizə olan münasibətini göstərir, həm də onu göstərir ki – bir daha dediyim fikirlərə qayıdıram – Azərbaycan sivilizasiyalar, dinlər və qitələr arasında nadir rol oynayır.

Digər önəmli təşəbbüs 2008-ci ildə Azərbaycan tərəfindən irəli sürülmüşdür. Bildiyiniz kimi, Azərbaycan Avropa Şurasının üzvüdür. Biz belə qərara gəldik ki, Avropa Şurasının Mə-

dəniyyət nazirlərinin toplantısına İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərini dəvət edək. Tarixdə ilk dəfə olaraq iki təşkilatın nazirləri Bakıda görüşdülər. Çox səmərəli görüş keçirildi, çox səmimi fikir mübadiləsi aparıldı. Biz hesab etdik ki, bu təşəbbüsün davamı olmalıdır, bu sadəcə olaraq, bir görüş olmamalıdır. Bu məqsədlə növbəti il biz İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərinin tədbirini keçirdik və Avropadan nazirləri dəvət etdik. Yəni bu, artıq ənənəyə çevrildi və sonra bu təşəbbüsə «Bakı prosesi» adı verildi. Bu gün «Bakı prosesi» yaşayır, inkişaf edir. Gələn il biz «Bakı prosesi»nin 10 illik yubileyini qeyd edəcəyik. «Bakı prosesi» bütün beynəlxalq mötəbər təşkilatlar tərəfindən, xüsusilə BMT tərəfindən çox yüksək qiymətləndirilir. Bu, İslam Əməkdaşlıq Təşkilatı və Avropa Şurası arasında əlaqələrin inkişafı üçün dünya miqyasında nadir bir platformadır. Yenə də təşəbbüs Azərbaycan tərəfindən irəli sürülübdür.

Əminəm ki, biz belə təşəbbüslərlə ümumi işimizə töhfə veririk. Ümumi məqsədimiz ondan ibarətdir ki, dünyada sülh, qarşılıqlı hörmət, qarşılıqlı anlaşma olsun, ölkələr bir-birinin işinə qarışmasın. Belə olan halda, müharibələr də olmayacaq və bütün dünyada sülh bərqərar olacaqdır.

Azərbaycan gənc müstəqil dövlətdir. Müstəqilliyimizin cəmi 26 yaşı vardır. Müstəqilliyin ilk illəri çox ağır keçmişdi, çox faciəvi hadisələr baş vermişdi. 1993-cü ilə qədər Azərbaycan, demək olar ki, idarəolunmaz vəziyyətdə idi. Ölkədə xaos, anarxiya, iqtisadi böhran hökm sürürdü, inflyasiya 1000 faizlərlə ölçülürdü, bütün sənaye müəssisələrimiz, demək olar ki, fəaliyyətsiz qalmışdı və ölkənin inkişafı üçün perspektivlər çox qaranlıq idi. Bundan əlavə, ovaxtkı hakimiyyət Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yaratmışdı. Mənfur qonşu Ermənistan bundan istifadə edərək, torpaqlarımızın bir hissəsini işğal etmişdir. Yəni Azərbaycan, demək olar ki, uçurum kənarında idi. Belə vəziyyətdə Azərbaycan xalqı özünəxas olan müdriklik göstərərək, böyük lider Heydər Əliyevi hakimiyyətə

dəvət etmiş və 1993-cü ildən bu günə qədər Azərbaycan inkişaf və tərəqqi yolu ilə gedir. 1993-cü ildən başlanan siyasi, iqtisadi islahatlar, beynəlxalq arenada rolumuzun artması, ölkə daxilində bütün qanunsuz silahlı birləşmələrin tərk-silah edilməsi, yeni Konstitusiyanın və ölkəmizin strateji inkişafı ilə bağlı çox dəqiq qərarların qəbul edilməsi xalqımızı ağır vəziyyətdən çıxara bildi və bu gün də Azərbaycan uğurla inkişaf edir. Müstəqilliyin ilk illərində Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər də, demək olar ki, pozulmuşdu. Yumşaq desək, bu sahədə çox böyük səhvlər, dəqiq desək, cinayətlər törədilmişdi. Məhz Heydər Əliyevin hakimiyyətə gəlməsindən sonra Azərbaycanda bu sahədə də dönüş yarandı, dövlət–din münasibətləri lazımi səviyyədə quruldu. Bu gün dövlət–din münasibətlərinin səviyyəsinə və mahiyyətinə görə Azərbaycan bir çox ölkələr üçün nümunə ola bilər.

Bu gün 26 ildir ki, müstəqil dövlət kimi yaşayan Azərbaycan ayaqda möhkəm dayanır. Əlbəttə, bizim əsas problemimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildiyiniz kimi, Ermənistan beynəlxalq birlik tərəfindən tanınan torpaqlarımızın 20 faizini 20 ildən çoxdur ki, işğal edib. Bu torpaqlardan 1 milyondan çox vətəndaş qovulub, qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılıbdır. Ermənilər qanlı cinayət – Xocalı soyqırımını törətmişlər. Erməni quldurları tərəfindən 600-dən çox günahsız, dinc insan – onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq vardı – qətlə yetirilmişdir. Xocalı soyqırımını 10-dan çox ölkə artıq soyqırımı kimi tanıyıbdır.

BMT münaqişə ilə bağlı 4 qətnamə qəbul edibdir. Bu qətnamələrdə açıq-aydın göstərilir ki, Ermənistan silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz geri çəkilməlidir. Ancaq bu qətnamələr kağızda qalıb. Bu qətnamələri qəbul edənlər bu məsələyə biganə qalırlar. Ermənistan da bundan istifadə edərək, öz işğalçı siyasətini davam etdirir. İşğal edilmiş torpaqlarımızda bütün binalar, bizim tarixi, dini

abidələrimiz, məscidlərimiz ermənilər tərəfindən dağıdılıb. Bu dağıdılmış məscidlərin fotoşəkilləri indi internetdə kifayət qədərdir, bunu hər bir insan görə bilər. Bütün infrastruktur dağıdılıb. ATƏT işğal edilmiş torpaqlara 2 dəfə faktaraşdırıcı missiya göndəribdir. O missiyalar dediyim mənzərə ilə üzləşmiş və öz məruzələrində də bunu əks etdirmişlər.

Münaqişə ilə bağlı Azərbaycan dövlətinin mövqeyi beynəlxalq hüquqa tam əsaslanır. İlk növbədə, Dağlıq Qarabağ Azərbaycanın əzəli torpağıdır, tarixi torpağıdır, digər tərəfdən, beynəlxalq hüquq baxımından Azərbaycanın ayrılmaz hissəsidir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Belə olan halda, münaqişə yalnız və yalnız beynəlxalq hüququn norma və prinsipləri əsasında öz həllini tapmalıdır, BMT Təhlükəsizlik Şurasının qətnamələri – bu sənədlərdən daha üstün sənəd dünyada yoxdur – tam icra edilməlidir və ölkəmizin ərazi bütövlüyü bərpa olunmalıdır. Azərbaycan dövləti və Azərbaycan xalqı öz torpağında ikinci erməni dövlətinin yaradılmasına heç vaxt imkan verməyəcəkdir.

O ki qaldı xalqların öz müqəddəratını təyin etməsi məsələsinə, bu məsələ ölkələrin ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Qeyd etdiyim kimi, dünyanın əksər ölkələri çoxmillətli, çoxkonfessiyalı ölkələrdir. Ermənistan xalqı öz müqəddəratını təyin edib, onların öz dövlətləri vardır. Azərbaycan ikinci erməni dövlətinin tarixi Azərbaycan torpaqlarında yaradılmasına heç vaxt imkan verməyəcəkdir. Bu əslində çox zərərli, təhlükəli və xəstə bir məntiqdir. Ermənilər bir çox ölkələrdə yaşayırlar. İndi əgər onlar yaşadıqları bütün ölkələrdə Azərbaycandakı kimi, öz müqəddəratını təyin etmək arzusuna düşərlərsə və aqressiv separatizmə əl atarlarsa, onda baxarıq o ölkələrin siyasəti necə olacaqdır.

Bu gün dünyada gedən proseslər bizim mövqemizi dəstəkləyir və gücləndirir. Qeyd etdiyim kimi, həm beynəlxalq hüquq, həm tarix, həm də potensial baxımından bizim mövqemiz kifayət qədər güclüdür. Ancaq bu gün Avropa da separatizmlə üzləşir.

Görün Avropa ölkələrində separatizmə qarşı hansı addımlar atılır. Bizim problemimiz aqressiv separatizmdir. Əlisilahlı erməni quldur dəstələri soyqırımı törətmişlər, zor gücü ilə torpaqlarımızı işğal etmişlər, günahsız insanları bu torpaqlardan qovmuşlar və bu gün bu torpaqlarda qanunsuz fəaliyyətlə məşğuldurlar. Mən tam əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Bunun üçün bütün imkanlar var və son hadisələr – keçən ilin hadisələri bunu bir daha göstərdi. Ölkəmizin ərazi bütövlüyü bütün başqa ölkələrin ərazi bütövlüyü qədər qiymətlidir və dəyərlidir.

Bu böyük və çətin problemə baxmayaraq, ölkəmiz uğurla inkişaf edir. Biz beynəlxalq arenada çox etibarlı tərəfdaşa çevrildik, bir neçə il bundan əvvəl 155 ölkənin səsi ilə BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Bu bizim böyük siyasi qələbəmiz idi. Çünki o vaxt Azərbaycan cəmi 20 il idi ki, müstəqil ölkə kimi yaşayırdı və bu illər ərzində beynəlxalq ictimaiyyətin rəğbətini qazana bilmişdir. Ölkədə çox ciddi iqtisadi islahatlar aparılır. İqtisadi inkişaf baxımından Azərbaycan son 14 il ərzində dünyada ən sürətlə inkişaf edən ölkədir. İqtisadiyyatımız, ümumi daxili məhsul 3 dəfədən çox artıbdır.

Biz eyni zamanda, çox ciddi sosial siyasət aparırıq və bunun nəticəsində Azərbaycanda işsizlik və yoxsulluq 5 faiz səviyyəsindədir. İnsan kapitalına böyük sərmayə qoyulur. Son 14 il ərzində ölkəmizdə 3000-dən çox məktəb, 600-dən çox tibb müəssisəsi tikilib və ya təmir edilib, 12 min kilometr yol inşa edilib və digər lazımi sosial infrastruktur yaradılıbdır. Beynəlxalq maliyyə qurumları Azərbaycanda aparılan islahatları çox yüksək qiymətləndirir. Sadəcə, bir rəqəmi demək kifayətdir ki, bu barədə təsəvvür olsun: Davos Dünya İqtisadi Forumu Azərbaycanı ölkələrin iqtisadiyyatlarının rəqabətqabliyyətliliyinə görə 35-ci yerə layiq görüb. Yəni bu çox böyük göstəricidir və biz bu göstəriciyə enerji resursları hesabına çatmamışıq. Əlbəttə ki, Azərbaycanın zəngin enerji resursları var və bu resurslardan biz səmərəli şəkildə istifadə edirik. Amma ölkələrin rəqabət-

qabliyyətliliyi digər parametrlər üzərində hesablanır və bu göstərici bizi dünya miqyasında 35 ən rəqabətqabliyyətli iqtisadiyyatlar sırasına daxil edir.

Məndə və bilirəm ki, cəmiyyətdə də ölkəmizin gələcək inkişafı ilə bağlı çox nikbin fikirlər vardır. Bu gün reallaşan nəhəng enerji layihələri, 40 milyard dollar dəyəri olan «Cənub Qaz Dəhlizi» və bizim digər layihələrimiz ölkəmizin uzunmüddətli uğurlu, dayanıqlı inkişafını dəstəkləyəcəkdir.

Azərbaycan bölgədə çox önəmli nəqliyyat mərkəzinə çevrilir. 2 ay bundan əvvəl istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu qitələri – Asiyanı Avropa ilə ən qısa yolla birləşdirdi. Hazırda biz Şimal–Cənub nəqliyyat dəhlizi üzərində işləyirik. Bu istiqamətdə də çox önəmli nəticələr vardır. Biz ilin sonuna qədər növbəti nəticələri gözləyirik ki, qısa müddətdə – bəlkə də 2-3 il ərzində bu yolu da qonşu ölkələrlə birlikdə istifadəyə verək. Beləliklə, bundan sonra həm Şərqdən Qərbə və əks istiqamətə, həm də Şimaldan Cənuba və əks istiqamətə dəmir yolları Azərbaycan ərazisindən keçəcəkdir. Bu bizə əlavə iqtisadi mənfəət və əlbəttə, siyasi dividendlər gətirəcək, regional əməkdaşlığa və bizim bugünkü konfransımızın mövzusuna da öz müsbət təsirini göstərəcəkdir. Çünki millətlərarası, dinlərarası, mədəniyyətlərarası dialoqun aparılması üçün hesab edirəm ki, sadəcə, danışmaq kifayət deyil. Konkret layihələr, konkret maraqlar, maraqların uzlaşması, balansı və qarşılıqlı asılılıq olmalıdır. Bizim regionda icra etdiyimiz layihələr bu qarşılıqlı maraqları təmin edir.

Əlbəttə ki, bütün bu nailiyyətləri biz qonşularımızla birlikdə əldə etmişik. Tranzit ölkə olmaq istəyən hər bir ölkə gərək öz qonşuları ilə yaxın münasibətlər qursun. Bizdə də bu belədir. Biz qonşularımızla çox sıx əlaqələr qurmuşuq. Əlbəttə ki, bu, regional təhlükəsizliyə və sabitliyə də öz müsbət təsirini göstərir.

Bir sözlə, əziz dostlar, mən hesab edirəm ki, Azərbaycan müstəqillik dövründə mədəniyyətlərarası dialoqun inkişafında

və islam həmrəyliyinin güclənməsi işində öz rolunu oynayıbdır. Biz bundan sonra da bu yolla gedəcəyik.

Fürsətdən istifadə edərək, sizə – bütün qonaqlara Bakıya gəldiyiniz üçün bir daha təşəkkürümü bildirirəm və konfransa uğurlar arzulayıram. Sağ olun.

* * *

**M a h m u d  V a e z i** *(İran İslam Respublikası Prezident Aparatının rəhbəri):* Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Əvvəlcə, «İslam həmrəyliyi ili»nin sonuncu toplantısında iştirak etdiyim üçün şad olduğumu, bu mühüm tədbiri təşkil edənlərə, dost və qardaş Azərbaycan Respublikasında və gözəl Bakı şəhərində qardaşlarımın qonaqpərvərliyinə görə təşəkkürümü bildirmək istəyirəm.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çox məzmunlu nitqinə görə təşəkkür edirəm. Cənab Prezidentin bu təşəbbüsünü çox yüksək qiymətləndirirəm. Fürsətdən istifadə edərək, İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin dostluq və qardaşlıq mesajını Azərbaycan Respublikasının Prezidentinə və bütün qonaqlara çatdırmaq istəyirəm. Onu da bildirmək istəyirəm ki, 2017-ci ildə Azərbaycan Respublikası islam həmrəyliyi sahəsində çox böyük işlər görmüşdür.

*Sonra Mahmud Vaezi İran İslam Respublikasının Prezidenti Həsən Ruhaninin müraciətini oxudu.*

«Bismillahir-rəhmanir-rəhim.

İran İslam Respublikası Azərbaycan Respublikasının möhtərəm Prezidenti tərəfindən 2017-ci ilin «İslam həmrəyliyi ili» elan edilməsini müsbət qarşılayaraq, dəstəklədi və bu tədbirlər çərçivəsində keçirilən beynəlxalq toplantılardan birinin cari ilin avqust ayında Tehranda keçirilməsini təşkil etdi. Bakıda

keçirilən İslam Həmrəyliyi oyunlarında ölkəmizdən olan çox sayda idmançının iştirak etməsi bu təşəbbüsü dəstəkləməyimizin başqa bir göstəricisidir.

İslam dini məhəbbət, rəhmət, mehribanlıq və insansevərlik dinidir. İslam dininin mesajı bütün insanlara qarşı sevgi və məhəbbət mesajıdır və Allah islam peyğəmbərini bütün aləmlərə rəhmət olaraq yad edir. Digər tərəfdən, Quran ayələri, Rəhmət peyğəmbərinin (s) kəramətli təlimləri və imamların (ə) dəyərli tövsiyələri müsəlmanlar arasında birliyin qorunmasına və hər növ təfriqədən uzaq olmağa təkid edir.

Biz islam ölkələri dinin bu vacib əmrini yerinə yetirməkdə ağır məsuliyyət daşıyırıq. Təəssüflər olsun ki, dünyanın hazırki siyasi şəraitində biz müsəlmanlar arasında birliyin böyük maneələrlə üzləşdiyinin şahidiyik. Bu maneələrin böyük hissəsi müsəlmanlar arasında vəhdətin yaranmasını özlərinin siyasi mənafeyinin əleyhinə hesab edən düşmənlərin bədxah niyyətlərinin nəticəsidir. Bunun bir hissəsi də islam ümməti arasında yaranan ixtilaflara və ayrı-ayrı qruplara bölünmələrə aiddir.

Biz inanırıq ki, əgər müsəlmanlar bir-birinin yanında olsalar, dünya gücləri heç vaxt müsəlmanların ilk qibləsinə əl uzatmağa cəsarət etməz. Əgər islam dövlətləri və xalqları vəhdət və qardaşlıq səmtinə yönəlsələr, islam torpaqlarına qarşı bu qədər təcavüzün və müsəlmanların didərgin düşmələrinin şahidi olmarıq. Əgər müsəlmanlar dinin həqiqi təlimlərini dünyaya tanıtdırsalar, İŞİD və digər radikal terrorçu qruplar heç vaxt özlərini dünyaya islam dininin carçıları kimi təqdim etməyə və gəncləri azdırmağa imkan tapmazlar. Bu qruplar nəinki islam dininə etiqad etmirlər, əksinə, onları islam ümmətinin düşmənləri, sionistlər və bəzi qüvvələr yaradıblar. Bu qrupların fəaliyyəti ixtilaflara, münaqişələrə, dağıntılara və islam dininin gözdən salınmasına səbəb olubdur.

İndi artıq hamıya bəlli olmalıdır ki, ABŞ islam ölkələri arasında ixtilaf və intriqa yaratmaq niyyətindədir və qeyri-qanuni

sionist rejiminin mənafeyini təmin etməkdən başqa məqsədi yoxdur. Trampın Qüds şəhərini sionist rejimin paytaxtı kimi tanınması və ABŞ səfirliyinin bu şəhərə köçürülməsi barədə qərarı, eləcə də BMT TŞ-nın son iclasındakı səsverməyə veto qoyulması ABŞ-ın anti-islam və anti-Fələstin siyasətinin bariz nümunələrindəndir. Xoşbəxtlikdən keçən həftə İstanbulda baş tutan İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin növbədənkənar sammiti islam ölkələrinin ABŞ-ın qəbul etdiyi bu qərara qarşı açıq-aydın və qətiyyətli mövqeyini, eləcə də Fələstin amalına qəti dəstəklərini nümayiş etdirdi və bunun özü də məzlum Fələstin xalqı üçün aydın gələcəyin müjdəsini verir.

ABŞ və sionistlər Fələstin məsələsinin islam dünyasında 1 nömrəli məsələ kimi, gündəmdə qalmasını istəmirlər. İslam ölkələri arasında ixtilaflı və sapıq mövzuların gündəmə gətirilməsi Fələstin mövzusunun unutdurulması məqsədini daşıyır. Biz heç vaxt islam düşmənlərinin bu planlarının müsbət nəticələnməsinə icazə verməməliyik. Buna görə də hamımız Fələstinin və Fələstin xalqının müdafiəsi məsələsini özlərinin qanuni hüquqlarını bərpa edənə, yəni Qüdsün paytaxtlığı ilə bütün Fələstin torpaqlarında müstəqil Fələstin Dövlətinin təşkil olunmasına qədər özümüzün əsas vəzifəmiz hesab etməliyik.

Bu gün birlik və vəhdət müsəlmanların ən şəfaverici dərmanı və dərdlərinin məlhəmidir, təfriqə və ayrılıq isə daim islam ümmətinə böyük zərbələr vurmuşdur. Əgər islam ölkələri birlikdə olsalar və bir-birini əzmək əvəzinə bir-birinə dəstək olsalar, islama düşmən olan qüvvələrə müraciət etməyə ehtiyac qalmayacaqdır.

İran İslam Respublikası özünün prinsipial siyasətinin davamı olaraq, müsəlmanlar arasında birliyin qorunması və islam qardaşlığının gücləndirilməsi yolunda heç bir şeyi əsirgəməyəcəkdir. İslam ümməti böyük siyasi, mədəni və iqtisadi potensiala malikdir. Bu birlik sayəsində bu potensiallardan islam ümmətinin rifahı və əmin-amanlığı üçün istifadə etmək olar.

«İslam həmrəyliyi ili»nə həsr olunmuş sonuncu tədbir müsəlmanların birliyini düşünən insanların bu maneələrin patologiyasını öyrənmək və islam ölkələri arasında vəhdətin və əməkdaşlığın daha da güclənməsi üçün yeni həll yolları təqdim etmək baxımından yaxşı fürsətdir.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

**Həsən Ruhani**
**İran İslam Respublikasının Prezidenti»**

* * *

**Ə l i Ə r b a ş** *(Türkiyənin Dəyanət İşləri Başkanı):* Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Mən də bu an qardaş Azərbaycanda, Bakıda olmağımdan, «İslam həmrəyliyi ili»nin toplantısında iştirak etməyimdən sonsuz qürur hissi keçirirəm.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev həzrətləri, Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın zati-alilərinizə göndərdiyi məktubu diqqətinizə çatdırıram.

«Cənab Prezident, hörmətli qonaqlar!

Qafqaz Müsəlmanları İdarəsi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən təşkil olunmuş «2017 – İslam həmrəyliyi ili»: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda keçirilən konfransın uğurlu olmasını arzu edirəm.

Bütün dünyada münaqişələrin, gərginliyin, islamofobiyanın, ksenofobiyanın və mədəni irqçiliyin artdığı bir vaxtda təşkil olunmuş bu konfransın son dərəcə önəmli olduğunu düşünürəm.

Populist siyasətçilərin və məsuliyyətsiz kütləvi informasiya vasitələrinin təşviqi ilə get-gedə daha çox yayılan nifrət atmosferi təkcə müsəlmanlara deyil, dili, dini və mədəniyyəti fərqli olan milyonlarla insana öz mənfi təsirini göstərir. Hər şeydən daha vacib odur ki, bu mənzərə bütün bəşəriyyətin sülh, əmin-amanlıq şəraitində, birlikdə yaşamaq iradəsinə də zərbə vurur. Bunun son acı nümunələrini Arakanda gördüyümüz kimi, sırf inanclarına görə 650 min insan doğma yurdlarından didərgin düşdü və çoxu uşaq, qoca və qadın olan minlərlə Rohinca müsəlmanları vəhşicəsinə qətlə yetirildi.

Şübhəsiz ki, 25 ildir vətən həsrəti ilə evlərindən uzaqda yaşayan 1 milyondan çox azərbaycanlı qardaşımız etnik təmizləmə, işğal və qətliamın nə demək olduğunu ən yaxşı bilənlərdəndir. Buna bənzər zülmlər bütün dünyanın gözü qarşısında Suriyadan Fələstinə qədər yaxın coğrafiyamızda yaşanmaqdadır.

Qlobal ədalət, təhlükəsizlik və sabitliyin təminatına cavabdeh olan qurum və dövlətlər isə təəssüflər olsun ki, bu prosesdə öz vəzifələrini yerinə yetirə bilmirlər. Daha dəhşətlisi ABŞ Hökumətinin Qüdslə bağlı sonuncu bəyanatında olduğu kimi, BMT Təhlükəsizlik Şurasının qərarlarını saymayan, beynəlxalq hüquqa zidd olan, gərginlik və münaqişəni daha da artıran qərarlar verməsidir.

Bu mənfi gedişata qarşı məsuliyyətli insanlar olaraq, öhdəmizə düşən vəzifə gələcəyimiz, övladlarımızın gələcəyi naminə addımlar atmaqdır. Ötən həftə İslam Əməkdaşlıq Təşkilatının Qüds məsələsi ilə bağlı İstanbulda keçirilmiş fövqəladə Zirvə toplantısı bu istiqamətdə atılmış tarixi addımdır. İstər qəbul olunmuş qərarlar, istərsə də toplantıya göstərilən böyük maraq Amerika Birləşmiş Ştatları hakimiyyətinin İsrailin işğalçı siyasətini mükafatlandıran qərarına qarşı islam ölkələri arasındakı həmrəyliyi açıq şəkildə ortaya qoydu.

Arzumuz ABŞ Hökumətinin fanatiklərin çörəyinə yağ sürtən, müsəlmanlarla birlikdə xristianların da Qüds üzərindəki haqlarını yox sayan bu qərarını ən qısa vaxtda dəyişdirməsidir.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin rəhbərliyi ilə keçirilən bu konfransın digər mövzularla yanaşı, Qüds üçün də önəmli bir addım olacağına inanıram.

Konfransın keçirilməsində əməyi olan Azərbaycanın bütün dövlət rəsmilərini təbrik edir və 2017-ci ili «İslam həmrəyliyi ili» elan edən əziz qardaşım prezident İlham Əliyevə xüsusilə təşəkkür edirəm.

Bu fikirlərlə səmimi dəvətinizə görə təşəkkürümü bildirir, konfransda iştirak edən bütün qonaqlarımızı ürəkdən salamlayıram.

**Rəcəb Tayyib Ərdoğan**
**Türkiyə Respublikasının Prezidenti»**

* * *

**R ü s t ə m  K a m i l o v** *(Özbəkistan Respublikası Prezidentinin Dövlət müşaviri)*: Hörmətli cənab Prezident!

Xanımlar və cənablar!

İlk növbədə, Özbəkistan nümayəndə heyətinin belə mötəbər konfransda iştirak etmək dəvətinə görə təşəkkürümü bildirmək, Şavkat Miromonoviç Mirziyoyevin salamlarını Azərbaycan prezidenti zati-aliləri İlham Əliyevə çatdırmaq və konfrans iştirakçılarına onun müraciətini oxumaq istərdim.

«Hörmətli konfrans iştirakçıları!

Belə mötəbər beynəlxalq konfransın iştirakçılarını – dövlət, din və ictimai xadimləri, beynəlxalq təşkilatların rəhbərlərini, tanınmış alimləri səmimi-qəlbdən salamlamağa şadam və sizə öz dərin hörmət və ən xoş arzularımı çatdırıram.

Bizim müqəddəs dinimiz islama xas olan müxtəlif mədəniyyətlərin və sivilizasiyaların nümayəndələri arasında əsl humanizm, alicənablıq və xeyirxahlıq, sülh və maarifçiliyə, hör-

mətə və qarşılıqlı anlaşmaya səylər bu gün daha böyük əhəmiyyət kəsb edir. Bu nöqteyi-nəzərdən, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevin təşəbbüsü ilə 2017-ci ilin Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilməsi xüsusilə diqqətəlayiqdir. Bizim üçün Özbəkistanda ilin tədbirlərindən birini – «Özbəkistanın və Azərbaycanın timsalında islam həmrəyliyi» Beynəlxalq konfransı qəbul etmək böyük şərəf idi. Bu nüfuzlu forumun iştirakçıları qeyd etdilər ki, hazırkı qeyri-sabit vaxtda islamın əsl sülhsevər mahiyyətinin beynəlxalq ictimaiyyətə çatdırılması xüsusilə mühüm və aktual məsələyə çevrilir. Bu məqsədlə Özbəkistanda az iş görülmür. Təkcə bu il biz ölkədə İslam Mədəniyyəti Mərkəzinin, imam Buxarinin və imam Tirmizinin beynəlxalq elmi-tədqiqat mərkəzlərinin yaradılması haqqında qərar qəbul etmişik. Biz həmçinin Özbəkistanın İslam Akademiyasını təsis etmişik. Məşhur Mir Ərəb Mədrəsəsi bazası əsasında daha bir ali dini tədris müəssisəsi yaratmışıq. Bürhanəddin Mərqənnani, imam «Maturidi», «Bəhauddin Nəqşibəndi» elmi-dini məktəblərini bərpa etmişik.

Böyük əcdadlarımızın misilsiz irsi bu gün də öz elmi və dini əhəmiyyətini itirməyib. Şübhəsiz ki, bu, bugünkü çətin və həyəcanlı zamanda bəşəriyyət qarşısında qoyulan kəskin vəzifə və problemlərin həllində böyük rol oynayır, gənc nəsli düzgün yola yönəltməyə kömək edir. Qeyd etmək lazımdır ki, bizim bütün bu xeyirxah təşəbbüslərimiz islam dünyasında, o cümlədən qardaş Azərbaycanda dəstəklənir.

Əziz dostlar, biz dinc və sakit həyatın, bütün dünyada qarşılıqlı hörmət, razılıq və tolerantlıq ab-havasının möhkəmləndirilməsinin mühüm amili kimi, müqəddəs dinimizi və islam mədəniyyətini yüksək qiymətləndiririk. Biz islamı zorakılıq və qan axıdılması ilə bir sıraya qoyanları, öz qərəzli siyasi məqsədləri üçün istifadə etməyə çalışanları qətiyyətlə pisləyirik. Buna görə də təsadüfi deyil ki, BMT Baş Məclisinin 72-ci sessiyasında Özbəkistan xüsusi «Maarifçilik və dini tolerantlıq» qətnaməsinin qəbul olunması təşəbbüsü ilə çıxış etdi.

Əminəm ki, Azərbaycanda «İslam həmrəyliyi ili»nin yekunlarına həsr olunmuş bu beynəlxalq konfrans müsəlman ölkələrinin əməkdaşlığının möhkəmlənməsinə, dinlərarası və mədəniyyətlərarası dialoqun genişlənməsinə öz layiqli töhfəsini verəcəkdir. Konfransın bütün iştirakçılarına cansağlığı, xoşbəxtlik və tədbirin işinə uğurlar arzulayıram.

**Şavkat Mirziyoyev**
**Özbəkistan Respublikasının Prezidenti»**

* * *

**X a l e d  A k a ş e** *(Vatikanın Dinlərarası Dialoq üzrə Pontifik Şurasının İslam ilə Dialoq Departamentinin rəhbəri)*: Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Qafqaz Müsəlmanları İdarəsinin sədri, hörmətli şeyxülislam həzrətləri Allahşükür Paşazadə!

Hörmətli dini rəhbərlər, zati-aliləri, xanımlar və cənablar, əziz dostlar!

Mən burada müqəddəs Taxt-Tacın adından çıxış edirəm.

Hamımız bilirik ki, 2016-cı il oktyabrın 2-də bu gözəl ölkəyə səfər etmiş zati-müqəddəsləri Papa Fransisk qardaş və bacı kimi bir-biri ilə görüşmək məqsədilə müxtəlif dinlərin nümayəndələrini bir araya gətirmək və yaralardan əziyyət çəkən bəşəriyyətə ümid çırağını yandırmaq məqsədi daşıyan bütün təşəbbüslərə dəstək verməkdədir.

Zati-müqəddəslərinin şeyxülislam Allahşükür Paşazadə, eləcə də digər dini rəhbərlərlə Heydər məscidində keçirilmiş dinlərarası görüş Papanın səfərinin nəinki çox əhəmiyyətli aspektinə çevrildi, həmçinin bütün dünya xalqlarına güclü mesaj oldu. Dinlər sülhə və qardaşlığa aparır. Tanrı adı altında qətl törətmək absurddur. İbadət üçün toplaşmış insanları məhv etmək – bir neçə gün əvvəl Pakistanda baş vermiş hadisə buna misaldır – hamımızın nəinki pislədiyimiz, o cümlədən onun qarşısını almalı

olduğumuz imansız barbarlıq aktıdır. Bu baxımdan, dinlərarası və mədəniyyətlərarası dialoq nadir rola malikdir. Bu 2 növ dialoqun vacibliyindən məlumatlı olaraq, katolik kilsəsi təqribən 50 il bundan əvvəl Dinlərarası və Mədəniyyətlərarası Dialoq üzrə Pontifik şuralarını yaradıbdır.

Dinlərarası Dialoq üzrə Pontifik Şuranın sədri kimi, mən bu konfransda iştirak edən sizlərə – dini rəhbərlərə və hörmətli iştirakçılara, sizin simanızda ölkələrinizə, dini icmalara, təsisat və təşkilatlarınıza sülh, təhlükəsizlik və əmin-amanlıq kimi ən xoş arzularımı çatdırmaqdan məmnunam. Vatikan Dekasteriyası adından mən Azərbaycan xalqına, Azərbaycan Prezidentinə, hökumətinə və dini qurumlara təşəkkürümü bildirir, onların hamısına Tanrıdan xeyir-dualar diləyirəm.

Natiqlərə verilmiş qısa vaxtı nəzərə alaraq, dinlərarası dialoq kimi ülvi məqsəd üçün mən çıxışımı dekalogiya formasında davam etdirmək istərdim.

Birincisi, mən hər zaman hər bir insanın və ya qrupun ayrılmaz hüquqlarının, onun ləyaqətinin qorunmasında, müdafiəsində, təşviq olunmasında iştirak edəcəyəm.

İkincisi, mən dini seçimə gəldikdə, hər bir insanın istənilən bir yerdə etdiyi seçimə hörmətlə yanaşacağam.

Üçüncüsü, mən hamı üçün ədaləti təşviq etməklə, sülhün qorunmasına çalışacağam.

Dördüncüsü, mən yoxsullara, xəstələrə, immiqrantlara, insan alverinin qurbanlarına hər zaman öz yardımımı göstərəcəyəm.

Beşincisi, mən vəd edirəm ki, öz çıxışlarımla – xüsusən də əgər mən dini rəhbərəmsə – hər zaman ədavətin və zorakılığın aradan qaldırılması məqsədilə dostluğu və qardaşlığı yayacağam.

Altıncısı, mən əlimdən gələni edəcəyəm ki, bütün Yer kürəsi bizim ümumi evimiz olsun və bütün təbii nemətlərdən hamımız yararlanaq.

Yeddincisi, mən humanist yanaşmanı qardaş və bacılarıma təşviq edəcəyəm, onları həvəsləndirəcəyəm. Çünki ulu Tanrı bütün bunları bizim üçün yaratdı.

Səkkizincisi, Tanrıya üzümü tuturam və bildirirəm ki, mən sülhün və barışığın carçısı olacağam.

Doqquzuncusu, mən hər kəsin ən xoş arzularına çatması üçün dua və ibadət edəcəyəm.

Nəhayət, onuncusu, mən öz davranışımla çalışacağam ardıcıl olum, etimadı qazanım, digərlərin köməyinə yetişim. Xüsusən də əgər siz valideynsinizsə, dini rəhbərsinizsə və müəllimsinizsə, bunu etməlisiniz və o mövqedə olmalısınız ki, məhz təhsil vasitəsilə insanları bu yola sövq edə, öz şəxsi nümunənizi göstərə biləsiniz.

Mən ulu Tanrıdan hamıya xeyir-dua diləyirəm və uğurlar arzulayıram. Sağ olun, ulu Tanrı sizi qorusun.

**Emmanuil Adamakis** *(Fransa Mitropoliti və Ekümenik Patriarxlığının eqzarxı)*: Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Qafqaz Müsəlmanları İdarəsinin sədri, hörmətli şeyxülislam həzrətləri Allahşükür Paşazadə!

Hörmətli dini rəhbərlər, zati-aliləri, xanımlar və cənablar, əziz dostlar!

Böyük məmnuniyyətlə burada Ekümenik Patriarx həzrətləri I Varfolomeyin müraciətini oxuyuram.

«Ekümenik Patriarxlığının adından sizi «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfrans münasibətilə təbrik etmək istəyirəm. Biz bu mühüm təşəbbüsə verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyevə və şeyxülislam Allahşükür Paşazadəyə xüsusi minnətdarlığımızı bildiririk.

Bu gün keçirilən beynəlxalq konfransın mövzusu dialoqun və həmrəyliyin təşviq olunmasının əhəmiyyətindən, onların mütləq bağlılığından xəbər verir. 2016-cı ildə pravoslav kilsəsinin

müqəddəs və böyük Şurası peyğəmbər dili ilə bəyan etmişdir: «Dinlərarası sağlam dialoq qarşılıqlı etimadın artmasına, sülhün təşviqinə və barışığa töhfə verir. Kilsə səmavi səltənətdə olan sülhün Yer üzündə daha yaxşı hiss edilməsinə çalışır. Əsl sülh silahın gücünə deyil, yalnız özgəni özündən seçməyən məhəbbətlə əldə olunur. İmanın nuru özgənin yaralarına məlhəm olmalı, onları sağaltmalı, yeni ədavət odunu alovlandırmamalıdır. Həmrəylik sözü azadlıq, məhəbbət və ədalət kimi məfhumlara istinad edərək, sosial ruhun tam mərkəzini özündə ehtiva edir. O, ədalətli cəmiyyət uğrunda aparılan mübarizədə yenilməzliyi, sosial siniflər arasında hər hansı fərq qoymadan insan ləyaqətinə hörmətlə yanaşmanı nəzərdə tutur. Hesab edirik ki, bəşəriyyətin gələcəyi həmrəylik mədəniyyətinin qurulmasından asılıdır».

Dini ənənələrə artıq bir-birindən ayrıca baxıla bilməz. Əksinə, qloballaşma kimi fenomenə görə, dinlər həmrəylik mədəniyyətinin bərpası naminə dövlət qurumları və vətəndaş cəmiyyəti ilə yanaşı, bir-biri ilə daha sıx işləməlidir.

Gəlin səmimi danışaq, bu gün dünyada özgəyə etimadın olmaması, özgənin qeyri-düzgün şəkildə təsvir olunması səbəbindən həmrəyliyin böhranı yaşanır. Bizim üçün həmrəyliyin böhranı, həmçinin məhəbbətin böhranıdır. İlahiyyatçı müqəddəs Con birinci məktubunda yazırdı: «Bir-birimizi Tanrıya olan eşq naminə sevək. Eşqli hər bir məxluq Tanrıdan dünyaya göz açır. Tanrı onun üçün pənahdır. Eşqi əskik olan bəndələr Tanrını tanımır, onun eşqinə sığınmır».

İqtisadi və sosial problemlər öz həyatını yaşayan insanları caynaqlarına alır, onların azadlığına, ləyaqətinə müdaxilə edir. Dinlər gözəl mərhəmət və həmrəylik ənənələrini inkişaf etdiribdir. Hətta dinə bu gün rəqib çıxanlar imanın sosial qüdrətinə, onun təsirinə mat qalırlar. Dinlərarası dialoq, ətraf mühit məsələləri və həmrəylik mədəniyyəti təkcə bu nəslin məsuliyyəti olmalı deyil. Gələcək nəsillər, həmçinin güruh və zorakılıqdan azad, çirklənməyə və təbii dağıntılara məruz qalmayan dünyaya, məkanı həmrəylik olan cəmiyyətə malik olmalıdırlar.

2017-ci ilin aprelində Əl-Əzhər Universitetində olduğumuz səbəbə görə bu gün də müsəlman dostlarımızla birgəyik. Bu gün biz təkrar etmək istərdik: «Dinlərarası dialoq dini ənənələrin fərqlərini etiraf edir, xalqlar və mədəniyyətlər arasında sülh şəraitində yan-yana yaşamanı və əməkdaşlığı təşviq edir. Dinlərarası dialoq kiminsə imanını inkar etmək deyil, əksinə, bir insanın digərinə aid rəyinə və ya davranışına hörmətlə yanaşmaq deməkdir. Beləliklə, o yanlış düşüncələri sağalda bilər, onları havaya sovurar və münaqişələrin qarşılıqlı anlaşma və sülh yolu ilə həllinə töhfə verər. Yanlışlıq və səhv düşüncələr dinin qeyri-düzgün təfsirindən doğur. Bu gün burada bu mühüm konfransda olmağımızla biz ən azı, bir yanlışlığa qarşı olduğumuzu bildirmək istərdik – islam terrorçuluqla bərabər tutulmalı deyil. Çünki terrorçuluq hər hansı dinə yaddır. Bu səbəbdən dinlərarası dialoq qorxunu, şübhələri dəf edə bilər. O, sülh üçün əhəmiyyətlidir. Lakin qarşılıqlı etimad və hörmət daxilində olmalıdır».

Dialoq olmadan həmrəylik mövcud ola bilməz. Dialoq fundamentalizmin məlhəmidir. O davranışdır və daha böyük həmrəyliyin mənbəyidir. Yad bəndə ilə dialoq bizim özünəməxsusluğumuza hədə deyil, əksinə, o, əlaqələri dərinləşdirir və zənginləşdirir. Dialoq fanatizmə və nisbiliyə müqavimətdir. O, müxtəlifliyi və mədəniyyətlərarası mübadiləni təmin edir. Dialoq ümidverici fürsətdir və müsbət tapşırıqdır. Fərqli olmaq qorxusu və yadlıq öz mədəniyyətinin məcrasına qapanmaq deməkdir və nəticədə o, fundamentalizmə sürükləyir.

Xanımlar və cənablar, əziz dostlar, dünyada insanlar arasında dialoqun və həmrəyliyin təşviqinə əlavə olaraq, pravoslav kilsəsinin birlik rəmzi olan Ekümenik Patriarxlığının salamlarını sevinc hissi ilə sizə çatdırırıq. Biz dini sosial əhatəlilik vasitəsi kimi görməliyik və bu bizim digər bir məsuliyyətimiz olmalıdır. Dini əməkdaşlıq vəzifəsi sosial çərçivəmizi aşan metafizik çıxışlarla dinlərin sosial fəaliyyətini daha əhatəli etmək cəhdlərimiz arasında düzgün tarazlığın tapılmasından

ibarətdir. Belə olan halda, biz düzgün yola çıxa bilərik. Başqa sözlə desək, biz əl-ələ verərək, müqəddəs ilə dünyəvi kəlamlar arasında formal fərqlənməni bir araya gətirməliyik. Dini lider kimi, rolumuz yad bəndəni düzgün təsvir etmək, dövlət qurumlarının və vətəndaş cəmiyyətlərinin təşəbbüslərinə dəstək vermək olmalıdır. Biz əsrlərboyu inkişaf etdirdiyimiz bacarıqları təşviq etməliyik – dialoq, qarşılıqlı tanınma, mədəniyyətlərarası və dinlərarası əlaqələr və nəhayət, həmrəylik. Sağ olun.

**I Varfolomey**
**Konstantinopol Patriarxı»**

* * *

**L e v** *(Novqorod və Starorus Mitropoliti)*: Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyev!

Qafqaz Müsəlmanları İdarəsinin sədri, hörmətli şeyxülislam həzrətləri Allahşükür Paşazadə!

Hörmətli dini rəhbərlər, zati-aliləri, xanımlar və cənablar, əziz dostlar!

İcazə verin, mən Moskva və bütün Rusiyanın Patriarxı Kirill müqəddəslərinin təbrik məktubunu oxuyum.

«Əziz qardaş və bacılar! Hazırda Azərbaycan paytaxtına toplaşanları salamlayıram. Bu konfransla «İslam həmrəyliyi ili» çərçivəsində Qafqaz Müsəlmanları İdarəsinin və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin keçirdiyi tədbirlər silsiləsi başa çatır. Bu layihənin mədəniyyətlərarası dialoqun və əməkdaşlığın inkişafı üçün xüsusi əhəmiyyətini qeyd etmək və bu təşəbbüsün digər ölkələrdə laqeyd qalmayan insanları ilhamlandıracağına ümidvar olduğumu bildirmək istərdim.

Müasir cəmiyyət bir çox ciddi dünyagörüşü çağırışları ilə toqquşur, ənənəvi ədəb normaları korroziyaya məruz qalır, xeyir ilə şər arasında sərhədlər silinir, din ictimai həyatın kənarına sıxışdırılır, psevdodini ekstremizm ideyaları və dözümsüzlük geniş yayılır. Əminəm ki, dünyəvi dinlərin liderləri bu çağırışlara layiqli və qəti cavab verərək, qarşılıqlı hörmətə əsaslanan əməkdaşlığın, etiqadın və mənəviyyatın müdafiəsi mexanizmlərinin axtarışı nümunəsini göstərəcəklər.

Qeyd etmək fərəhlidir ki, ötən illər ərzində Azərbaycan olduqca mühüm dinlərarası və mədəniyyətlərarası dialoq mərkəzi statusunu özü üçün qəti möhkəmləndirib. Şübhəsiz ki, bu məsələdə ölkənin dövlət rəhbərliyinin böyük xidməti vardır. Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə çoxillik səmərəli və etimada əsaslanan əməkdaşlığa görə xüsusi minnətdarlığımı bildirmək istərdim. Ümidvar olduğumu bildirirəm ki, hazırkı konfransın işi xalqlarımızın həyatında ənənəvi dini və mənəvi dəyərlərin təsdiqinə, dinlərarası sülhün və regionda əməkdaşlığın möhkəmlənməsinə kömək edəcəkdir. Konfrans iştirakçılarına bol-bol ruhi və cismani qüvvə, məhsuldar diskussiya, xoş təşəbbüslərində uğurlar və xeyir-dua diləyirəm.

**Kirill**
**Moskva və bütün Rusiyanın Patriarxı»**

* * *

**T e o d o r** *(Axaltsixi və Tao-Klarcet Mitropoliti, Katolikos-Patriarx II İliyanın Vikarisi və xüsusi nümayəndəsi)*: Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə həzrətləri!

Dini qurumların nümayəndələri və «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın iştirakçıları!

İcazə verin, Ümumgürcüstan Katolikos-Patriarxı II İliyanın müraciətini səsləndirim.

«Zati aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə həzrətləri!

Dini təşkilatların nümayəndələri və «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın iştirakçıları!

Qədim Gürcüstan Pravoslav Kilsəsi adından və şəxsən öz adımdan hamınızı salamlayıram. Şeyxülislam Allahşükür Paşazadəyə, eləcə də konfransın təşkilatçılarına belə mötəbər tədbirdə iştirak etmək imkanı yaratdıqlarına görə dərin hörmətlə minnətdarlığımızı bildiririk.

Bu konfransın da xidmət etdiyi dinlər və mədəniyyətlər-arası dialoq bütün dünyada sülhü və sabitliyi təmin edən fundamental istiqamətdir. Hamı bununla razılaşır ki, hazırda etiqad müxtəlifliyi xalqların dinc yanaşı yaşamasına mane olmamalıdır. Bizim dövlətlərimiz – Azərbaycan ilə Gürcüstan – və xalqlarımız, Gürcüstan Pravoslav Kilsəsi ilə Qafqaz Müsəlmanları İdarəsi arasında qarşılıqlı münasibətləri, eləcə də mənimlə şeyxülislam Allahşükür Paşazadə arasında çoxillik şəxsi sıx bağları qardaşlıq məhəbbəti nümunəsi adlandırmaq olar. Lakin təəssüf ki, müvafiq nümunələrə hazırkı dövrdə artıq tez-tez rast gəlinmir.

Son vaxtlar müxtəlif ölkələrdə baş vermiş terror aktlarını və Yaxın Şərqdə vəziyyəti nəzərə alaraq hesab edirik ki, müasir dünya qarşısında duran bütün yeni və mürəkkəb çağırışların əsas səbəbi mənəvi dəyərlərin alçaldılması və inkar edilməsidir. Bu da qarşılıqlı anlaşmanın və etimadın itirilməsinə gətirib çıxarır.

Bunun nəticəsində də qarşıdurmalar və münaqişələr yaranır. Buna görə də belə çətin dövrdə həm siyasi, həm də dini liderlərin üzərinə xüsusi vəzifələr düşür. Bu liderlər cəmiyyətə düzgün istiqamət təklif edərək, sülhə və tolerantlığa cəhdləri möhkəmləndirməlidirlər. Konfranslar, görüşlər və müxtəlif tədbirlər bunun üçün münbit şərait yaradır. Təhsil, elmi, tibbi, sosial, mədəni və digər sahələrdə də birgə layihələrin həyata keçirilməsi ciddi fayda daşıyır.

Qeyd etmək lazımdır ki, cənab Prezident İlham Əliyevin təşəbbüsü və dəstəyi, şeyxülislam Allahşükür Paşazadənin iştirakı ilə müasir çağırışlara cavab verən xeyli mühüm layihələr işlənib hazırlanıbdır. Əminik ki, hazırkı konfransın yekunları da həm regional, həm də beynəlxalq miqyasda çox faydalı olacaq, ümummənəvi dəyərlərin qorunmasına və möhkəmlənməsinə təkan verəcəkdir. Bu da insanların və xalqların qarşılıqlı hörmət və uzunmüddətli dinc yanaşı mövcudluğu üçün təməldir. Belə ki, müqəddəs peyğəmbər David Vaiz yazırdı: «Dünyada ən böyük gözəllik insanların birlikdə dinc yaşamasıdır». Bizim ən xoş arzularımızı qəbul edin.

**II İliya**
**Ümumgürcüstan Katolikos-Patriarxı»**

**İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycrinin çıxışı**

Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyev!

Hörmətli konfrans iştirakçıları!

«2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq»a həsr olunmuş bu konfransda sizi görməkdən məmnunluq hissi duyuram. Əvvəlcə bu vacib konfransın təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Bu vacib və əhəmiyyətli konfransın keçirilməsi bütün dünya qarşısında islam aləminin həmrəyliyinin bariz nümunəsidir. Xüsusən də hesab edirik ki, müsəlmanların ilk qibləsi olan Qüdsi-Şərifin müdafiə olunmasında və bu problemin tezliklə ədalətli həllinin tapılması istiqamətində belə konfransların böyük əhəmiyyəti vardır. Hesab edirik ki, Fələstin Dövlətinin yaradılması və Qüdsi-Şərifin onun paytaxtı elan olunması bizim mədəniyyətimizin və dinimizin ayrılmaz hissəsidir.

Bu fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının sabit, davamlı mövqeyini və Azərbaycan Prezidenti İlham Əliyevin islam aləmində həmrəyliyin gücləndirilməsi üçün göstərdiyi davamlı səylərini xüsusi qeyd etmək istəyirəm.

Biz hesab edirik ki, anlayışın və tolerantlığın, xalqlar arasında birgə yaşayışın təşviqi işində Azərbaycanın rolu danılmazdır. Ümmətimizin qarşılaşdığı problemlərin və çağırışların həllində, həmçinin ümmətimizin daha da inkişafı və rifahı istiqamətində atılan addımlar da təqdirəlayiqdir. Biz islam aləmində dinlər və mədəniyyətlər arasında anlayışın və əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylərimizi əsirgəmirik. Gündən-günə inkişaf edən Bakı şəhərində Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə vacib əhəmiyyət kəsb edən bir sıra konfranslar və forumlar keçirilib. Bu forumlarda, konfranslarda

müxtəlif dinlərin, mədəniyyətlərin nümayəndələri iştirak ediblər. Ona görə hesab edirəm ki, 2017-ci ilin Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunması çox müdrik qərardır və islam aləmində həmrəyliyin möhkəmlənməsinə göstərilən səylərin bariz nümunəsidir. Bu qərar, əlbəttə ki, islam ölkələri arasında əməkdaşlığın möhkəmləndirilməsini, əlaqələrin daha da gücləndirilməsini və koordinasiyasını tələb edən vacib qərardır.

Azərbaycan Respublikasının möhtərəm Prezidenti İlham Əliyev və hörmətli konfrans iştirakçıları! Biz islam mədəniyyətinin və əxlaqının gələcək nəsillərə daha da yaxşı aşılanması üçün əlimizdən gələni etməliyik və onları həmrəylik hissləri ilə böyütməliyik. İslam aləminin gələcəyinin qurulması gələcək nəsillərin üzərinə düşəcəkdir. İslam ölkələrinin gələcəkdə davamlı inkişafı və rifahı məhz bizim gələcək nəsillərin səylərindən asılı olacaqdır. Arzu edirəm ki, islam aləmində təhlükəsizlik, sülh və əmin-amanlıq bərqərar olsun. Mən bu fürsətdən istifadə edərək, təklif edirəm ki, islam həmrəyliyi mövzusu bütün islam aləmində məktəblərin, universitetlərin tədris proqramlarına daxil edilsin. Hesab edirəm ki, İSESKO və islam ölkələrinin universitetləri bu məsələnin araşdırılmasına başlayacaqlar.

Gələcək nəsillərin islam həmrəyliyi ruhunda tərbiyə olunması, islam ölkələrinin inkişafı üçün böyük tədbirlər görülməlidir. İslam aləminin üzləşdiyi çağırışa qarşı biz birgə səylər göstərməliyik. Hesab edirəm ki, bütün islam aləminin xalqları, eyni zamanda, dünyada mövcud olan bütün xalqlar işğala qarşı olmalıdırlar. Azərbaycan neçə illərdir ki, Ermənistan tərəfindən işğala məruz qalıb və Azərbaycan xalqı bu işğaldan əziyyət çəkir. Bu məsələdə beynəlxalq qurumların qərarları və qətnamələri yerinə yetirilmir. Hesab edirik ki, azərbaycanlı məcburi köçkünlər və qaçqınlar tezliklə öz doğma yurdlarına qayıtmalıdırlar.

Mərkəzi Afrika Respublikasında baş verən hadisələr də dediklərimizin bariz nümunəsidir. Orada baş verənlər bizi çox narahat edir.

İslam bütün dünya üçün mərhəmət dini kimi göndərilib. Biz islam ölkələrinin bir-birinə qarşı çıxış etdiyinin, bir-birini qırdıqlarının şahidi olanda çox pis oluruq. Ümid edirik ki, islam aləmində baş verən bütün mənfi hadisələr aradan qalxacaq, həmrəylik və qardaşlıq hissləri daha da güclənəcəkdir. Bunun üçün ədalətli və insaflı şəkildə əməkdaşlıq etmək lazımdır.

Əlbəttə, biz torpaqdan yaranmışıq və torpağa dönəcəyik. Allah-Taaladan arzu edirik ki, o bizi düz yola yönəltsin. Allah-Taala öz peyğəmbərlərini yerə rəhmət, mərhəmət kimi göndərib. Hesab edirik ki, bütün dünyadakı mömin insanlar bəşəriyyətin çiçəklənməsi uğrunda səylərini əsirgəməməlidirlər. Diqqətinizə görə çox sağ olun. Hamınıza təşəkkürümü bildirirəm. Allah sizin bütün işlərinizi müvəffəq etsin. Hamınıza uğurlar arzu edirəm.

Allah-Taala bu gözəl ölkəni – Azərbaycanı qorusun. Azərbaycan bütün dünya üçün birgəyaşayışın, dostluğun, qardaşlığın, dinlər və mədəniyyətlər arasında dialoqun bariz nümunəsidir. Bütün bunların hamısı Azərbaycan Prezidenti İlham Əliyevin müdrik siyasətinin nəticəsidir. Bu, Prezidentin müsəlmanın, xristianın və yəhudinin bir ölkədə qardaş kimi yaşaması istiqamətində səylərinin və onun arzularının bariz nümunəsidir. Bu ölkə, qeyd etdiyimiz kimi, doğrudan da bütün dünya üçün bir nümunədir. Cənab Prezident, Allah Sizə bütün işlərinizdə uğurlar nəsib etsin. Azərbaycana, Sizə uğurlar diləyirəm. Çox sağ olun.

## Şeyxülislam Allahşükür Paşazadənin
## çıxışı

Bugünkü mötəbər tədbirimizdə iştirak edən möhtərəm dövlət, din, elm və ictimaiyyət xadimlərini salamlayır, Zirvə görüşümüzün işinə uca Rəbbimizdən xeyir-dualar diləyirəm.

Tarixboyu Azərbaycan multikulturalizm, dini həmrəylik mühitinin və sivilizasiyalararası dialoqun təşəkkülündə, islam mədəniyyətinin dünyada yayılmasında mühüm rol oynayıb. Bu gün də multikultural Azərbaycanda müsəlmanlar, pravoslavlar, katoliklər, yəhudilər və digər din mənsubları dostluq, qardaşlıq şəraitində yaşayır, dövlətin diqqət və himayəsindən yararlanırlar. Ölkəmizdə məzhəblərarası həmrəyliyin nadir nümunəsi mövcuddur.

Möhtərəm konfrans iştirakçıları, dini və milli zəmində ekstremizm, terrorizm, islamofobiya, radikalizm təzahürlərinin tüğyan etdiyi, miqrant böhranının yaşandığı müasir dövrdə Azərbaycan dövlətinin başçısı zati-aliləri prezident İlham Əliyev xalqımızın ənənəvi milli, tarixi irsinə istinadən 2017-ci ili «İslam həmrəyliyi ili» elan etməklə, dilindən, dinindən asılı olmayaraq, dünyamızı ümumbəşəri önəm kəsb edən sülh və ədalət ideyalarının ətrafında cəm olmağa çağırır.

Azərbaycan liderinin islam həmrəyliyi çağırışı bəşəriyyətin ehtiyac duyduğu insan həmrəyliyinə aparan müqəddəs yolun başlanğıcıdır. Dünyaya yeni siyasi mədəniyyət nümunəsi təqdim edən dövlət başçımızın çağırışları həm siyasət, həm də din xadimləri tərəfindən yüksək dəyərləndirilir, beynəlxalq ictimaiyyətin rəğbətini qazanır. Bugünkü beynəlxalq konfransımıza təşrif buyurmuş dəyərli qonaqlarımızın coğrafiyası – dünyanın müxtəlif qitələrindən gəlmiş mötəbər şəxsiyyətlərin tədbirimizdə təmsil olunması buna bariz nümunədir. İlham Əliyev həzrətlərinin elan etdiyi istər multikulturalizm, istərsə də islam həmrəyliyi illəri ümumbəşəri məramlara xidmət edən missiyadır və Azərbaycan dövlətinin dünyada gedən proseslərə özəl, dəyərli töhfəsidir.

Bizim dövlətimiz bu uğurlara multikulturalizm və dini həmrəyliyin bünövrəsini qoyan ulu öndər Heydər Əliyevin xilaskar

azərbaycançılıq məfkurəsi sayəsində nail olubdur. Zati-aliləri Prezident İlham Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan bu gün uğurlu ideyalarını dünyaya təqdim etmək qüdrətinə malikdir. Azərbaycanın Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyevanın beynəlxalq müstəvidə fəaliyyəti ölkəmizin bu istiqamətdə söz sahibinə çevrilməsinə xidmət edir.

Biz Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birlikdə istər multikulturalizm, istərsə də islam həmrəyliyi illəri çərçivəsində dünyanın müxtəlif nöqtələrində – Böyük Britaniyada, İspaniyada, İsveçdə, Finlandiyada, Özbəkistanda, Rusiyada, Türkiyədə, İranda keçirdiyimiz beynəlxalq tədbirlərdə dövlət başçımızın irəli sürdüyü ideyaların mənəvi əzəmətinin həm müsəlmanlar, həm də qeyri-müsəlmanlar tərəfindən böyük ehtiram və dəstəklə qarşılandığının bilavasitə şahidi olduq.

İnsan həyatının qorunub saxlanılması, sülhün və sabitliyin bərqərar edilməsi yönündə addımların atılmasının zəruri olduğu narahat dünyamızda dini hisslərdən siyasi məqsədlər üçün sui-istifadə yolverilməzdir. Qüds ətrafında son günlər cərəyan edən hadisələr BMT-nin Qüdsə dair tarixi qərarının yerinə yetirilməsi vacibliyini bir daha gündəmə gətirdi. Necə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT-nin 4 qətnaməsinin zamanında yerinə yetirilməməsi səbəbindən Azərbaycanın 20 faiz ərazisi indiyədək Ermənistanın işğalı altındadır. Biz dünyada bütün münaqişələrin beynəlxalq hüququn normaları əsasında sülh yolu ilə ədalətli həllində israr edirik.

Zati-aliləri, islam həmrəyliyinin bariz nümunəsi olan İstanbul Zirvə görüşündə Qüdsi-Şəriflə bağlı çıxışınızı bütün müsəlman dünyası olduqca yüksək dəyərləndirir. Yeri gəlmişkən, həmin mötəbər tədbirdə islam həmrəyliyinə dair Bakı Konfransını xatırlatmanız bugünkü tədbirimizə verdiyiniz önəmin və qiymətin ali göstəricisi oldu.

Zati-aliləri, Siz bizlərə – Azərbaycan xalqına və bütün dünyaya «İslam həmrəyliyi ili»ni bəxş etdiniz. Əslində Siz «İslam həmrəyliyi ili» elan etməklə, miqyasına və əhəmiyyətinə görə

Azərbaycanın sərhədlərinə sığmayan, zaman baxımından il çərçivəsi ilə məhdudlaşmayan bir ideya irəli sürmüş oldunuz.

Zati-aliləri, ümumbəşəri önəm kəsb edən tarixi çağırışlarınız narahat dünyamızın ehtiyac duyduğu dəyərli missiyadır. Dünyada sülh naminə insan həmrəyliyinə xidmət edən qlobal səyləriniz uca Yaradanımıza xoş gələn əməllərdir. Qoy Allah-Taala Sizin ədalətin təntənəsi naminə gördüyünüz işlərə rəvac versin, gələcək qlobal fəaliyyətlərinizə yeni zəfərlər bəxş etsin. Müqəddəs kitabımız Quranda buyurulduğu kimi:

«Ey insanlar! İçərinizdə insanları xeyrə çağıran, yaxşı işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Məhz onlar nicat tapmış kimsələrdir». Ali-İmran, 104.

Möhtərəm konfrans iştirakçıları, sizlərə bir daha Azərbaycana «Xoş gəlmisiniz!» – deyir, bugünkü beynəlxalq konfransımızın işinə uca Allahdan xeyir-dualar diləyirəm.

Vəssəlamu əleykum və rəhmətullahi və bərəkatuhu.

* * *

*Sonda xatirə şəkli çəkdirildi.*

*Beynəlxalq konfrans işini plenar iclasla davam etdirdi.*

## İRAN İSLAM RESPUBLİKASI PREZİDENT APARATININ RƏHBƏRİ MAHMUD VAEZİ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də İran İslam Respublikası Prezident Aparatının rəhbəri Mahmud Vaezini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında müxtəlif sahələrdə əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu.*

*Mahmud Vaezi İran Prezidenti Həsən Ruhaninin salamlarını dövlətimizin başçısına çatdırdı və İran Prezidentinin gələn il Azərbaycana səfər edəcəyini məmnunluqla bildirdi.*

*Qonaq Bakıda keçirilən «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın əhəmiyyətini vurğulayaraq, tədbirdə 40-dək ölkədən, 8 beynəlxalq təşkilatdan nümayəndələrin iştirakını konfransın önəminin göstəricisi olduğunu qeyd etdi.*

*Prezident İlham Əliyev ötən həftə İslam Əməkdaşlıq Təşkilatının İstanbulda keçirilən Zirvə toplantısında İran Prezidenti Həsən Ruhani ilə qısa görüşü zamanı onu Azərbaycana səfərə dəvət etdiyini məmnunluqla xatırlatdı. Dövlət başçısı qeyd etdi ki, Bakıda keçirilən konfransda yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunması İranın dinlər və mədəniyyətlərarası dialoqa böyük önəm verdiyini göstərir.Söhbət zamanı iki ölkə arasında enerji, əczaçılıq, bank sahələrində əməkdaşlıq, Şimal–Cənub nəqliyyat dəhlizi və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

*Prezident İlham Əliyev Prezident Həsən Ruhaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi.*

## TÜRKİYƏ RESPUBLİKASININ DƏYANƏT İŞLƏRİ BAŞKANI ƏLİ ƏRBAŞ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Türkiyə Respublikasının Dəyanət İşləri Başkanı Əli Ərbaş ilə görüşmüşdür.*

*Dövlətimizin başçısı Əli Ərbaşı Türkiyə Diyanət İşləri Başkanı təyin olunması münasibətilə təbrik etdi və Türkiyənin konfransda yüksək səviyyədə təmsil olunmasının önəmini vurğuladı.*

*Dövlət başçısı bu yaxınlarda İstanbulda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Baş Nazir Binəli Yıldırım ilə görüşlərini məmnunluqla xatırlatdı. Bu il Türkiyəyə 3 dəfə səfər etdiyini vurğulayan Prezident İlham Əliyev bunu dostluq və qardaşlıq münasibətlərimizin göstəricisi kimi dəyərləndirdi.*

*Əli Ərbaş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş Nazir Binəli Yıldırımın salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq Bakıya səfəri zamanı ölkəmizin sürətli inkişafının şahidi olduğunu məmnunluqla qeyd etdi.*

*Söhbət zamanı Bakıda keçirilən «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın əhəmiyyəti qeyd olundu, bu tədbirin ölkələrimiz, xalqlarımız və dinlər arasında yaxınlaşmaya kömək etdiyi vurğulandı.*

*Dövlətimizin başçısı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Baş Nazir Binəli Yıldırımın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə və Baş Nazirinə çatdırmağı xahiş etdi.*

## SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ İSLAM İŞLƏRİ, DƏVƏT VƏ İRŞAD NAZİRİNİN BİRİNCİ MÜAVİNİ TOFİQ ƏL-SUDEYRİ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Səudiyyə Ərəbistanı Krallığının İslam İşləri, Dəvət və İrşad nazirinin birinci müavini Tofiq əl-Sudeyrini qəbul etmişdir.*

*Tofiq əl-Sudeyri «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransın təşkilinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Tofiq əl-Sudeyri 1998-ci ildə Azərbaycana səfəri zamanı ümummilli lider Heydər Əliyev ilə görüşünü dərin ehtiramla xatırlatdı. Qeyd etdi ki, həmin vaxtdan etibarən ölkələrimiz arasındakı əlaqələr sürətlə inkişaf edib. Həm Səudiyyə Ərəbistanı Kralı, həm də Səudiyyə xalqı Azərbaycan Prezidentinə, hökumətinə və xalqına böyük məhəbbət və dostluq hissləri bəsləyir.*

*Ölkəmizə ilk səfərindən ötən 20 ildə Azərbaycanın bütün sahələrdə sürətlə inkişaf etdiyini məmnunluqla qeyd edən qonaq vurğuladı ki, bu, Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə ölkənin gələcəyi və xalqın rifahı naminə həyata keçirilən siyasətin nəticəsində mümkün olubdur.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən dövlət başçısı «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransda Səudiyyə Ərəbistanının yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu bildirdi.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğunu qeyd edərək, Səudiyyə Ərəbistanına rəsmi səfərini məmnunluqla xatırlatdı.*

*Dövlət başçısı qeyd etdi ki, Azərbaycan torpaqlarını işğal edən, müsəlman abidələrini və məscidlərimizi dağıdan Ermənistanla Səudiyyə Ərəbistanının hər hansı əlaqəni qurmaması Azərbaycan dövləti və xalqı tərəfindən yüksək qiymətləndirilir.*

## MİSİR DİYARININ MÜFTİSİ ŞÖVQİ İBRAHİM ALLAM İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Misir diyarının müftisi Şövqi İbrahim Allam ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Misir arasında əlaqələrin uğurla inkişaf etdiyini bildirdi. «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın əhəmiyyətini vurğulayan dövlətimizin başçısı Misirin konfransda yüksək səviyyədə təmsil olunmasından məmnunluğunu ifadə etdi. Bu konfransın islam həmrəyliyinin gücləndirilməsinə böyük töhfə olduğunu vurğulayan dövlət başçısı dini rəhbərlərin bir yerdə olmasının mühüm əhəmiyyət daşıdığını bildirdi, böyük tərkibli nümayəndə heyətlərinin bu konfransda iştirakını islam həmrəyliyinin göstəricisi kimi dəyərləndirdi.*

*Misir diyarının müftisi Şövqi İbrahim Allam Azərbaycanda gedən inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını bildirdi və qeyd etdi ki, bütün bunlar ölkə rəhbərinin müdrik siyasəti nəticəsində əldə olunub. Bakıda keçirilən «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın əhəmiyyətinə toxunan Şövqi İbrahim Allam bunun müxtəlif dinlərin və sivilizasiyaların bir-birinə daha da yaxınlaşması işinə xidmət etdiyini vurğuladı.*

## ÖZBƏKİSTAN RESPUBLİKASI PREZİDENTİNİN DÖVLƏT MÜŞAVİRİ RÜSTƏM KAMİLOV İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də Özbəkistan Respublikası Prezidentinin Dövlət müşaviri Rüstəm Kamilovu qəbul etmişdir.*

*Prezident İlham Əliyev Bakıda keçirilən «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransda Özbəkistanın yüksək səviyyəli nümayəndə heyəti ilə təmsil olunduğuna görə minnətdarlığını ifadə etdi. Dövlət başçısı «İslam həmrəyliyi ili» çərçivəsində qardaş ölkədə də konfransın keçirilməsinin əhəmiyyətini vurğuladı.*

*Dövlət müşaviri Rüstəm Kamilov Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarını dövlətimizin başçısına çatdırdı. Rüstəm Kamilov bildirdi ki, xalqın tolerantlığı və sülhün qorunub saxlanılmasına ölkələrimizin bir çox ortaq yanaşması vardır. Tolerantlığın əhəmiyyətindən danışan qonaq insanların birgə yaşayaraq, ölkənin inkişafı üçün çalışmalarının önəmini vurğuladı. Rüstəm Kamilov islam ənənələrinin dirçəlişinin, islam irsinin yaşadılmasının və gələcək nəsillərə ötürülməsinin Özbəkistanda prioritet istiqamətlərdən biri olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Özbəkistan Prezidentinə çatdırmağı xahiş etdi.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 21-də İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun baş direktoru Əbdüləziz Osman əl-Tüveycri Bakıda keçirilən «2017 – İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın yüksək səviyyədə təşkilinə verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Konfransın əhəmiyyətini vurğulayan Əbdüləziz Osman əl-Tüveycri tədbirdə müxtəlif ölkələrdən ayrı-ayrı dinlərin nümayəndələrinin iştirakının önəmini qeyd etdi. İSESKO-nun baş direktoru bildirdi ki, Prezident İlham Əliyevin konfransdakı dərin məzmunlu nitqi böyük əhəmiyyət daşıyır.*

*Prezident İlham Əliyev xoş sözlərə görə təşəkkürünü bildirdi və Əbdüləziz Osman əl-Tüveycrinin konfransda iştirakının və çıxışının önəmini qeyd etdi. Dövlət başçısı Əbdüləziz Osman əl-Tüveycrinin konfransdakı çıxışı zamanı və eləcə də digər tədbirlərdə hər zaman Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı nümayiş etdirdiyi ədalətli mövqeyi yüksək qiymətləndirdi.*

*İSESKO-nun baş direktoru bildirdi ki, Azərbaycanda gedən hərtərəfli, davamlı inkişaf prosesləri və Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkədə əldə olunan möhtəşəm uğurlar islam dünyasında və ondan kənarda böyük maraqla qarşılanır.*

*Görüşdə Azərbaycan ilə İSESKO arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi bildirildi və əlaqələrimizin bundan sonra daha da möhkəmlənəcəyinə əminlik ifadə olundu.*

## ÇİLİ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEBASTİAN PİNYERAYA

Hörmətli cənab Pinyera!

Çili Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, yenidən dövlət başçısı kimi fəaliyyət göstərəcəyiniz qarşıdakı dövrdə Azərbaycan ilə Çili arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Çili xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *22 dekabr 2017-ci il*

# RUSİYA FEDERASİYASI ŞİMALİ QAFQAZ RESPUBLİKALARINDAN OLAN BİR QRUP MÜSƏLMAN DİN XADİMİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Bakıda keçirilən «2017– İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransı xatırladaraq, bu tədbirin müxtəlif dinlərin və xalqların bir-birinə daha da yaxınlaşması, beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi işinə töhfə verdiyini bildirdi. Dövlət başçısı Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından dini rəhbərlərin böyük heyətlə bu konfransda iştirakından məmnunluğunu ifadə etdi, mütəmadi keçirilən belə görüşlərin Rusiya Federasiyası, o cümlədən Şimali Qafqaz respublikaları ilə Azərbaycan arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, «İslam həmrəyliyi ili» elan olunmuş 2017-ci ilin başa çatmasına baxmayaraq, Azərbaycan dünya müsəlmanlarının həmrəyliyi, müsəlman ölkələri arasında əməkdaşlıq işinə bundan sonra da öz töhfəsini verəcək. Bu baxımdan təsis olunacaq Koordinasiya Şurası gələcək birgə fəaliyyətin həyata keçirilməsi üçün yaxşı imkan yaradacaqdır.*

*Qonaqlar adından danışan Qaraçay-Çərkəz Respublikasının müftisi İsmayıl Berdiyev Prezident İlham Əliyevlə görüşlərindən həmişə olduğu kimi, böyük məmnunluq hissi keçirdiklərini*

*dedi. O, «2017–İslam həmrəyliyi ili: dinlər və mədəniyyətlərarası dialoq» mövzusunda Beynəlxalq konfransın yüksək səviyyədə təşkil olunması işinə verdiyi dəstəyə görə Azərbaycan Prezidentinə dərin təşəkkürünü bildirdi, tədbirin xalqlar arasında dostluğun möhkəmlənməsi işinə töhfə verdiyini məmnunluq hissi ilə qeyd etdi. Ulu öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edən İsmayıl Berdiyev onun Azərbaycan xalqının rifahı naminə həyata keçirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğuladı. Qonaq hər dəfə olduğu kimi, Azərbaycana budəfəki səfərləri zamanı da ölkəmizdə gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat yaratdığını qeyd etdi.*

*Xoş sözlərə görə minnətdarlığını ifadə edən dövlət başçısı vurğuladı ki, Azərbaycanın son illər əldə etdiyi sürətli iqtisadi inkişafın təmin olunmasında, xalqımızın rifah halının yaxşılaşdırılmasında cəmiyyətimizdə hökm sürən sabitlik, müxtəlif dinlərin və xalqların nümayəndələrinin bir ailə şəklində mehriban yaşamaları böyük rol oynayır. Müsəlman ölkələrində narahatlıq doğuran problemlərin mövcud olduğunu qeyd edən Prezident İlham Əliyev bunların aradan qaldırılması üçün müsəlman ölkələri arasında həmrəyliyin gücləndirilməsinin böyük önəm daşıdığını diqqətə çatdırdı və Azərbaycanın bu işə bundan sonra da töhfə verməkdə davam edəcəyini vurğuladı.*

## GÜRCÜSTAN RESPUBLİKASININ MALİYYƏ NAZİRİ MAMUKA BAXTADZE İLƏ GÖRÜŞ

*22 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 22-də Gürcüstan Respublikasının Maliyyə naziri Mamuka Baxtadzeni qəbul etmişdir.*

*Prezident İlham Əliyev Mamuka Baxtadzeni yeni vəzifəyə təyin olunması münasibətilə təbrik etdi və ona fəaliyyətində uğurlar arzuladı.*

*Təbrikə görə minnətdarlığını bildirən Mamuka Baxtadze bundan əvvəl «Gürcüstan Dəmir Yolları» Səhmdar Cəmiyyətinin baş direktoru vəzifəsində çalışarkən Bakı–Tbilisi–Qars layihəsinin icrasında iştirak etməsini məmnunluqla vurğuladı.*

*Görüşdə Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkələrimizin maliyyə qurumları arasında əməkdaşlığın bu işə verdiyi töhfə diqqətə çatdırıldı.*

*Azərbaycan ilə Gürcüstanın birgə həyata keçirdiyi qlobal layihələrə toxunulan görüşdə Bakı–Tbilisi–Qars layihəsinin regional və beynəlxalq iqtisadi əməkdaşlıq baxımından önəmi qeyd edildi.*

*Söhbət zamanı əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ – DAXİLİ İŞLƏR NAZİRİ GİORGİ QAXARİA İLƏ GÖRÜŞ

*23 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Gürcüstan Respublikası Baş Nazirinin müavini, Daxili İşlər naziri Giorgi Qaxarianı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan–Gürcüstan ikitərəfli münasibətlərin müxtəlif sahələrdə, o cümlədən hüquq-mühafizə orqanları arasında əməkdaşlığın uğurla inkişaf etdiyi bildirildi.*

*Dövlət başçısı Giorgi Qaxarianı Gürcüstanın Daxili İşlər naziri vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi və ona gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Giorgi Qaxaria təbrikə görə minnətdarlığını bildirərək, bundan əvvəl Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri vəzifəsində çalışarkən dövlətimizin başçısı ilə keçirdiyi görüşləri məmnunluqla xatırlatdı. O, iki ölkənin Daxili İşlər nazirlikləri arasında uğurlu əməkdaşlıq aparıldığını bildirdi.*

*Söhbət zamanı ölkələrimizin həyata keçirdiyi birgə qlobal iqtisadi layihələrin, o cümlədən Bakı–Tbilisi–Qars dəmir yolunun əhəmiyyəti qeyd edildi, Azərbaycan və Gürcüstan hüquq-mühafizə orqanlarının təhlükəsizliyin təmin olunması istiqamətində birgə fəaliyyətinin bundan sonra da həyata keçiriləcəyinə əminlik ifadə olundu.*

## MİDA-nın HÖVSAN YAŞAYIŞ KOMPLEKSİNDƏ İLK BİNANIN TƏMƏLQOYMA MƏRASİMİ

*24 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin – MİDA-nın ikinci layihəsi olan Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlqoyma mərasimində iştirak etmişlər.*

*Mənzil İnşaatı Dövlət Agentliyinin direktoru Samir Nuriyev əvvəlcə Agentliyin birinci layihəsi olan Yasamal Yaşayış Kompleksinin tikintisinin hazırkı vəziyyəti barədə məlumat verdi. Bildirildi ki, ötən il dekabrın 24-də Prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın iştirakı ilə təməlqoyma mərasimi keçirilən Yasamal Yaşayış Kompleksinin tikintisi sürətlə davam etdirilir. 1843 ailəni mənzillə təmin edə biləcək bu yaşayış kompleksinin 29 çoxmənzilli binasının hər birinin müxtəlif icra mərhələlərində olan tikintisi, həmçinin ərazinin müvafiq mühəndis-kommunikasiya sistemi ilə təchiz edilməsi işləri paralel həyata keçirilir. Kompleksin ilk 12 yaşayış binasının və 960 şagird-yerlik ümumtəhsil məktəb binasının tikinti-quraşdırma işləri artıq başa çatdırılıb. Növbəti ilin yay aylarında kompleksin ilk mənzillərinin gələcək sakinlərinə təqdim olunması planlaşdırılır. Ümumilikdə isə kompleks 2019-cu ildə tam təhvil veriləcəkdir.*

*Yasamal Yaşayış Kompleksinin tikintisində 20-dən artıq şirkət iştirak edir və ümumi tikinti prosesinə 3000 nəfərə yaxın işçi cəlb olunub. «Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası»na əsasən,*

*mənzillərin satışına başlanılmasına hazırlıq məqsədilə agentliyin ilk layihəsi olan Yasamal kompleksi haqqında məlumatların ətraflı təqdim olunduğu internet səhifəsi istifadəyə verilib. «www.yasamal.mida.az» internet səhifəsində informasiya əldə etmək və komplekslə bağlı yarana biləcək suallara cavab tapmaq mümkündür. Səhifəyə daxil olanlar Yasamal Yaşayış Kompleksinin baş planı, hər bir binası, mənzillərin daxili və xarici perimetr üzrə sahələri, otaqlarının sayı, interyer nümunələri ilə tanış ola biləcəklər. Bu internet səhifəsi vasitəsilə kompleksin layihə xüsusiyyətləri, sakinlərin rahatlığı üçün yaradılan şərait, nəqliyyat infrastrukturu, tikinti və təmir zamanı istifadə olunan inşaat materialları haqqında da ətraflı məlumat əldə etmək mümkündür. Saytda, həmçinin güzəştlə mənzil əldə etmək hüququna malik olan şəxslər, həmin şəxslərin müraciət qaydası, mümkün ödəniş üsulları, qurumla əməkdaşlıq edən banklar və digər məlumatlar vardır. Bu il mayın 30-da «Elektron hökumət» portalında yaradılmış «Güzəştli mənzil» sistemində güzəştlə mənzil əldə etmək hüququna malik vətəndaşların müraciətlərinin qeydiyyatına başlanılıb. Bu sistem vasitəsilə 7500-dən çox vətəndaşın mənzil əldə etmək hüququ təsdiqlənib. Bu gün vətəndaşlar əlavə vaxt itirmədən «Elektron imza»dan istifadə edərək, tələb olunan sənədləri internet vasitəsilə təqdim edirlər. Həmçinin «ASAN xidmət» mərkəzlərində Agentliyin əməkdaşlarının fəaliyyəti təşkil olunub. Agentlik tərəfindən tezliklə «Güzəştli mənzil» sisteminin növbəti satış modulu da istifadəyə veriləcək və vətəndaşlar üçün bütövlükdə yaşayış kompleksinin hər bir binası, satışa çıxarılan mənzillərin interyeri ilə virtual qaydada tanış olmaq və seçim etmək imkanı təmin ediləcəkdir. Agentlik «Azərbaycan Respublikasında uyğun qiymətə mənzil təminatının inkişafına dair «Strateji Yol Xəritəsi» ilə müəyyən edilmiş hədəfləri rəhbər tutaraq, dövlət büdcəsindən asılılığı minimuma endirmək məqsədilə özəl investisiya şirkətləri ilə səmərəli əməkdaşlığın qurulmasına nail olubdur.*

*Suraxanı rayonu ərazisində, Hövsan qəsəbəsinin yaxınlığında inşa olunacaq Hövsan Yaşayış Kompleksi Bakının sürətlə inkişaf edən şərq hissəsində, Xəzər sahilindən cəmi 2 kilometr məsafədə, yaşayış və istirahət üçün olduqca rahat bir məkanda yerləşəcək. Kompleksin 20 hektarlıq ərazisinin qərb hissəsində şam və zeytun ağaclarından ibarət geniş yaşıllıq zonası mövcuddur. Ərazidə yaşıllaşdırma prosesinin fəal surətdə davam etdirilməsi üzrə planlar Hövsan Yaşayış Kompleksinin gələcək sakinlərinin ekoloji cəhətdən təmiz və sağlam mühitdə yaşayışı üçün zəmin yaradır. Şəhərcik çoxmənzilli 11 yaşayış binasından ibarət olacaq. Bunlardan yeddisinin yeddimərtəbəli 18 girişli, dördünün isə onmərtəbəli birgirişli olması nəzərdə tutulur. Bu binalarda, ümumilikdə, 3002 mənzil olacaq ki, onlardan 280-nin birotaqlı, 1481-nin ikiotaqlı, 940-nın üçotaqlı, 301-nin isə dördotaqlı olması planlaşdırılır. Birotaqlı mənzillərin sahəsi təqribən 32–35 kvadratmetr, ikiotaqlı mənzillərin sahəsi təqribən 51–54 kvadratmetr, üçotaqlı mənzillərin sahəsi 64–68 kvadratmetr, dördotaqlı mənzillərin sahəsi isə 79–86 kvadratmetr təşkil edəcəkdir. Bütün mənzillər tam təmirli vəziyyətdə və mətbəx mebeli ilə təchiz olunmuş şəkildə vətəndaşlara təklif olunacaqdır.*

*Kompleksdə çoxmənzilli binalarla yanaşı, insanların rahat yaşayışı üçün zəruri olan hər cür şəraitin yaradılması, geniş həyətlərin, yaşıllıq zonalarının, uşaq meydançalarının, sosial infrastruktur obyektlərinin tikintisi aparılacaq. Ərazidə hər biri 260 yerlik olmaqla, 2 uşaq bağçasının, 1920 şagird-yerlik ümumtəhsil məktəbinin, ticarət mərkəzinin və xəstəxananın istifadəyə verilməsi də nəzərdə tutulur. Bununla yanaşı, ərazidə müvafiq nəqliyyat infrastrukturunun yaradılması və şəhərin ictimai nəqliyyat sisteminə inteqrasiyası planlaşdırılır.*

*Dövlət başçısı Hövsan Yaşayış Kompleksində inşa ediləcək ilk yeddimərtəbəli binanın təməlini qoydu.*

## «AĞ ŞƏHƏR»DƏ GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*24 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva dekabrın 24-də Bakı «Ağ şəhər»də Xaqani Rüstəmov küçəsinin, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidinin açılışında, yeni salınmış parkın, inşası və abadlığı başa çatan məhəllələrin təqdimat mərasimində iştirak etmişlər.*

*Ulu öndər Heydər Əliyevin xeyir-duası ilə paytaxtdakı «Qara şəhər» öz yerini əzəmətli Bakı «Ağ şəhər»ə verməkdədir. Prezident İlham Əliyevin diqqəti və qayğısı sayəsində bu mükəmməl layihə reallığa çevrilir, miqyası və keyfiyyətinə görə diqqəti cəlb edir. Bakı «Ağ şəhər»də böyük həcmdə tikinti-quraşdırma və abadlıq işləri görülüb, neft tullantıları ilə çirklənmiş sahələrin təmizlənməsi yekunlaşıbdır.*

*Müxtəlif memarlıq üslublarını, ekoloji məsələləri və Bakı «Ağ şəhər»in paytaxtın digər hissələri ilə üzvi şəkildə qovuşmasını ehtiva edən layihənin reallaşması sırf peşəkarlara etibar edilib. Burada mükəmməl infrastruktur yaradılır. Yeni yollar, səkilər salınarkən onların ən müasir standartlara maksimum cavab verməsi, əhalinin rahatlığı, təhlükəsizliyi xüsusi diqqət mərkəzində saxlanılır. Bakı «Ağ şəhər»in tikintisi və burada infrastrukturun yaradılması zamanı dövlət başçısının tapşırıqlarına əsasən kompleks iş aparılır, bütün mövcud tələblər və gələcək inkişaf nəzərə alınır. Yerli şirkətlərlə yanaşı, dünya şöhrətli iqtisadi qurumlar da bu layihəyə cəlb edilib. Bakı «Ağ şəhər» nəinki respublikamızda, eləcə də beynəlxalq səviyyədə tanınan layihədir. Ötən müddətdə bu layihə beynəlxalq səviyyədə bir sıra yüksək mükafatlara layiq görülüb. Prezident İlham Əliyevin tap-*

*şırıqlarına uyğun olaraq Bakı «Ağ şəhər»də ekoloji problemlərin həlli ən başlıca prioritetlərdən biridir. Hazırda Bakı «Ağ şəhər» nəhəng tikinti meydançasını xatırladır. Burada milli memarlıq ənənələri ilə beynəlxalq təcrübənin yaradıcı şəkildə uzlaşdırılmasına da xüsusi fikir verilir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov və Bakı «Ağ şəhər» layihəsinin icraçı direktoru Ruslan Sadıxov dövlət başçısına ərazidə görülən işlər barədə məlumat verdilər.*

*Bakının 2 əsas prospektini – Babək və Nobel prospektlərini və Mərkəzi Bulvar küçəsini birləşdirən, «Ağ şəhər» bulvarına qədər davam edən və uzunluğu 1050, eni 45 metr olmaqla, 6 zolaqlı Xaqani Rüstəmov küçəsinin yenidən qurulma işləri tamamlanıb. Bu küçədə avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulub. Xaqani Rüstəmov küçəsi ilə Süleyman Vəzirov küçəsinin kəsişməsində diametri 66 metr olan yeni dairə inşa edilib. Bu dairə tam fərqli və orijinal dizaynda inşa olunub. Burada yaşıllaşdırma işləri aparılıb və ətraf dekorativ daşlarla bəzədilibdir.*

*Prezident İlham Əliyev Xaqani Rüstəmov küçəsi, bu küçənin üzərində yerləşən dairə və dördçıxışlı piyada keçidin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Xaqani Rüstəmov və Süleyman Vəzirov küçələrinin kəsişməsində uzunluğu 220 metr olan yeraltı piyada keçidində də tikinti işləri tamamlanıb, burada 8 eskalator, işıqlandırma sistemi və nəzarət kameraları quraşdırılıbdır. Müasir üslubda dizayn olunmuş piyada keçidində vətəndaşların rahatlığı üçün yol istiqamətləri qeyd edilib, divarlar Bakı «Ağ şəhər»in perspektiv görüntülərini əks etdirən vitrinlərlə bəzədilibdir.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı «Ağ şəhər»in tikintisi və abadlığı başa çatmış Babək qərb kvartalında, Mərkəzi Bulvar və Süleyman Vəzirov küçələrinin kəsişməsində yeni salınmış parkla da tanış oldular.*

*Sahəsi 6800 kvadratmetr olan park üçün xüsusi işlənilmiş landşaft dizaynına uyğun olaraq müxtəlif ağaclar əkilib, uşaq oyun meydançası salınıbdır. Burada 2017-ci ilin sentyabrında Heydər Əliyev Fondu tərəfindən təşkil edilmiş «Daşın nəğməsi» ikinci Beynəlxalq heykəltəraşlıq simpoziumu çərçivəsində təqdim olunmuş çinli heykəltəraş Liu Yanqın əsəri olan «Xəzər dənizi» heykəli qoyulub. Parkda ictimai «wi-fi» və telefon köşkü qurulub. Burada «Qara şəhər»in tarixi barədə məlumat lövhəsi, müasir üslublu saat quraşdırılıb. Yer səthində tuncdan hazırlanmış xatirə-medalyonda Babək kvartalı ilə bağlı məlumatlar əksini tapır. Parkın qonşuluğundakı yaşayış binasının fasadında mozaika işləmələri bu məhəllənin özünəməxsus memarlıq üslubunu əks etdirir.*

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Bakı «Ağ şəhər» ərazisində tikintisi və abadlığı başa çatmış məhəllələrlə tanış olmaq üçün avtobusla gəzintiyə çıxdılar.*

*Dövlət başçısına Babək qərb kvartalının «Paris evləri», məhəllədə aparılmış abadlıq və yaşıllıq, infrastruktur-kommunikasiya işləri barədə məlumat verildi. Burada sakinlərin rahatlığı və mənalı istirahətləri üçün hərtərəfli şərait vardır. Məhəllələrdə uşaqlar üçün oyun meydançası, yaşıllıq zonası, yerüstü və yeraltı avtodayanacaq mövcuddur. Binaların girişləri xüsusi döşəmə daşları, yaşayış komplekslərinin adlarını əks etdirən divar lövhələri və yaşıllaşdırma ilə fərqlənir. Məhəllələrin təhlükəsizliyi də sutka ərzində diqqətdə saxlanılır. «Paris evləri»ndə dayanıqlı elektrik enerjisi, su, qaz, kanalizasiya xətləri, internet və İP TV əlaqədar qurumlar tərəfindən Bakı «Ağ şəhər»in baş planına uyğun şəkildə və yüksək keyfiyyətlə çəkilib. Tikinti və yenidənqurma işləri çərçivəsində Süleyman Vəzirov, Mərkəzi Bulvar və Birinci Fəvvarələr küçələrində, həmçinin kəsişən 7 kiçik küçədə də təmir və asfaltlanma işləri başa çatıb. Ümumi uzunluğu 3,5 kilometr olan küçələrdə yağış suları ötürücüləri, işıqlandırma dirəkləri, yol nişanları, oturacaqlar, tullantılar üçün qablar quraşdırılıb və 2000-dən çox ağac əkilibdir. Tikinti*

*ərazisinə düşən köhnə ağaclar yeni yerlərə köçürülüb. Küçələrin adları binaların üzərindəki lövhələrlə yanaşı, səkilərdə də daş nişanlarla qeyd edilib, vətəndaşları istiqamətləndirən yol göstəriciləri quraşdırılıb. Şəhərsalma prinsiplərinə uyğun olaraq piyadanın üstünlüyünü bildirən yüksəldilmiş keçidlər ilk dəfə inşa olunub, enişli-yoxuşlu ramplar qoyulub, həmçinin avtomobillər üçün xüsusi parkinq yerləri də nəzərdə tutulubdur.*

*Birinci Fəvvarələr küçəsində də tikinti işləri yekunlaşıb. Fəvvarələr Meydanında müasir üslubda inşa olunmuş ilk binanın fasad işləri də tamamlanıb. «Paris evləri»ndən fərqli olaraq, buradakı yaşayış binalarının müasir memarlıq üslubu Bakı «Ağ şəhər»in memarlıq üslublarının rəngarəngliyini təmin edəcəkdir. Mərkəzi Bulvar və Fəvvarələr küçələrinin kəsişməsində park salınıb, küçə saatı quraşdırılıb. Buradakı heykəllər və yaşı yüzillərlə ölçülən dekorativ zeytun ağacları küçəyə gözəllik verir. Eni 32 metr, uzunluğu 1 kilometrə qədər olan Fəvvarələr küçəsi «Ağ şəhər»in mərkəzindən Nobel prospektinə qədər və oradan da Sahilyanı kvartala qədər uzanacaqdır.*

*Avtobusla gəzinti zamanı Prezident İlham Əliyevə və xanımı Mehriban Əliyevaya 2016-cı ildə sakinlərə təhvil verilmiş məhəllələr, Bakı «Ağ şəhər» layihəsi çərçivəsində 2017-ci il ərzində yerinə yetirilən və 2018-ci il üçün nəzərdə tutulmuş işlər barədə məlumat verildi. Bildirildi ki, Prezidentin müvafiq sərəncamlarına əsasən aidiyyəti qurumlar tərəfindən infrastruktur və yol işləri davam etdiriləcək. Mərkəzi Bulvar küçəsinin Nobel prospektinə qədər inşasının tamamlanması, Süleyman Vəzirov küçəsinin Babək prospektinə qədər yenidən qurulması, Babək prospektindən Bakı «Ağ şəhər»in mərkəzinə qədər uzanan, 37 metr eni olan yolların və yeraltı kommunikasiyaların inşası nəzərdə tutulubdur.*

*Təməli ötən il qoyulmuş Fəvvarələr Meydanı parkı, piyada keçidi və ictimai parkinq kompleksində tikinti işləri davam etdirilir. Müasir üslublu yeddimərtəbəli yaşayış binalarının əhatə*

*etdiyi parkda 3 qrupdan ibarət fəvvarələr, məxsusi uşaq meydançası, xüsusi dizaynlı landşaft və 760 yerlik avtodayanacaq layihələndirilib. Bu kompleksin sahəsi 1 hektardan çox olan Fəvvarələr Meydanı parkının gələn il təhvil verilməsi planlaşdırılıb. Şəhərin ən iri parklarından biri olan Nizami parkının yaxınlığında yerləşən «Knightsbridge» kompleksində yaşayış binaları, biznes mərkəzi və məktəb layihələndirilib. Hazırda bu kompleksdə inşaat işləri davam etdirilir və artıq buradakı ilk binanın tikintisi başa çatmaq üzrədir. Binanın fərqli memarlıq üslubu və landşaft dizaynı Nobel prospektinə xüsusi yaraşıq verir.*

*Dövlət başçısına burada və digər məhəllələrdə nəzərdə tutulmuş orta məktəb layihələri və onlar üçün ayrılmış ərazilər barədə də məlumat verildi. Nobel prospekti boyunca tikiləcək və layihənin işgüzar kvartalı kimi nəzərdə tutulan fərqli memarlıq üslubuna malik binalar dünya səviyyəli tanınmış UN Studio memarlıq bürosu tərəfindən işlənilib. Binaların mərkəzində yerləşəcək Zaman Meydanı, «Knightsbridge» kompleksi və Nizami parkı istiqamətində metro çıxışları bu mərkəzin şəhərin digər rayonları ilə nəqliyyat bağlantısını təmin edəcək. Burada inşa ediləcək metro çıxışları eyni zamanda, Nobel prospektinin şimal və cənub hissələrini birləşdirən piyada keçidini də təmin edəcəkdir. Prospektin üzərindən salınacaq yüksək səviyyəli piyada körpüsü isə Bakı «Ağ şəhər»in şimalı ilə cənubunu birləşdirəcək və prospektin yeni rəmzinə çevriləcəkdir. Uzunluğu 237 metr olan körpü cənubda Sahilyanı kvartalda yerləşəcək ticarət mərkəzinə və şimalda Fəvvarələr Meydanından keçərək, Babək prospektinə qədər uzanacaqdır. Belə ki, piyadalar şimalda yerləşən Babək prospektindən Mərkəzi Park rayonu, Fəvvarələr Meydanı və körpü vasitəsilə «Ağ şəhər» bulvarına qədər 2 kilometrlik piyada gəzinti xiyabanından istifadə edəcəklər. Nobel prospekti boyunca eni 20 metrədək olan gəzinti və yaşıllıq zonası da mühüm əhəmiyyət kəsb edəcək və piyadaların rahatlığını təmin edəcəkdir. Bakı «Ağ şəhər»in*

*paytaxtın yol-nəqliyyat şəbəkəsinə inteqrasiyası, layihənin qərbində yerləşən mövcud yaşayış massivləri və yol şəbəkəsi ilə uzlaşması, eləcə də müvafiq yolların şərq istiqamətində davam etdirilməsi və Bakı şəhərinin əsas nəqliyyat arteriyalarından sayılan Nobel, Babək və Heydər Əliyev prospektlərini və gələcəkdə yeni Bulvar yolunu birləşdirən 65 metr enində əlaqələndirici prospektin salınması bu ərazilərin dayanıqlı inkişafını təmin edəcəkdir.*

*Bakı «Ağ şəhər»də ötən müddətdə həyata keçirilən işlər və növbəti illərdə icrası nəzərdə tutulan tədbirlərlə tanış olan Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ MAKSİM OREŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Maksim Oreşkin Prezident İlham Əliyevə Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını və ən xoş arzularını çatdırdı. Qonaq dövlətimizin başçısını ad günü münasibətilə təbrik edərək, ona Azərbaycan xalqının rifahı naminə fəaliyyətində uğurlar arzuladı. Rusiyalı nazir Bakıda gedən inkişaf proseslərinin onlarda çox xoş təəssürat yaratdığını bildirdi.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə salamlarını və ən xoş arzularını çatdırmağı xahiş edən dövlətimizin başçısı dünən Rusiya Prezidenti ilə telefon danışığını məmnunluqla xatırlatdı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, iqtisadi əməkdaşlığımızın daha da genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması ilə bağlı əlavə tədbirlərin görülməsinin vacibliyini qeyd etdi, Rusiyaya Azərbaycan ixracatının artmasından məmnunluğunu bildirdi. Dövlət başçısı Maksim Oreşkinin səfərinin ölkələrimizin ixrac və idxal imkanlarının genişlənməsi məsələsinin nəzərdən keçirilməsi üçün yaxşı imkan yaratdığını diqqətə çatdırdı.*

*Rusiya Federasiyasının İqtisadi İnkişaf naziri Maksim Oreşkin Azərbaycandan Rusiyaya kənd təsərrüfatı məhsullarının*

*ixracının 60 faiz artdığını məmnunluqla qeyd etdi. Hələ sovetlər vaxtından Rusiya istehlakçılarının Azərbaycandan keyfiyyətli kənd təsərrüfatı məhsulları aldığını deyən Maksim Oreşkin, bu artımın rusiyalılar tərəfindən yaxşı xəbər kimi qəbul edildiyini vurğuladı. O, Rusiya tərəfinin Azərbaycanın kənd təsərrüfatı məhsulları istehsal edən daha 14 müəssisəsinin Rusiya bazarlarına çıxması barədə qərar qəbul etdiyini bildirdi.*

*Prezident İlham Əliyev bununla bağlı minnətdarlığını ifadə etdi.*

*Görüşdə Şimal–Cənub nəqliyyat dəhlizinin hər iki ölkə üçün əhəmiyyəti vurğulandı, ölkələrimizin ticarət əlaqələrində dinamik artımın olduğu qeyd edildi, qarşılıqlı investisiya, turizm, tranzit daşımaları sahəsində əməkdaşlıq imkanları müzakirə olundu.*

## DÜNYA AZƏRBAYCANLILARINA

Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə «Əsrin müqaviləsi»nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı–Tbilisi–Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal–Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının

yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə «İslam həmrəyliyi ili» elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 dekabr 2017-ci il*

## XALQ ARTİSTİ FƏRHAD BƏDƏLBƏYLİYƏ «İSTİQLAL» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*25 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 25-də Xalq artisti, görkəmli pianoçu Fərhad Bədəlbəyliyə «İstiqlal» ordenini təqdim etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Fərhad müəllim, mən sizi qarşıdan gələn yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, yeni uğurlar arzulayıram. Siz uzun illərdir ki, xalqımızı sənətinizlə sevindirirsiniz, həm peşəkar musiqiçi, həm gözəl bəstəkar kimi, Azərbaycan musiqi mədəniyyətinə çox böyük töhfə verirsiniz. Siz gənc yaşlarınızdan dünyada da Azərbaycanı ləyaqətlə təmsil edirsiniz, Azərbaycan musiqi sənətini təbliğ edirsiniz. Bildiyimə görə, hələ 50 il bundan əvvəl beynəlxalq müsabiqələrdə laureat adına layiq görülmüsünüz və beləliklə, öz istedadınızı bütün dünyaya nümayiş etdirmisiniz.

Siz həm bəstəkar, həm peşəkar musiqiçi kimi, dünya miqyasında öz layiqli yerinizi tuta bilmisiniz. Azərbaycan xalqı sizi sevir və sizi yüksək qiymətləndirir. Siz gənc kadrların hazırlanmasında çox böyük iş görürsünüz. Bakı Musiqi Akademiyasının rektoru kimi, istedadlı gənc kadrların hazırlanmasında sizin böyük əməyiniz vardır. Qəbələ Beynəlxalq Musiqi Festivalının bədii rəhbəri kimi, demək olar ki, bu festivalın dünya miqyaslı mədəni tədbirə çevrilməsində sizin xüsusi rolunuz vardır. Şadam ki, bu gün Azərbaycan bütün istiqamətlər üzrə beynəlxalq tədbirlərin keçirilməsində öz töhfəsini verir və ölkəmizdə həm siyasi, həm iqtisadi, həm də idman və mədəni tədbirlər yüksək səviyyədə təşkil olunur.

Ulu öndər Heydər Əliyev də sizin fəaliyyətinizə həmişə çox böyük diqqət və qayğı göstərirdi, əməyinizi, sənətinizi yüksək qiymətləndirirdi, sizi bir insan kimi, bir gənc kimi də çox sevirdi. Siz bunu yaxşı bilirsiniz, mən də yaxşı bilirəm. Biz bir-birimizi çoxdan tanıyırıq və mən sizi çox gözəl insan kimi tanıyıram. Nəinki görkəmli mədəniyyət xadimi, həm də vətənpərvər, prinsipial, xeyirxah insan kimi, siz Azərbaycan xalqının sevgisini qazanmısınız. Mən çox şadam ki, uzun illər biz sizinlə yaxın münasibətdə olmuşuq və bu gün də bu belədir. Hələ sovet vaxtında siz gənc ifaçı kimi, SSRİ Xalq artisti adına layiq görülmüsünüz. O da sizin istedadınızın sovet məkanı tərəfindən yüksək qiymətləndirilməsi demək idi. Bilirəm ki, müstəqillik dövründə sizin çoxsaylı xarici qastrollarınız olub və beynəlxalq tədbirlərdə Azərbaycanı həmişə yüksək səviyyədə, ləyaqətlə təmsil edirsiniz. Azərbaycan dövləti də sizi yüksək qiymətləndirir, sizə dövlət mükafatları verilir. Bu gün də siz yubileyiniz ərəfəsində Azərbaycan dövlətinin yüksək mükafatı – «İstiqlal» ordeni ilə təltif edilirsiniz və mən istərdim ki, bu ordeni sizə təqdim edim.

*Dövlət başçısı İlham Əliyev «İstiqlal» ordenini Fərhad Bədəlbəyliyə təqdim etdi.*

**Fərhad Bədəlbəyli:** Çox sağ olun, cənab Prezident! Əlbəttə, bu çox sevindirici haldır. Bu gün axşam mənim konsertimdir, gündüz isə cənab Prezident mənə belə yüksək mükafatı təqdim edir.

İstiqlal, ümumiyyətlə, bütün Azərbaycanın neçə nəslinin böyük bir arzusu olub. Azad Azərbaycanın Prezidenti mənə bu ordeni verir. Burada böyük bir məna vardır. Bakı Musiqi Akademiyasında heç vaxt unutmurlar ki, bu ali məktəbə Üzeyir bəyin adını Siz qaytarmısınız. Bütün ziyalılar bunu gözləyirdilər və Siz bunu etdiniz. Siz düz buyurdunuz ki, bizim çoxlu cavan ifaçılarımız neçə-neçə beynəlxalq müsabiqələrdə qalib olurlar, idman öz yerində, amma biz də beynəlxalq müsabiqələrdə, konsertlərdə, neçə-neçə tədbirlərdə bayrağımızı qaldırırıq.

Əlbəttə, bu uğurlarda Heydər Əliyev Fondunun, Mehriban xanımın xüsusi rolu vardır. Bu gün konsertdə dirijorluq edəcək Fuad İbrahimov 9 il Kölndə oxuyub, Fond ona kömək edib. İndi o, gözəl dirijordur. Yəni biz bu diqqəti həmişə hiss edirik. Vaxtilə Siz bizə pul ayırmışdınız, biz gözəl royallar almışıq, indi gözəl təmirimiz vardır. Yəni o diqqəti biz həmişə hiss edirik.

Bu da çox vacib məsələdir. Əlbəttə, mən Dağlıq Qarabağın azərbaycanlı icmasının nümayəndəsi kimi, Sizə dərin təşəkkürümü bildirirəm. Çünki Siz harada olursunuzsa – Birləşmiş Millətlər Təşkilatında, Avropa Şurasında, Brüsseldə, Parisdə – hər yerdə, hər çıxışınızda Qarabağ məsələsini qaldırırsınız. Biz bilirik ki, gec-tez hamımız Sizinlə birlikdə Şuşaya qayıdacağıq. Biz Sizə dərin minnətdarlığımızı bildiririk. Çünki biz hiss edirik ki, bu mövzu Sizin diqqət mərkəzinizdədir. Əlbəttə, biz çalışırıq ki, Azərbaycanın adı hər yerdə ən yüksək səviyyədə səslənsin. Birinci Avropa oyunlarında, İslam Həmrəyliyi oyunlarında, olimpiadalarda bizim idmançılarımız qalib olanda, bayrağımız yüksələndə biz hamımız sevincdən az qalırdı ağlayaq. Bir neçə məzunumuz Böyük Teatrda solistdir – Elçin Əzizov, Dinarə Əliyeva. İndi gənclərimizin bir neçəsi La Skalada çıxış edir, yəni işləyirik.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, sizə yeni uğurlar arzulayıram.

## RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*26 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Rusiya Federasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısını Rusiya Federasiyasının yüksəkvəzifəli şəxsləri qarşıladılar.*

## MDB DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ GÖRÜŞÜNDƏ İŞTİRAK

*Moskva*

*26 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 26-da Moskvada keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak etmişdir.*

*Prezident İlham Əliyev MDB dövlət başçılarının Moskvada keçirilən qeyri-rəsmi görüşündə iştirak etmək üçün Novo-Oqaryovo dövlət iqamətgahına gəldi.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi salamladı.*

*Sonra MDB dövlət başçıları birgə foto çəkdirdilər.*

*Daha sonra MDB dövlət başçılarının qeyri-rəsmi görüşü oldu.*

*Rusiya Prezidenti Vladimir Putin bu görüşün MDB çərçivəsində il ərzində görülən işlərə yekun vurmaq, perspektivdə olan planlar haqqında danışmaq, regional və beynəlxalq əhəmiyyətli aktual məsələləri müzakirə etmək baxımından gözəl imkan olduğunu bildirdi. Vladimir Putin MDB-yə sədrliyi dövründə Rusiyanın səylərinin qurumun beynəlxalq nüfuzunun möhkəmləndirilməsinə, birlik orqanlarının işinin səmərəliliyinə yönəldildiyini diqqətə çatdırdı.*

**Vladimir Putin:** Əsas diqqət malların, xidmətlərin daşınmasında maneələrin aradan qaldırılmasına və gömrük prosedurlarının sadələşdirilməsinə yönəlmişdir. Qeyd edim ki, cari ildə MDB ölkələri arasında əmtəə dövriyyəsində böyük artım qeydə alınıb. Bu ilin 10 ayının yekunlarına görə, bu rəqəm dörd-

dəbir dəfədən çox – 25,7 faiz artıb və demək olar ki, 117 milyard dollara çatıbdır. Məlumat üçün deyim ki, bütün 2016-cı il ərzində bu göstərici 94 milyard dollar təşkil edib. Təxminən həmin səviyyədə də, yəni 24 faiz MDB-nin üçüncü ölkələrlə mal dövriyyəsi artıb. Birliyin hüquq-müqavilə bazası möhkəmlənib. İnnovasiyalar, nüvə energetikası, nəqliyyat təhlükəsizliyi sahələrində sazişlər qüvvəyə minib. Saxta məhsulların yayılmasına qarşı, əqli mülkiyyətin qorunması ilə bağlı sənədlər qəbul olunub. Vacib bir saziş – MDB çərçivəsində xidmətlərin azad ticarəti üzrə saziş üzərində iş tamamlanmaqdadır. Birlik ölkələri terrorçuluq, transsərhəd cinayətlər, narkotrafikə qarşı mübarizə sahəsində qarşılıqlı fəaliyyəti gücləndirirlər. May ayında Tacikistanda MDB xüsusi xidmətlərinin «Düşənbə – antiterror–2017» mövzusunda irimiqyaslı təlimləri keçirilib. Korrupsiyaya, cinayət yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılmasına qarşı mübarizə üzrə əməkdaşlığın konsepsiyaları işlənib hazırlanıb və bəyənilibdir.

*Vladimir Putin humanitar sahədə əməkdaşlığın möhkəmləndiyini, gənclər siyasəti, təhsil, səhiyyə, mədəniyyət, idman və turizm sahələrində uğurlu layihələrin reallaşdırıldığını bildirdi. Rusiya Prezidenti vurğuladı ki, MDB dövlətləri dünyada beynəlxalq hüquq norma və prinsipləri əsasında ədalətli qlobal dünya nizamının qurulmasını dəstəkləyir və bundan sonra da ölkələrin sabitliyinin və təhlükəsizliyinin möhkəmləndirilməsi naminə birgə çalışacaqlar. Vladimir Putin əmin olduğunu bildirdi ki, MDB çərçivəsində müxtəlif sahələrdə qarşılıqlı fəaliyyətin daha da dərinləşdirilməsi ölkələrimizin, xalqlarımızın əsas maraqlarına cavab verir. Rusiya Prezidenti çıxışının sonunda yanvarın 1-dən MDB-yə sədrliyin Tacikistana keçdiyini bəyan etdi.*

*Qazaxıstan Prezidenti Nursultan Nazarbayev MDB ölkələrində sülh və əmin-amanlığın hökm sürdüyünü müsbət hal kimi dəyərləndirdi. O, 2017-ci ilin ağır olduğunu, Rusiyaya qarşı qeyri-qanuni sanksiyaların davam etdiyini, lakin bu ölkənin Suriyada müvəffəqiyyət qazandığını bildirdi.*

**N u r s u l t a n  N a z a r b a y e v:** Siz Suriya hökumətinin xahişi ilə «İraq Şam İslam Dövləti» qruplaşmasının dəf olunmasında iştirak etmək məcburiyyətində qaldınız və bu prosesi uğurla başa çatdırdınız. Bu Sizin şəxsi rəhbərliyiniz altında həyata keçirildi. Mən Sizi səmimi-qəlbdən təbrik edirəm. Bu, rusiyalılar üçün, bizim hamımız üçün, bütün dünya üçün çox vacib idi. Siz bu haqda orada – yerindəcə, hərbi bazada olanda danışmışdınız.

Vacib hadisə həm də ondan ibarətdir ki, Özbəkistanda yeni Prezident Şavkat Mirziyoyev bir ildir çalışır. Sooronbay Jeenbekov ilk dəfədir ki, prezident qismində burada iştirak edir. Bu bizim hamımız üçün böyük hadisədir. Xoş haldır ki, 2017-ci ildə MDB ölkələrində sülh, əmin-amanlıq hökm sürürdü, insanlar sabit şəraitdə yaşayıb işləyir, övladlarını böyüdürdülər və gələcəklərinə əmin idilər. Sizin qeyd etdiyiniz kimi, dünyada iqtisadiyyatın konyunkturu dəyişilir, amma ölkələrimiz arasında ticarət dövriyyəsi dörddəbir dəfədən çox olub. İkitərəfli ticarətdə isə daha çox artım vardır. Ancaq dünyada və bizdə ağır meyillər mövcuddur, biz sakitləşməməliyik, gələn il çox vacib ildir, Rusiyada seçkilər olacaqdır. Vladimir Vladimiroviç, biz hamımız yekdilliklə Sizə uğurlar arzulayırıq. Bilirik ki, Rusiya xalqı Sizin rəhbərliyinizə məhz bu ağır dövrdə böyük dəyər verir.

*Belarus Prezidenti Aleksandr Lukaşenko MDB ölkələri arasında qurulan iqtisadi əlaqələrin genişləndirilməsinin böyük uğur olduğunu deyərək bildirdi ki, bu, son illərdə görülən işlərin nəticəsidir. Aleksandr Lukaşenko Rusiya ilə bağlı bir çox məsələlərin dərin narahatlıq yaratdığını vurğuladı.*

**A l e k s a n d r  L u k a ş e n k o:** Bu, Cənubi Koreyada keçiriləcək Olimpiada ilə bağlıdır. Siz bizim mövqemizi bilirsiniz. Burada iştirak edən dövlət başçıları da bizimlə həmrəydir. Biz Rusiya idmançılarına və Rusiya Federasiyasına belə münasibəti qətiyyətlə qəbul etmirik. Biz sizi tam dəstəkləyirik. Bir misal gətirim: Belarus idmançıları, xüsusən də bizim avarçəkənlər Rio de Janeyro Olimpiadasına hazırlaşırdılar. Bu, Belarus idmanının güclü istiqamətidir, ancaq bizi kənarlaşdırdılar və sanksiyalar

tətbiq etdilər. 2 və ya 3 aydan sonra biz məhkəmədə haqqımızı əldə etdik. Məhkəmə bizi dəstəklədi, lakin vaxt keçmişdi. Biz medalları, ölkənin imicini itirdik, biz bunların hamısından keçmişik. Siz bilməlisiniz ki, bu mübarizədə biz sizi dəstəkləyirik.

Suriya ilə bağlı məsələyə gəlincə, deməliyəm ki, Rusiya Federasiyası məsələyə qarışmasaydı, düşünürəm, bu dövlət, ümumiyyətlə, mövcud olmayacaqdı. Orada görüləcək çox işlər var, lakin Rusiyanın oradakı sağlam qüvvələrinin birləşdirilməsi, bu dövlətin möhkəmləndirilməsi və Suriyada Milli Dialoq Konqresinin çağırılması ilə bağlı təşəbbüs bu ölkədə mövcud olan problemlərin həllinə Sizin dövlətinizin böyük töhfələridir. Biz sizin Qüdslə bağlı mövqenizlə həmrəyik. Mən buna qiymət verməkdə çətinlik çəkirəm, çünki səmimi desəm, Donald Trampın Qüdslə bağlı bu qərarını başa düşə bilmirəm. Bu balaca torpaq parçasında çətin zəhmət hesabına əldə olunmuş sülhü dağıtmaq olmaz. Bu, əsas məsələdir. BMT-nin qərarlarına riayət etmək lazımdır. Burada bizim baxışlarımızın həmrəyliyi üst-üstə düşür. Onu da deyim, burada iştirak edən Orta Asiya ölkələrinin liderləri xəbərdarlıq etdilər ki, Yaxın Şərqdə sıxışdırılan İŞİD terrorçuları Əfqanıstanda peyda olacaqlar. Siz və Rusiyanın Müdafiə Nazirliyi bu yaxınlarda bəyan etmişdiniz ki, bu qüvvələr orada cəmləşir və aydındır ki, nə məqsədlə. Əfqanıstanda bu qarşıdurmanın baş verməsinə yol vermək olmaz, çünki bu, Suriyadan da mürəkkəb olacaqdır.

*Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov görüşün yüksək səviyyədə təşkilinə görə Rusiya Prezidenti Vladimir Putinə minnətdarlığını bildirdi.*

**Sooronbay Jeenbekov:** Rusiya tərəfini MDB-yə sədrliyin uğurlu və səmərəli keçməsi, qarşıya qoyulan məqsəd və vəzifələrə nail olunması münasibətilə təbrik edirəm. Bununla yanaşı, Tacikistan Respublikasına MDB orqanlarında qarşıdakı sədrlikdə uğurlar arzulamaq istəyirəm. Əminəm ki, Tacikistanın

sədrliyi MDB çərçivəsində əməkdaşlığın gələcək inkişafına öz layiqli töhfəsini verəcəkdir.

Hörmətli dövlət başçıları! Hesab edirəm ki, Birlik mövcudluğu dövründə ölkələrimiz arasında səmərəli və hərtərəfli əməkdaşlıq üçün bütün lazımi şəraiti yaradıb. Son 2 ildə Birliyin fəaliyyətinin və onun sahə orqanlarının optimallaşdırılması istiqamətində real addımlar atılıb. Düşünürəm ki, həmin proses daimi və fasiləsiz olmalıdır. Çünki belə yanaşma konkret nəticənin əldə olunmasına istiqamətlənən MDB-nin işini daha məzmunlu edəcəkdir.

Hörmətli həmkarlar, bu gün beynəlxalq arenadakı vəziyyət sürətlə dəyişir, yaranan çağırış və təhlükəyə vaxtında reaksiya vermək üçün biz səylərimizi birləşdirməliyik. Yaxın Şərqdəki vəziyyət beynəlxalq cinayət dəstələri tərəfindən terror təhlükəsinin yayılması baxımından hələ də əsaslı təhlükə doğurur. MDB-nin müvafiq qurumları beynəlxalq terror və dini ekstremist təşkilatların fəaliyyətinin maliyyələşdirilməsi və onların muzdlularının dövlət sərhədindən keçirilməsi üçün istifadə edilən narkotiklərin, silahın, döyüş sursatı qaçaqmalçılığının və qanunsuz miqrasiyanın qarşısının alınması üçün lazımi preventiv tədbirlər görməlidir. Mərkəzi Asiyada İŞİD və digər buna oxşar radikal qruplaşmaların ideologiyalarının yayılması güclənir, bizim ölkələrin vətəndaşlarının onların sıralarına cəlb olunması üçün fəal təbliğat aparılır. Hesab edirəm ki, sərhəd təhlükəsizliyi sahəsində MDB ölkələrinin Kollektiv Təhlükəsizlik üzrə Müqavilə Təşkilatında fəal qarşılıqlı fəaliyyəti olmadan kollektiv təhlükəsizliyi, dövlət sərhədlərinin etibarlı mühafizəsini tam təmin etmək, müasir çağırışların və təhlükələrin əksəriyyətinə qarşı durmaq mümkün deyil. Fürsətdən istifadə edərək, Suriyada hərbi əməliyyatın uğurla yekunlaşması, İŞİD terror qruplaşmasının və digər cinayətkar dəstələrin məhv edilməsi münasibətilə Vladimir Vladimiroviçi təbrik edirəm. Əminliklə deyə bilərəm ki, Rusiya tərəfinin həm hərbi, həm də siyasi-diplomatik sahədə səyləri Suriya xalqında dinc həyata ümid yaradıbdır.

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli Vladimir Vladimiroviç, ilk növbədə, dəvətə görə təşəkkürümü bildirmək istərdim. Rusiyada, Moskvada olmaq həmişə çox xoşdur. Sizi MDB-yə sədrliyin uğurla başa çatması münasibətilə təbrik edirəm. Sizin qeyd etdiyiniz kimi, bu il ərzində MDB məkanında inteqrasiya prosesləri ilə bağlı xeyli iş görülüb. Əmtəə dövriyyəsinin artması da təkcə bizim iqtisadiyyatlarımızın bərpasının, iqtisadi vəziyyətin sabitləşməsinin deyil, həm də dost ticari-iqtisadi əlaqələrin gələcəkdə möhkəmləndirilməsinin zəruriliyinin göstəricisidir. Biznes həmişə baş verən proseslərə çox dəqiq reaksiya verir və qarşılıqlı investisiyalar, əmtəə dövriyyəsinin artması ölkələr arasında münasibətlərdən heç də az asılı deyil. MDB məkanında müşahidə etdiyimiz müsbət meyillər, şübhəsiz, ticari-iqtisadi sahədə müşahidə etdiyimiz fəallığa təkan veribdir. Rusiya MDB-də birləşdirici rol oynayır. Sizin rəhbərliyiniz altında Rusiya sosial-iqtisadi inkişafda böyük uğurlar qazanıb. Rusiya beynəlxalq arenada böyük nüfuza malikdir və bu gün beynəlxalq məsələlərdə aparıcı rollardan birini oynayır. Sizin rəhbərliyiniz altında sabitlik təmin edilib. Bu sabitlik ictimai razılığa əsaslanır. Rusiya xalqının qarşıdakı prezident seçkilərində düzgün seçim edəcəyi, fikrimcə, Azərbaycanda heç kəsdə şübhə doğurmur. Biz çox yaxşı bilirik ki, Rusiya–Azərbaycan ikitərəfli münasibətlərinin uğurlu inkişafı Sizin adınızla bağlıdır. Bu gün bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə çatıb və çox müsbət artım dinamikasına malikdir. Bu münasibətləri hər iki tərəf məhz belə səciyyələndirir.

İctimai-siyasi sabitlik olmadan uğura nail olmaq mümkün deyil. Biz son illərdə kifayət qədər qanlı hadisələrin, toqquşmaların, ədavətin, dinlərarası qarşıdurmaların, konfessiyalararası ziddiyyətlərin, etnik münaqişələrin şahidi olmuşuq. Buna görə də mövcud beynəlxalq mənzərə bir daha Sizin həyata

keçirdiyiniz kursun doğruluğunu göstərir. Bu gün Rusiya sabitləşdirici amildir. Bir daha demək istəyirəm – yaxın qonşu, dost və tərəfdaş kimi, biz təbii ki, Rusiyada baş verən prosesləri çox maraqla izləyirik. Təəssüf ki, bir çox hallarda beynəlxalq hüququn normalarına riayət olunmur, bəzən isə kobud şəkildə pozulur. Bununla da dünyanın nizamı pozulur. O dünya nizamı ki, İkinci dünya müharibəsi qurtardıqdan sonra yaradılmışdı. Sizin beynəlxalq hüququn normalarına şəxsi sədaqətiniz beynəlxalq hüququn normalarının pozulmasından zərər çəkən bütün ölkələrə ədalətin bərpa olunacağına böyük ümid verir.

* * *

*Moldova Respublikasının Prezidenti İqor Dodon Moldova vətəndaşlarının əksəriyyətinin Rusiya Federasiyası ilə dostluğun və Moldovanın MDB tərkibində qalmasının, həmçinin bəzi inteqrasiya layihələri üzrə irəliyə getməyin tərəfdarı olduğunu diqqətə çatdırdı.*

**İ q o r D o d o n:** Bu il Moldovanın bütün MDB ölkələri ilə ticarətində artım müşahidə olunur. 2017-ci il heç də asan deyildi, Moldova Avropa İttifaqı ilə Memorandum imzaladı. Bu addım ilk dəfə idi ki, atılırdı. Bizim çoxtərəfli münasibətlərimizdə də sadə il deyildi. Çünki Moldova Prezidenti MDB çərçivəsində fəal iştirak edir, amma təəssüflər olsun ki, ilin ikinci yarısında hökumət səviyyəsində iştirakla bağlı müəyyən ehtiyatlar var idi. Amma mən sizi əmin etmək istəyirəm ki, Moldova xalqı başqa cür düşünür. Hələ ki, parlament çoxluğunun düşündüyü kimi fikirləşmir.

Vladimir Vladimiroviç, Rusiya Federasiyasında seçkilər olacaq. Ümidvaram ki, hər şey sabit keçəcək. İlin ikinci yarısında Sizə futbol üzrə dünya çempionatının keçirilməsində uğurlar arzulayıram. Bu çox vacib hadisədir. Bilirəm ki, siz çox ciddi hazırlaşırsınız. İnanın, biz hamımız çox diqqətlə izləyirik və

istərdik ki, sizdə ondan əvvəlki Soçi Olimpiadasında olduğu kimi, hər şey gözəl alınsın.

2018-ci il Moldova üçün də asan il olmayacaqdır. Bizdə də ilin ikinci yarısında seçkilər olacaq. Əminəm ki, 2018-ci il bizim MDB çərçivəsində də qarşılıqlı fəaliyyətin yeni səviyyəsinə çıxmaq ilimiz olacaq. Rusiya Federasiyası ilə ikitərəfli səviyyədə əldə etdiyimiz nəticələrə görə Sizə təşəkkürümü bildirmək istəyirəm.

*Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev keçirilən görüşün əhəmiyyətini qeyd edərək, ölkəsinin MDB ölkələri ilə bütün sahələrdə olduqca sıx əməkdaşlıq etdiyini vurğuladı. Bunun nəticəsi olaraq, Birlik ölkələri ilə əmtəə dövriyyəsinin artdığını diqqətə çatdırdı. 2017-ci ildə MDB çərçivəsində üzv ölkələr arasında sıx əməkdaşlığın qurulduğunu diqqətə çatdıran Şavkat Mirziyoyev bu görüşün və aparılan müzakirələrin gələcək əməkdaşlığa yeni təkan verəcəyinə əminliyini ifadə etdi.*

**Şavkat Mirziyoyev:** Bu il ilk dəfə MDB hökumət başçılarının iclası Özbəkistanda keçirildi. Biz təşəbbüs irəli sürmüşük ki, 2020-ci ildə MDB-nin iclası Daşkənddə keçirilsin və biz buna hazırlaşırıq. Əlbəttə, Rusiyanın MDB-dəki aparıcı rolu, şübhəsiz ki, bizim hamımızı birləşdirir.

Vladimir Vladimiroviç, Sizin rəhbərliyiniz altında Rusiya iqtisadiyyatı öz layiqli yerinə yüksəlib. Bilirəm ki, bu illər Rusiya və şəxsən Sizin üçün ağır illər olub. Ancaq bu sanksiyalara baxmayaraq, Rusiya iqtisadiyyatı layiqincə irəliləyir və bu bizi də sevindirir. Rusiyanın hüdudları bizi birləşdirir. Rusiya ilə ticarət dövriyyəsi və uğurlar bizi də möhkəmləndirir. Düşünürəm ki, bugünkü görüş, bugünkü ünsiyyət gələcəyə ciddi təkan verəcək. Vladimir Vladimiroviç, bu il seçki ilidir, Rusiyanın taleyi etibarlı əllərdə olmalıdır. Əminəm ki, Rusiyanın müdrik xalqı layiq olanı seçəcəkdir.

Suriyada əldə edilənlər Rusiyanın qəhrəman mərdliyi idi. Suriyada baş verənlərlə və bu bəla ilə heç kim maraqlanmırdı. Biz Əfqanıstanın qonşusu kimi, bunu çox ciddi hiss edirdik və

bunu çox gözəl anlayırıq. Düşünürəm ki, gələn il çox ağır il olacaq və zənnimcə, biz birlikdə fikir mübadiləsi apararaq, təhlükəsizlik sahəsində mürəkkəb məsələləri həll edəcəyik, xüsusən də Mərkəzi Asiya regionunda. Biz orada və Əfqanıstanda olan ağır vəziyyəti çox gözəl anlayırıq.

*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon bu il dünyada bir çox narahatedici hadisələrin baş verdiyini, müxtəlif ölkələrdə terrorizmin, ekstremizmin fəallaşdığını diqqətə çatdırdı, Yaxın Şərqdə, Koreya yarımadasındakı vəziyyəti qeyd edərək, Əfqanıstanda baş verən proseslərə xüsusi diqqət yetirdi.*

**Emoməli Rəhmon:** Əfqanıstandakı vəziyyət əvvəlki kimi, beynəlxalq və regional gündəliyin əsas məsələlərindən biri olaraq qalır. Əfqanıstanda, xüsusilə ölkənin şimalında İŞİD terror qrupunun və bizə məlum olan digər radikal qruplaşmaların fəallığı artır. Həmin kontekstdə beynəlxalq terror qruplaşması qüvvələrinin bu ölkəyə yerdəyişməsi məsələsi vacib olaraq qalır. Xüsusi təhlükə ondan ibarətdir ki, bu qrupların tərkibində Birlik ölkələrindən olan immiqrantlar da vardır. Bununla yanaşı, bu ölkədə narkotiklərin qanunsuz istehsalı və ixracının həcmi də artır. Tacikistan–Əfqanıstan sərhədi xəttində, demək olar ki, hər gün terrorçular və narkotik satıcıları ilə toqquşmalar baş verir. Bizim sərhədçilər arasında itkilərin sayı onlarladır. Əfqanıstanda hərbi-siyasi qarşıdurma meyili də güclənir. NATO-nun Əfqanıstandakı çoxillik missiyası arzuolunan nəticələr vermədi. Biz həmçinin o faktı da nəzərə almalıyıq ki, gələn il əfqan cəmiyyəti siyasi inkişafın çox həssas fazasına daxil olur. Mən gələn il keçiriləcək parlament seçkilərini və bir ildən sonra keçirilməli olan prezident seçkilərini nəzərdə tuturam. Bütün bu hadisələr bizdən adekvat reaksiya və əlaqələndirici hərəkətlər tələb edir.

*MDB ölkələrində vəziyyətin ümumilikdə sabit qaldığını bildirən Tacikistan Prezidenti bununla belə, sadaladığı amillərin bu və ya digər mənada Birlik ölkələrindəki vəziyyətin inkişafına da təsir göstərdiyini diqqətə çatdırdı və qeyd etdi ki, bütün bunları nəzərə alaraq, Tacikistanın MDB-yə sədrliyi dövründə hər-*

*bi-texniki əməkdaşlığın möhkəmləndirilməsi prioritet məsələlərdən biri olaraq qalacaqdır.*

* * *

*Sonda Rusiya Prezidenti Vladimir Putinin adından MDB dövlət başçılarının şərəfinə rəsmi qəbul təşkil olundu.*

**KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB RAUL KASTRO RUSA**

Hörmətli cənab Sədr!

Kuba Respublikasının milli bayramı – Azadlıq Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Kuba xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 dekabr 2017-ci il*

**SUDAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-BƏŞİRƏ**

Hörmətli cənab Prezident!

Sudan Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Sudan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *28 dekabr 2017-ci il*

## MEHDİABAD–DİGAH–MƏMMƏDLİ AVTOMOBİL YOLUNUN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2017-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 29-da Abşeron rayonunda Mehdiabad–Digah–Məmmədli avtomobil yolunun əsaslı təmirdən sonra açılışında iştirak etmişdir.*

*Dövlət başçısına görülən işlərlə bağlı ətraflı məlumat verildi.*

*Qeyd edildi ki, Abşeron rayonunda 21 min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Mehdiabad–Digah–Məmmədli avtomobil yolunun tikintisi üçün Prezident İlham Əliyevin 2017-ci il 9 iyun tarixli Sərəncamına əsasən 2,5 milyon manat vəsait ayrılıb. Tikinti işləri qısa müddətdə və yüksək səviyyədə həyata keçirilib. Yolun uzunluğu 9 kilometrə yaxındır. Ümumilikdə 12 metr enində yeni yol yatağı tikilib. Tikintidən sonra yolun hərəkət hissəsi 7-8 metrə qədər genişləndirilibdir.*

*Hər bir layihənin reallaşdırılması zamanı yollarda piyadaların təhlükəsiz hərəkəti də diqqətdə saxlanılan əsas məsələlərdən biridir. Mehdiabad–Digah–Məmmədli avtomobil yolunda da yeni piyada səkiləri tikilib. Yenidən qurulma işləri çərçivəsində avtomobil yolunun alt hissəsindən suların ötürülməsi üçün nəzərdə tutulan mövcud boruların və keçidlərin hamısı bərpa olunub. Tikinti işləri zamanı yolboyu yeni asfalt-beton örtüyü döşənib. Mehdiabad–Digah–Məmmədli avtomobil yolunun yenidən qurulması nəticəsində nəqliyyat vasitələrinin və əhalinin gediş-gəlişi xeyli asanlaşıb, onların tədarük etdikləri kənd təsərrüfatı məhsullarını və meyvə-tərəvəzi qısa*

*vaxt ərzində istədikləri ünvanlara çatdırmalarına imkan yaranıbdır.*

*Dövlət başçısına Mehdiabad–Fatmayı–Görədil avtomobil yolunun tikintisi haqqında da məlumat verildi. Bildirildi ki, 16 min nəfər əhalinin yaşadığı Mehdiabad, Fatmayı, Görədil yaşayış məntəqələrini birləşdirən avtomobil yolunun uzunluğu 6,5 kilometrdir. Prezident İlham Əliyevin sərəncamına əsasən bu yolun tikintisinə 1,8 milyon manat vəsait ayrılıbdır.*

*Avtonəqliyyat vasitələrinin rahat və maneəsiz şəkildə hərəkətini təmin etmək üçün paytaxt Bakıda aparılan kompleks tədbirlər çərçivəsində Azadlıq prospektinin Binəqədi rayonundan keçən hissəsi və Binəqədi şosesi yenidən qurularaq, bu ərazidə müasir yol infrastrukturu yaradılıb. Azadlıq prospektinin Ziya Bünyadov prospektindən Biləcəri–Baksol yolunadək 3,1 kilometrlik hissəsi tamamilə yenidən qurulub. Azadlıq prospekti ilə Cəfər Xəndan küçəsinin kəsişməsində yaranan sıxlığı aradan qaldırmaq məqsədilə sərnişin avtobuslarının hərəkəti Cəfər Xəndan küçəsindən Süleyman Sani Axundov küçəsinədək olan hissədə yan yola yönəldilib və bu hissədə 8 müasir avtobus dayanacağı quraşdırılıb. Azadlıq prospektində piyadaların yolu təhlükəsiz keçmələri üçün Süleyman Sani Axundov küçəsi ilə kəsişmədə və Rəsulzadə qəsəbəsinin mərkəzində 2 yerüstü piyada keçidi tikilib. Azadlıq prospektinin yenidən qurulması ilə yanaşı, bu ərazidə yerləşən və prospektə çıxan Süleyman Sani Axundov, Şövkət Məmmədova, Cəfər Xəndan, İbrahimpaşa Dadaşov küçələri də əsaslı təmir edilibdir.*

*Binəqədi şosesində yenidən qurulma işləri 2 mərhələdə aparılıb. Birinci mərhələdə yolboyu yararsız vəziyyətdə olan 2800 metr uzunluğunda kanalizasiya, 3000 metr uzunluğunda müxtəlif diametrli su xətləri «Azərsu» ASC tərəfindən yenisi ilə əvəz olunub, ətrafdakı evlərdən, sənaye və iaşə obyektlərindən yola doğru axıdılan məişət-çirkab sularının qarşısı alınıbdır. Yağış və qar sularının nizamlı axınının təmin edilməsi məqsədilə Binəqədi şosesindən Böyükşor gölünə 1100 metr uzunluğunda boru xətti*

*çəkilib. Yolun yenidən qurulma işlərinin ikinci mərhələsi də qısa müddətdə başa çatdırılıb. Belə ki, vətəndaşların yolun hər 2 kənarı ilə rahat və təhlükəsiz şəkildə hərəkətini təmin etmək üçün yeni piyada səkiləri inşa olunub, avtobusların ümumi hərəkətə maneə yaratmadan dayanacaqlara giriş-çıxışını təmin etmək məqsədilə 11 yerdə əlavə hissə tikilib və müasir avtobus dayanacaqları quraşdırılıbdır. Binəqədi şosesinin yenidən qurulması rayonun Rəsulzadə, Binəqədi, Biləcəri, Baksol qəsəbələrində yaşayan əhaliyə, həmçinin şəhərin mərkəzindən Mehdiabad, Fatmayı, Pirşağı, Digah və digər qəsəbələrə getmək istəyən nəqliyyat vasitələri sahiblərinə rahat yol infrastrukturundan istifadə etməyə imkan verəcəkdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən sosial yönümlü siyasəti hər bir vətəndaş öz şəxsi həyatında hiss edir. Bu istiqamətdə icra edilən layihələrin coğrafiyası durmadan genişlənir və bütün bunlar hər bir Azərbaycan vətəndaşının rahat yaşamasının təminatına yönəlibdir.*

*Dövlət başçısı Mehdiabad–Digah–Məmmədli avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

* * *

*Daha sonra Prezident İlham Əliyev Yanardağ Dövlət Tarix-Mədəniyyət və Təbiət Qoruğuna baxdı.*

*Qoruqdakı vəziyyətlə tanış olan dövlət başçısı burada şəraitin dözülməz olduğunu bildirdi. Qeyd etdi ki, bu qoruğa həm Azərbaycan vətəndaşları, həm də çoxsaylı turistlər gəlir və buradakı şərait ölkəmizin bugünkü inkişaf səviyyəsinə uyğun deyil.*

*Prezident İlham Əliyev aidiyyəti dövlət qurumlarına ciddi tapşırıq verdi ki, bu dözülməz vəziyyət qısa müddət ərzində aradan qaldırılsın, Azərbaycan vətəndaşları və turistlər üçün yüksək standartlara cavab verən şərait yaradılsın.*

## DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

2017-ci il arxada qalır. İlin əvvəlində qarşımıza qoyduğumuz bütün vəzifələr icra edilib, Azərbaycanda sabitlik təmin olunubdur. Sabitliyin mənbəyi xalq–iqtidar birliyidir. Dünyada gedən xoşagəlməz proseslər, qanlı toqquşmalar, müharibələr, münaqişələr göstərir ki, sabitlik olmayan yerdə inkişafdan söhbət gedə bilməz. Azərbaycan xalqı 2017-ci ildə sabitlik şəraitində yaşamışdır.

Bizim beynəlxalq əlaqələrimiz bu il daha da genişlənib. Bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı gündən-günə artır. Azərbaycan dünyada özünü ləyaqətli və etibarlı tərəfdaş kimi göstərir. Qonşu ölkələrlə əlaqələrimiz daha yüksək pilləyə qalxıbdır. Bu əlaqələr hər bir ölkə üçün olduğu kimi, bizim üçün də çox önəmlidir. Bütün qonşularımızla qarşılıqlı hörmət əsasında dostluq əlaqələrimiz regional sabitliyə müsbət təsir göstərir.

Azərbaycan bu il İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində fəal iştirak edib və islam həmrəyliyinin inkişafına, güclənməsinə öz dəyərli töhfəsini veribdir. Bildiyiniz kimi, 2017-ci il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunmuşdur və bu il ərzində həm ölkə daxilində, həm xaricdə bir çox önəmli tədbirlər keçirilmişdir. Eyni zamanda, bu il Avropa İttifaqı ilə əlaqələrimiz yeni pilləyə qalxıb, yeni saziş üzərində danışıqlar başlanıbdır. Keçən il isə Azərbaycanda «Multikulturalizm ili» elan olunmuşdu. Azərbaycan dinlərarası, mədəniyyətlərarası

dialoqun inkişafında öz dəyərli rolunu oynayır və hesab edirəm ki, dünya miqyasında bu sahədə mərkəzlərdən birinə çevrilibdir.

Mən bu il 20-dən çox xarici səfər etmişəm. Bu səfərlər çərçivəsində Azərbaycanın milli maraqlarını müdafiə etmişəm. Deyə bilərəm ki, xarici tərəfdaşlarla əlaqələrimiz bir daha göstərir ki, Azərbaycanın dünya miqyasında çox müsbət imici və reputasiyası vardır.

Xarici siyasətimizin əsas məsələsi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllidir. Bu istiqamətdə nəticələr olmasa da, hesab edirəm ki, 2017-ci ildə bizim mövqelərimiz daha da möhkəmlənib. Birinci onu qeyd etməliyəm ki, separatist rejim tərəfindən keçirilmiş qondarma «referendum» dünya ictimaiyyəti tərəfindən qəbul edilmədi. Nə qonşu ölkələr, nə Avropa İttifaqı, nə də bütün başqa ölkələr bu qondarma «referendum»u tanımadılar və beləliklə, bir daha göstərdilər ki, bütün dünya birliyi Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Bu da təbiidir. Çünki Dağlıq Qarabağ bizim əzəli, tarixi torpağımızdır. Əsrlərboyu Azərbaycan xalqı bu torpaqlarda yaşayıb, yaradıb, qurubdur. Sadəcə olaraq, mənfur qonşular tərəfindən bizim tarixi, dini abidələrimiz məhv edilib və uzun illərdir ki, bu torpaqlar işğal altındadır.

İkinci önəmli məsələ ondan ibarətdir ki, Ermənistan qeyd-şərtsiz danışıqlara qoşuldu, baxmayaraq ki, şərt qoyurdu. Aprel məğlubiyyətindən sonra Ermənistan tərəfindən irəli sürülmüş heç bir şərt Azərbaycan tərəfindən qəbul edilmədi. Danışıqlar qeyd-şərtsiz bərpa edildi. Ümid edirəm ki, danışıqlar nəticəsində biz məsələnin həllinə nail ola bilərik. Əlbəttə ki, danışıqlarda bizim mövqemizi güclü iqtisadi və hərbi potensial daha da gücləndirir. Aprel məğlubiyyətindən sonra Ermənistan hələ də özünə gələ bilməyib. Hesab edirəm, bu məğlubiyyət onlar üçün yaxşı dərs olmalıdır, bir daha bütün dünyaya göstərməlidir ki, Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaqdır.

Aprel qələbəmizdən sonra Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında vaxtilə işğal altında olmuş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Gün gələcək bizim bayrağımız bu gün hələ də işğal altında olan bütün torpaqlarda, o cümlədən Şuşada dalğalanacaqdır. Bunu deməyə əsas verən Azərbaycan xalqının əyilməz iradəsidir, Azərbaycan rəhbərliyinin siyasətidir.

Bu il Cocuq Mərcanlı kəndinə uzun fasilədən sonra həyat qayıdıb. Cocuq Mərcanlının inkişafı bizim əyilməz ruhumuzun rəmzidir. Uzun illər o kəndin sakinləri başqa yerlərdə yaşamışlar. Ancaq Azərbaycan dövləti orada qəsəbə salandan sonra onlar öz doğma torpaqlarına qayıtmışlar. Cocuq Mərcanlının bərpası bizim qürur mənbəyimizdir. Bu gün orada 150 evdən ibarət gözəl qəsəbə salınıb, məktəb, tibb məntəqəsi, uşaq bağçası və Şuşa məscidinin – vəhşi qonşular tərəfindən dağıdılmış Şuşa məscidinin bənzəri olan məscid tikilibdir.

Qeyd etməliyəm ki, bu il məcburi köçkünlərin problemlərinin həlli işində digər çox önəmli və deyə bilərəm ki, tarixi hadisə baş verib. Vaxtilə işğal altında olan Şıxarx qəsəbəsində 1170 ailə üçün tikilmiş şəhərcik açılıbdır. Bu önəmli hadisə bir tərəfdən, onu göstərir ki, məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Digər tərəfdən, onu göstərir ki, işğaldan azad edilmiş torpaqlarda Azərbaycan yeni həyat qurur, yeni ictimai binalar, yaşayış binaları salınır və minlərlə köçkün bu torpaqlara qayıdır.

Bizim hərbi potensialımız bu il də diqqət mərkəzində olubdur. Ordumuz üçün nə lazımdırsa onu da biz həll etdik. Bu gün bütün beynəlxalq reytinqlər göstərir ki, Azərbaycan Ordusu nəinki bölgədə, dünya miqyasında güclü ordular sırasındadır. Düşmən bunu bilir və bilməlidir. Bundan sonra da ordu quruculuğu üçün bütün lazımi tədbirlər görüləcək, yeni texnika, silahlar, ən müasir döyüş vasitələri alınır və alınacaqdır.

Əlbəttə, qarşımızda duran bütün vəzifələri icra etmək üçün güclü iqtisadiyyat lazımdır. Biz bu istiqamətdə də bu il çox fəal işləmişik. 2017-ci il tarixdə dərin, köklü və nəticə verən iqtisadi

islahatlar ili kimi qalacaqdır. Baxmayaraq ki, neftin qiyməti hələ də aşağı səviyyədədir və Azərbaycanda neftin hasilatı düşür, Azərbaycan apardığı islahatlar nəticəsində çətin vəziyyətdən şərəflə çıxa bilmişdir. Bunu beynəlxalq mötəbər təşkilatlar da qeyd edir. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, ölkələrin iqtisadiyyatlarının rəqabətqabliyyətliliyi reytinqində Azərbaycan dünya miqyasında 35-ci yerdədir. Bu, ilk növbədə, onu göstərir ki, ölkəmizdə aparılan çox ciddi islahatlar gözəl nəticələr verir.

Bu il iqtisadiyyatın qeyri-neft sektoru 2 faizdən çox, iqtisadiyyatımızın qeyri-neft sənayesi 3 faizdən çox, kənd təsərrüfatı isə 4 faizdən çox artıbdır. Hesab edirəm ki, indiki şərait üçün bu çox yaxşı nəticədir. Əminəm ki, 2018-ci ildə rəqəmlər daha da böyük olacaq. Eyni zamanda, biz öz valyuta ehtiyatlarımızdan da çox səmərəli şəkildə istifadə etdik. Baxmayaraq ki, neftin qiyməti aşağı düşüb, biz valyuta ehtiyatlarımızı artıra bilmişik, özü də xeyli dərəcədə. Valyuta ehtiyatlarımız 4,5 milyard dollardan çox artıbdır. Bu da bizim strateji ehtiyatımızdır, bizə həm iqtisadi, həm də siyasi müstəqillik verən və onu gücləndirən amillərdən biridir.

Bu il neft-qaz sektorunda tarixi hadisələr baş veribdir. «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun istismar müddətinin uzadılması məsələsi həll olunubdur. Bu kontrakt 2050-ci ilə qədər qüvvədə olacaq və ölkəmizə milyardlarla dollar gəlir gətirəcəkdir. Sadəcə olaraq, Azərbaycana verilən bonus 3 milyard dollardan çoxdur. «Cənub Qaz Dəhlizi»nin icrası, demək olar ki, son mərhələyə qədəm qoyub. Gələn il TANAP layihəsinin açılışı gözlənilir. Bu da tarixi hadisədir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində çox önəmli tərəfdaşa çevrilir.

Bu il digər tarixi layihə öz həllini tapıbdır, Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı mərasimi Bakıda keçirilibdir. Bu dəmir yolu layihəsi qitələri birləşdirir. Bakı–Tbilisi–Qars Asiya ilə Avropa arasında ən qısa və etibarlı yol olacaq, bundan sonra onilliklər

ərzində Azərbaycana həm iqtisadi, həm siyasi dividendlər gətirəcəkdir. Azərbaycan önəmli tranzit ölkəsinə çevrilir. Əgər biz Şimal–Cənub nəqliyyat dəhlizini də qeyd etsək görərik ki, Azərbaycan dünya miqyasında – baxmayaraq ki, bizim açıq dənizə çıxışımız yoxdur – strateji nəqliyyat mərkəzinə çevrilir.

Bu il idmançılarımız bizi qələbələrlə sevindirmişlər. Bakıda ən yüksək səviyyədə keçirilmiş IV İslam Həmrəyliyi oyunlarında Azərbaycan idmançıları 1-ci yerə layiq görüldülər. Bütün müsəlman aləmində birinci yeri qazanmaq çox böyük tarixi nailiyyətdir. Əgər biz 2015-ci il Avropa oyunlarını yada salsaq, orada da Azərbaycan komandası 2-ci yerdə idi. Bu bir daha onu göstərir ki, Azərbaycan güclü idman ölkəsidir.

Bu il Azərbaycanda «İslam həmrəyliyi ili» elan olunmuşdur. Hər zaman olduğu kimi, Azərbaycan bütün məsələlərdə islam həmrəyliyinin güclənməsinə öz töhfəsini verir. Bu il də istisna olmamışdır.

Bir sözlə, 2017-ci il ölkəmiz üçün uğurlu olub, əminəm ki, gələn il də uğurlu olacaqdır. Bu gün Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Fürsətdən istifadə edərək, bütün dünyada yaşayan azərbaycanlıları bu bayram münasibətilə təbrik edirəm.

Hörmətli həmvətənlər, mən sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə bir daha ürəkdən təbrik edirəm, sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *31 dekabr 2017-ci il*

**AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA**

Hörmətli həmvətənlər!

İsa peyğəmbərin mübarək mövludu – Milad bayramı münasibətilə Azərbaycanın bütün xristian icmasını ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycanda tarixən sivilizasiyalararası və mədəniyyətlərarası dialoq mühitinin mövcudluğu, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub saxlanılması çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizdə ümummilli mənəvi-ictimai dəyərlərin və dözümlülük ənənələrinin formalaşmasında, vətəndaş həmrəyliyinin bərqərar edilməsində müstəsna rol oynamışdır. Biz bu tarixi nailiyyəti milli dövlətçiliyimizin mühüm uğuru kimi qiymətləndirir, dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarının hüquq və azadlıqlarının, vicdan və dini etiqad azadlığının təminatını dövlət siyasətinin prioritet istiqamətlərindən biri hesab edirik. Ölkəmizin bütün milli azlıqları kimi, pravoslav xristian icması da millətlərarası və dinlərarası münasibətlərə öz layiqli töhfələrini verməklə, Azərbaycanda gedən böyük inkişaf prosesində və vətəndaş cəmiyyəti quruculuğunda yaxından iştirak edir.

Əziz dostlar! Milad bayramı yeniliyin, əmin-amanlığın, insanlar arasında mərhəmət və şəfqət duyğularının rəmzi kimi, hər il Azərbaycanda təntənə ilə qeyd edilir.

Bu nurlu bayram münasibətilə bir daha hamınıza səmimi təbriklərimi yetirir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 yanvar 2018-ci il*

## MONQOLUSTANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BOLD RAVDAN İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Monqolustanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Bold Ravdanın etimadnaməsini qəbul etmişdir.*

*Səfir Bold Ravdan Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Bold Ravdan etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi və qeyd etdi ki, Azərbaycan tərəfi Monqolustan hökuməti ilə qarşılıqlı maraq doğuran sahələrdə – siyasi, iqtisadi, mədəni sahələrdə gələcəkdə də birgə fəaliyyət göstərməkdə maraqlıdır. Monqolustan Prezidenti ilə bu yaxınlarda telefon danışığını məmnunluqla xatırladan Prezident İlham Əliyev söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlərin müzakirə edildiyini bildirdi və hər iki tərəfin bu vaxtadək dövlət başçıları və hökumətlər səviyyəsində fəal əlaqələrin olmamasını təəssüf hissi ilə qeyd etdiklərini vurğuladı. Dövlət başçısı bildirdi ki, bu baxımdan ölkələrimizin müxtəlif qurumları – parlamentlər, nazirliklər, biznes qrupları arasında və siyasi sahədə əlaqələrin həyata keçirilməsi önəmlidir və əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanlar vardır.*

*Xoş sözlərə görə minnətdarlığını bildirən səfir ilk növbədə, Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanın salamlarını*

*dövlətimizin başçısına çatdırdı və onun da Azərbaycan Prezidenti ilə telefon danışığını məmnunluq hissi ilə xatırlatdığını vurğuladı. İkitərəfli münasibətlərin istənilən səviyyədə olmadığını bildirən səfir əməkdaşlığımızın genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini qeyd etdi.*

*Görüşdə idxal-ixrac, müdafiə sənayesi, sərmayə qoyuluşu, təhsil, kənd təsərrüfatı və digər sahələrdə əməkdaşlıq məsələləri də müzakirə edildi.*

*Prezident İlham Əliyev Monqolustan Prezidenti Xaltmaaqiyn Battulqanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Monqolustan Prezidentinə çatdırmağı xahiş etdi.*

## NİGERİYA FEDERATİV RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ HƏMZƏT İBRAHİM İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Nigeriya Federativ Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Həmzət İbrahimin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Həmzət İbrahim Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Həmzət İbrahim etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı Nigeriyanın Azərbaycan üçün qardaş ölkə olduğunu vurğulayaraq, ölkələrimizin beynəlxalq səviyyədə, BMT və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birini dəstəkləməsinin əhəmiyyətini qeyd etdi. Azərbaycanın islam həmrəyliyi işinə verdiyi töhfəni vurğulayan Prezident İlham Əliyev bununla bağlı ölkəmizdə bir sıra mühüm tədbirlərin keçirildiyini bildirərək, ötən ilin ölkəmizdə «İslam həmrəyliyi ili» elan olunmasının və Bakıda İslam Həmrəyliyi oyunlarının keçirilməsinin əhəmiyyətini qeyd etdi. Siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu deyən dövlət başçısı eyni zamanda, qarşılıqlı ticarətin səviyyəsinin artırılması, investisiya qoyuluşu, biznes sahəsində əməkdaşlıq imkanlarının müəyyən edilməsinin önəmini vurğuladı və bu baxımdan iki ölkə arasında müxtəlifsəviyyəli nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin zəruriliyini bildirdi.*

*Səfir Həmzət İbrahim Nigeriya Prezidenti Məhəmməd Buharinin salamlarını dövlətimizin başçısına çatdırdı. Həmzət İbrahim ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin olduğunu qeyd edərək, iqtisadi əməkdaşlığımızın bu səviyyəyə uyğun olmadığını diqqətə çatdırdı. O, Bakıya bu səfəri zamanı Azərbaycan rəsmiləri ilə keçirəcəyi görüşlərdə iqtisadi əlaqələrin inkişaf etdirilməsi yollarının müəyyənləşdiriləcəyini bildirdi. Ölkələrimizdə qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində tədbirlərin həyata keçirildiyini vurğulayan səfir turizm, təhsil, ticarət və digər sahələrdə əməkdaşlıq üçün yaxşı imkanların olduğunu qeyd etdi.*

*Görüşdə əməkdaşlığımızın iqtisadi, sərmayə qoyuluşu, ticarət, müdafiə sənayesi və digər sahələrdə inkişaf etdirilməsinin vacibliyi vurğulandı və bu istiqamətdə əlaqələrimizin genişləndirilməsi üçün hökumətlərarası birgə Komissiyanın yaradılmasının məqsədəuyğun olduğu qeyd edildi.*

*Dövlətimizin başçısı Nigeriya prezidenti Məhəmməd Buharinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Nigeriya Prezidentinə çatdırmağı xahiş etdi.*

# EKVATORİAL QVİNEYA RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ XOSE ESONO MİÇA AKENQ İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Ekvatorial Qvineya Respublikasının ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Xose Esono Miça Akenqin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Xose Esono Miça Akenq Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Xose Esono Miça Akenq etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Dövlət başçısı İlham Əliyev Xose Esono Miça Akenqin Azərbaycana bu səfərinin ikitərəfli əlaqələrimizin inkişafı baxımından əhəmiyyətli olacağına və onun Bakıda olarkən ölkəmizin müvafiq qurumlarının rəhbərləri ilə görüşləri zamanı əməkdaşlığımızın perspektivlərinin müəyyənləşdiriləcəyinə ümid etdiyini bildirdi.*

*Səfir ölkələrimizin neft və qaz istehsalçısı olduğunu vurğulayaraq, diplomatik fəaliyyəti dövründə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.*

*Görüşdə ölkələrimiz arasında əvvəllər mövcud olan əlaqələrin bərpa edilməsinin önəmi vurğulandı, müxtəlif istiqamətlərdə, xüsusilə də enerji, təhsil, sərmayə qoyuluşu, idxal-ixrac və digər sahələrdə əməkdaşlığımızın inkişaf etdirilməsinin vacibliyi bildirildi.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ BAKİR SADOVİÇ İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 8-də Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunmuş Fövqəladə və Səlahiyyətli səfiri Bakir Sadoviçin etimadnaməsini qəbul etmişdir.*

*Səfir Bakir Sadoviç Fəxri qarovul dəstəsinin qarşısından keçdi.*

*Bakir Sadoviç etimadnaməsini təqdim etdikdən sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.*

*Söhbət zamanı ölkələrimiz arasında yüksək səviyyəli görüşlərin əhəmiyyəti qeyd edildi, ikitərəfli münasibətlərimizin çox yaxşı səviyyədə olduğu bildirildi, dostluq əlaqələrinin daha da möhkəmləndirilməsinin önəmi vurğulandı.*

*Görüşdə, həmçinin Azərbaycanın Bosniya və Herseqovinanın aqrar sənayesinə investisiya qoyuluşunun, sosial və humanitar layihələrə dəstəyinin Bosniya və Herseqovinada yüksək qiymətləndirildiyi qeyd olundu.*

## BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI KOMPLEKSİNDƏ RO-RO TERMİNALININ AÇILIŞI MƏRASİMİ

*9 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 9-da paytaxtın Qaradağ rayonunun Ələt qəsəbəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksində Ro-Ro terminalının açılışında iştirak etmiş, kompleksdə görülən işlərlə tanış olmuşdur.*

*Dövlət başçısına görülən işlər barədə məlumat verildi.*

*Bildirildi ki, baş plana əsasən, yeni liman kompleksinin hazırda inşası aparılan birinci fazası 12 yanalma körpüsünə malik olmaqla, yükaşırma imkanı illik 15 milyon ton yük, o cümlədən 100 min ədəd 20 futluq konteyner təşkil edir. Birinci faza çərçivəsində Ro-Ro tipli gəmilər üçün 2 körpü, 7 körpüdən ibarət universal quru yük və konteyner terminalı, 2 bərə körpüsü, eləcə də xidməti donanma gəmiləri üçün 1 körpü nəzərdə tutulub. Həmçinin xidməti donanma gəmiləri üçün təmir bazasının, limanın əməliyyat binasının, yük sahələri və anbarların, sərhəd və gömrük xidməti məntəqələrinin, ümumilikdə 72 müxtəlif təyinatlı bina və qurğuların tikintisi, sərnişinlər üçün beynəlxalq terminalın layihələndirilməsi, kranların alınması, təchizatı və quraşdırılması aparılacaqdır. Kompleksdə xidməti donanma gəmiləri üçün körpünün uzunluğu 155 metrdir və buraya 11 kiçik gəminin də yan alması mümkündür.*

*Azərbaycanın regionun mühüm nəqliyyat və logistika mərkəzinə çevrilməsi siyasətinin tərkib hissəsi olan, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin qovuşuğunda yerləşən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi ölkənin*

*tranzit imkanlarının genişləndirilməsində həlledici və mühüm rola malikdir. Layihənin həyata keçirilməsinə Prezident İlham Əliyevin 2007-ci ildə imzaladığı sərəncamla başlanılıb. Yeni limanın məhz Ələt qəsəbəsində inşası təsadüfi deyil. Bu ərazi Şimal–Cənub və Şərq–Qərb dəhlizlərinin Azərbaycan seqmentləri olan avtomobil və dəmir yolu xətlərinin kəsişməsində yerləşir və yeni limanın inşası ilə buraya su magistrallarının da əlavə edilməsi, mahiyyət etibarilə bu ərazinin mühüm nəqliyyat qovşağına və yeni geniş logistik məkana çevrilməsinə imkan yaradır.*

*Dövlət başçısının müvafiq sərəncamının icrası ilə bağlı verilmiş tapşırığa əsasən, bu kompleksin inşası üçün 400 hektar torpaq sahəsi ayrılıb. Yeni limanın hazırda inşası aparılan birinci fazası ümumi ərazinin 117 hektarını əhatə edir. 2010-cu ildə prezident İlham Əliyevin iştirakı ilə kompleksin təməli qoyulub, 2014-cü ildə isə birinci mərhələyə daxil olan liman qurğularından biri – 2 körpüdən ibarət bərə terminalı istifadəyə verilibdir.*

*Prezident İlham Əliyevin «Yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisinin sürətləndirilməsi sahəsində əlavə tədbirlər barədə» 2017-ci ildə imzaladığı sərəncama əsasən yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin tikintisi üzrə layihənin davam etdirilməsi və yekunlaşdırılması üçün icra olunacaq işlərin sifarişçisi İqtisadiyyat Nazirliyi təyin edilib. Dövlət başçısının bu istiqamətdə qarşıya qoyduğu vəzifələrin vaxtında və keyfiyyətli icrası üçün işlərin başlanma və tamamlanma tarixləri göstərilməklə, tədbirlər planı işlənib hazırlanıb və uğurla icra edilir. Sifarişçi tərəfindən xarici və yerli mütəxəssislərin iştirakı ilə limanın baş planı təkmilləşdirilərək, müvafiq qaydada razılaşdırılıb və təsdiq edilib, layihə qrafiki buna müvafiq olaraq yenilənibdir. Tədbirlər planı ilə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün seqmentlər üzrə inşaat işlərində ikinövbəli iş rejimi tətbiq edilib. Nəticədə işlərin dinamikası əvvəlki dövrlərlə müqayisədə 5 dəfə artıb.*

*Hazırda tikinti işləri yüksək sürətlə davam etdirilir və bu işlər kompleksin bütün seqmentlərini əhatə edir. Tikinti işlərinə 1500-ə yaxın işçi qüvvəsi və 300-ə qədər müxtəlif təyinatlı inşaat texnikası cəlb olunub. İnşaat işlərinin müvafiq müqavilələrə əsasən, liman ərazisinin 2 hissəsində – quru və dəniz seqmentlərində aparılması nəzərdə tutulur. Görülən işlər Xəzər dənizində üzən gəmilərin limana təhlükəsiz və sərbəst yanalmasını təmin etmək imkanı verir. Hazırda limana çəkisi 7-8 min tonadək gəmilər daxil olur. Layihələndirmə zamanı liman akvatoriyasında dərinliyin 7 metrdən 9 metrə qədər artırılma imkanı da nəzərə alınıb ki, bu da gələcəkdə çəkisi 12 min tona qədər olan gəmilərin də sərbəst yanalmasını təmin edəcəkdir.*

*Prezident İlham Əliyevə yeni Ro-Ro terminalı barədə məlumat verildi. İldə 60 minə yaxın TIR və ya 1,8 milyon ton yük qəbul etmək imkanında olan terminal ən müasir texniki tələblərə uyğun tikilib. Terminaldakı birinci körpünün illik yükaşırma qabiliyyəti 800 min ton, ikinci körpününkü isə 1 milyon tondur. Ro-Ro terminalı 2 yanalma körpüsündən ibarətdir. Birinci körpünün uzunluğu 222 metr, ikinci körpünün uzunluğu isə 190 metrə yaxındır. Terminal daşımaların avtomobil-su və su-avtomobil seqmentlərində təkərli texnikanın daşınması üçün nəzərdə tutulur.*

*Dövlət başçısı terminalın açılışını etdi.*

*Buradakı sistem suyun səviyyəsinin enib-qalxmasından asılı olmayaraq, gəmilərin təhlükəsiz şəkildə körpüyə yanalmasını təmin edir. Layihə qrafikinə əsasən, bu il yanvarın sonunadək digər 7 ümumi yük körpüsünün tikintisi tamamlanacaqdır. 2018-ci ilin birinci rübünün sonunadək isə anbarların, yardımçı binaların, digər əlaqəli infrastruktur obyektlərinin inşasının, onların mühəndis-kommunikasiya xətlərinin çəkilməsinin, həmçinin yardımçı sistemlərin quraşdırılmasının yekunlaşdırılması nəzərdə tutulur. Limanın əməliyyat binasının inşası isə bu ilin mayında bitəcəkdir.*

*Layihə çərçivəsində müasir tələblərə cavab verən informasiya texnologiyaları və təhlükəsizlik infrastrukturunun yaradılmasına xüsusi diqqət göstərilir. Bu məqsədlə liman ərazisində əməliyyatların səmərəli idarə olunmasını təmin edəcək Liman İdarəetmə və İnformasiya Sisteminin və digər informasiya texnologiyaları komponentlərinin tətbiqi, eləcə də Gəmilərin və Liman Vasitələrinin Mühafizəsi üzrə Beynəlxalq Kodeksin tələblərinə uyğun mühafizə sisteminin yaradılması nəzərdə tutulur. İnformasiya texnologiyaları komponentinin tətbiqi ilə bilavasitə liman əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi təmin ediləcəkdir. Ro-Ro terminalında tətbiq edilən və tam avtomatlaşmış informasiya texnologiyaları modullarından biri olan Liman Əməliyyat İdarəetmə Sistemi bütün prosesləri rahat və şəffaf şəkildə həyata keçirməyə imkan verir. Belə ki, Azərbaycanın dövlət sərhədini keçən və bu limana istiqamətlənən yükün Elektron Bəyannaməsi Dövlət Gömrük Komitəsinin xətti ilə buradakı Əməliyyat İdarəetmə Sisteminə daxil olur. Nəticədə yükün limana gəlmə tarixi bəlli olur, onun gözləmə ərazisində yeri ayrılır, ödəmə xərci onlayn formada daşıma şirkətinə göndərilir. Limana daxil olan nəqliyyat vasitəsinin qeydiyyat nişanına əsasən, yükə dair məlumat əməliyyat sistemində əks olunur və yük sahibi bu məlumatı müşahidə edə bilir. Sənədləşdirmə bitdikdən sonra TIR gəmiyə yüklənir, təyinat limanı isə yük, onun çatdırılma vaxtı və gəmi barədə məlumat əldə edir. Hazırda bu sistem vasitəsilə müvafiq dövlət və özəl qurumların, eləcə də Gürcüstan, Qazaxıstan və Türkmənistan limanlarının şəbəkəyə qoşulması işləri aparılır.*

*Sonra dövlət başçısına hazırda Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin inşaat ərazisində görülən işlər barədə məlumat verildi.*

*Prezident İlham Əliyev inşaat ərazisini gəzdi, işlərin gedişi ilə yaxından tanış oldu.*

*Yeni Bakı limanının tikintisində müasir standartlara cavab verən ən son mühəndislik yeniliklərindən istifadə olunur.*

*Layihə çərçivəsində, həmçinin gəmilərdən toplanmış neft tərkibli və məişət sularının təmizlənməsi üçün Xəzər dənizi hövzəsində ilk dəfə ən son texnologiyaya əsaslanan suyun bioloji təmizlənməsi qurğuları tikilib. İndiyədək 11 dəmir yolu xəttindən ibarət vaqonların qəbulu, göndərilməsi və çeşidlənməsi parkı yaradılıb.*

*Yükləmə-boşaltma əməliyyatlarının səmərəliliyinin yüksəldilməsi məqsədilə Almaniyanın «Ardelt» şirkətindən müxtəlif yük təyinatlı yeni portal texnika alınıb və hazırda quraşdırılması həyata keçirilir.*

*Yeni liman ötən il istismara verilmiş Bakı–Tbilisi–Qars dəmir yolu xətti üçün bilavasitə yüklərin cəmlənəcəyi məntəqə funksiyasını yerinə yetirəcəkdir. Beləliklə, şimal, cənub, şərq və qərb istiqamətlərindən dəhlizlər üzrə ölkəyə daxil olan yük axınlarının yeni liman kompleksində cəmlənərək, buradan Bakı–Tbilisi–Qars dəmir yolu xətti ilə Avropa istiqamətində və ya gəmilər vasitəsilə şərq istiqamətində nəql olunmasını təmin edən səmərəli və dayanıqlı logistik zəncirin formalaşdırılması üçün zəmin yaranacaqdır. Yeni limanın ərazisi də daxil olmaqla, ətraf ərazilərdə azad iqtisadi zonanın yaradılması nəzərdə tutulur ki, bu da mühüm nəqliyyat qovşağı kimi, limana daha geniş tranzit və daşıma imkanları təmin edəcəkdir.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu layihələr ölkə iqtisadiyyatının, xüsusilə qeyri-neft sektorunun inkişafında müstəsna rolu olan nəqliyyat infrastrukturunun müasirləşdirilməsinə, tranzit imkanlarının genişləndirilməsinə mühüm töhfə verərək, Azərbaycanın tranzit potensialını gücləndirəcəkdir.*

## 2018-ci İLİN «AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLİ» ELAN EDİLMƏSİ HAQQINDA SƏRƏNCAM

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, müsəlman şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi 2 ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə, respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır. 2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında» 2017-ci il 16 may tarixli 2867 saylı Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar, ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, qərara alıram: 2018-ci il Azərbaycan Respublikasında «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edilsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *10 yanvar 2018-ci il*

## NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA* İŞTİRAK

*10 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə yanvarın 10-da Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlət başçısı iclasda giriş nitqi söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin giriş nitqi

Nazirlər Kabinetinin bugünkü iclasında biz 2017-ci ilin yekunlarını müzakirə edəcəyik, bu il görüləcək işlər haqqında danışacağıq.

2017-ci ildə ölkəmiz sürətlə və uğurla inkişaf etmişdir. Həyatımızın bütün sahələrində əldə edilmiş nəticələr ölkəmizin

---

* Nazирlяr Kabинetинин 2017-cи илин sosиal-иqtиsadи инкишафынын yekunlarына vя qarшыda duran vяzифяlяrя hяsr olunмуш iclasında Malиyyя nazири Samir Şərifov, Ямяk vя Əhalинин Sosиal Mцdafияси nazири Səlim Müslümov və «Azяrkosmos» Ачыq Sяhmdar Cяmиyyяtинин sяdrи Rəşad Nəbiyev çıxış etдилər .

ümumi inkişafına böyük töhfə vermişdir. Azərbaycan xalqı 2017-ci ildə də sabitlik və təhlükəsizlik şəraitində yaşamışdır. Bu gün dünyanın müxtəlif yerlərində risklər, təhlükələr artır, qanlı münaqişələr, qarşıdurmalar geniş vüsət alır. Bir sözlə, dünyada risklər artmaqdadır və görünür ki, bu tendensiyalar hələ davam edəcəkdir.

Belə bir mənzərə ilə üzləşərək, əlbəttə, dünya ictimaiyyəti narahatlıq hissi keçirir. Azərbaycanda isə sabitlik, təhlükəsizlik, normal həyat təmin edilir.

Hesab edirəm ki, indiki dünyada mövcud olan mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq, bizdə bu sahədə əldə edilmiş nəticələr yüksək qiymətə layiqdir.

Sabitlik olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu aksiomdur. Bunu biz yaxın tarixdə dəfələrlə görmüşük. Sabitlik pozulan zaman inkişaf dayanır, sərmayə qoyuluşu dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır. Bir sözlə, sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda isə sabitliyin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və bizim apardığımız siyasətdir. Çünki bizim siyasətimiz milli maraqlara söykənir, milli maraqlarımız bizim üçün hər şeydən üstündür. Ölkəmizin təhlükəsizliyi, sabitliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenadakı artan rolu sabitliyin təminatçısıdır.

Əminəm ki, 2018-ci ildə Azərbaycanda bu müsbət meyillər daha da güclənəcək. Xalq–iqtidar birliyi uğurlarımızın əsas şərtidir və xalq–iqtidar birliyi bu gün də göz qabağındadır. Bizim uğurlu siyasətimizin təməlində xalq tərəfindən göstərilən dəstək dayanır. Bu müsbət meyillərin gücləndirilməsi ölkəmizin uzunmüddətli, dayanıqlı inkişafını təmin edəcəkdir.

2017-ci ildə iqtisadi sahədə çox böyük uğurlar əldə edilibdir. Mən artıq demişəm, bir daha demək istəyirəm ki, 2017-ci il dərin iqtisadi islahatlar ilidir. Mən bu tezisi elə ilin əvvəlində bəyan etmişdim ki, 2017-ci il dərin iqtisadi islahatlar ili olmalıdır. Belə də oldu və bunu mötəbər beynəlxalq maliyyə qurumları da, mötəbər təşkilatlar da təsdiqləyir və qeyd edir. Həm Dünya

Bankı, həm Avropa Yenidənqurma və İnkişaf Bankı Azərbaycanda gedən proseslərə yüksək qiymət verir, eyni zamanda, Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabliyyətliliyinə görə 2017-ci ildə 2 pillə irəliləyərək, dünya miqyasında 35-ci yerdə qərarlaşıb. Bu çox böyük göstəricidir, ilk növbədə onu göstərir ki, hətta iqtisadi cəhətdən o qədər də asan olmayan ildə də biz inkişaf edirik. Digər tərəfdən, dünya miqyasında 35-ci yeri tutmaq doğrudan da böyük nəticədir, böyük qələbədir. Biz uzun illərdir ki, MDB məkanında liderlik mövqemizi qoruyuruq və möhkəmləndiririk. Hesab edirəm ki, beynəlxalq iqtisadi birlik tərəfindən bizim iqtisadi islahatlarımıza verilən ən böyük qiymət məhz Davos Forumunun reytinqidir və bunun da əsası vardır. Çünki son illər ərzində ölkəmizdə aparılan quruculuq və inkişaf işləri, bax, bu nəticələrə gətirib çıxarıbdır.

Ölkə iqtisadiyyatı 2017-ci ildə artıb, bu çox müsbət göstəricidir. Ümumi daxili məhsul az da olsa artıbdır. Ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorumuz artıb və burada artım 2,5 faiz təşkil edir. Sənaye sahəsində qeyri-neft sektorumuz 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıbdır. Bizim valyuta ehtiyatlarımız artıb. Keçən il ölkəmizdə bir çox önəmli infrastruktur və sosial layihələr icra edilibdir. O layihələr böyük pul tələb edir. Buna baxmayaraq, 2017-ci ildə valyuta ehtiyatlarımız 4,5 milyard dollar artıbdır və hazırda təxminən 42 milyard dollar təşkil edir. Ölkəmizin əhalisini nəzərə alaraq, hesab edirəm ki, adambaşına düşən valyuta ehtiyatlarının həcminə görə Azərbaycan dünya miqyasında ön yerlərdən birini tutur.

Ölkə iqtisadiyyatına 14,6 milyard dollar sərmayə qoyulub. Bu da çox gözəl göstəricidir. Onu göstərir ki, həm yerli, həm də xarici investorlar ölkəmizə vəsait qoymaqda maraqlıdırlar. Bu, qeyd etdiyim sabitliyin təzahürüdür. Çünki indiki dünyada mövcud olan maliyyə və iqtisadi vəziyyətdə xarici ölkələrə vəsait qoymaq bir çox investorlar tərəfindən o qədər də məqbul sayılmır. Ancaq sabit olan ölkələrə və gözəl gələcəyi olan

ölkələrə xaricdən investisiyalar qoyulur. Ona görə il ərzində təxminən 15 milyard dollar investisiyaları cəlb etmək, hesab edirəm ki, böyük nailiyyətdir. Bizim ixrac potensialımız artır. 2017-ci ildə ixrac 19 faiz, qeyri-neft ixracımız isə 24 faiz artıbdır. Bu, görülən işlərin nəticəsidir. Əhalimiz artır. Hər il əhali ən azı 100 min nəfər artır. İstehlak artır, turistlərin sayı çoxalır. Keçən il 2016-cı ilə nisbətən 500 minə yaxın çox turist gəlmişdir. Bu da, təbii ki, istehlakın artmasına gətirib çıxarır. Buna baxmayaraq, bizim qeyri-neft ixracımız, o cümlədən ərzaq məhsullarının ixracı sürətlə artır. İl ərzində qeyri-neft ixracının 24 faiz artması görülən işlərin nəticəsidir.

İdxal isə təqribən cəmi 1 faiz artıbdır və bu da təbiidir. Çünki ilk növbədə, Azərbaycan öz daxili tələbatını daha böyük həcmdə daxili istehsal hesabına təmin edir, digər tərəfdən, vətəndaşların alıcılıq qabiliyyəti artır. Beləliklə, idxalın sabit səviyyədə qalması hesab edirəm ki, çox böyük nəticəmizdir. Ticarət balansımızın müsbət saldosu isə 6,2 milyard dollardır. İqtisadiyyatçılar yaxşı bilirlər ki, bu çox gözəl göstəricidir. Əminəm ki, bu il və bundan sonrakı illərdə bizim saldomuz həmişə müsbət olacaq. Hesab edirəm ki, fərq daha da böyük olacaq və beləliklə, makroiqtisadi vəziyyətimizin yaxşılaşdırılması, manatın məzənnəsinin sabit səviyyədə saxlanılması üçün bu çox mühüm amillərdən biridir.

Bir sözlə, iqtisadi sahənin əsas göstəriciləri çox müsbətdir. Hesab edirəm ki, hər bir ölkə belə nəticələrlə fəxr edə bilər. Biz də fəxr edirik ki, 2017-ci ili belə gözəl nəticələrlə başa vurmuşuq.

Regionların inkişafı daim diqqət mərkəzində olubdur. Keçən il mən 30-dan çox rayona səfər etmişəm. Bu səfərlər çərçivəsində həm yeni müəssisələrin açılışları qeyd olunmuşdur, yeni müəssisələrin təməli qoyulmuşdur, həm də bölgələrdə gedən vəziyyətlə bağlı mənə məruzələr edilmişdir. Mən hər il bölgələrə səfərlər edirəm və keçən il, demək olar ki, rayonlarımızın yarısında olmuşam. Bu həm mənim üçün çox

əhəmiyyətlidir, çünki mən yerlərdə vəziyyətlə tanış oluram və müvafiq göstərişlər verirəm, həm də bu, bölgələrdə yaşayan vətəndaşlar üçün də çox önəmlidir. Əlbəttə ki, bu, nizam-intizamın möhkəmləndirilməsi üçün də çox önəmlidir. Çünki mən Azərbaycanın hər bir rayonunda dəfələrlə olmuşam və verilmiş tapşırıqların yerinə yetirilməsini də özüm şəxsən nəzarətdə saxlayıram.

2017-ci ildə 221 min yeni iş yeri açılıbdır ki, onların 177 mini daimi iş yeridir. Bu çox böyük göstəricidir. Hesab edirəm ki, son illər ərzində açılan iş yerlərinin sayına görə bu, rekord göstəricidir. Onu da qeyd etməliyəm ki, keçən il 47 min iş yeri bağlanıbdır. Bu da təbii prosesdir. Ancaq eyni zamanda, biz ciddi təhlil aparıb baxmalıyıq ki, hansı səbəblər üzündən 47 min iş yeri bağlanıbdır? Ancaq bununla belə, 177 min daimi iş yerinin açılması, 47 min iş yerinin bağlanması da müsbət saldonu təmin edir və beləliklə, ölkəmizdə işsizliyin aşağı səviyyədə saxlanılması üçün yaxşı imkanlar yaradır. Qeyd etməliyəm ki, ilin yekunlarına görə Azərbaycanda işsizlik 5 faiz, yoxsulluq isə 5,4 faiz səviyyəsindədir. Hesab edirəm ki, bu da dünya miqyasında ən yaxşı göstəricilərdən biridir.

Keçən il infrastruktur layihələrinin icrası üçün böyük vəsait ayrılmışdır və bu istiqamətdə çox önəmli addımlar atılmışdır. Elektrik təchizatı yaxşılaşdırılmış, bir çox bölgələrdə yeni yarımstansiyalar işə düşmüşdür. Bizim sürətlə artan sənaye və kənd təsərrüfatı potensialımız tələb edir ki, elektrik təchizatının inkişafı daim diqqət mərkəzində olsun.

Bölgələrdə sürətli qazlaşdırılma işləri aparılır. Keçən ilin yekunlarına görə ölkəmizin 93 faizi qazlaşdırılıb. Bu il dövlət büdcəmizdə qazlaşdırılma üçün əlavə vəsait nəzərdə tutulur. Bu rəqəm daha da artacaqdır.

Görülən tədbirlər nəticəsində 100 min hektardan çox sahə suvarılmağa başlanıbdır. Bu çox böyük rəqəmdir. Əlbəttə ki, kənd təsərrüfatının inkişafına və kənd təsərrüfatı məhsullarının ixracına bunun böyük dəstəyi olacaqdır.

2017-ci ildə 1300 kilometr avtomobil yolu salınıbdır. Bu da çox böyük göstəricidir. 500-dən çox kəndə yeni yol salınıbdır. Biz ilin əvvəlində bəyan etmişdik ki, şərti olaraq «40 kənd yolu» layihəsini icra edəcəyik, ancaq hər bir layihənin əhatə dairəsi çox genişdir. Biz il ərzində yol infrastrukturunun yaradılmasına əlavə vəsait ayırdıq və beləliklə, 500-dən çox kəndə yeni gözəl yol salınıbdır.

İçməli su layihələri uğurla icra edilir. Bir çox şəhərlərin içməli su problemi keçən il öz həllini tapıbdır. Biz bütövlükdə əsas infrastruktur layihələrinin icrası istiqamətində qarşımızda duran hədəfə, demək olar ki, çatırıq.

Sosial infrastrukturla bağlı çox ciddi addımlar atılıbdır – 133 yeni məktəb tikilib, 14 məktəb əsaslı təmir edilib, 500-ə yaxın məktəbdə isə cari təmir işləri aparılıbdır. 30 tibb müəssisəsi tikilib və əsaslı təmir edilibdir. 2 Olimpiya İdman Kompleksi istifadəyə verilibdir.

Ünvanlı sosial yardım alan ailələrin sayı 116 minə bərabərdir. Bu, 400 mindən çox insanı əhatə edir. Orta hesabla hər ailəyə 150 manat sosial yardım göstərilir. Bu da bizim sosial siyasətimizin təzahürüdür. Mən bunu əvvəlki müşavirələrdə də bildirmişəm – biz çalışmalıyıq ki, ağır vəziyyətdə yaşayan vətəndaşları işlə təmin edək, onlar üçün şərait yaradaq, o cümlədən onları özünüməşğulluq proqramı çərçivəsində işə cəlb edək ki, ünvanlı sosial yardıma ehtiyacı olanların sayı azalsın.

Sosial infrastruktur layihələri çox böyük əhəmiyyət daşıyır və bizim siyasətimizin istiqamətini əks etdirir. Hətta iqtisadi cəhətdən çətin olan illərdə biz sosial məsələlərin həlli üçün əlimizdən gələni edirik və böyük işlər görürük. Bu il bu sahədə görüləcək işlər, demək olar ki, sosial infrastrukturla bağlı məsələlərin böyük əksəriyyətini həll edəcəkdir.

Məcburi köçkünlərin problemləri daim diqqət mərkəzindədir. Bu baxımdan 2017-ci il də əlamətdar il olub, 2300 ailə yeni evlərə, mənzillərə köçürülübdür. Beləliklə, 12 mindən çox köçkün yeni evlərlə, mənzillərlə təmin edilibdir. Cocuq

Mərcanlı kəndinin bərpası tarixi nailiyyətdir, indi 150 evdən ibarət gözəl qəsəbə yeni həyatını yaşayır. Köçkünlər o qəsəbəyə qayıdıblar, qayıdırlar və bu, tarixi, əlamətdar hadisədir. Azərbaycan dövləti Cocuq Mərcanlının timsalında bir daha göstərdi ki, heç vaxt işğalla barışmayacaq. Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmayacaq və bütün köçkünlər bir arzu ilə yaşayırlar ki, tezliklə öz doğma torpaqlarına qayıtsınlar. Cocuq Mərcanlının qısa müddət ərzində bərpası, yenidən qurulması onu göstərir ki, işğaldan azad ediləcək bütün ərazilərdə biz qısa müddət ərzində bütün təmir-bərpa işlərini aparacağıq, şəhərləri, kəndləri yenidən quracağıq və bu gün ağır, dağılmış vəziyyətdə olan şəhər və kəndlərimizə tezliklə həyat qayıdacaqdır.

2017-ci ildə Şıxarx qəsəbəsində 1170 ailə üçün yeni şəhərcik salınıb. Bu da əlamətdar hadisədir. Təkcə ona görə yox ki, böyük köçkün şəhərciyi yaradılıb. Ona görə ki, Şıxarx qəsəbəsi vaxtilə işğal altında olan ərazidir. Bu ərazi erməni işğalçılarından təmizləndi, azad edildi və o yerdə yeni böyük şəhərciyin salınması bir daha göstərdi ki, Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Bu həmişə belə olub, bu gün belədir, sabah da belə olacaqdır. Dağlıq Qarabağ probleminin həlli ancaq ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür. Bunun heç bir başqa yolu yoxdur.

Bizim prinsipial mövqemiz ədalətli mövqedir, beynəlxalq hüquqa əsaslanan mövqedir və daha çox beynəlxalq dəstək qazanan mövqedir. Bunu əks etdirən bir neçə önəmli hadisə olmuşdur. Onlardan biri Dağlıq Qarabağda separatçı rejim tərəfindən keçirilmiş qanunsuz «referendum»un dünya ictimaiyyəti tərəfindən tanınmamasıdır. Həm qonşu ölkələr, həm də Avropa ölkələri, Avropa İttifaqı, beynəlxalq təşkilatlar «referendum»un tanınmaması haqqında birmənalı şəkildə ciddi bəyanatlar vermişlər. Bu bəyanatlar bir daha onu göstərir ki, bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu dəstək getdikcə daha da artır.

Bilirsiniz ki, ilin sonunda Avropa İttifaqının «Şərq Tərəfdaşlığı» Zirvə görüşündə qəbul edilmiş Bəyannamədə də «Şərq Tərəfdaşlığı»na üzv olan ölkələrin ərazi bütövlüyü, suverenliyi Avropa İttifaqı tərəfindən birmənalı şəkildə dəstəkləndi. Bu, işğalçı Ermənistana növbəti zərbə oldu. Bu, ədalətin təzahürüdür və eyni zamanda, onu göstərir ki, bu gün Avropa qurumları, dünya mərkəzləri həm Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, eyni zamanda, ümumiyyətlə, dünyada gedən proseslərlə bağlı daha müsbət yanaşma ortaya qoyurlar. O da həqiqətdir ki, hazırda Avropanın özü separatizmdən əziyyət çəkir və görür ki, separatizm nədir. Biz isə aqressiv separatizmlə üzləşmişik. Bizə qarşı soyqırımı törədilibdir. Bizim vətəndaşlarımız öz doğma torpaqlarından silah gücünə çıxarılıblar. Əlbəttə, dünyada, o cümlədən Avropada separatizmin baş qaldırması beynəlxalq ictimaiyyətə bir siqnaldır ki, yalnız vahid yanaşma tətbiq olunmalıdır. Biz həmişə bunu demişik. Mən dəfələrlə bunu deyirəm ki, bütün münaqişələrə, bütün separatizm təzahürlərinə vahid yanaşma tətbiq olunmalıdır, ikili standartlara yer olmamalıdır, bundan əl çəkilməlidir. Biz bunu artıq görürük. Hesab edirəm ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bu, önəmli hadisələrdir. Azərbaycan öz prinsipial mövqeyindən geri çəkilməyəcək və ölkəmizin ərazi bütövlüyünün bərpası bizim üçün əsas məsələdir.

Bununla yanaşı, təbiidir ki, biz hərbi gücümüzü də artırırıq. Bu gün beynəlxalq reytinqlərə görə, Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Ordumuz üçün nə lazımdırsa, biz onu da edirik. Ordumuzun maddi-texniki bazası möhkəmlənir. Hərbi bazalar, şəhərciklər, hərbi hissələr yenidən qurulur, əsaslı təmir edilir. Bizim hərbi şəhərciklərimizin, bazalarımızın, hissələrimizin 80 faizi artıq beynəlxalq standartlara cavab verir. Təmirə ehtiyacı olan qalan hərbi hissələrin təmir işləri növbəti illərdə yekunlaşmalıdır. Nə qədər lazımdırsa vəsait ayrılır və ayrılacaqdır. O cümlədən, yeni müasir silahların alınması üçün lazım olan vəsait ayrılır. Yoxsul

Ermənistandan fərqli olaraq, biz öz hesabımıza yaşayırıq, o cümlədən hərbi gücümüzü öz hesabımıza artırırıq. Ermənistandan fərqli olaraq, heç kimdən dilənmirik, heç kimə yalvarmırıq, kredit üçün də müraciət etmirik. Ona görə həm Azərbaycan ictimaiyyəti, həm də düşmənlərimiz bilməlidirlər ki, Azərbaycan Ordusu bundan sonra da güclənəcək və istənilən tapşırığı yerinə yetirməyə hazır olacaqdır. Yaxın tarix bunu göstərmişdir.

2017-ci ildə energetika sahəsində tarixi hadisələr baş vermişdir. Onlardan biri «Azəri–Çıraq–Günəşli» neft yataqları bloku üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılmasıdır. Bu bizə imkan verəcək ki, bundan sonra uzun illər ərzində – ən azı 2050-ci ilə qədər hasilat səviyyəsi sabit qalsın. Bu, imkan verəcək ki, Azərbaycanın neft sektoruna xarici investorlar tərəfindən bundan sonra da böyük həcmdə sərmayə qoyulsun. Burada söhbət on milyardlarla dollardan gedir. Əlbəttə, bu investisiyalar iqtisadiyyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərəcək, yeni iş yerlərinin, yeni yerli müəssisələrin yaradılması nəzərdə tutulur. Neft hasilatının sabit saxlanılması imkan verəcək ki, biz öz iqtisadi inkişafımızı planlaşdıraq və bundan sonra da tədricən neftdən asılılığı azaldaq. Son 2 il ərzində biz buna, demək olar ki, yüksək dərəcədə nail olmuşuq.

«Azəri–Çıraq–Günəşli» kontraktının müddətinin uzadılması bizə sərmayədən başqa, digər önəmli dividendlər gətirir. İlk növbədə, SOCAR-ın payı 11 faizdən 25 faizə artırılır. Mənfəət neftinin 75 faizi Azərbaycan tərəfinə qalacaqdır. Deyə bilərəm ki, bu da gənc, müstəqil ölkə üçün xarici investorlarla neft sahəsində əldə edilmiş ən gözəl nəticədir. Azərbaycan Dövlət Neft Şirkəti – SOCAR layihənin operatoru kimi, bu işdə digər tərəfdaşlarla birlikdə iştirak edəcək və kontraktın uzadılmasına görə, baxmayaraq ki, xarici investorlar on milyardlarla dollar sərmayə qoyacaqlar, ondan əlavə 3,6 milyard dollar 8 il ərzində bərabər hissələrlə bizə bonus kimi veriləcəkdir. Birinci tranş bizə bu il

veriləcəkdir. Bax, belə qısa desəm, «Azəri–Çıraq–Günəşli»nin əsas əhəmiyyəti bundan ibarətdir.

«Cənub Qaz Dəhlizi»nin uğurlu icrası təmin edilibdir. İlin əvvəlində üçüncü dəfə «Cənub Qaz Dəhlizi»nin Məşvərət Şurasının toplantısı Azərbaycanda keçirildi. Bütün lazımi məsələlər müzakirə olundu və il ərzində layihənin icrası təmin edildi. Son məlumata görə, «Şahdəniz-2» layihəsinin icrası 99 faizə çatıb, demək olar ki, yekunlaşıbdır. Azərbaycanı Gürcüstanla birləşdirən «Cənubi Qafqaz» kəməri 93 faiz icra edilib və TANAP layihəsinin icrası 90 faizə bərabərdir. Bu, artıq onu göstərir ki, «Cənub Qaz Dəhlizi» reallaşıb. TAP layihəsinə gəldikdə isə, orada da işlər, demək olar ki, qrafik üzrə gedir. Bilirsiniz ki, TAP layihəsində Azərbaycan əsas paya malik deyil. Bizim orada 20 faiz payımız var, amma biz iştirak edirik. Mənə verilən məlumata görə, o layihənin icrası 60–62 faiz səviyyəsindədir.

Energetika sahəsində bu 2 önəmli layihə ölkəmizin bundan sonra da uğurlu inkişafını təmin edəcək və bizə imkan verəcək ki, qeyri-neft sektorunun inkişafı ilə daha çox məşğul olaq. Hesab edirəm ki, Bakı–Tbilisi–Qars dəmir yolunun açılışı nəinki ölkəmiz üçün, eləcə də bölgə üçün, dünya üçün də önəmli hadisə oldu. Bu yol Bakıdan başlanır. Təsadüfi deyil ki, təntənəli açılış mərasimi Azərbaycanda keçirildi. Uzunluğu 850 kilometrə yaxın olan dəmir yolunun 504 kilometri Azərbaycan ərazisində tikilibdir. Bilirsiniz ki, Azərbaycan bu yolun icrasında ən böyük maliyyə yükünü öz üzərinə götürmüşdür. Bu tarixi layihənin icrası Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərinin birinə çevirəcək və artıq çevirir. Yol açılandan sonra qısa müddət – cəmi 2 ay ərzində bir çox ölkələrdən Bakı–Tbilisi–Qarsa qoşulmaq haqqında bizə müraciətlər olubdur. Artıq bir neçə həmkarımla bu məsələni mən şəxsən müzakirə etmişəm. İndi müvafiq göstərişlər verilibdir ki, bir çox ölkələrlə işçi qrupları yaradılsın və bu xəttə qoşulmaq istəyənlərin yük

potensialı təhlil edilsin. Əlbəttə ki, biz bütün tərəfdaşlarla bu layihə çərçivəsində uğurlu əməkdaşlıq etməyə hazırıq.

Şimal–Cənub nəqliyyat dəhlizinin icrası istiqamətində önəmli addımlar atılıbdır. Azərbaycan öz üzərinə düşən vəzifələri icra edib, İran sərhədinə qədər dəmir yolunun tikintisini təmin edib, dəmir yolu körpüsünü də inşa edibdir. Beləliklə, Azərbaycan öz ərazisində bu layihə üzrə bütün lazımi tədbirləri görüb və layihənin ümumi icrası ilə bağlı da öz töhfəsini verməyə hazırdır.

Ötən il Azərbaycanda İslam Həmrəyliyi oyunları keçirildi. Bizim siyasi, diplomatik, iqtisadi uğurlarımıza bir uğur da əlavə edildi – idman uğurumuz. Bu oyunlar ən yüksək səviyyədə keçirildi. Azərbaycan bütün müsəlman aləmini qəbul etdi, öz qonaqpərvərliyini göstərdi və idmançılarımız da bizi sevindirdilər, Azərbaycan komanda hesabında 1-ci yerə layiq görüldü. Bu oyunlar islam həmrəyliyinin gücləndirilməsi istiqamətində atılan önəmli addımdır və ölkəmizin niyyətini, siyasətini göstərir.

Bildiyiniz kimi, keçən il Azərbaycanda «İslam həmrəyliyi ili» elan edilmişdir. Bu qərar bir daha onu göstərir ki, biz öz tarixi, dini köklərimizə bağlıyıq. Ölkə ərazisində nəinki islam həmrəyliyi təmin edilir, bütövlükdə bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır. Biz istəyirik ki, bu tendensiyalar bölgəmizdə və dünyada daha da güclənsin. İl ərzində həm Azərbaycanda, həm də xaricdə keçirilmiş bir çox tədbirlər göstərir ki, bu qərar – 2017-ci ili «İslam həmrəyliyi ili» elan etməyimiz islam aləmində çox böyük dəstəyə və rəğbətə səbəb olubdur. Son önəmli tədbir – dekabrın axırında Bakıda beynəlxalq konfransın keçirilməsi və bu konfransda dünya liderlərinin təbrik məktubları, yüksək səviyyəli qonaqların iştirakı bir daha göstərdi ki, Azərbaycan dünya miqyasında həm islam həmrəyliyi işlərinin təşkili, həm də multikulturalizmin təbliği üçün əvəzolunmaz ölkəyə çevrilir.

Əlbəttə, il ərzində bir çox hadisələr baş vermişdir. Onların hamısı haqqında burada danışsam, bir neçə saat vaxt lazım olacaqdır. Sadəcə olaraq, mən əsas, önəmli məsələləri qeyd etdim. Bir daha demək istəyirəm ki, 2017-ci il ölkəmiz üçün uğurlu olubdur, ölkəmiz daha da güclənibdir, gələcəyə nikbinliklə baxır və əminəm ki, bu il də uğurlu il olacaqdır.

## YEKUN NİTQİ

Əminəm ki, bu il ölkə iqtisadiyyatı öz inkişaf yolu ilə gedəcəkdir. İl ərzində bir çox önəmli layihələrin icrası nəzərdə tutulur. Çalışmalıyıq ki, 2018-ci ildə makroiqtisadi vəziyyət sabit olsun. Mən şübhə etmirəm ki, belə də olacaqdır. Makroiqtisadi sabitlik hər bir ölkə üçün önəmli amildir. Keçən ilin son aylarında makroiqtisadi vəziyyət sabitləşmişdir, inflyasiyanın səviyyəsi aşağı idi. Əminəm ki, bu müsbət meyillər 2018-ci ildə daha da güclənəcək. Manatın məzənnəsi sabitdir. Qeyd etdiyim kimi, 6,2 milyard dollar müsbət saldomuz makroiqtisadi sabitlik üçün çox önəmli amildir.

Onu da qeyd etməliyəm ki, Davos Dünya İqtisadi Forumunun hesablamalarına əsasən, makroiqtisadi mühitə görə Azərbaycan dünya miqyasında 39-cu, MDB məkanında isə 1-ci yerdədir. Yəni bu, Davosun qiymətləndirməsidir. Əlbəttə, çox əlamətdar haldır ki, beynəlxalq təşkilatlar Azərbaycanda makroiqtisadi vəziyyətlə bağlı görülmüş işlərə çox müsbət reaksiya verir və yüksək qiymətləndirirlər.

Biz çalışmalıyıq ki, Neft Fondunun gəlirlərini artıraq. Ümumiyyətlə, bizim valyuta ehtiyatlarımız, Dövlət Neft Fondunun valyuta ehtiyatları ildən-ilə artır. Əlbəttə, bu bizə imkan verəcək

ki, ölkə qarşısında duran önəmli layihələr üçün vəsait ayıraq və ölkəmizin iqtisadi dayanıqlılığını təmin edək. Valyuta ehtiyatlarının həcmi və artması bizə iqtisadi müstəqillik verir. Biz heç bir maliyyə qurumundan asılı deyilik. Biz kreditlər alırıq. Ancaq onu da qeyd etməliyəm ki, kreditlərin alınması ilə bağlı biz daha da ciddi siyasət aparmalıyıq. Hesab edirəm ki, bundan sonrakı illərdə xarici dövlət borcunun azaldılması istiqamətində işlər aparılmalıdır. Bu gün də xarici borcumuz məqbul səviyyədədir. Dünya miqyasında biz xarici borcun səviyyəsinə görə müsbət mənada qabaqcıl ölkələrdənik. Ancaq mən qarşıya vəzifə qoymuşam, çalışmalıyıq ki, bundan sonra xarici borcu artırmayaq, əksinə, azaldaq.

Valyuta ehtiyatlarımızın artırılması bizə iqtisadi müstəqillik verir. Qeyd etdiyim kimi, biz özümüz kreditlər veririk və xarici kreditləşmədən asılı deyilik. Hətta neftin qiymətinin çox aşağı səviyyədə olduğu bir vaxtda biz ölkə üçün strateji əhəmiyyət daşıyan «Cənub Qaz Dəhlizi»nin maliyyələşməsində heç bir yubanmaya yol vermədik və demək olar ki, bu layihə artıq başa çatmaq üzrədir. Odur ki, valyuta ehtiyatlarımızın yüksək səviyyədə olması iqtisadi müstəqilliyi gücləndirir. Bu da öz növbəsində, bizim siyasi müstəqilliyimizi möhkəmləndirir.

Azərbaycan bu gün dünya miqyasında müstəqil siyasət aparan ölkələrdən biridir. Belə ölkələrin sayı çox deyil, xüsusilə əhali və ərazi baxımından böyük olmayan ölkələrə bu o qədər də xas deyil. Biz isə müstəqillik yolu ilə gedirik və azad, müstəqil həyatımız bizim üçün hər şeydən üstündür. Ona görə iqtisadi potensialımız sadəcə olaraq, bizə iqtisadi məsələlərin həlli üçün lazım deyil. Bizim iqtisadi potensialımız siyasi gücümüzü artırır, bölgədəki vəziyyətimizi möhkəmləndirir, imkan verir ki, ölkəmizin uzunmüddətli strategiyasını düzgün müəyyənləşdirək və onu icra edək. «Cənub Qaz Dəhlizi», Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Qars, «Şimal–Cənub» layihələrinin və digər önəmli layihələrin maliyyələşdirilməsində, əlbəttə ki, bizim iqtisadi gücümüz əsas rol oynamışdır. Biz önəmli strateji

layihələrin icrası üçün xarici kreditlər də almışıq. Əgər bizim çox möhkəm iqtisadi vəziyyətimiz olmasaydı, bu kreditləri ala bilməzdik. Biz yaxşı xatırlayırıq ki, pulumuz olmayanda bizə kredit vermək istəyənlərin sayı çox deyildi, demək olar ki, yox idi. Elə ki, biz iqtisadi cəhətdən gücləndik, Neft Fondunun vəsaiti artmağa başladı, ondan sonra bizə kredit vermək istəyənlərin sayı çoxaldı və biz artıq bu seçimi edirik.

Bir sözlə, xarici borcumuzun səviyyəsi aşağı düşməlidir. Builki büdcəmizdə xarici borcun qaytarılması üçün vəsait nəzərdə tutulub. Əsas vəzifə ondan ibarətdir ki, biz o qədər də vacib olmayan layihələrə xarici borc götürməyək. Biz ancaq texnoloji cəhətdən önəmli layihələrə xarici borc götürməliyik. Yoxsa, hansısa binanın tikintisinə, yaxud da ki, daxili imkanlar hesabına edə biləcəyimiz digər layihəyə xaricdən kredit almaq düzgün deyil.

Əminəm ki, bu il sərmayə qoyuluşu əvvəlki ilin səviyyəsində olacaqdır. Qeyd etdiyim kimi, keçən il 14,6 milyard dollar sərmayə qoyulub. Əlbəttə ki, ilin əvvəlində dəqiq proqnoz vermək çətindir. Ancaq biz hesablamalar aparmışıq və təxminən 15 milyard dollar səviyyəsində sərmayə qoyuluşu gözlənilir. Bu rəqəm arta da bilər və biz çalışmalıyıq ki, artsın. Çünki Azərbaycan bu gün dünya miqyasında sərmayə qoyuluşu üçün çox cəlbedici ölkəyə çevrilibdir. İqtisadi sabitlik, siyasi sabitlik, valyuta ehtiyatlarımız və Azərbaycanda həyata keçirilən önəmli layihələrin kommersiya cəlbediciliyi xarici sərmayənin cəlb edilməsində bizə kömək edəcəkdir.

Qeyri-neft sektorunun inkişafı daim diqqət mərkəzindədir. Mən bu barədə dəfələrlə danışmışam və praktiki addımlar atılır. Sahibkarlara dövlət tərəfindən güzəştli kreditlərin verilməsi bu il davam etdiriləcək. Bu məqsədlər üçün 170 milyon manat kredit resursu təmin ediləcək. Sevindirici hal ondan ibarətdir ki, bu vəsait vaxtilə verilmiş və qaytarılmış kreditlər hesabına təkrar veriləcəkdir. Bu ilk növbədə, onu göstərir ki, dövlətdən kredit alan sahibkarlar öz məsuliyyətlərini dərk edirlər və bu kreditləri

qaytarırlar. Digər tərəfdən, onu göstərir ki, vaxtilə Sahibkarlığa Kömək Milli Fonduna dövlət büdcəsindən ayrılmış vəsait işləyir. Büdcədən heç bir xərc etmədən bu il sahibkarlara güzəştli şərtlərlə 170 milyon manat kredit veriləcəkdir. Baxarıq, əgər layihələrin sayı çoxalarsa, biz bu məbləği prinsipcə artıra bilərik. Çünki bu, sahibkarlığın, regionların inkişafı üçün çox önəmli bir vasitədir və kreditlərin mütləq əksəriyyəti bölgələrə, iqtisadiyyatın real sektoruna verilir.

Yeni iş yerlərinin yaradılması istiqamətində işlər davam etdiriləcək. Qeyd etdiyim kimi, ötən il bu sahədə çox əlamətdar il olmuşdur. Ancaq bu, daimi proses olmalıdır. Çünki bəzi ölkələrdən fərqli olaraq, Azərbaycanda əhali artır. Bu da çox müsbət haldır və eyni zamanda, ölkəmizdə gedən uğurlu proseslərin təzahürüdür. Çünki əhalinin artımı onu deməyə əsas verir ki, ölkə düzgün istiqamətdə inkişaf edir. Yəni Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir. Bu bizim potensialımızı gücləndirir, daim qarşımızda vəzifələr – ilk növbədə, infrastrukturla, sosial infrastrukturla və iş yerlərinin yaradılması ilə bağlı vəzifələr qoyur. Əhali artdıqca məktəblərin, uşaq bağçalarının sayı da artmalıdır. Bu məqsədlər üçün yeni yerlər müəyyən edilməlidir, yol infrastrukturu genişləndirilməlidir, digər kommunikasiyalar – su, qaz, elektrik xətləri çəkilməlidir. Bax, demoqrafik artımın əlamətləri bundan ibarətdir. Bu da əlavə xərc tələb edir. Dövlət büdcəsindən infrastruktur layihələrinə qoyulan xərclər daim artır.

Mən giriş nitqimdə qeyd etdim ki, keçən il biz nə qədər böyük işlər görmüşük. Amma yeni iş yerlərinin yaradılması daimi proses olmalıdır. 2004-cü ildən bu günə qədər 2 milyona yaxın yeni iş yeri açılıbdır. Amma baxın, əhali də nə qədər artıbdır. Bu gün Azərbaycan əhalisi 10 milyona yaxınlaşır. Bizim əhalimiz sovet dövrünün son mərhələsində 7 milyon, bəlkə ondan bir qədər çox idi. Görün müstəqillik illərində əhalimiz nə qədər artıb. Bu bizim gücümüzü artırır, qarşımızda vəzifələr qoyur. Ona görə bu il də yeni iş yerlərinin yaradılması ilə bağlı addımlar atılacaq. İqtisadi sahəyə, sənaye potensialımızın, kənd

təsərrüfatının inkişafına göstərilən dəstək və əldə edilən nəticələr deməyə əsas verir ki, yeni iş yerlərinin yaradılması prosesi bu il də sürətlə gedəcəkdir.

İctimai işlərin yaradılması öz müsbət nəticəsini veribdir. Biz bu işə 2 il bundan əvvəl başladıq, buna ehtiyac var idi. Çünki işsizlik artmağa başlamışdı. Dünya iqtisadi və maliyyə böhranı bizə də təsir etmişdi. İşsizliyin qabağını almaq üçün biz ictimai işlərin yaradılmasına başladıq və operativ tədbirlər nəticəsində il ərzində on minlərlə ictimai iş yerləri yaradıldı. İndi ictimai işlərə tələbat o qədər də böyük deyil. Bölgələrdə olarkən maraqlanıram və mənə məlumat verilir ki, indi kənd təsərrüfatına bu qədər dəstəyin verildiyi bir vaxtda vətəndaşlar – yəni kəndlilər daha çox kənd təsərrüfatı işləri ilə məşğuldurlar, orada daha çox pul qazanırlar. Ona görə ictimai işlərə maraq azalıbdır. Amma bu il də ictimai işlərin yaradılması istiqamətində iş aparılacaqdır ki, Azərbaycanda işsizlik daim aşağı səviyyədə olsun.

Bu yaxınlarda başladığımız özünüməşğulluq proqramının da uğurlu icrası gözlənilir. Bu məqsədlər üçün 35 milyon manat vəsait nəzərdə tutulub və bu, təqribən 7000 ailənin büdcəsinə böyük dəstək olacaqdır. Özünüməşğulluq proqramının çox böyük gələcəyi var və biz bu proqramın icrası ilə bağlı əlavə tədbirlər görəcəyik. Bu, işsizliyin aradan qaldırılması istiqamətində önəmli təşəbbüsdür. Ünvanlı sosial yardım alanların sayı da çoxalmayacaq, azalacaqdır. Bu yardımı alanlar artıq dövlət tərəfindən biznes üçün lazım olan vasitələrlə təmin ediləcəklər.

Bu il yeni köçkün şəhərcikləri, qəsəbələri salınacaq, yeni mənzillərlə təmin ediləcək köçkünlərin sayı keçən illə müqayisədə təxminən 2 dəfə artacaqdır. Əgər 2017-ci ildə 12 min insanı yeni mənzillərə, evlərə köçürmüşüksə, bu il ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürülməlidir. Bu rəqəm çox da ola bilər.

Sosial infrastruktur layihələrinin icrası ilə bağlı dövlət investisiya proqramında kifayət qədər vəsait vardır. Mən bəzi rəqəmləri səsləndirmək istəyirəm. Bölgələrdə modul tipli 137 məktəb tikiləcək. Beləliklə, hesab edirəm ki, bu məktəblər tikiləndən sonra ölkəmizdə qəzalı məktəb qalmamalıdır. Yüzlərlə məktəbdə təmir işləri aparılacaq. Bakı şəhərində isə 12 məktəb əsaslı təmir ediləcək. Bakı şəhərində təmirsiz məktəb qalmamalıdır. Biz bu proqramı da başa çatdırmalıyıq, 6 şəhərdə yeni Mərkəzi Rayon Xəstəxanası istifadəyə veriləcək. Qazax, Qobustan, Şəmkir, Quba, Naftalan və Goranboy şəhərlərində xəstəxanalar açılacaq, Xırdalan, Qəbələ şəhərlərində və Füzuli rayonunda müasir xəstəxanaların tikintisi davam etdiriləcəkdir. 4 Olimpiya İdman Kompleksinin tikintisi nəzərdə tutulur. Onlardan ikisi bu il istifadəyə verilməlidir.

Sənaye parklarının yaradılması istiqamətində praktiki addımlar atılır. Keçən il Neftçala Sənaye Məhəlləsi istifadəyə verilib. Hacıqabul, Masallı və Sabirabad sənaye məhəllələrinin yaradılması prosesi davam etdirilir.

Mingəçevirdə Yüngül Sənaye Parkının ilk fabriklərinin açılışı bu il gözlənilir. Sumqayıt Kimya Sənaye Parkında isə işlər çox uğurla gedir. Keçən ilin sonunda 4 yeni müəssisənin açılışı oldu və 3 müəssisənin təməli qoyuldu. Əminəm ki, onların istifadəyə verilməsi bu il, ya da ki, gələn ilin əvvəllərinə nəzərdə tutulacaqdır. Beləliklə, Sumqayıt Kimya Sənaye Parkının rezidentlərinin sayı 15-ə çatıb. Ora qoyulan və qoyulacaq sərmayənin həcmi 2,7 milyard dollara bərabərdir. Bax, bu təşəbbüs görün nə qədər gözəl nəticə verir. 2,7 milyard dollar sərmayə qoyuluşu böyük rəqəmdir. Halbuki Sumqayıt Kimya Sənaye Parkının ərazisində hələ 2-3 il bundan əvvəl dağılmış binalar, çürümüş borular, infrastruktur – hamısı bərbad vəziyyətdə idi. Dövlət bu yükü öz üzərinə götürdü, vəsait ayırdı və bütün lazım olan infrastrukturu yaratdı. Digər sənaye parklarımızda da bu işi dövlət öz üzərinə götürür və götürməlidir. O cümlədən dövlət kənd təsərrüfatı ilə bağlı olan işləri – infrastruktur işlərini, meliorativ tədbirləri, kanalların

çəkilməsini, suyun sahələrə verilməsini öz üzərinə götürür. Deyə bilərəm ki, bu da dünya praktikasında çox nadir hallarda rast gəlinən məsələdir. Çünki bir çox ölkələrdə sahibkarlar özləri bu işləri görürlər.

Əminəm ki, 2018-ci il də sənaye inkişafı ilə bağlı əlamətdar il olacaqdır. 10 yeni Xalça fabrikinin açılışı nəzərdə tutulur. Beləliklə, ilin sonuna qədər xalça fabriklərinin sayı 20-yə çatmalıdır. Bu da minlərlə iş yeri deməkdir. Xüsusilə bu fabriklərdə işləyənlər qadınlardır. Bu, qadınlar üçün yaradılan gözəl iş yerləridir ki, onlar öz biliklərini, istedadlarını orada əks etdirə bilirlər və özləri üçün də, ölkəmiz üçün də yaxşı maliyyə imkanları yaradırlar. Onların məhsulları ixrac potensialımız, Azərbaycan xalçasının dünyada təbliği üçün gözəl imkanlar yaradır. Ona görə bu il 10 yeni Xalça fabrikinin açılışı nəzərdə tutulur.

2018-ci il kənd təsərrüfatının inkişafı üçün də uğurlu olacaqdır. Keçən il kənd təsərrüfatı 4,1 faiz artıbdır. Bu, yaxşı göstəricidir. Biz həm ərzaq təhlükəsizliyi məsələlərini həll edirik, həm də kənd təsərrüfatının bizim üçün ənənəvi olan texniki sahəsini inkişaf etdiririk. Qeyd etməliyəm ki, Davos Dünya İqtisadi Forumu da ərzaq təhlükəsizliyi ilə bağlı hesablama aparıb. Ərzaq təhlükəsizliyi indeksinə görə Azərbaycan 57-ci yerdədir. Bu, yaxşı göstəricidir. Ərzaq təhlükəsizliyi ilə, xüsusilə taxılçılıqla bağlı əlavə tədbirlər görüləcək ki, biz keçən il olduğu kimi, bu il də idxaldan asılılığı azaldaq və ixrac yönümlü məhsulların həcmi artsın.

Keçən il bölgələrdə pambıqçılıq, baramaçılıq, fındıqçılıq, tütünçülük, çayçılıq, çəltikçilik, sitrusçuluq üzrə müşavirələr keçirilmiş, bir neçə Dövlət Proqramı qəbul edilmişdir. Biz görürük ki, bu sahələrdə çox böyük inkişaf vardır. Bu sahələrə göstərilən diqqət həm iş yerlərinin yaradılmasına gətirib çıxarır, həm də ixrac potensialımızı artırır. Misal üçün, 2017-ci ildə 207 min ton, 2016-cı ildə 89 min ton, 2015-ci ildə isə 35 min ton pambıq yığılıbdır. Yəni biz 2 il ərzində pambıq istehsalını,

demək olar ki, 8 dəfə artırmışıq və 200 minə yaxın insan pambıqçılıq sahəsində çalışır, pul qazanır.

Barama 2015-ci ildə 200 kiloqram, 2016-cı ildə 70 ton, 2017-ci ildə 245 ton tədarük edilibdir. Bu da kümçülərin sosial vəziyyətinin yaxşılaşdırılmasına xidmət göstərir. Bu il bu rəqəm 450–500 tona çatmalıdır və biz ipəkçiliyin şöhrətini bərpa edəcəyik.

Keçən il 18 min hektarda fındıq bağları salınıb. Beləliklə, fındıq bağlarının sahəsi 55 min hektara çatıb və bizim hədəfimiz bunu 80 min hektara çatdırmaqdır. Fındıqçılıq kənd təsərrüfatının inkişafı və ixrac imkanlarımızın genişləndirilməsində önəmli yer tutacaqdır. Bu gün ixrac edilən kənd təsərrüfatı məhsulları arasında fındıqçılıq ikinci yerdədir. Fermerlər bu məhsulun ixracından 100 milyon dollardan çox vəsait əldə ediblər. Birinci yerdə pomidor ixracıdır. Bu sahəyə də çox böyük maraq və tələbat vardır. Keçən il 140 milyon dollar dəyərində pomidor ixrac edilibdir. İndi ölkəmizdə 400 hektardan böyük bir sahədə yeni istixana komplekslərinin yaradıldığını nəzərə alsaq, təsəvvür etmək olar ki, tərəvəz ixracı nə qədər artacaqdır. Çünki biz özümüzü tərəvəzlə çoxdan təmin edirik.

Tütünçülüyə göstərilən diqqət öz bəhrəsini verir. Əgər 2016-cı ildə 3500 ton tütün tədarük olunmuşdusa, keçən il bu rəqəm 5200 tona çatıb. Bu il də bir çox önəmli tədbirlər görüləcək, qurutma kameraları alınacaq və fermerlərə əlavə dəstək veriləcəkdir. Biz tütünçülüyün bərpasına çox yaxınıq və gələcəkdə tütünü nəinki xammal kimi, hazır məhsul – siqaret şəklində ixrac etməliyik.

Digər sahələrdə – sitrusçuluq, çayçılıq, çəltikçilik sahələrində də inkişaf vardır. Heyvandarlığa çox böyük diqqət göstərilir və bu il ölkəmizə minlərlə baş cins mal-qara gətiriləcəkdir. Bilirəm ki, 40-dan çox aqroparkın arasında heyvandarlıq arqoparkları da önəmli yer tutur. Beləliklə, əminəm ki, biz yaxın gələcəkdə özümüzü ət və süd məhsulları ilə tam şəkildə təmin edəcəyik.

Yeni kənd təsərrüfatı texnikasının alınması üçün 160 milyon manat vəsait nəzərdə tutulubdur. Burada əsasən taxılbiçən, pambıqyığan kombaynlar, traktorlar, qoşqular, digər avadanlıqlar nəzərdə tutulur. Keçən il isə ölkəmizə 10 min kənd təsərrüfatı texnikası gətirilib. Dövlət vəsait ayırır, texnika gətirir, lizinq yolu ilə fermerlərə verir. Yəni kənd təsərrüfatı dövlətin dəstəyi olmadan inkişaf edə bilməz. Bunu hamı bilməlidir. Əlbəttə, rentabellik olmalıdır. Bəzi sahələr rentabelli sahələrdir, bəzi sahələr isə subsidiya hesabına yaşamalıdır. Bu, inkişaf etmiş ölkələrdə də belədir. Orada da subsidiyalar var, orada da dövlət fermerləri dəstəkləyir ki, ərzaq təhlükəsizliyi təmin edilsin, iş yerləri yaradılsın. Biz də bu yolla gedirik. Ona görə əgər hansısa kənd təsərrüfatı sahəsində istehsal o qədər də rentabelli deyilsə, bu, böyük faciə deyil. Dövlət ilkin mərhələdə öz dəstəyini göstərir, ondan sonra hər şey yoluna düşür. Necə ki, biz indi kənd təsərrüfatının istehsalında bu artımı görürük. Əgər dövlət lazım olan vaxtda öz dəstəyini göstərməsəydi, bu gün kənd təsərrüfatında 4,1 faiz artımdan söhbət belə, gedə bilməzdi, əksinə, bəlkə də bu sahə tənəzzülə uğrayardı. Biz indi meliorativ tədbirlər də görürük, unudulmuş sahələri bərpa edirik, o cümlədən zeytunçuluğu. Bu il minlərlə hektarda zeytun bağları salınacaq. Arıçılığın da çox böyük ixrac potensialı vardır. Azərbaycan dünya miqyasında arıçılıq, bal istehsalı sahəsində önəmli yer tuta bilər, müvafiq göstərişlər verilibdir. Əminəm ki, 2018-ci ildə yaxşı nəticələr olacaqdır.

Biz keçən il 4 ticarət nümayəndəliyi yaratmışıq, müxtəlif ölkələrə bir çox ixrac missiyaları göndərilibdir. Bunun da müsbət təsiri vardır. Bu ticarət nümayəndəliklərinin nəticələri elə olmalıdır ki, bizim ixracımız artsın. Missiyaların fəaliyyəti o ölkələrə, yaxud da ki, bölgələrə ixracın həcmindən asılı olacaqdır. Ona görə bu məsələyə çox ciddi yanaşmaq lazımdır. Bu ticarət missiyalarının yaradılması o məqsədi güdür ki, həmin ölkələrə və bölgələrə ixracımız artsın.

Bu il 3 «ASAN xidmət» Mərkəzi fəaliyyətə başlayacaq – Mingəçevir, İmişli və Şəki şəhərlərində. Beləliklə, «ASAN xidmət» mərkəzlərinin sayı 15-ə çatacaqdır. Mən göstəriş vermişəm ki, bu il 5 şəhərdə «ASAN xidmət» Mərkəzinin tikintisinə başlanılsın. Onlar yəqin ki, 2019-cu ildə istifadəyə veriləcək. Beləliklə, 1 ildən sonra bizim 20 «ASAN xidmət» Mərkəzimiz olacaqdır. Bu günə qədər «ASAN xidmət» mərkəzlərinə 20 milyona yaxın müraciət daxil olub. «ASAN xidmət» ictimai xidmət sahəsində çox ciddi dönüş yaradıbdır.

Turizmin inkişafı ilə bağlı bu il də əlavə tədbirlər görüləcəkdir. 2016-cı ildə xarici turistlərin sayı 24 faiz artıb, keçən il əlavə 20 faiz artım olub və rekord səviyyəyə çatıbdır. Ölkəmizə 2,7 milyon xarici vətəndaş gəlibdir. Bu çox müsbət haldır. Bunun səbəbləri var – əlbəttə, mən bu barədə dəfələrlə danışmışam – həm sabitlik, təhlükəsizlik, qonaqpərvərlik, həm müasir infrastruktur, tarixi abidələrimiz, turizm sahəsinə göstərilən dövlət dəstəyi və əminəm ki, beynəlxalq tədbirlər, beynəlxalq yarışlar da turistləri ölkəmizə cəlb edir. Sevindirici hal ondan ibarətdir ki, keçən il turistlər bank kartları ilə 70 faiz çox pul xərcləmişlər. Turistlərin sayı cəmi 20 faiz artıb, amma xərclənən pul isə 70 faiz artıbdır. Bu da çox müsbət haldır. Turizm də ixracın bir növüdür, çünki turizm ölkəyə valyuta gətirir.

Qeyd etdiyim kimi, «Cənub Qaz Dəhlizi» ilə bağlı önəmli hadisələr gözlənilir. TANAP layihəsinin istifadəyə verilməsi gözlənilir. Nəqliyyat sahəsində Bakı Beynəlxalq Dəniz Ticarət Limanının birinci mərhələsinin başa çatması nəzərdə tutulur. Mən dünən limanda olmuşam. Biz Ro-Ro terminalının açılışını qeyd etdik. Orada işlərin böyük əksəriyyəti, demək olar ki, görülüb. Liman indi fəaliyyət göstərir. Əminəm ki, liman bu ilin birinci yarısında istifadəyə veriləcək. Beləliklə, Azərbaycan Xəzər hövzəsində ən böyük dəniz ticarət limanına sahib olacaqdır. Bu limanın birinci mərhələdə yükaşırma qabiliyyəti 15 milyon ton yük və 100 min konteynerdir. Gələcəkdə tələbat

artdıqca, biz qısa müddət ərzində və o qədər də böyük olmayan vəsaitlə limanı 50 faiz, 70 faiz genişləndirə bilərik.

Bu il Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyəti üçün çox önəmli il olacaqdır. Demək olar ki, Bakı–Tbilisi–Qars dəmir yolunun fəaliyyətinin birinci ili olacaqdır. Mən qeyd etdim ki, bu yola böyük maraq var və artıq Bakı–Tbilisi–Qars Avrasiyanın nəqliyyat xəritəsini təzələyib və Azərbaycan bu sahəyə öz töhfəsini veribdir.

Giriş sözümdə qeyd etdiyim kimi, Azərbaycan ərazisində Şimal–Cənub nəqliyyat dəhlizi ilə bağlı bütün işlər görülüb. İndi biz bu yolla daşınacaq böyük yüklər gözləyirik. Ona görə mövcud olan dəmir yolu daha da yaxşı vəziyyətə gətirilməlidir. Yəni dəmir yolunun sürəti artmalıdır. Bu məqsədlə biz Bakı–Yalama və Bakı–Astara dəmir yolunun tədricən yenidən qurulması ilə bağlı işlər görməliyik. Bu ilin investisiya proqramında Bakı–Yalama dəmir yolunun əsaslı təmiri və yenidən qurulması məsələsi öz əksini tapıbdır. Bakı–Astara dəmir yolunun xüsusilə dənizə yaxın olan hissəsinin köçürülməsi məsələsi də öz həllini tapacaqdır, yəni texniki-iqtisadi əsaslandırma hazırlanmalıdır. Bunun turizm üçün də böyük əhəmiyyəti olacaqdır, çünki indi sahilin böyük hissəsi dəmir yolu infrastrukturu ilə zəbt edilibdir. Bu, önəmli layihədir. Turizmin inkişafı üçün biz bir layihəni də Dövlət İnvestisiya Proqramına salmışıq. Bu da Ləki–Qəbələ dəmir yolunun tikintisidir. Beləliklə, Qəbələ şəhərinə dəmir yolunun çəkilişi təmin ediləcəkdir. Bu gün Qəbələ Bakıdan sonra Azərbaycanda ikinci turizm mərkəzidir. Əlbəttə ki, dəmir yolunun Qəbələyə çatdırılması turistlərin axınını daha da sürətləndirəcəkdir.

Növbəti illərdə «Şahdağ» xizək kurortuna da dəmir yolunun çəkilişini təmin etmək bizim planımızdadır. Bu layihəni biz, əlbəttə, Bakı–Yalama dəmir yolu ilə uzlaşdırmalıyıq. Çünki Şahdağa dəmir yolu ilə getmək üçün gərək o, sürətli yol olsun. İndi Bakı–Yalama yolu o vəziyyətdə deyil ki, orada sürətli qatar

işləyə bilsin. Bakı–Yalama yolu ilə Qusar rayonuna gedən dəmir yolu bir layihədə öz həllini tapacaq. Bu da bizim planımızda var, istərdim ki, Azərbaycan ictimaiyyəti də bunu bilsin.

Bu il 2000 kilometrdən çox avtomobil yolu çəkilməlidir. Keçən illə müqayisədə bu təxminən 2 dəfə çoxdur. Ən azı 600 yeni kəndə avtomobil yolu çəkilməlidir.

Ümumiyyətlə, bu layihələr daxil olmaqla, 2004-cü ildən bu ilin sonuna qədər Azərbaycanda 15 min kilometr avtomobil yolunun tikintisi təmin ediləcəkdir. Bu çox böyük rəqəmdir.

Bu il bölgələrdə qazlaşdırılma işlərinin aparılması üçün Dövlət Neft Şirkətinə dövlət büdcəsindən təxminən 100 milyon manat vəsait ayrılacaqdır. İstəyirəm ictimaiyyət də bilsin ki, dövlət bu sahəyə öz maliyyə dəstəyini verir. Əlbəttə, Dövlət Neft Şirkəti özü pul qazanır. Ancaq bu önəmli strateji sosial layihəyə dövlət öz dəstəyini göstərir və ayrılan vəsait nəticəsində Azərbaycanda ilin sonuna qədər qazlaşdırılmanın səviyyəsi 95 faizə çatmalıdır.

Digər infrastruktur layihələri haqqında da demək istərdim. Bu da suvarma ilə bağlı olan layihələrdir. Bu il 100 min hektardan çox yeni sahələrin su təminatı təşkil edilməlidir. Yerlər müəyyənləşdirilib, layihələr, demək olar ki, təsdiqlənib, yeni kanallar çəkiləcəkdir. Beləliklə, kənd təsərrüfatı üçün yeni imkanlar yaranacaqdır.

Mənim bölgələrə səfərlərim çərçivəsində ictimaiyyət tərəfindən qaldırılan məsələlərdən biri də suvarma ilə bağlı olan problemlərdir. Vətəndaşlar tərəfindən qaldırılmış bütün təkliflər Dövlət İnvestisiya Proqramında nəzərə alınıb və bu il bu günə qədər suvarılmayan ən azı 100 min hektar torpağa su gətiriləcəkdir. Bu il ən azı 300 subartezian quyusu qazılacaqdır. Hər il 300 quyu qazırıq, bu il də 300 nəzərdə tutulub, amma çox da ola bilər.

Bunlar görüləcək əsas işlərdir. Əlbəttə, görüləcək bütün işləri bu gün sadalamaq mümkün deyil, çox vaxt lazımdır.

Amma qarşımızda duran əsas vəzifələr bundan ibarətdir. Bütün bu vəzifələri təmin etmək üçün bizdə texniki imkanlar vardır. Biz Azərbaycanda uzun illərdir daxili istehsalın artırılması ilə bağlı çox ciddi məşğuluq. Bizim tikinti materiallarımız və maliyyə imkanlarımız vardır. Dövlət büdcəmiz 3 milyard manat artıbdır. Siyasi iradəmiz də vardır. Ona görə dediyim bu vəzifələr minimum proqramdır. Ən azı bunlar görüləcəkdir. Amma görüləcək işlər bundan daha çoxdur. Əminəm ki, 2018-ci il də ölkəmiz üçün uğurlu olacaqdır.

Bu il biz müstəqilliyimizin 100 illiyini qeyd edəcəyik. 100 il bundan əvvəl müsəlman aləmində ilk dəfə olaraq demokratik respublika yaradılmışdır. Biz fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıb və bir daha bütün dünyaya nümayiş etdirib ki, Azərbaycan xalqı böyük xalqdır, istedadlı xalqdır, azad xalqdır. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması və 2 il ərzində fəaliyyəti tarixi hadisə idi. Azərbaycan o ölkələrdəndir ki, hələ 100 il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edibdir. Bugünkü müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq. Ancaq onu da qeyd etməliyəm ki, indiki Azərbaycan Azərbaycan Xalq Cümhuriyyəti ilə müqayisə edilə bilməz. Çünki o vaxt çətinliklər də olub, müstəqilliyimiz tam imkan vermirdi ki, Azərbaycan müstəqil siyasət aparsın. İqtisadi çətinliklərimiz də olub, torpaq itkilərimiz də olub – bizim tarixi şəhərimiz olan İrəvan Ermənistana verilmişdir. Ona görə biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik. Amma bütün çətinliklərə və bizim üçün sağalmayan yara olan İrəvanın Ermənistana verilməsinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini Azərbaycan dövləti və xalqı yüksək qiymətləndirir.

Bunu nəzərə alaraq, mən 2018-ci ili ölkəmizdə «Azərbaycan Xalq Cümhuriyyəti ili» elan edirəm. İl ərzində həm ölkəmizdə, həm də xaricdə bununla əlaqədar bir çox tədbirlər keçiriləcəkdir. Sağ olun.

## GÜRCÜSTAN RESPUBLİKASINA BAŞSAĞLIĞI

*15 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezident İlham Əliyev yanvarın 10-da Gürcüstan Respublikasının Azərbaycanda ilk Fövqəladə və Səlahiyyətli səfiri Giorgi Çanturianın vəfatı ilə əlaqədar mərhumun ailəsinə başsağlığı vermişdir.*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizə məxsus tankerin qəzaya uğraması nəticəsində ekipaj üzvlərinin həlak olması barədə xəbər məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İran xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *15 yanvar 2018-ci il*

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*15 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 15-də ölkəmizdə işgüzar səfərdə olan Bolqarıstan Respublikasının Baş Naziri Boyko Borisov ilə təkbətək görüşü olmuşdur.*

*Azərbaycan Prezidenti İlham Əliyev Bolqarıstanın Baş Naziri Boyko Borisovu qarşıladı.*

*Sonra birgə foto çəkdirildi.*

*Görüşdə ikitərəfli siyasi, iqtisadi və digər sahələrdə münasibətlərin uğurla inkişaf etdiyi bildirildi. Bolqarıstanın Baş Naziri Boyko Borisovun Azərbaycana səfərinin əlaqələrin möhkəmlənməsi baxımından əhəmiyyəti qeyd olundu, ikitərəfli münasibətlər, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə edildi.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*15 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bolqarıstan Respublikasının Baş Naziri Boyko Borisovun yanvarın 15-də nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü keçirilmişdir.*

*Azərbaycan Prezidenti İlham Əliyev və Bolqarıstanın Baş Naziri Boyko Borisov görüşdə çıxış etdilər.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş Nazir!

Hörmətli qonaqlar!

Mən sizi səmimi-qəlbdən salamlayıram. Xoş gəlmisiniz! Sizi yenidən görməyimə çox şadam. Cənab Baş Nazir, Siz artıq birinci dəfə deyil ki, ölkəmizə səfər edirsiniz. Mən də Bolqarıstanda tez-tez oluram. Ölkələrimiz arasında, o cümlədən bizim də səylərimizlə möhkəmlənən çox sıx dostluq münasibətləri qurulubdur. Biz bu gün artıq həm siyasi, həm enerji sahələrində ikitərəfli qarşılıqlı fəaliyyətin bir çox vacib məsələlərini müzakirə etdik. Mən cənab Baş Naziri Bolqarıstanın Avropa İttifaqına sədrliyi münasibətilə təbrik etdim. Bu sizin ölkənizin böyük uğurudur, böyük məsuliyyətidir. Əminəm ki, Siz bu vacib vəzifənin öhdəsindən şərəflə gələcəksiniz. Əlbəttə ki, bu gün həm də nümayəndə heyətlərinin iştirakı ilə siyasi, iqtisadi, enerji siyasətinə dair vacib məsələləri müzakirə edəcəyik. Bizi bir çox cəhətlər, əsasən də xalqlarımız arasında dostluq əlaqələri və ölkələrimizin rəhbərləri arasındakı dostluq münasibətləri birləşdirir. Mən çox şadam ki, 2018-ci il bizim üçün dostumuzun səfəri ilə başlayır. Xoş gəlmisiniz!

**B o y k o B o r i s o v**: Cənab Prezident, Sizə təşəkkür edirəm. Hörmətli həmkarlar, mən həqiqətən, qeyd edə bilərəm ki,

xalqlarımız arasında müstəsna dərəcədə qarşılıqlı rəğbət hissi vardır. Çox gözəl haldır ki, Prezident İlham Əliyevlə indiyədək razılaşdırdığımız bütün məsələlər həll edilib. Mən hesab edirəm ki, Bakı ilə Sofiya arasında açılan birbaşa aviareys ölkələrimiz arasında yaxın münasibətlərin, turizmin və işgüzar əlaqələrin inkişafına töhfə verəcəkdir. Bu iş artıq görülüb. Qarşımızda yeni vəzifələr durur.

## BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ BOYKO BORİSOV İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*15 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bolqarıstan Respublikasının Baş Naziri Boyko Borisov yanvarın 15-də geniş tərkibdə görüş başa çatdıqdan sonra mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan Prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli cənab Baş Nazir!
Hörmətli qonaqlar!

Cənab Baş Nazir, Sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Biz Sizin səfərinizə böyük əhəmiyyət veririk. Əgər belə deməmk mümkündürsə, biz 2018-ci ili Azərbaycanda Sizin səfərinizlə açırıq. Bu il birinci xarici qonaq dost ölkənin Baş Naziri cənab Boyko Borisovdur.

Bizim əlaqələrimiz çox uğurla inkişaf edir. Biz siyasi sahədə fəal əməkdaşlıq edirik. Yüksək səviyyəli qarşılıqlı səfərlər həyata keçirilir. Mən dəfələrlə Bolqarıstanda səfərdə olmuşam. Cənab Baş Nazir Azərbaycana üçüncü dəfədir ki, səfər edir. Cənab Borisov keçən dəfə 2015-ci ildə Azərbaycanda səfərdə olub. O vaxt cənab Baş Nazir birinci Avropa oyunlarının açılışı mərasimində iştirak edirdi. Biz Azərbaycanda Sizin bu mərasimdə iştirakınızı yüksək qiymətləndiririk, bunu yadda saxlayırıq və bir daha buna görə Sizə minnətdarıq.

Bu gün biz əlaqələrimizin müxtəlif aspektlərini geniş müzakirə etdik. Bir daha təsdiq etdik ki, Bolqarıstan və Azərbay-

can iki dost ölkə kimi, bundan sonra da uğurla əməkdaşlıq edəcək. İqtisadi sahədə biz çalışmalıyıq ki, aramızdakı ticarət dövriyyəsinin həcmini artıraq. Hazırda bu, lazımi səviyyədə deyil. Müvafiq göstərişlər verildi ki, qısa müddət ərzində ticarət dövriyyəsinin artırılması istiqamətində konkret addımlar atılsın. Hesab edirəm ki, qarşılıqlı sərmayə qoyuluşu üçün də yaxşı imkanlar var və biz bu istiqamətdə də işləyəcəyik.

Əlbəttə, bu gün danışıqlarımızın əsas mövzusu energetika sahəsi ilə bağlı idi. Bildiyiniz kimi, bu sahədə biz tərəfdaşıq. Azərbaycan və Bolqarıstan digər ölkələrlə birlikdə «Cənub Qaz Dəhlizi»nin icrasını təmin edir. Azərbaycanın zəngin qaz yataqları vardır. Təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrə bərabərdir. «Cənub Qaz Dəhlizi»nin inşası Avropanın enerji təhlükəsizliyinə növbəti töhfəmiz olacaqdır. Hazırda Azərbaycan nefti bir çox Avropa ölkələrinin enerji təhlükəsizliyini təmin edir və yaxın gələcəkdə Azərbaycan qazı da eyni funksiyanı daşıyacaqdır. «Cənub Qaz Dəhlizi»nin icrası uğurla gedir. «Şahdənz-2» layihəsinin icrası 99 faizə çatıbdır. «Şahdəniz-2» «Cənub Qaz Dəhlizi»nin əsas resurs bazasıdır. Bu il TANAP layihəsinin başa çatması nəzərdə tutulub və bu layihənin icrası da 90 faizə çatıbdır. Beləliklə, bütün işlər qrafik üzrə gedir və bu nəhəng layihə uğurla icra edilir. «Cənub Qaz Dəhlizi»nin icrasından sonra Avropanın enerji təhlükəsizliyi məsələləri daha da möhkəm təməl üzərində qurulacaqdır və biz şadıq ki, Azərbaycan bu məsələyə öz töhfəsini verməkdədir.

Bir neçə ildən sonra 1 milyard kubmetr Azərbaycan qazının Bolqarıstan ərazisinə nəql ediləcəyini nəzərə alaraq, biz bu gün cənab Baş Nazirlə müvafiq qurumların rəhbərlərinə göstərişlər verdik ki, tezliklə Azərbaycan şirkəti SOCAR-ın Bolqarıstanda qazlaşdırılma ilə bağlı məsələni araşdırsınlar və imkanları haqqında məlumat versinlər.

Azərbaycan ölkə daxilində qazlaşdırılmanı uğurla icra edir. Hazırda ölkəmizin 93 faizi qazlaşdırılıb və cari ilin sonuna qədər bu rəqəm 95 faizə çatacaqdır. Bununla paralel olaraq, digər

ölkələrdə də SOCAR qazlaşdırılma ilə bağlı investor kimi fəaliyyət göstərir, o cümlədən Gürcüstanda və Albaniyada. Albaniyanın qazlaşdırılması ilə bağlı müvafiq memorandum imzalanıbdır. Hesab edirəm ki, Bolqarıstanda da qazlaşdırılma ilə bağlı SOCAR-ın investor kimi fəaliyyəti həm SOCAR üçün, həm də Bolqarıstan istehlakçıları üçün önəmli hadisə ola bilər. Müvafiq göstərişlər verilibdir və əminəm ki, danışıqlar tezliklə başlanacaqdır.

Mən cənab Baş Nazirə məlumat verdim ki, keçən ilin oktyabr ayında Bakı–Tbilisi–Qars dəmir yolunun Bakıda təntənəli açılışı olmuşdur. Bu dəmir yolu Avrasiyanın nəqliyyat xəritəsini yenidən tərtib edir. Bu, Avropa ilə Asiya arasında ən qısa nəqliyyat marşrutu olacaqdır. Artıq Bakı–Tbilisi–Qars dəmir yolu işləyir və məsafə baxımından Avropa ilə Asiya arasında ən qısa yoldur. Vaxt baxımından isə cəmi 2 həftə ərzində Asiyadan Avropaya yüklər bu dəhliz vasitəsilə daşına bilər. Əlbəttə, Bolqarıstan da bu dəhlizin üzərində yerləşdiyi üçün biz göstərişlər verdik ki, müvafiq qurumlar bu məsələni də müzakirə etsin və yükdaşımalarının artırılması istiqamətində işlər görülsün.

Bildiyiniz kimi, sabah Bakı–Sofiya marşrutu ilə birinci aviareys təşkil ediləcəkdir. Azərbaycanın «Buta Airways» şirkəti birinci reysi icra edəcək. Bu da çox əlamətdar hadisədir. Bu reys, əlbəttə ki, insanları bir-birinə daha da sıx bağlayacaq, insanlararası əlaqələr güclənəcək, turizmin inkişafına təkan veriləcək və bir sözlə, Bolqarıstan–Azərbaycan dostluğunu daha da möhkəmləndirəcəkdir.

Onu da qeyd etməliyəm ki, biz humanitar sahədə də əməkdaşlığımızı dərinləşdiririk. Azərbaycanda Bolqarıstanın mədəniyyətinə, tarixinə, ədəbiyyatına çox böyük maraq vardır. Bakı Slavyan Universitetində Bolqar Dili və Ədəbiyyatı Mərkəzi fəaliyyət göstərir. Əlbəttə ki, humanitar sahədəki əməkdaşlıq, insanlar arasındakı ünsiyyət bizim dostluğumuzu daha da möhkəmləndirir və möhkəmləndirəcəkdir.

Mən Baş Nazir Borisova Bolqarıstanın Avropa İttifaqına sədrliyi ilə bağlı təbriklərimi çatdırdım. Bu, Bolqarıstanın böyük uğurudur və böyük məsuliyyətidir. Əminəm ki, Bolqarıstan bu şərəfli missiyanı uğurla icra edəcək. Bolqarıstanın sədrliyi dövründə Avropa İttifaqı–Azərbaycan əlaqələrinin inkişafı üçün yeni imkanlar yaradılacaq, xüsusilə hazırda Avropa İttifaqı ilə biz yeni saziş üzərində iş aparırıq və danışıqlar çox uğurla davam etdirilir.

Bir sözlə, əziz dostlar, qonaqlar, sizin səfərinizə biz çox böyük əhəmiyyət veririk. Bolqarıstan bizim üçün yaxın, dost ölkədir, sizin səfəriniz bu dostluğu daha da möhkəmləndirir. Sağ olun.

### Bolqarıstanın Baş Naziri Boyko Borisovun bəyanatı

Hörmətli cənab Prezident!

Qonaqpərvərliyə görə Sizə təşəkkür edirəm. Trapezitsa kompleksi üçün görülən işlərə görə Sizə minnətdarlığımı bildirirəm. Bizim Prezident cənab Radevin salamlarını Sizə çatdırmaq istərdim. Mən ümidvaram ki, Siz bu ilin ikinci yarısında ölkəmizə işgüzar səfər edəcəksiniz və biz Sizin rəhbərliyinizlə böyük nümayəndə heyətini qəbul edəcəyik.

Mən Sizin söylədiklərinizi təkrar etmək istəməzdim. Lakin dediklərinizin Bolqarıstan üçün əhəmiyyətini qeyd etmək istərdim. Bolqarıstan ərazisinin cəmi 3 faizi qazlaşdırılıb. Biz qeyd edə bilərik ki, son günlər, xüsusən də qış dövründə hava çirklənir, özü də səbəb sənaye istehsalı və avtonəqliyyat deyil, məişətdə odun və kömürün yanacaq kimi istifadə olunmasıdır. Biz istərdik elə məişət yanacağından istifadə olunsun ki, ətraf mühitə zərər yetirilməsin. SOCAR-ın dəstəyi və Azərbaycan qazının tədarükü sayəsində qonşu Gürcüstan qazlaşdırılıb. Biz çoxdandır ki, Bolqarıstanın qazlaşdırılması üçün 2 variantın mövcudluğu barədə danışırıq. Ümid edirik ki, iyun ayında Yunanıstanda interkonnektorun tikintisi başlanacaq və iyulda Türkiyə ilə

sərhəddə interkonnektor işə düşəcəkdir. Qeyd etmək istərdim ki, hörmətli Prezident İlham Əliyevin xeyir-duası ilə bizim şirkətlə SOCAR arasında 1 milyard kubmetr həcmində Azərbaycan qazının sərfəli qiymətlərlə çatdırılması məsələsi həllini tapacaq. Əgər hörmətli Azərbaycan Prezidentinin dəstəyi ilə ölkəmizin qazlaşdırılmasına nail olsaq, biz əhalinin sosial cəhətdən zəif təbəqəsi üçün qazın təchizatı mümkünlüyünü təmin edə biləcəyik və onlar daha odundan, kömürdən istifadə etməyəcəklər. Hər iki ölkənin Energetika və İqtisadiyyat nazirlərinin iştirakı ilə bu işin həyata keçirilməsi üçün miqdar və müddətə dair plan tətbiq ediləcək. Çünki Azərbaycan tərəfi qazın təchizatının ən sərfəli qiymətlərini təklif edir. 1 milyard kubmetr qaz Bolqarıstanda böyük sayda evləri məişət qazı ilə təmin edəcəkdir.

Nəqliyyat dəhlizlərinə gəlincə, mən xatırlayıram ki, Prezident Əliyevlə çoxdankı ilk görüşümüz zamanı biz bir çox ölkələrin sabotaj etdiyi Azərbaycan və Türkiyə arasında dəmir yolu dəhlizinin inkişafı perspektivləri barədə danışırdıq. Bu isə Avropaya ən qısa nəqliyyat dəhlizidir. Biz də bunun inkişafı üçün öz dəmir yolu şəbəkələrimizi hazırlayırıq. Bu həm Azərbaycan, həm Qazaxıstan, həm də Çinlə əlaqə deməkdir. Bu nəqliyyat qovşağı bizim dəmir yolu stansiyalarımıza, oradan isə bütün Avropa ölkələrinə çıxa bilər. Bizim «Berlin prosesi»nə əsasən, 8 və 10 saylı nəqliyyat dəhlizlərinə dair birgə gördüyümüz işlər bu yolların Skopyeyə gəlib çatmasına imkan verəcəkdir. Mən Bolqarıstanla müqaviləni ratifikasiya edən makedoniyalı dostlarımızı təbrik etmək istərdim. Bu çox vacib müqavilədir. Ümid edirik ki, onu sonra bütün ölkələr imzalaya biləcəkdir. Bu nəqliyyat dəhlizi Albaniyaya çıxan dəmir yolu xəttinin bir qoludur və avtomobil yolu yaxşı imkanlar açır. Salonikidən şaxələnən avtomobil yolunda 2 körpü mövcuddur – Vrusi və Vedeno-Sofiburkas körpüləri. Sofiya–Saloniki avtomobil yolunun üçdə iki hissəsi işlək vəziyyətdədir və gələn il tam istifadəyə veriləcəkdir. Hər iki tərəfə böyük həcmdə yüklər daşına biləcəkdir. İcazə verin, Sizi bu

dəmir yolunun tikintisinə dair maneələrin aradan qaldırılması münasibətilə təbrik edim. Çox sevindiricidir ki, bu yol artıq işləyir.

Bolqarıstandan Azərbaycana əsasən kənd təsərrüfatı və iqtisadiyyat sahələrində məhsulların ixracı həyata keçirilir. Biz ümid edirik ki, bu imkanları genişləndirə bilərik. Əgər Azərbaycan qazının Bolqarıstana təchizatı baş tutarsa, biz bu əmtəə mübadiləsini tarazlaşdıra bilərik. Bütün bu investisiyaların yatırılması, birbaşa nəqliyyatın mövcudluğu – nəzərə alsaq ki, biz Bakıya təyyarə ilə 3 saata gələ bilərik – bizə iqtisadiyyatı, turizmi inkişaf etdirməyə rəvac verəcək və Azərbaycan turistlərinə Bolqarıstanın dağ və dəniz kurortlarına gəlmələrinə imkan yaradacaqdır. Bolqar turistləri sizin qədim diyarınıza böyük maraq göstərirlər. Bu hər iki ölkə üçün faydalıdır.

Təbii ki, Brüsseldə bizim həmkarlarımızla söhbət zamanı Avropa oyunlarının müsəlman ölkəsində keçirilməsinin boykot edilməsi tendensiyası müşahidə olunurdu. Kimsə bu tədbiri pozmağa çalışırdı. Biz bunu bilirik. Təbii ki, bununla bağlı bizim başqa mövqemiz vardı. Deməzdim ki, bu hansısa ayrıca bir siyasətdir. Viza rejiminin sadələşdirilməsi də əlaqələrimizin genişləndirilməsinə töhfə verə bilər. Mən öz üzərimə məsuliyyət götürərək, Avropa İttifaqındakı həmkarlarımla Ukrayna, Gürcüstan və Moldova ilə viza rejiminin asanlaşdırılmasını müzakirə etdim. Düşünürəm ki, biz bu istiqamətdə rahat fəaliyyət göstərə bilərik. Mən bunu etməyə çalışacağam. Amma bu, Avropa İttifaqındakı əsas həmkarlarımdan da asılıdır. Sizə təşəkkür edirəm.

## TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİ XARİCİ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ VOLKAN BOZKIRIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 16-da Türkiyə Böyük Millət Məclisi Xarici Əlaqələr Komitəsinin rəhbəri Volkan Bozkırın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Böyük Millət Məclisi Xarici Əlaqələr Komitəsinin rəhbəri Volkan Bozkır Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı. Volkan Bozkır bildirdi ki, Bakıya budəfəki səfərinin məqsədi Azərbaycan Respublikası Milli Məclisi Beynəlxalq Münasibətlər və Parlamentlərarası Əlaqələr Komitəsi ilə birgə keçirilən iclasında iştirak etməkdir. Bir neçə gün sonra ölkəmizdə qanlı 20 Yanvar hadisələrinin ildönümünün qeyd olunacağını xatırladan Volkan Bozkır 2018-ci ilin eyni zamanda, bir neçə əlamətdar hadisələrlə də zəngin olacağını qeyd etdi. Qonaq bu il Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyinin, Qafqaz İslam Ordusunun Bakını erməni işğalından azad etməsinin 100-cü ildönümünün, həmçinin müstəqilliyini yenidən bərpa etdikdən sonra Azərbaycanın dövlət müstəqilliyini tanıyan ilk dövlətin Türkiyə olmasının 25 illiyinin təntənəli qeyd olunması ilə bağlı bir sıra tədbirlərin həyata keçiriləcəyini bildirdi.*

*Ötən il ərzində 3 dəfə Türkiyəyə səfər etdiyini bildirən Prezident İlham Əliyev Türkiyə Respublikası Prezidentinin, Baş Nazirinin, həmçinin müxtəlif nazir və millət vəkillərinin Azərbay-*

*cana səfərlərinin əhəmiyyətini qeyd etdi, ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin daim möhkəmləndiyini, Azərbaycan ilə Türkiyənin beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq və qarşılıqlı dəstək nümayiş etdirdiklərini vurğuladı.*

*Dövlət başçısı Türkiyə Böyük Millət Məclisi Xarici Əlaqələr Komitəsinin rəhbəri Volkan Bozkırın Bakıya budəfəki səfərinin də öz növbəsində, uğurlu olacağına, parlamentlərarası əlaqələrin Azərbaycan–Türkiyə birliyini və əməkdaşlığını daha da möhkəmləndirəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev 2018-ci ilin ölkəmizin tarixində önəmli hadisələrlə zəngin il olacağına əminliyini bildirdi, Türkiyə ilə Azərbaycanın bu il də böyük layihələr həyata keçirəcəklərini diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi.*

## «AZƏRİŞIQ» ASC-nin BAKI PAYLAYICI ŞƏBƏKƏSİNİN YENİ İNZİBATİ BİNASININ VƏ YARIMSTANSİYALARININ AÇILIŞI MƏRASİMİ

*17 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 17-də «Azərişıq» Açıq Səhmdar Cəmiyyətinin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak etmişdir.*

*Orijinal layihə əsasında inşa edilmiş yeni inzibati bina və 220 saylı yarımstansiya bir-biri ilə harmoniya yaratmaqla, modern memarlıq üslubuna malikdir.*

*Prezident İlham Əliyev həmin obyektlərin rəmzi açılışını bildirən lenti kəsdi.*

*«Azərişıq» ASC-nin sədri Baba Rzayev görülən işlər barədə dövlət başçısına məlumat verdi.*

*Bildirildi ki, hazırda «Azərişıq»ın balansındakı bütün energetika qurğularının binaları, eləcə də ofis və yardımçı texniki binalar ən müasir standartlara uyğun inşa edilir. Qeyd edildi ki, əlavə torpaq sahəsi ayrılmadan, sıxlığa səbəb olmadan istismar müddətini keçmiş açıq paylayıcı quruluşlu yarımstansiyaların yerində əsasən qapalı tipli yarımstansiyalar və ərazidən səmərəli istifadə etməklə, inzibati binalar tikilir. Yenidən qurulmadan sonra istifadəyə verilən 220 saylı yarımstansiyanın ərazisində paralel olaraq meqapolislərin şəhərsalma prinsiplərinə müvafiq qaydada «Azərişıq» ASC-nin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası modern memarlıq üslubunda inşa olunubdur. Ofis binası ən müasir standartlara uyğundur. Yeni inzibati binada milli və beynəlxalq memarlıq ənənələri üzvi şəkildə bir-birini tamamlayır.*

*Sonra dövlət başçısına yeni yarımstansiya barədə məlumat verildi. Bildirildi ki, 1954-cü ildə tikilən və istismar müddəti başa çatan 220 saylı yarımstansiya tamamilə köhnəlmişdir. Prezident İlham Əliyevin sərəncamlarına əsasən, Bakı şəhərində həyata keçirilən infrastruktur layihələri, çoxmənzilli binaların tikintisi ilə əlaqədar həmin sosial obyektlərin dayanıqlı elektrik təchizatını təmin etmək üçün bir sıra yarımstansiyaların, o cümlədən 220 saylı yarımstansiyanın yerində qapalı tipli, müasir avadanlıqlarla təchiz edilmiş yeni yarımstansiya, həmçinin ərazidən səmərəli istifadə etməklə, Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunubdur. Paytaxtın Xətai, Nəsimi, Nərimanov və Səbail rayonlarının böyük hissəsini, o cümlədən bir çox strateji obyektləri elektrik enerjisi ilə təchiz edən yeni yarımstansiya əsaslı şəkildə genişləndirilib. Bu energetika qurğusunun gücü 2 dəfədən çox artırılaraq, 100 meqavoltamperə çatdırılıb. Hazırda həmin yarımstansiya 100 mindən çox sakini əhatə edən 25 min abonenti, həmçinin perspektivdə yaradılacaq obyektləri də elektrik enerjisi ilə təchiz etmək gücündədir. Yeni yarımstansiyaya «Sahil» yarımstansiyasından 35 kilovoltluq kabel xətti çəkilib. Bununla da mühüm əhəmiyyət kəsb edən Bakının qovşaq yarımstansiyalarının 35 kilovoltluq elektrik təchizatı sxeminin formalaşması işi başa çatdırılıb. Yarımstansiyada müasirtipli vakuum və eleqaz avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri quraşdırılıb. Bununla yanaşı, həmin yarımstansiya SCADA – məsafədən dispetçer idarəetmə sisteminə qoşulub ki, bu da birbaşa elektron idarəetməni təmin edir.*

*Yeni inzibati binada əməkdaşların səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. «Azərişıq» ASC-nin balansındakı bütün inzibati binalarda ən müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq edilir. Bakı Paylayıcı Şəbəkəsinin inzibati binasındakı iclas zalı da müasirliyi ilə seçilir. Burada qabaqcıl beynəlxalq təcrübədən geniş istifadə olunmaqla,*

*arxiv yaradılıb. Konfrans otağı da müasir tələblər səviyyəsində qurulubdur.*

*Sonra Prezident İlham Əliyevə Bakı Regional Elektrik Təchizatı və Satışı İdarəsinin yenidən qurulan 110/35/10 kilovoltluq «Yasamal-1» yarımstansiyası barədə məlumat verildi. Bildirildi ki, «Yasamal-1» yarımstansiyası Bakı şəhərində tikilən ilk 110 kilovoltluq yarımstansiyalardan biridir. Həmin yarımstansiya fiziki və mənəvi baxımdan istismarını tam başa vurmuşdu, günün tələblərinə cavab vermirdi, artan yüklərin qarşılanmasında, istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsində problemlər yaranırdı. Yeni inşa olunan yaşayış binalarının artan güc tələbatını ödəmək, perspektiv inkişafa uyğun olaraq, digər istehlakçıları dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün «Yasamal-1» yarımstansiyası tamamilə yenidən qurularaq, gücü 2 dəfədən çox artırılıb. Həmin yarımstansiyada 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular, məsafədən idarə edilən SCADA dispetçer mərkəzi inşa olunub. «Yasamal-1» yarımstansiyası dövlət əhəmiyyətli obyektlər də daxil olmaqla, Yasamal rayonunun böyük bir hissəsini elektrik enerjisi ilə təmin edir.*

*Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə 110 kilovoltluq «Yasamal-1» yarımstansiyasını işə saldı.*

*Sonra dövlət başçısına 35/10/6 kilovoltluq 120 saylı və Qobu qəsəbəsi ərazisində yeni inşa edilən 110/35/10 kilovoltluq «Qobu» yarımstansiyaları barədə məlumat verildi.*

*Yasamal rayonu ərazisində 1949-cu ildə tikilib istismara verilmiş 120 saylı yarımstansiyanın da elektrik avadanlıqlarının istismar müddəti bitdiyinə və bu enerji qurğusunun texniki parametrlərinin köhnəldiyinə görə istehlakçıların elektrik təchizatında çətinliklər yaranırdı. Yasamal rayonunda tikilən çoxsaylı hündürmərtəbəli yaşayış binalarının, təhsil, tibb, sosial və məişət obyektlərinin elektrik təchizatını təmin etmək üçün yarımstansiyanın yenidən qurularaq, gücləndirilməsi zərurəti yaranmışdı. Bu səbəbdən tamamilə yenidən tikilən 120 saylı yarımstansiyanın*

*gücü 2 dəfə artırılıb. Yarımstansiyada 35, 10 və 6 kilovoltluq yeni qapalı paylayıcı qurğular inşa edilib, müasirtipli eleqaz və vakuum elektrik avadanlıqları, digər avtomatika sistemləri quraşdırılıbdır. Bununla da həmin yarımstansiya 110 kilovoltluq «Yasamal-1», «Badamdar» və «Dağlıq» yarımstansiyalarından qidalanan 35 kilovoltluq elektrik təchizat sxeminə daxil edilib. Hazırda 120 saylı yarımstansiyadan dövlət əhəmiyyətli və iri enerji tutumlu obyektlər, yaşayış massivləri və digər sosial obyektlər elektrik enerjisi ilə təmin olunur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, Qobu qəsəbəsinin ərazisində ilk dəfə 110 kilovoltluq yeni yarımstansiya inşa edilib. Son illərdə bu ərazidə yaşayış massivlərinin sürətlə artması, o cümlədən Qobu, Güzdək, Aşağı Güzdək, Hökməli, Sulutəpə, Masazır, Müşfiq qəsəbələrinin və Xırdalan şəhərinin böyük bir hissəsinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi üçün bu yarımstansiyanın inşası zəruri idi. Yarımstansiyanın 110 kilovoltluq 3-cü və 4-cü Puta hava xətlərinə birləşdirilməsi üçün 110 kilovoltluq dayaqlar quraşdırılıb, yaşayış məntəqələrini elektrik enerjisi ilə təmin etmək məqsədilə 10 kilovoltluq hava xətləri çəkilibdir. Yeni inşa edilmiş «Qobu» yarımstansiyasından çəkiləcək 35 kilovoltluq elektrik verilişi xətləri vasitəsilə «502» və «Hökməli» yarımstansiyalarının elektrik təchizatı təmin ediləcəkdir.*

*Dövlət başçısına «Azərişıq»ın elektrik təchizatı sxemi, 110 kilovoltluq «Bayramzadə» yarımstansiyası, Külək Elektrik Parkı və digər yenidənqurma layihələri barədə də məlumat verildi.*

*Bakı Paylayıcı Şəbəkəsinin inzibati binası və yeni yarımstansiyalarla tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## 1918-ci İL AZƏRBAYCANLILARIN SOYQIRIMININ 100 İLLİYİ HAQQINDA SƏRƏNCAM

Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik «Böyük Ermənistan» ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl – 1918-ci ilin mart–aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər.

Azərbaycan Xalq Cümhuriyyətinin Hökuməti ermənilərin törətdikləri ağır cinayətlərin araşdırılması üçün Fövqəladə İstintaq Komissiyası yaratmış, komissiyanın üzə çıxardığı həqiqətlərin xalqın yaddaşında hifz edilməsi və dünya ictimaiyyətinə çatdırılması üçün bir sıra tədbirlər görmüşdür. Lakin Xalq Cümhuriyyətinin süqutundan sonra bu proses dayandırılmış, baş verənlərin sona qədər təhqiq edilməsinin və ona müvafiq siyasi-hüquqi qiymət verilməsinin qarşısı alınmışdır. Yalnız 80 il sonra – 1998-ci il martın 26-da ümummilli lider Heydər Əliyevin imzaladığı «Azərbaycanlıların soyqırımı haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı»nda

həmin dəhşətli hadisələrə adekvat siyasi qiymət verilmiş və 31 mart Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

Ötən 20 il ərzində aparılmış araşdırmalar sayəsində çoxlu sayda yeni faktlar və sənədlər toplanmış, Quba şəhərində kütləvi məzarlıq aşkar olunmuşdur. Üzə çıxmış tarixi faktlar 1918-ci ilin mart–aprel aylarında və sonrakı dövrlərdə erməni millətçilərinin həyata keçirdikləri qanlı aksiyaların coğrafiyasının daha geniş və faciə qurbanlarının sayının qat-qat çox olduğunu sübut etmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, erməni-bolşevik silahlı dəstələrinin 100 il əvvəl azərbaycanlılara qarşı törətdikləri bəşəri cinayətlər barədə həqiqətlərin ölkə və dünya ictimaiyyətinə daha dolğun çatdırılması məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikası Prezident Administrasiyası 1918-ci il azərbaycanlıların soyqırımının 100-cü ildönümünə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

2. Azərbaycan Respublikasının Milli Məclisinə soyqırımın 100 illiyi ilə bağlı xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *18 yanvar 2018-ci il*

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ**

Hörmətli Şavkat Miromonoviç!

Qazaxıstanın Aktobe vilayətində sərnişin avtobusunun yanması nəticəsində həmvətənlərinizin faciəli şəkildə həlak olması xəbəri məni son dərəcə sarsıtdı.

Baş vermiş bu hadisə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Özbəkistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *19 yanvar 2018-ci il*

## ÜMUMXALQ HÜZN GÜNÜNDƏ ŞƏHİDLƏRİN XATİRƏSİNİ YADETMƏ MƏRASİMİ

*20 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də – Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad etmişlər.*

*Qanlı Yanvar hadisələrindən 28 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilibdir. Təpədən dırnağadək silahlanmış keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi. 28 il əvvəl doğma yurdunun, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətənpərvər Azərbaycan övladları həmin müdhiş gecədə canlarından keçərək, şəhidlik zirvəsinə ucalmışlar. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, öz vətəndaşlarına divan tutan sovet imperiyasının ovaxtkı rəhbərlərinə və onların Azərbaycandakı nökərlərinə dərin nifrətini bildirir.*

*Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq, buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqu-*

*tu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının həmin gün Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı. Böyük itkilər, günahsız insanların qətli ilə nəticələnən 20 Yanvar faciəsi mərkəzi hakimiyyət başda olmaqla, cinayətkar imperiya rəhbərliyinin Azərbaycana qarşı xəyanətkar siyasətinə dözməyən, azadlığına, müstəqilliyinə can atan xalqımızın həm də mübarizliyini, əyilməzliyini və məğrurluğunu nümayiş etdirdi.*

*20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə, ağrı və acı ilə xatırlanacaq gün deyil. 20 Yanvar Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün üstünə şığıyan dəhşətli kabusa, sovet hərbçilərinin qorxunc qaragüruhuna qarşı sinəsini sipər etməyi, özünün mənliyini və mətinliyini nümayiş etdirməyi bacardı. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda vuruşmaq əzminə sahibdir. Təəssüf ki, həm SSRİ, həm də ovaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər gördü, əksinə, bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi.*

*20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək, xalqımızın kədərini bölüşməsi və «qırmızı» rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə Azərbaycan xalqına bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.*

*Ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə – azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcəkdir.*

*Keçmiş sovet hərb maşınının Azərbaycanda törətdiyi qanlı qırğın mahiyyətinə görə dövlətin öz vətəndaşlarına qarşı tarix-*

*də misli görünməmiş təcavüzü, qətliamı idi. Bu, keçmiş SSRİ və Azərbaycan SSR konstitusiyalarının kobudcasına pozulması, ayaqlar altına atılması idi. Həmin gün keçmiş SSRİ dövləti dinc əhalinin üstünə qoşun yeritməklə, BMT Nizamnaməsinə, beynəlxalq hüquq normalarına məhəl qoymamış, iştirakçısı olduğu Mülki və Siyasi Hüquqlar Haqqında Beynəlxalq Paktın bir sıra müddəalarını cinayətkarcasına pozmuşdu.*

*Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra – 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi və hüquqi qiymət verildi, cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar – Ümumxalq Hüzn Günü elan edildi.*

*Azərbaycan xalqı hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini dərin ehtiramla yad edir, məzarları üstünə tər gül-çiçək dəstələri düzürlər. Hər bir Azərbaycan vətəndaşının arzusu odur ki, şəhidlərimizin qanı yerdə qalmasın, işğal olunmuş torpaqlarımızda Azərbaycan bayrağı dalğalansın.*

* * *

*Yanvarın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına gəldilər.*

*Dövlət başçısı «Əbədi məşəl» abidəsinin önünə əklil qoydu.*

*Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*

*Dövlət və hökumət rəsmiləri, respublikamızdakı dini icmaların rəhbərləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də şəhidlərin əziz xatirəsini yad etdilər.*

*Şəhidlər xiyabanını ziyarət mərasimində Milli Məclisin Sədri Oqtay Əsədov və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev iştirak etdilər.*

## İSVEÇRƏ KONFEDERASİYASINA SƏFƏR

*22 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Dünya İqtisadi Forumunun illik toplantısında iştirak etmək üçün İsveçrə Konfederasiyasına işgüzar səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı Davosda Dünya İqtisadi Forumunun prezidenti Börge Brend ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Börge Brendi Dünya İqtisadi Forumunun prezidenti seçilməsi münasibətilə təbrik etdi, ona fəaliyyətində uğurlar arzuladı. Görüşdə Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında uzun illər səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirildi. Söhbət zamanı Azərbaycanın beynəlxalq əməkdaşlığa verdiyi töhfəyə toxunularaq, ölkəmizin iştirak etdiyi qlobal layihələr, o cümlədən ötən il istifadəyə verilmiş Bakı–Tbilisi–Qars dəmir yolunun, həmçinin icrası başa çatmaqda olan TANAP layihəsinin əhəmiyyəti vurğulandı. Zəngin neft ehtiyatlarına malik Azərbaycanda qeyri-neft sektorunun inkişaf etdiyi, ölkəmizə turist axınının getdikcə artdığı bildirildi.*

*Prezident İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqların hazırkı vəziyyəti barədə məlumat verdi.*

*Söhbət zamanı Dünya İqtisadi Forumu ilə Azərbaycan arasında əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.*

## ABŞ-ın «BLACK ROCK» ŞİRKƏTİNİN TƏSİSÇİSİ LOURENS FİNK İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda ABŞ-ın «Black Rock» şirkətinin təsisçisi, Müşahidə Şurasının sədri və icraçı direktoru Lourens Fink ilə görüşmüşdür.*

*Lourens Fink rəhbərlik etdiyi şirkət barədə prezident İlham Əliyevə məlumat verdi. O, hazırda 30-dan çox ölkədə 70-dən artıq ofisi olan «Black Rock» şirkətinin 6,3 trilyon ABŞ dolları investisiya portfeli ilə dünyanın ən böyük investisiya şirkəti olduğunu bildirdi.*

*Azərbaycanda qeyri-neft sektorunun inkişafının, bu sahədə həyata keçirilən islahatların maraqla izlənildiyini deyən Lourens Fink ümidvar olduğunu bildirdi ki, yaxın illərdə Azərbaycan Respublikası «Black Rock» şirkətinin təkcə investor qismində deyil, həm də investisiya hədəfi qismində də çıxış edəcək. Lourens Fink yaxın zamanlarda Azərbaycana səfər edəcəyini və ölkəmizin investisiya imkanları ilə bir daha tanış olacağını məmnunluqla bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycan Dövlət Neft Fondu ilə «Black Rock» şirkəti arasında yaranan əməkdaşlığın məmnunluq doğurduğunu bildirdi. Dövlətimizin başçısı son illər ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində həyata keçirilən səmərəli islahatlardan danışdı. Prezident İlham Əliyev Azərbaycanın liderliyi və təşəbbüsü ilə həyata keçirilən qlobal layihələr, o cümlədən «Cənub Qaz Dəhlizi», Bakı–Tbilisi–Qars dəmir yolu, eləcə də Ələt azad ticarət zonası layihələrindən danışdı, bu layihələrin investisiya qoyuluşu üçün çox səmərəli olduğunu bildirdi.*

# LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Rusiyanın LUKoyl şirkətinin prezidenti Vahid Ələkbərov ilə görüşmüşdür.*

*Görüşdə LUKoyl şirkətinin Azərbaycandakı uğurlu fəaliyyəti müzakirə olundu. Bu şirkətin 20 ildən çoxdur ki, ölkəmizə sərmayələr qoyduğu qeyd edildi. LUKoyl – SOCAR əlaqələrinin uğurla inkişaf etdiyi bildirildi və gələcək əməkdaşlığın istiqamətləri ilə bağlı fikir mübadiləsi aparıldı.*

## «ŞEVRON» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ CEY PRAYER İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Şevron» şirkətinin korporativ biznes inkişafı üzrə vitse-prezidenti Cey Prayer ilə görüşmüşdür.*

*Cey Prayer «Azəri–Çıraq–Günəşli» neft yataqları blokunun birgə işlənilməsini nəzərdə tutan müqavilənin müddətinin uzadılması münasibətilə Prezident İlham Əliyevi təbrik etdi. «Şevron» şirkəti ilə Azərbaycan arasında tərəfdaşlığın yüksək səviyyədə olduğunu deyən Cey Prayer bu əməkdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev Azərbaycanda əlverişli investisiya mühitinin yaradıldığını, ölkəmizin etibarlı tərəfdaş olduğunu bir daha vurğuladı.*

## «ROYAL PHİLLİPS» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU FRANS VAN HOUTEN İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «Royal Phillips» şirkətinin baş icraçı direktoru Frans Van Houten ilə görüşmüşdür.*

*Frans Van Houten Azərbaycandakı fəaliyyətləri barədə danışaraq, ölkəmizlə əməkdaşlıqda maraqlı olduqlarını bildirdi. O, işıqlandırma sistemləri və tibb avadanlıqlarının istehsalı üzrə Azərbaycanda bir sıra layihələr həyata keçirdiklərini məmnunluqla vurğuladı.*

*Prezident İlham Əliyev Azərbaycan ilə «Royal Phillips» şirkəti arasında əməkdaşlığın razılıq doğurduğunu qeyd etdi. Söhbət zamanı küçə işıqlandırılması ilə bağlı enerjiyə qənaət üzrə yeni texnologiyaların tətbiqinə dair əməkdaşlıq barədə fikir mübadiləsi aparıldı.*

## «MASTERCARD» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN ÜZVÜ TİM MÖRFİ İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda «MasterCard» şirkətinin İdarə Heyətinin üzvü Tim Mörfi ilə görüşmüşdür.*

*Tim Mörfi son illərdə prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən uğurlu islahatlar nəticəsində elektron ticarətin və elektron ödənişlərin inkişafı ilə bağlı tədbirlərdə «MasterCard» şirkətinin də iştirak etdiyini və müxtəlif layihələri reallaşdırdığını məmnunluqla bildirdi. Hazırda Azərbaycanda elektron ödənişlərin aparılmasında «MasterCard»dan geniş istifadə edildiyini deyən Tim Mörfi Mərkəzi Bankla, həmçinin digər bank və ödəniş sistemləri ilə əməkdaşlığın uğurlu olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev son illərdə həyata keçirilən islahatlar nəticəsində Azərbaycanda nağdsız ödənişlərin həcminin artırılması barədə müvafiq orqanlar qarşısında vəzifələr qoyulduğunu bildirdi. Dövlətimizin başçısı bu layihələrdə «MasterCard»ın yaxından iştirak etməsinin əhəmiyyətli olduğunu vurğuladı.*

## CİSCO ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ XANIM KELLİ KRAMER İLƏ GÖRÜŞ

*Davos*

*22 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 22-də Davosda Cisco şirkətinin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer ilə görüşmüşdür.*

*Görüşdə Azərbaycanın bir çox dövlət qurumları ilə Cisco şirkəti arasında səmərəli əməkdaşlığın olduğu qeyd edildi. Bu şirkətin ölkəmizdə həyata keçirilən infrastruktur layihələrinin icrasında iştirak etməsinin əhəmiyyəti vurğulandı. Cisco şirkəti tərəfindən Azərbaycana ən müasir texnologiyaların gətirilməsində ölkəmizin maraqlı olduğu bildirildi.*

## OPEC-in BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO İLƏ GÖRÜŞ

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Neft İxrac edən Ölkələr Təşkilatının (OPEC) baş katibi Məhəmməd Barkindo ilə görüşmüşdür.*

*Məhəmməd Barkindo görüşdə bildirdi ki, OPEC və qeyri-OPEC ölkələrin bir araya gətirilməsi və 2016-cı ilin dekabrında bununla bağlı tarixi qərarın qəbul edilməsində Azərbaycanın fəal liderlik rolu yüksək qiymətləndirilir.*

*Prezident İlham Əliyev öz növbəsində, Məhəmməd Barkindonun OPEC-in baş katibi kimi fəaliyyətinin biznes ictimaiyyəti və ölkələrin gözləntilərinin reallaşmasında mühüm rol oynadığını vurğuladı. Dövlətimizin başçısı Azərbaycanın bundan sonra da OPEC ilə uğurlu əməkdaşlıq həyata keçirəcəyinə əminliyini ifadə edərək, Məhəmməd Barkindonu ölkəmizə səfərə dəvət etdi. OPEC-in baş katibi dəvəti minnətdarlıqla qəbul etdi.*

## DAVOS DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLƏN «STRATEJİ BAXIŞ: AVRASİYA» MÖVZUSUNDA İNTERAKTİV İCLASDA İŞTİRAK

*Davos*

*23 yanvar 2018-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Davosda Dünya İqtisadi Forumunun «Strateji baxış: Avrasiya» adlı interaktiv iclasında iştirak etmişdir.*

**A p a r ı c ı: Prezident Əliyev, bu il üçün Avrasiya ilə bağlı baxışınız nədən ibarətdir? Azərbaycan olduqca gərgin və hətta təhlükəli regionda necə davranacaqdır?**

**İ l h a m Ə l i y e v:** Sözsüz ki, qonşuluq problem də ola bilər, üstünlük də. Bu sizin siyasətinizdən və qonşularla əlaqələrdən asılıdır. Məncə, hər bir ölkə üçün qonşularla münasibətlər prioritet olmalıdır, xüsusilə də bizim regionda. Azərbaycanda daxili risk və ya təhdidlər mövcud deyil və biz sərhədlərimiz boyu təhlükəsizliyimizi təmin etməliyik. Bunun ən yaxşı yolu isə ölkəmizin milli maraqlarına əsaslanaraq, qonşu dövlətlərin maraqlarını anlamaqla olduqca praqmatik və səmimi münasibətlərin qurulmasıdır. Hesab edirəm ki, Azərbaycanda biz belə bir tərəfdaşlığı qura bilmişik. Ərazilərimizin 20 faizini işğal etmiş Ermənistan istisna olmaqla, Azərbaycan bütün qonşuları ilə – Xəzərin digər sahilində yerləşən Qazaxıstan və Türkmənistan daxil olmaqla, Gürcüstan, Türkiyə, İran və Rusiya ilə çox yaxşı münasibətlərə malikdir.

Regionumuzda olan hər bir ölkə ilə bizim xüsusi əməkdaşlıq formatımız vardır. Biz gənc müstəqil ölkəyik – cəmi 26 yaşımız var. Ancaq hesab edirəm ki, Azərbaycan, sözün əsl mənasında,

müstəqil ölkə olmağa müvəffəq olmuşdur və bu ona həqiqi müstəqil siyasət aparmağa imkan verir. Bu siyasət milli maraqlarımıza əsaslanır və heç bir qonşu dövlətin maraqlarına zidd deyil.

Hesab edirəm ki, ərazi baxımından əsas qonşularından kiçik olan ölkə üçün düzgün balansı tapmaq və bu qonşuluqdan üstünlük kimi istifadə etmək çox vacibdir. Çünki böyük qonşular həm də böyük bazar deməkdir. Bizim üçün isə ən yaxşı bazar qonşu dövlətlərin bazarlarıdır.

Beləliklə, qarşılıqlı maraq, maraqların balanslaşdırılması və digərlərinin daxili işlərinə müdaxilə olunmaması, habelə regionda əməkdaşlıqla bağlı praqmatik yanaşmanın mövcudluğu ölkəmizin uğurlarının, daxili sabitliyin və yaxşı gələcək perspektivlərin səbəblərindəndir.

**A p a r ı c ı: Cənab Prezident, Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi, həmçinin neft və qazdan asılılığının azaldılması səyləri haqqında danışmağınızı istərdik. Çünki bu gün qiymətlər qalxır, bu həmin səylərə təsir edəcəkmi?**

**İ l h a m  Ə l i y e v:** İqtisadiyyatın şaxələndirilməsi bizim əsas məqsədimizdir. Düşünürəm ki, biz bu istiqamətdə yaxşı uğurlar əldə etmişik. Neftin qiyməti kəskin aşağı düşən zaman mən Azərbaycanda bildirdim ki, bizim üçün postneft dövrü başlandı və biz neft və qazı unutmalıyıq. Əlbəttə, biz hazırda icra etdiyimiz layihələri başa çatdırmalıyıq, ancaq əsas gəlir mənbələri kimi, biz texnologiya, innovasiya, sənaye, sahibkarlıq və kənd təsərrüfatı sahələrini nəzərdən keçirməliyik. Biz ciddi islahatlar həyata keçirməyə başladıq və onlar artıq yaxşı nəticə verir. Ötən il iqtisadiyyatımızın qeyri-neft sektoru təqribən 3 faiz və qeyri-neft sənayemiz 4 faiz artmışdır. Bu səbəbdən qeyd etməliyəm ki, artıq şaxələndirmə prosesi başlanıb və bizim bu prosesi səngitmək niyyətimiz yoxdur.

Hazırda neftin qiyməti artmaqdadır, ancaq bu sadəcə, bizim ehtiyatlarımızı artıracaqdır. Biz xərclərimizin optimallaşdırılmasına nail olmuşuq. Ötən il neftin qiymətinin hələ də aşağı olmasına baxmayaraq, biz ehtiyatlarımıza daha 4,5 milyard dollar

əlavə edə bilmişik. Bu isə o deməkdir ki, hətta neftin qiyməti aşağı olsa belə, bizim üçün narahatlığa səbəb yoxdur. Builki büdcəmizdə neftin qiymətinin 45 dollar səviyyəsində olması nəzərdə tutulub və bundan artıq toplanan bütün vəsait Neft Fonduna yönləndiriləcəkdir.

Bununla yanaşı, biz anlamalıyıq ki, neft-qaz iqtisadiyyatımızın əsas hissəsi olmaqda davam edəcəkdir. Ancaq artıq bu gün qeyri-neft sektoru ümumi daxili məhsulun təqribən 70 faizini təşkil edir. Bizim hədəfimiz ixracımızı şaxələndirmək və ixrac yönümlü qeyri-neft məhsullarının siyahısını genişləndirməkdir.

Enerji layihələrinə gəldikdə, onlar həm bizim, həm də region üçün əhəmiyyətlidir. Təşəbbüskarı olduğumuz layihələr regionun enerji xəritəsini dəyişmişdir. Gürcüstanın Supsa limanına qədər inşa etdiyimiz ilk kəmər Xəzər dənizini Qara dənizlə birləşdirdi. Bakı–Tbilisi–Ceyhan neft kəməri Xəzər dənizini Aralıq dənizi ilə birləşdirdi. Bunlardan sonra həmin marşrut boyu biz qaz kəmərini də inşa etdik. Beləliklə, biz karbohidrogen ehtiyatlarımız üçün şaxələnmiş ixrac marşrutlarına malikik və geniş mənada tərəfdaşlarımızın, o cümlədən Avropada olan tərəfdaşlarımızın enerji təhlükəsizliyini təmin edirik. Avropa İttifaqının üzvü olan bəzi dövlətlərin neftə tələbatının böyük hissəsi Azərbaycan tərəfindən təmin edilir. 2-3 ildən – «Cənub Qaz Dəhlizi» layihəmiz uğurla icra olunduqdan sonra onlar bizim təbii qaz ehtiyatlarımıza da çıxış əldə edəcəklər.

Eyni sözləri bizim nəqliyyat layihələrimiz haqqında da söyləyə bilərəm. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsi regionun nəqliyyat xəritəsini dəyişdirdi. Bu gün bu, Çindən Avropaya olan ən qısa marşrutdur – əvvəllər bu məsafə 30–35 gün ərzində qət olunurdusa, artıq bu gün 2 həftə ərzində qət edilir. Beləliklə, bu, nəqliyyat və enerji şaxələndirilməsinin yeni xəritəsidir və düşünürəm ki, açıq okeana çıxışı olmayan bir ölkə kimi, Azərbaycan regional nəqliyyat dəhlizinə çevrilibdir. Ancaq hələ də görüləcək işlərimiz vardır.

Gələcək neft və qazdan ibarət deyil, onlar bir gün tükənəcəkdir. Gələcək innovasiya, texnologiya, yaxşı idarəçilik, şəffaflıq və sahibkarlığa dövlət dəstəyindən ibarət olacaqdır.

**A p a r ı c ı: Necə düşünürsünüz, əhali bu üstünlüklərdən bəhrələnməyə hazırdırmı? Yəni təhsil və ya digər vasitələrlə.**

**İ l h a m Ə l i y e v:** Sözsüz. Bir neçə il bundan öncə bizim əsas hədəflərimizdən biri yoxsulluq və işsizliyin azaldılması idi. Buna uğurla nail olundu. Yoxsulluq 5,4 faiz, işsizlik isə 5 faiz səviyyəsindədir. Son 15 il ərzində əhalimiz 1,5 milyon nəfər artıb və iş yerlərinin yaradılması bizim üçün daimi prosesdir. Ötən il biz 177 min daimi iş yeri yaratmışıq və bu bizim siyasətimizi nümayiş etdirir. Neft-qaz sahəsi kifayət qədər iş yeri yaratmır və işsizliyin aşağı səviyyədə olması üçün biz təhsil, idarəçilik, kənd təsərrüfatı, turizm və xidmətlər sahəsinə diqqət yetirməliyik. Əhalimiz islahatlara hazırdır və islahatlar cəmiyyət tərəfindən müsbət qarşılanır. İslahatlar ağır olmamışdır. Çünki radikal islahatlar həyata keçirilərkən, ilkin mərhələdə əhali bundan əziyyət çəkir. Biz dövlət yardımına ehtiyacı olanlara geniş sosial dəstək təklif etdik. Ona görə də bu proses olduqca əngəlsiz keçdi. Qarşıdan gələn illərdə biz 2 il bundan öncə başladığımız dərin və geniş islahatlar siyasətini davam etdirməliyik.

**S u a l: Cənab İlham Əliyev, mənim adım Endryu Uilsondur, Beynəlxalq Özəl Sahibkarlıq Mərkəzinin icraçı direktoruyam. Bilmək istərdim, region liderləri iqtisadiyyatın şaxələndirilməsində kiçik sahibkarlığın rolunu nədə görür və bunun təşviqi ilə bağlı hansı tədbirlər görülür?**

**C a v a b:** Azərbaycanda sahibkarlığın dəstəklənməsi üçün xüsusi fond fəaliyyət göstərir. Son 10 il ərzində həmin fond vasitəsilə özəl sektora təqribən 2 milyard dollar həcmində vəsait verilibdir. Bu da olduqca sərfəli şərtlərlə, aşağı faizli kreditlərin verilməsi yolu ilə həyata keçirilibdir. Özəl sektora həm də müvafiq tövsiyələr verilir və dövlət dəstəyi göstərilir. Biz

regional inkişafa xüsusi diqqət ayırırıq. Bu gün regionların inkişafı ilə bağlı üçüncü Dövlət Proqramı icra edilir ki, bu da kiçik sahibkarlara bizneslə məşğul olmağa şərait yaradır. Şərait nədən ibarətdir? İlk növbədə, infrastrukturdan. Biz 15 il ərzində kənd yolları da daxil olmaqla, 12 min kilometrdən çox avtomobil yolları inşa etmişik. Bu, xidmətlərə daha yaxşı çıxış əldə etməyə və fermerlərə məhsullarını bazara çıxarmağa imkan yaratmışdır.

Azərbaycanda qazlaşdırılmanın səviyyəsi 93 faizdir. Dağlıq ərazilərin mövcudluğunu nəzərə alsaq, bu, olduqca yüksək göstəricidir. Biz elektrik enerjisinin idxalçısından ixracatçısına çevrilmişik. Bizim bu sahədə artıq imkan və mənbələrimiz vardır. Bununla yanaşı, hər il 100 min hektara yaxın əkin sahələri dövlət tərəfindən suvarılır. Eyni zamanda, bizim fermerlər torpaq vergisindən başqa, digər vergilərdən azaddırlar. Onlar gübrənin qiymətinin 30, yanacağın qiymətinin isə 50 faizini ödəyirlər. Yəni bu, biznes sahəsinə dövlət dəstəyidir, həm də əhəmiyyətli dəstəkdir.

Yəni Azərbaycanda fermerlər üçün subsidiyalar və olduqca yaxşı investisiya mühiti vardır. Biz son 15 il ərzində 230 milyard dollar həcmində sərmayə cəlb etmişik və onun yarısı xarici, yarısı isə daxili sərmayədir. Bütün bunlar özəl sektora inkişaf üçün şərait yaratmışdır. Eyni zamanda, tədbirin əvvəlində qeyd etdiyim kimi, qonşular ilə çox yaxşı münasibətlərimiz onların bazarlarına çıxışı təmin edir ki, bu da bizim qeyri-neft məhsullarımız üçün əsas bazarlardır.

Beləliklə, özəl sektorun dəstəklənməsi siyasəti davam edəcəkdir. Kiçik sahibkarlığın ümumi daxili məhsulumuzdakı payı hələ də çox aşağıdır. Gələcək illərdə bizim əsas hədəfimiz onlar üçün əlavə imkanlar yaratmaqdır ki, onlar da yeni iş yerləri açsınlar və daha çox gəlir əldə etsinlər.

**A p a r ı c ı: Prezident Əliyev, gəlin siyasi fəallıq və insan hüquqları ilə bağlı Avropa normasından danışaq. Bir çoxları hesab edir ki, bu, yalnız fərdlərin şəxsi inkişafına deyil, ümumi iqtisadi inkişafa da təsir edir. Yəni bunlar bir-biri ilə əlaqəli məsələlərdir. Azərbaycanda bu sahədə**

**vəziyyət necədir? Sizin ölkə mətbuat azadlığı ilə bağlı tənqid olunur.**

**İ l h a m  Ə l i y e v:** Hesab edirəm ki, bu tənqidin əsası yoxdur. Məsələnin mahiyyətinə baxdıqda məlum olur ki, Azərbaycanda bütün fundamental azadlıqlar, o cümlədən mətbuat azadlığı təmin edilir. Mətbuat tamamilə azaddır. Azərbaycan əhalisinin 80 faizi internet istifadəçisidir. İnternetin azad, senzuranın olmadığı və əhalinin mütləq əksəriyyətinin internet istifadəçisi olduğu halda, mətbuat azadlığının məhdudlaşdırılması haqqında danışmaq əsassızdır.

**A p a r ı c ı: O zaman necə olur ki, Azərbaycan mətbuat azadlığına görə dünyada 162-ci yerdədir?**

**İ l h a m  Ə l i y e v:** Bunun siyasi səbəbləri vardır. Bunun reallıqla heç bir əlaqəsi yoxdur. Bir daha qeyd edirəm ki, Azərbaycanda bütün fundamental azadlıqlar təmin olunur və dövlət hər bir kəndə genişzolaqlı internetin çəkilməsi ilə bağlı böyük proqram həyata keçiribdir. Bu təsnifat olduqca qərəzli yanaşma üzərində qurulub. Hərdən bu yanaşma bədxah olur. Bunlar Qərbdə müəyyən siyasi mərkəzlərin fəaliyyətinin məhsuludur.

**A p a r ı c ı: Daha konkret ünvanlar açıqlaya bilərsinizmi, bu haradan qaynaqlanır?**

**İ l h a m  Ə l i y e v:** Bu haqda daha konkret danışmaq istəməzdim. Ancaq bunun haradan qaynaqlanması bəllidir və bunun sadə səbəbi vardır – Azərbaycan müstəqil siyasət yürüdən dövlətdir. Bu siyasət milli maraqlarımıza söykənir. Biz ölkəmiz üçün çətinlik doğura biləcək heç bir riskli macəraya qoşulmuruq. Qeyd etdiyim kimi, bizim üçün daxili risklər mövcud deyil. Bizdə siyasi və iqtisadi vəziyyət sabitdir. Üzləşə biləcəyimiz bütün potensial risklər xaricdən qaynaqlana bilər.

Azərbaycanı müəyyən ölkələrin əleyhinə kampaniyalara sürükləmək cəhdləri olub. Biz hər zaman bitərəf qalmışıq. Biz heç kəsə qarşı oyun aparmırıq və heç bir riskli və milli maraqlarımıza uyğun olmayan kampaniyanın tərkib hissəsi deyilik. Yəni hücumların səbəblərindən biri bəzilərinin Azər-

baycanı kiçik dövlət üçün artıq dərəcədə müstəqil hesab etmə-sidir. Bəzi QHT-lərin belə reytinqləri ölkəmizi gözdən salmaq, nüfuzumuza xələl gətirmək və Azərbaycanı qeyri-demokratik dövlət kimi təqdim etmək məqsədi daşıyır. Bu isə qətiyyən belə deyil.

Bu gün biz həm siyasi, həm də iqtisadi inkişafdan bəhs edirik. Bunlar ayrılmazdır. Azərbaycan iqtisadiyyatı rəqa-bətqabliyyətliliyinə görə Dünya İqtisadi Forumu tərəfindən 35-ci yerə layiq görülürsə, bu, ölkədə azadlıqların təmin olunmasının yaxşı göstəricisidir. Davos Forumu bu yaxınlarda siyasətçilərə inamla bağlı yeni hesabat yaymışdır və Azərbaycan orada 20-ci yerdədir. İnkişaf etməkdə olan dövlətlərdə hərtərəfli inkişafa dair digər bir hesabatda Azər-baycan 3-cü yerdədir. Yəni bəzi QHT-lərin təqdim etməyə çalışdıqları məlumatlar doğru olsaydı, biz bu uğurlara nail ola bilməzdik. Biz məsələnin mahiyyətinə və real vəziyyətə baxmalı, Azərbaycanla bağlı müəyyən gözləntiləri və siyasi motivləri reallıqdan ayrı tutmalıyıq.

* * *

*İclasda Gürcüstanın Baş Naziri Giorgi Kvirikaşvili, Qa-zaxıstanın Baş Nazirinin müavini Erbolat Dossayev və Ni-derlandın VEON şirkətinin baş icraçı direktoru Jan-İv Şarlye iştirak edirdilər.*

*Müzakirələr zamanı qonşu ölkələrlə əlaqələrin mühüm əhəmiyyət kəsb etdiyi bildirildi, regional layihələrin, o cüm-lədən keçən il açılışı olan Bakı–Tbilisi–Qars dəmir yolunun vacibliyi qeyd olundu, uzunmüddətli investisiyaların yatırılması üçün maliyyə siyasətinin proqnozlaşdırılmasının, sabitliyin təmin edilməsinin önəmi vurğulandı.*

## QEYDLƏR

**1. Zakir Həsənov,** Z a k i r Ə s g ə r o ğ l u (d.1959) – general-leytenant. 2013-cü ildən Azərbaycan Respublikasının Müdafiə naziridir. «Azərbaycan Bayrağı» ordeni ilə təltif edilmişdir. – 14.

**2. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə

Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal

diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 18, 26, 45, 94, 118, 119–120, 134, 146, 149, 176, 177, 186, 187, 210, 222, 228, 321, 322.

**3. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas

istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 37, 67, 77, 184, 258, 281, 282, 303, 308, 310.

**4. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, geniş-

miqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 27, 85, 88, 94, 106, 107, 108, 110, 119, 147, 156, 163, 168, 210, 225, 228, 230, 240, 320, 322.

**5. Rumıniya,** R u m ı n i y a  R e s p u b l i k a s ı – Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 238,4 min km$^2$, əhalisi 19,5 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 33.

**6. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 49, 122, 124, 126, 188, 189, 193, 195.

7. **«Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. –38, 166, 167, 190, 260, 284, 297, 306, 324.

**8. Şahin Mustafayev,** Ş a h i n  A b d u l l a  o ğ l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri olmuşdur. 2016-cı ilin yanvarından Azərbaycan Respublikasının İqtisadiyyat naziridir. – 16, 19, 30, 58, 70.

**9. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb

Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 34, 35, 54, 85, 89.

**10. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentidir. – 34.

**11. Şeyx Məhəmməd bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirliklərinin Baş Naziri və vitse-prezidenti, Dubay əmiri. – 35.

**12. Laos,** L a o s X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 236,8 min km$^2$, əhalisi 6,9 milyon nəfərdir. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Ali Xalq Məclisidir. Paytaxtı Vyentyan şəhəridir. – 36.

**13. Bounyanq Voraçit** (d.1937) – Laos siyasətçisi. 1996–2001-ci illərdə Laosun Baş Nazirin müavini, 2001–2006-cı illərdə Baş Nazir, 2006–2016-cı illərdə isə vitse-prezident olmuşdur. 2016-cı ildən Laos Xalq Demokratik Respublikasının Prezidentidir. – 36.

**14. Cisco** – əsasən böyük təşkilatlar və telekommunikasiya müəssisələri üçün rabitə şəbəkə avadanlığını hazırlayıb satan transmilli amerikan kompaniyası. Dünyada yüksək texnologiyalar sahəsində ixtisaslaşan ən iri kompaniyadır. Kompaniyanın xüsusiyyətlərindən biri biznes modelində mühəndislərin kompüter şəbəkəsində çoxəhatəli sertifikasiya sisteminə yiyələnmələridir. Kompaniyanın əsası 1984-cü ildə qoyulmuşdur. – 40.

**15. Türkiyə,** T ü r k i y ə C ü m h u r i y y ə t i – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür.

Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 41–42, 48, 51, 54, 80–81, 121-126, 138, 155, 173–174, 194–196, 210, 214, 311–312.

**16. Mövlud Çavuşoğlu** (d.1968) – Türkiyənin siyasi xadimi. 2010–2012-ci illərdə AŞPA-nın başçısı, 2014-cü ildən Türkiyə Cümhuriyyətinin Xarici İşlər naziridir. – 41–42, 173–174.

**17. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 41, 51, 61, 80, 190, 223, 224, 260, 273, 284, 287, 323, 324.

**18. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilən növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 42, 80, 121–126, 173–174, 194–196, 214, 311, 312.

**19. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağ və ətraf

rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, erməni işğalçıları Azərbaycan torpaqlarını hələ də işğal altında saxlayırlar. – 42, 44, 49, 60, 77, 115, 126, 187, 188, 211, 240, 258, 281, 282.

**20. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 43–44, 54.

**21. Hindistan,** H i n d i s t a n R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 3,3 milyon km$^2$, əhalisi 1 milyard 330 milyon nəfərdir. Hindistan inzibati cəhətdən 22 ştata və 7 müttəfiq əraziyə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Nyu-Dehli şəhəridir. – 45, 54, 93.

**22. Tailand,** T a i l a n d K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 514 min km$^2$, əhalisi 70,5 milyon nəfərdir. Dövlət başçısı kraldır. Qanunverici orqanı ikipalatalı Milli Assambleyadır. İnzibati cəhətdən 73 çanqvata (əyalətə) bölünür. Paytaxtı Banqkok şəhəridir. – 46.

**23. Maha Vaciralonqkorn** (d.1952) – 2016-cı ildən Tailandın Kralıdır. – 46.

**24. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 47–54, 55–64, 245, 250.

**25. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 47–54, 55–64.

**26. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 49.

**27. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min $km^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 51, 54, 205, 206, 223, 224, 300.

**28. Türkmənistan,** T ü r k m ə n i s t a n R e s p u b l i k a- s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min $km^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 51, 54.

**29. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra

əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh Tərəfdaşlığı» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 57, 63, 250.

**30. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 54, 85, 155.

**31. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 54, 64, 78–79, 85, 92, 93, 117–118, 155, 168–169, 203–204, 210, 221–222, 234–235, 241–251, 325.

**32. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 54, 65–66, 82–83, 124, 170–171, 191–194, 210, 213, 301.

**33. Qazaxıstan,** Q a z a x ı s t a n R e s p u b l i k a s ı– Avrasiyanın mərkəzi hissəsində dövlət. Sahəsi 2,7 milyon km$^2$, əhalisi 18 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici

orqanı birpalatalı Ali Sovetdir. Paytaxtı Nur-Sultan şəhəridir. – 54, 131, 155, 242–251.

**34. Qırğız Respublikası** – Orta Asiyanın şimal-şərqində dövlət. Sahəsi 200 min km$^2$, əhalisi 6 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkek şəhəridir. – 54, 242–251.

**35. Səudiyyə Ərəbistanı,** Səudiyyə Ərəbistanı Krallığı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km$^2$, əhalisi 31,5 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası vardır. Müsəlmanların 2 müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. Paytaxtı Ər-Riyad şəhəridir. – 54, 215–216.

**36. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin rəisi, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 58.

**37. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 64, 286, 288, 324.

**38. Məhəmməd Cavad Zərif** (d.1960) – İran diplomatı və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Xarici İşlər naziridir. – 65–66, 170–171.

**39. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 82, 83, 124, 170, 171, 191–194, 213, 301.

**40. Ramin Quluzadə** (d.1977) – iqtisadçı. 2005–2015-ci illərdə Heydər Əliyev Fondunda, 2015–2016-cı illərdə Azərbaycan Respublikası Rabitə və Yüksək Texnologiyalar nazirinin birinci müavini işləmişdir. 2017-ci ildən Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziridir. – 85.

**41. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 91, 168.

**42. Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr–1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli Fərmanı

ilə respublikada dövlət dili türk (Azərbaycan) dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də «Azərbaycan vətəndaşlığı haqqında» Qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müddətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919–20-ci tədris ilində 100 gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan Dövlət Bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı–Batum neft kəməri bərpa edildi. – 106, 148, 274, 298, 317.

**43. Sudan,** S u d a n R e s p u b l i k a s ı – Şimal-Şərqi Afrikada dövlət. Sahəsi 1,9 milyon km$^2$, əhalisi 40,2 milyon nəfərdir. İnzibati ərazisi 9 ştata bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı (parlament) Ali Milli Şuradır. Paytaxtı Xartum şəhəridir. – 115–116, 253.

**44. Ömər Həsən əl-Bəşir** (d.1944) – Sudanın hərbi və dövlət xadimi, 1993-cü ildən Sudan Respublikasının Prezidentidir. 1989-cu ildə hərbi çevrilişdən sonra hakimiyyətə gəlmişdir. – 115, 116, 253.

**45. Vyaçeslav Volodin** (d.1964) – Rusiya siyasətçisi. 2016-cı ildən Rusiya Federasiyası Dövlət Dumasının Sədridir. – 117, 118.

**46. Əziz Əliyev,** Ə z i z M ə m m ə d k ə r i m o ğ l u (1897–1962) – görkəmli dövlət və siyasi xadim, səhiyyə təşkilatçısı. Tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Klinik İnstitutunun direktoru, Bakı Səhiyyə şöbəsinin müdiri, Azərbaycan Xalq Səhiyyə komissarının müavini və Xalq Səhiyyə

komissarı, Azərbaycan Dövlət Tibb İnstitutunun və Azərbaycan Dövlət Universitetinin rektoru, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan KP MK-nın katibi, Dağıstan MSSR Vilayət Komitəsinin Birinci katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin Birinci müavini, Azərbaycan Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahiyyə İnstitutunun direktoru, Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunun direktoru vəzifələrində çalışmışdır. SSRİ Ali Sovetinin və Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. – 119.

**47. Tamerlan Əliyev,** T a m e r l a n Ə z i z o ğ l u (1921–1997) – Azərbaycan tibb elminin görkəmli nümayəndəsi, Əməkdar elm xadimi. Dövlət mükafatı laureatı, tibb elmləri doktoru, professor. 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın, dərslik və dərs vəsaitlərinin, metodiki tövsiyələrin, səmərələşdirici təklif və ixtiraların, həmçinin çoxsaylı elmi-kütləvi məqalələrin müəllifi olmuşdur. – 119.

**48. Zərifə xanım Əliyeva,** Z ə r i f ə Ə z i z q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, Azərbaycan Respublikasının Əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, Prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri vardır. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksəkixtisaslı səhiyyə kadrlarının hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalının

redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 119, 176.

**49. Oqtay Əsədov,** O q t a y  S a b i r  o ğ l u (d.1955) – ictimai xadim, mühəndis. 1996–2004-cü illərdə Abşeron Regional Səhmdar Su Cəmiyyətinin, 2004–2005-ci illərdə «Azərsu» Səhmdar Cəmiyyətinin prezidenti olmuşdur. 2005-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin Sədridir. Azərbaycan Respublikasının «Şərəf» və Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. – 119.

**50. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 119.

**51. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təş-

kilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 121–126, 182, 184, 186, 193, 257.

**52. Fələstin Dövləti** – BMT Baş Məclisinin 1947-ci il 29 noyabr tarixli Qərarına əsasən Böyük Britaniya mandatlığı ləğv edilərək, Fələstin ərazisində müstəqil ərəb və yəhudi dövlətləri yaradılmalı idi. Fələstin ərəb dövləti üçün ayrılmış ərazinin böyük hissəsi 1948–49-cu illərdə və 1967-ci ildə İsrail tərəfindən zəbt edilmişdir. 1988-ci ildə Fələstin Azadlıq Təşkilatı müstəqil Fələstin Dövlətinin yaranmasını elan etdi. 1994-cü ildə isə Müvəqqəti Fələstin muxtariyyəti yaradıldı. Sahəsi 6,2 min $km^2$, əhalisi 5 milyon nəfərdir. Paytaxtı Qüds şəhəridir – 121–126, 193, 195, 200.

**53. Mahmud Abbas** (d.1935) – Fələstin siyasətçisi, Fələstin Milli Administrasiyasının sədri və FƏTH hərəkatının rəhbəridir. – 121–126.

**54. Qüds –** Dünyanın ən qədim şəhərlərindən biri. Ərazisi 125,1 $km^2$, əhalisi 901 min nəfərdir. Müsəlman, yəhudi və xristianların «müqəddəs şəhəri» adlanır. Qüds haqqında ilk məlumat e.ə. II minilliyin ortalarına aiddir. Qüds müxtəlif vaxtlarda müxtəlif dövlətlərin hakimiyyəti altında olmuşdur. 1920–47-ci illərdə İngiltərənin Fələstin mandatlıq ərazisinin inzibati mərkəzi idi. 1947-ci ildən isə BMT-nin idarəsi altında xüsusi rejimli müstəqil inzibati vahid oldu. 1948–49-cu illər Ərəb–İsrail müharibəsindən sonra Qüds iki hissəyə bölündü: qərb hissəsi İsrailə, şərq hissəsi isə İordaniyaya verildi. 1950-ci ilin yanvarında İsrail qeyri-qanuni olaraq, Qüdsün qərb hissəsini dövlətin paytaxtı elan etdi. 1967-ci ildə İsrail Qüdsün şərq hissəsini də işğal etdi.

Qüds qədim müsəlman, yəhudi və xristian abidələri ilə zəngindir. – 121–126, 193, 195, 207, 211, 245.

**55. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 122, 123, 124, 125, 155, 175, 179, 195, 196, 324.

**56. Donald Tramp** (d.1946) – ABŞ biznesmeni və siyasi xadimi, ABŞ Respublikaçılar Partiyasının üzvü, mediamaqnat. 2017-ci ildən ABŞ-ın 45-ci Prezidentidir. – 122, 193, 245.

**57. İordaniya,** İordaniya Haşimilər Krallığı – Qərbi Asiyada dövlət. Sahəsi 92,3 min km$^2$, əhalisi 10,1 milyon nəfərdir. İnzibati ərazisi 8 əyalətə bölünür. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Əmman şəhəridir. – 123.

**58. II Abdullah,** Abdullah bin Hüseyn (d.1962) – 1999-cu ildən İordaniya Haşimilər Krallığının Kralıdır. – 123.

**59. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 127–128, 210.

**60. *bp*, «British Petroleum» –** dünyanın ən iri neft şirkətlərindən biri. 1909-cu ildən bir çox ölkələrdə neftin kəşfiyyatı, çıxarılması, emalı və satışı ilə məşğuldur. *bp* 1994-cü ildən

Azərbaycanda fəaliyyət göstərir. Hazırda ABƏŞ-in əsas operatorudur. – 128.

**61.** «**Şahdəniz-2**» – Xəzər dənizində çox zəngin qaz yatağı. Burada ilk qazın hasilatına 2018-ci ildə başlanılmış, 2019-cu ildə isə 2 milyard $m^3$ qazın çıxarılması nəzərdə tutulur. *bp*-nin ən böyük layihəsidir. Bu yataqdan qazın Gürcüstan və Türkiyə ərazisi ilə Avropa ölkələrinə nəql edilməsi üçün mövcud infrastrukturun genişləndirilməsi və yeni qaz kəmərlərinin inşa edilməsi nəzərdə tutulur. – 128, 284.

**62.** «**Azəri–Çıraq–Günəşli**» – Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 128, 260, 283, 284, 326.

**63. Nursultan Nazarbayev,** N u r s u l t a n A b i ş o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan KP MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin Sədri, Nazirlər Sovetinin Sədri, 1989–91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi, 1990-cı ildə eyni zamanda, Ali Sovetin Sədri, 1991-ci ildə Qazaxıstan SSR-in Prezidenti olmuşdur. 1991-ci ilin dekabrından 2019-cu ilin mart ayına qədər Qazaxıstan Respublikasının Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 131, 242–251.

**64. Bəhreyn,** B ə h r e y n K r a l l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 766 $km^2$, əhalisi 1,5 milyon nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manama şəhəridir. – 132.

**65. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2002-ci ildən isə özünü kral elan etmişdir. Kral

Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda, siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 132.

**66. Qətər,** Q ə t ə r D ö v l ə t i – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 11,5 min km$^2$, əhalisi 2,6 milyon nəfərdir. Dövlət başçısı əmirdir. Paytaxtı Doha şəhəridir. – 133.

**67. Şeyx Təmim bin Həməd əl-Tani** (d.1980) – 2013-cü ildən Qətər Dövlətinin Əmiridir. – 133.

**68. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 138, 152–153, 155.

**69. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 149–150.

**70. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun

Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 168, 240.

**71. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min km$^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 172.

**72**. **Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatorudur. İmperator Hirohitonun oğludur. – 172.

**73. Ömər Eldarov,** Ö m ə r H ə s ə n o ğ l u (d.1927) – görkəmli Azərbaycan heykəltəraşı. Azərbaycan MEA-nın həqiqi üzvü. Rəssamlıq Akademiyasının rektoru. Heykəltəraşlığın müxtəlif janrlarında (monumental abidə, portret, büst, qorelyef və s.) əsərlər yaradır. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Azərbaycan Respublikasının «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 176–177.

**74. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya

poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 176.

**75. Natəvan,** X u r ş i d b a n u X a n q ı z ı(1832–1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şeirlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. O həm də istedadlı rəssam olmuşdur. – 176.

**76. Hüseyn Cavid,** H ü s e y n A b d u l l a o ğ l u R a s i z a d ə (1882–1941) – böyük Azərbaycan şairi, yazıçısı və dramaturqu. Azərbaycan romantizminin banilərindən biri olmuşdur. O, lirik şeirlərin, lirik-epik, epik poemaların müəllifidir, amma daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratmış, milli teatr mədəniyyətinin inkişafına qüvvətli təsir göstərmişdir. Azərbaycanın ən dəyərli milli ziyalı nümayəndələrini məhv edən sovet totalitar rejiminin repressiya qurbanlarındandır. – 176.

**77. Üzeyir Hacıbəyli,** Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 176.

**78. Niyazi,** T a ğ ı z a d ə - H a c ı b ə y o v N i y a z i Z ü l- f ü q a r o ğ l u (1912–1984) – görkəmli Azərbaycan dirijoru, bəstəkar, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. Azərbaycan milli dirijorluq məktəbinin formalaşması və inkişafı onun adı ilə bağlıdır. – 176.

**79. İSESKO** – elm, təhsil və mədəniyyət məsələləri üzrə islam təşkilatı. 1979-cu ildə təşkil edilmişdir. Azərbaycan İSESKO ilə yaxından əməkdaşlıq edir və islam aləmində mədəniyyət abidələrinin qorunması prinsipini dəstəkləyir. – 182, 206–209, 219.

**80. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələri mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 185, 186, 240.

**81. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 nəfər azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 187.

**82. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** A l l a h ş ü k ü r H ü m m ə t o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 196, 198, 200, 203, 204, 209–211.

**83. Monqolustan** – Mərkəzi Asiyada dövlət. Sahəsi 1564 min km$^2$, əhalisi 3 milyon nəfərdir. İnzibati ərazisi 18 aymaka bölünür. Ulan-Bator, Dərhan və Erdenet şəhərləri xüsusi ərazi bölgüsünə daxildir. Dövlət başçısı Prezident, ali dövlət

hakimiyyəti orqanı Böyük Xalq Xuralıdır. Paytaxtı Ulan-Bator şəhəridir. – 263–264.

**84. Nigeriya,** N i g e r i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 924 min km$^2$, əhalisi 200 milyon nəfərdir. İnzibati ərazisi 30 ştata və bir mahala bölünür. Dövlət və hökumət başçısı Prezidentdir. Paytaxtı Abuca şəhəridir. – 265–266.

**85. Buhari Məhəmməd** (d.1942)– Nigeriyanın dövlət xadimi. 1983–1985-ci illərdə Nigeriyanın Baş Naziri olmuşdur. 2015-ci ildən Nigeriya Federativ Respublikasının Prezidentidir. – 266.

**86. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 196–198, 218, 229, 244, 319.

**87. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 196–198, 218, 229, 244, 319.

**88. Fransisk,** J o r q e M a r i o B e r g o g l i o (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 198.

**89. Patriarx Kirill** (d.1946) – Rusiyanın din xadimi. 2009-cu ildən Moskva və bütün Rusiyanın patriarxı. – 203–204.

**90. İsmayıl Berdiyev** (d.1954) – ilahiyyatçı. Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzinin sədri, Qaraçay-

Çərkəz müftisi. Rusiya Federasiyası Prezidenti yanında Dinlərin Birgə və Qarşılıqlı Şurasının və MDB və Rusiya Dinlərarası Şurası Rəyasət Heyətinin üzvüdür. – 221–222.

**91. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezident Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 234, 242–251.

**92. Fərhad Bədəlbəyli,** F ə r h a d Ş ə m s i o ğ l u (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının 1991-ci ildən rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan və SSRİ Xalq artisti. Beynəlxalq müsabiqələr laureatı. Azərbaycan piano məktəbini ləyaqətlə təmsil edən çoxlu sayda pianoçu yetişdirmiş istedadlı pedaqoq, Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 238–240.

**93. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri,

mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 242–251, 277, 286.

**94. Belarus,** B e l a r u s  R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 242–251.

**95. Aleksandr Lukaşenko** (d.1954) – Belarusun dövlət xadimi. 1994-cü ildən Belarus Respublikasının Prezidentidir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 242–251.

**96. Sooronbay Jeenbekov** (d.1958) – Qırğızıstanın siyasi və dövlət xadimi. 2017-ci ildən Qırğız Respublikasının Prezidentidir. – 242–251.

**97. Tacikistan,** T a c i k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 143,1 min km$^2$, əhalisi 9 milyon nəfərdir. İnzibati ərazisi Bədəxşan Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 242–251.

**98. Emoməli Rəhmon,** E m o m ə l i  Ş ə r i f  o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan

Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 242–251.

**99. Kuba,** K u b a  R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Dövlətin ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı Dövlət Şurasının Sədridir. Paytaxtı Havana şəhəridir. – 252.

**100. Raul Kastro Rus** (d.1931) – Kuba inqilabçısı və dövlət xadimi. 2008–2018-ci illərdə Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri və Kuba Silahlı Qüvvələrinin Baş Komandanı olmuşdur. – 252.

**101. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 km$^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının XVIII əsrin 50-ci illərinin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi. 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 259.

**102. Cəbrayıl** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1050 km$^2$, əhalisi 76,6

min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 259.

**103. Cocuq Mərcanlı –** Azərbaycan Respublikasının Cəbrayıl rayonu Çaxırlı inzibati ərazi vahidində kənd. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş, 1994-cü ilin əvvəlində Azərbaycan Ordusu tərəfindən erməni işğalından azad edilmişdir. Cəbhə xəttinə çox yaxın olduğuna görə əhali kəndə qayıda bilməmişdir. 2016-cı ildə Cocuq Mərcanlı kəndinə yaxın yerləşən Lələtəpə yüksəkliyi Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilmişdir. Kənd tamamilə bərpa olunmuş, azərbaycanlılar öz doğma torpaqlarına qayıtmışlar. – 259, 281.

**104. Füzuli** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1386 $km^2$, əhalisi 125,4 min nəfərdir. 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 259.

**105. Milad bayramı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst bayram mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişlər. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 262.

**106. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Dünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 189, 260, 276, 277, 286, 292, 323–330.

**107. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 276.

**108. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 287.

**109. Bolqarıstan,** Bolqarıstan Respublikası – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 7 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 302–310.

**110. 31 mart azərbaycanlıların soyqırımı günü,** 1918-ci il soyqırımı – çarizmin fəal köməyi ilə erməni-daşnak silahlı birləşmələrinin Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdiyi genişmiqyaslı qanlı aksiyalar. Ermənilərin 1905-ci ilin fevralında Bakıdan başlanan vəhşilikləri bütün Azərbaycanı və indi Ermənistan adlanan Qərbi Azərbaycan ərazisindəki yaşayış məntəqələrini əhatə etdi. Yüzlərlə Azərbaycan kəndi dağıdıldı, yüz minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirildi, xalqımıza məxsus çoxlu milli mədəniyyət abidələri məhv və talan olundu. Bütün bu vəhşiliklər ermənilərin vaxtilə yerləşdirildikləri, lakin əhalinin milli tərkibində azlıq təşkil etdikləri Azərbaycan torpaqlarını zorla erməniləşdirmək, bədnam «azərbaycanlılarsız Ermənistan» kimi qeyri-insani planlarını azərbaycanlıların soyqırımı hesabına həyata keçirmək niyyətindən xəbər verir. – 317–318.

**111. 1990-cı il 20 Yanvar hadisələri –** 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin qanlı yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 311, 320–322.

## Şəxsi adlar göstəricisi


**Abdallay Abbas** – 115–116
**II Abdullah** – 123
**Abdullayeva Şəhla** – 146–147
**Adamakis Emmanuil** – 200
**Akbar Mobaşar** – 45
**Axundzadə Ağayar** – 162
**Akaşe Xaled** – 198–200
**Akenq Xose** – 267
**Akihito** – 71–72
**Allam Şövqi** – 217
**Arslan Əhməd** – 80–81
**Asif Xavaca** – 43–44
**Babayev Nağı** – 162
**Baxtadze Mamuka** – 223
**Balakişiyeva Fəxriyyə** – 105–106
**Barkindo Məhəmməd** – 330
**Battulqa Xaltmaaqiyn** – 263–264
**Behbudova Zərifə** – 72
**Berdiyev İsmayıl** – 221–222
**Bədəlbəyli Fərhad** – 238–240
**Borisov Boyko** – 302–310
**Bozkır Volkan** – 311–312
**Buhari Məhəmməd** – 266
**Cəfərov Əli** – 10–11
**Cəhromi Məhəmməd** – 82–83
**Cim Yen Kim** – 166, 167
**Çanturia Giorgi** – 300
**Çavuşoğlu Mövlud** – 41, 173–174
**Daliç Martina** – 37–38
**Ditrix Qay** – 40

**Dodon İqor** – 242–251
**Eldarov Ömər** – 176–177
**Əhmədov Xəyal** – 162
**Əl-Bəşir Ömər** – 115, 116, 253
**Əl-Məktum Məhəmməd** – 35
**Əl-Xəlifə Həməd** – 132
**Əl-Osaymin Yusif** – 123–124
**Əl-Nəhəyyan Xəlifə** – 34
**Əl-Tani Təmim** – 133
**Əsədov Oqtay** – 119, 322
**Ələkbər Vahid** – 325
**Əl-Sudeyri Tofiq** – 215–216
**Əl-Tüveycri Osman** – 206–209, 219
**Əliyev Əziz** – 119
**Əliyev Hacı** – 157
**Əliyev Heydər** – 18, 26, 45, 94, 118, 119–120, 134, 146, 149, 176, 177, 186, 187, 210, 222, 228, 321, 322.
**Əliyev Tamerlan** – 119
**Əliyev Ziyəddin** – 94
**Əliyeva Leyla** – 91, 168
**Əliyeva Mehriban** – 27, 85, 88, 94, 106, 107, 108, 110, 119, 147, 156, 163, 168, 210, 225, 228, 230, 240, 320, 322
**Əliyeva Zərifə xanım** – 119, 176
**Ərbaş Əli** – 194, 214
**Ərdoğan Rəcəb Tayyib** – 42, 80, 121–126, 173, 174, 194–196, 214, 311, 312
**Fink Lourens** – 324
**Feyrhed Rona** – 127–128
**Fərəcov Zakir** – 134
**Fransisk** *(Roma Papası)* – 198
**Füzuli Məhəmməd** – 176

**Hacıbəyli Üzeyir** – 176
**Hakimi Eklil** – 58
**Həsənov Azər** – 162
**Həsənov Faiq** – 162
**Həsənov Zakir** – 14
**Honda Keiko** – 166–167
**Honlayn Malkolm** – 175
**Houten Van** – 327
**Hüseyn Cavid** – 176
**Hüseynov Firat** – 162
**Hüseynova Fatma** – 28
**İbrahim Həmzət** – 265–266
**İbrahimov Fuad** – 240
**II İliya** *(Ümumgürcüstan Katalikos Patriarxı)* – 205–206
**İohannis Klaus** – 33
**İsmayılov Nazim** – 18
**İsmayılov Tofiq** – 12
**Jeenbekov Sooronbay** – 242–254
**Jilkin Aleksandr** – 168–169
**Kalaşnikov Leonid** – 117–118
**Kamilov Rüstəm** – 196, 218
**Kastro Raul** – 252
**Kenyatta Uhuru** – 114
**Kirill** *(Moskva və bütün Rusiya Patriarxı)* – 203–204
**Klaar Toivo** – 77
**Klementi Erik** – 178
**Kramer Kelli** – 329
**Qaxaria Giorgi** – 224
**Qani Məhəmməd** – 47–57, 55–64
**Qasımov Zaur** – 147
**Qayıbov Fərid** – 69, 162
**Qrabar-Kitaroviç Kolinda** – 37, 38
**Quluzadə Ramin** – 85

**Qurbanov Səməd** – 70
**Lev** *(Novqorod və Starorus Mitropoliti)* – 203
**Lukaşenko Aleksandr** – 242–251
**Mahmud Abbas** – 121–126
**Mehdiyev Ramiz** – 119, 322
**Məftahəddinova Zemfira** – 162
**Məcidov Məhəmmədrəsul** – 157
**Məlikova Validə** – 72
**Məmmədov Rasim** – 154
**Məmmədov Saleh** – 31,92
**Məmmədov Şahin** – 11
**Məmmədyarov Elmar** – 58
**Mikser Sven** – 67–68
**Mörfi Tim** – 328
**Mirziyoyev Şavkat** – 196–198, 218, 229, 244, 319
**Mustafayev Şahin** – 16, 19, 30, 58, 70
**Natəvan** – 176
**Nazarbayev Nursultan** – 131, 242–251
**Nikiforov Nikolay** – 78–79
**Niinistö Sauli** – 76
**Niyazi** – 176
**Nuriyev Samir** – 225
**Oreşkin Maksim** – 234–235
**Paşazadə Hacı Allahşükür** – 196, 198, 200, 203, 204, 209–211
**Pinyera Sebastian** – 220
**Piriyeva Tünzalə** – 104–105
**Plenkoviç Andrey** – 38
**Prayer Cey** – 326
**Putin Vladimir** – 234, 242–251
**Rabbani Səlahuddin** – 47–54, 58
**Rasi-zadə Artur** – 119
**Rəhmon Emoməli** – 242–251
**Ruhani Həsən** – 82, 83, 124, 170, 171, 191–

194, 213, 301
**Sadoviç Bakir** – 268
**Salahova Zərifə** – 163
**Sanz Manuel** – 39
**Şnayer Mark** – 179
**Tramp Donald** – 122, 193, 245
**Teodor** *(Axaltsixi Tao-Klarcet Mitropoliti)* – 204
**Vaezi Mahmud** – 191, 213
**Vaçiralonqkorn Maha** – 46
**I Varfolomey** *(Patriarx)* – 200–203
**Voraçit Bounyanq** – 36
**Volodin Vyaçeslav** – 117, 118
**Yıldırım Binəli** – 214
**Zeynalova Elmira** – 27
**Zərif Məhəmməd Cavad** – 65–66, 170–171

## Coğrafi adlar göstəricisi

**Abşeron** *(yarımada)* – 86
**Ağcabədi** – 5–17
**Ağdərə** – 259
**Afrika** – 20
**Aktobe** – 319
**Almaniya** – 138, 152–153, 155
**Amerika Birləşmiş Ştatları** – 85, 122, 123, 124, 125, 155, 175, 179, 193, 195, 196, 324
**Asiya** – 183
**Avrasiya** – 51
**Avropa** – 7, 8, 61, 93, 155, 183, 184,
186, 189, 190, 260, 306
**Avstriya** – 155
**Belarus** – 242–251
**Belçika** – 155
**Bəhreyn** – 132
**Biləcəri** – 255
**Binəqədi** – 255
**Birləşmiş Ərəb Əmirlikləri** – 34, 35, 54, 85, 89
**Böyük Britaniya** – 127–128, 210
**Bolqarıstan** – 302–310
**Bosniya və Herseqovina** – 268
**Brüssel** – 63, 240
**Cəbrayıl** – 259
**Cənubi Qafqaz** – 77, 144, 146
**Cocuq Mərcanlı** – 259, 281
**Çikaqo** – 63
**Çili** – 220
**Çin** – 54, 85, 155

**Dağlıq Qarabağ** – 42, 44, 49, 60, 77, 115, 126, 187, 188, 211, 240, 258, 281, 282
**Davos** – 323–330
**Digah** – 256
**Ekvatorial Qvineya** – 267
**Estoniya** – 67–68
**Əfqanıstan** – 47–54, 55–64, 245, 250
**Fatmayı** – 210, 255, 256
**Fələstin** – 121–126, 193, 195, 200
**Finlandiya** – 76, 85
**Fransa** – 85, 95, 138
**Füzuli** – 259
**Gürcüstan** – 51, 54, 205–206, 223, 224, 300
**Goradil** – 255
**Hacıqabul** – 20, 144
**Həştərxan** – 168–169
**Hindistan** – 45, 54, 93
**Horadiz** – 110
**Hövsan** – 225–227
**Xaçmaz** – 86, 96, 108
**Xəzər dənizi** – 93, 169, 273
**Xırdalan** – 291
**Xocalı** – 187
**Xorvatiya** – 37–38, 39
**İndoneziya** – 95
**İordaniya** – 123
**İran** –54, 65–66, 82–83, 124, 170–171, 190–191, 210, 213, 301
**İrəvan** – 317
**İsveçrə** – 323–330
**İstanbul** – 121–126
**İsveç** – 85, 210
**İtaliya** – 95, 155

**Keniya** – 114
**Koreya Respublikası** – 95, 244
**Kosta-Rika** – 39
**Köln** – 240
**Kuba** – 252
**Qafqaz** – 94
**Qara dəniz** – 93
**Qaraçay-Çərkəz Respublikası** – 221–222
**Qazax** – 291
**Qazaxıstan** – 54, 131, 155, 242–251
**Qəbələ** – 291
**Qətər** – 133
**Qırğız Respublikası** – 54, 242–251
**Qobustan** – 291
**Quba** – 94–113, 291, 318
**Qusar** – 96, 108
**Qüds** – 121–126, 193, 195, 207, 211, 245
**Laos** – 36
**Litva** – 155
**Lüdviqşafen** – 152–153
**Masallı** – 19, 144, 291
**Mehdiabad** – 255, 256
**Mərkəzi Afrika Respublikası** – 208
**Mərkəzi Asiya** – 61, 246
**Mingəçevir** – 98, 144
**Misir** – 217
**Moldova** – 242–251
**Monqolustan** – 263–264
**Moskva** – 203, 321
**Naftalan** – 291
**Naxçıvan** – 317
**Neftçala** – 19, 144
**Niderland Krallığı** – 85, 155
**Nigeriya** – 265–266

**Novqorod** – 203
**Nyu York** – 179
**Orta Asiya** – 93, 245
**Özbəkistan** – 196–198, 218, 229, 244, 319
**Pakistan** – 43–44, 54
**Paris** – 240
**Pirşağı** – 256
**Rumıniya** – 33
**Rusiya** – 54, 64, 78–79, 85, 92, 93, 117–118, 155, 168–169, 203–204, 210, 221–222, 234–235, 241–251, 325
**Sabirabad** – 18–32, 144
**Səudiyyə Ərəbistanı** – 54, 215–216
**Siyəzən** – 108
**Sudan** – 115–116, 253
**Sumqayıt** – 134–155
**Suriya** – 195
**Şabran** – 96, 108
**Şəmkir** – 110
**Şəki** – 98
**Şimali Qafqaz** – 221–222
**Şuşa** – 259
**Tacikistan** – 54, 242–251
**Tailand** – 46
**Tayvan** – 155
**Türkiyə** – 41–42, 48, 51, 54, 80–81, 121–126, 138, 155, 173–174, 194–196, 210, 214, 311–312
**Türkmənistan** – 51, 54
**Vatikan** – 198–200
**Yaxın Şərq** – 20, 245
**Yaponiya** – 172
**Zəngəzur** – 317
**Zirə** – 70–73

# MÜNDƏRİCAT

OLİMPİYA İDMAN KOMPLEKSİNİN AÇILIŞINDA AĞCABƏDİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ VƏ İDMANÇILARLA GÖRÜŞ

*28 noyabr 2017-ci il* ............................................................................ *5*

SABİRABAD RAYONUNA SƏFƏR

*28 noyabr 2017-ci il* ............................................................................ *18*

SABİRABAD RAYON MƏRKƏZİ XƏSTƏXANASININ AÇILIŞI MƏRASİMİNDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 noyabr 2017-ci il* ............................................................................ *21*

RUMINİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB KLAUS VERNER İOHANNİSƏ

*28 noyabr 2017-ci il* ............................................................................ *33*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*29 noyabr 2017-ci il* ............................................................................ *34*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN VİTSE-PREZİDENTİ, BAŞ NAZİRİ VƏ DUBAY ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*29 noyabr 2017-ci il* ............................................................................ *35*

LAOS XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BOUNYANQ VORAÇİTƏ

*29 noyabr 2017-ci il* ........................................................................... *36*

XORVATİYA RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ MARTİNA DALİÇİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2017-ci il* ........................................................................... *37*

KOSTA-RİKA RESPUBLİKASININ XARİCİ İŞLƏR VƏ ETİQAD NAZİRİ MANUEL QONZALES SANZ İLƏ GÖRÜŞ

*29 noyabr 2017-ci il* ........................................................................... *39*

CİSCO ŞİRKƏTİNİN QLOBAL İNNOVASİYALAR ÜZRƏ VİTSE-PREZİDENTİ QAY DİTRİXİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 noyabr 2017-ci il* ........................................................................... *40*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 noyabr 2017-ci il* ........................................................................... *41*

PAKİSTAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ XAVACA MƏHƏMMƏD ASİFİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 noyabr 2017-ci il* ........................................................................... *43*

HİNDİSTAN RESPUBLİKASININ XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ MOBAŞAR CAVED AKBARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 noyabr 2017-ci il* ........................................................................... *45*

TAİLAND KRALI ƏLAHƏZRƏT
MAHA VAÇİRALONQKORNA

*1 dekabr 2017-ci il*........................................................................... *46*

«ASİYANIN QƏLBİ» – İSTANBUL PROSESİ» ÇƏRÇİVƏSİNDƏ «GÜCLƏNDİRİLMİŞ ASİYANIN QƏLBİ» REGİONUNA DOĞRU TƏHLÜKƏSİZLİK VƏ İQTİSADİ BAĞLANTILAR» MÖVZUSUNDA YEDDİNCİ NAZİRLƏR KONFRANSINDA İŞTİRAK

*1 dekabr 2017-ci il*........................................................................... *47*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ REZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*1 dekabr 2017-ci il*........................................................................... *55*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*1 dekabr 2017-ci il*........................................................................... *56*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*1 dekabr 2017-ci il*........................................................................... *58*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ REZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*1 dekabr 2017-ci il*........................................................................... *59*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİF İLƏ GÖRÜŞ

*1 dekabr 2017-ci il*........................................................................... *65*

ESTONİYA RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ SVEN MİKSER İLƏ GÖRÜŞ

*1 dekabr 2017-ci il*........................................................................... *67*

AVROPA GİMNASTİKA İTTİFAQININ PREZİDENTİ
FƏRİD QAYIBOVA

*3 dekabr 2017-ci il*........................................................................... *69*

XƏZƏR RAYONUNUN ZİRƏ QƏSƏBƏSİNDƏ «BAKU AGROPARK»DA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*4 dekabr 2017-ci il*........................................................................... *70*

XXIII BEYNƏLXALQ «BAKUTEL–2017» TELEKOMMUNİKASİYA VƏ İNFORMASİYA TEXNOLOGİYALARI SƏRGİSİ VƏ KONFRANSININ İŞTİRAKÇILARINA

*4 dekabr 2017-ci il*........................................................................... *74*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB SAULİ NİİNİSTÖYƏ

*4 dekabr 2017-ci il*........................................................................... *76*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ YENİ TƏYİN EDİLMİŞ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*4 dekabr 2017-ci il*........................................................................... *77*

RUSİYA FEDERASİYASININ RABİTƏ VƏ KÜTLƏVİ KOMMUNİKASİYALAR NAZİRİ
NİKOLAY NİKİFOROV İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*........................................................................... *78*

TÜRKİYƏ RESPUBLİKASININ NƏQLİYYAT, DƏNİZÇİLİK VƏ KOMMUNİKASİYA NAZİRİ
ƏHMƏD ARSLAN İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*........................................................................... *80*

İRAN İSLAM RESPUBLİKASININ RABİTƏ VƏ İNFORMASİYA TEXNOLOGİYALARI NAZİRİ MƏHƏMMƏD CAVAD AZƏRİ CƏHROMİ İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*........................................................................ *82*

BEYNƏLXALQ TELEKOMMUNİKASİYA İTTİFAQININ BAŞ KATİBİ HOULİN ÇJAO İLƏ GÖRÜŞ

*5 dekabr 2017-ci il*........................................................................ *84*

«BAKUTEL–2017» SƏRGİSİ İLƏ TANIŞLIQ

*6 dekabr 2017-ci il*........................................................................ *85*

BAKI–RUSİYA FEDERASİYASI İLƏ DÖVLƏT SƏRHƏDİ MAGİSTRALININ 45–202 KİLOMETRLİK HİSSƏSİNDƏ TİKİLƏCƏK AVTOMOBİL YOLUNUN TƏMƏLQOYMA MƏRASİMİ

*7 dekabr 2017-ci il*........................................................................ *92*

QUBA RAYONUNA SƏFƏR

*7 dekabr 2017-ci il*........................................................................ *94*

KENİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB UHURU KENYATTAYA

*8 dekabr 2017-ci il*...................................................................... *114*

SUDAN RESPUBLİKASININ AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ ABBAS MUSTAFA ƏHMƏD ABDALLAY İLƏ GÖRÜŞ

*8 dekabr 2017-ci il*...................................................................... *115*

RUSİYA FEDERASİYASI DÖVLƏT DUMASININ KOMİTƏ SƏDRİ LEONİD KALAŞNİKOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*11 dekabr 2017-ci il* ........................................................................ *117*

ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MƏZARINI ZİYARƏT

*12 dekabr 2017-ci il* ........................................................................ *119*

TÜRKİYƏ RESPUBLİKASINA SƏFƏR

*12 dekabr 2017-ci il* ........................................................................ *121*

İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATININ QÜDS MƏSƏLƏSİ İLƏ BAĞLI FÖVQƏLADƏ ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*13 dekabr 2017-ci il* ........................................................................ *122*

BÖYÜK BRİTANİYANIN TİCARƏT VƏ İXRACIN TƏŞVİQİ ÜZRƏ NAZİRİ BARONESSA RONA FEYRHEDİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*14 dekabr 2017-ci il* ........................................................................ *127*

AZƏRBAYCANIN GƏNC ALİMLƏRİNİN I QURULTAYININ İŞTİRAKÇILARINA

*14 dekabr 2017-ci il* ........................................................................ *129*

QAZAXISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB NURSULTAN NAZARBAYEVƏ

*14 dekabr 2017-ci il* ........................................................................ *131*

BƏHREYN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*14 dekabr 2017-ci il* ......................................................................... *132*

QƏTƏR DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX TƏMİM BİN HƏMƏD ƏL-TANİYƏ

*15 dekabr 2017-ci il* ......................................................................... *133*

SUMQAYIT ŞƏHƏRİNƏ SƏFƏR

*15 dekabr 2017-ci il* ......................................................................... *134*

SUMQAYIT KİMYA SƏNAYE PARKINDA GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ, YENİ MÜƏSSİSƏLƏRİN TƏMƏLQOYMA VƏ AÇILIŞI ZAMANI ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*15 dekabr 2017-ci il* ......................................................................... *135*

2017-ci İLİN İDMAN YEKUNLARINA HƏSR OLUNMUŞ MƏRASİMDƏ İŞTİRAK

*18 dekabr 2017-ci il* ......................................................................... *156*

AZƏRBAYCAN MEMARLARININ XIX QURULTAYININ İŞTİRAKÇILARINA

*18 dekabr 2017-ci il* ......................................................................... *164*

DÜNYA BANKININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 dekabr 2017-ci il* ......................................................................... *166*

RUSİYA FEDERASİYASI HƏŞTƏRXAN VİLAYƏTİNİN QUBERNATORU ALEKSANDR JİLKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 dekabr 2017-ci il* ......................................................................... *168*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MƏHƏMMƏD CAVAD ZƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 dekabr 2017-ci il* ......... *170*

YAPONİYA İMPERATORU ƏLAHƏZRƏT AKİHİTOYA

*20 dekabr 2017-ci il* ......... *172*

TÜRKİYƏ RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ MÖVLUD ÇAVUŞOĞLUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il* ......... *173*

AMERİKA YƏHUDİ TƏŞKİLATLARI PREZİDENTLƏRİ KONFRANSININ İCRAÇI DİREKTORU MALKOLM HONLAYN İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il* ......... *175*

XALQ RƏSSAMI ÖMƏR ELDAROVA «HEYDƏR ƏLİYEV» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*20 dekabr 2017-ci il* ......... *176*

IBM KORPORASİYASININ BAŞ VİTSE-PREZİDENTİ ERİK KLEMENTİ İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il* ......... *178*

ABŞ ETNİK ANLAŞMA FONDUNUN PREZİDENTİ RAVVİN MARK ŞNAYER İLƏ GÖRÜŞ

*20 dekabr 2017-ci il* ......... *179*

«2017–İSLAM HƏMRƏYLİYİ İLİ: DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQ» MÖVZUSUNDA BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK

*21 dekabr 2017-ci il* ......... *180*

İRAN İSLAM RESPUBLİKASI PREZİDENT APARATININ RƏHBƏRİ MAHMUD VAEZİ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*.......................................................................... *213*

TÜRKİYƏ RESPUBLİKASININ DƏYANƏT İŞLƏRİ BAŞKANI ƏLİ ƏRBAŞ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*.......................................................................... *214*

SƏUDİYYƏ ƏRƏBİSTANI KRALLIĞININ İSLAM İŞLƏRİ, DƏVƏT VƏ İRŞAD NAZİRİNİN BİRİNCİ MÜAVİNİ TOFİQ ƏL-SUDEYRİ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*.......................................................................... *215*

MİSİR DİYARININ MÜFTİSİ ŞÖVQİ İBRAHİM ALLAM İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*.......................................................................... *217*

ÖZBƏKİSTAN RESPUBLİKASI PREZİDENTİNİN DÖVLƏT MÜŞAVİRİ RÜSTƏM KAMİLOV İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*.......................................................................... *218*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*21 dekabr 2017-ci il*.......................................................................... *219*

ÇİLİ RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SEBASTİAN PİNYERAYA

*22 dekabr 2017-ci il*.......................................................................... *220*

RUSİYA FEDERASİYASI ŞİMALİ QAFQAZ RESPUBLİKALARINDAN OLAN BİR QRUP MÜSƏLMAN DİN XADİMİNDƏN İBARƏT NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*22 dekabr 2017-ci il........................................................................ 221*

GÜRCÜSTAN RESPUBLİKASININ MALİYYƏ NAZİRİ MAMUKA BAXTADZE İLƏ GÖRÜŞ

*22 dekabr 2017-ci il........................................................................ 223*

GÜRCÜSTAN RESPUBLİKASI BAŞ NAZİRİNİN MÜAVİNİ – DAXİLİ İŞLƏR NAZİRİ GİORGİ QAXARİA İLƏ GÖRÜŞ

*23 dekabr 2017-ci il........................................................................ 224*

MİDA-nın HÖVSAN YAŞAYIŞ KOMPLEKSİNDƏ İLK BİNANIN TƏMƏLQOYMA MƏRASİMİ

*24 dekabr 2017-ci il........................................................................ 225*

«AĞ ŞƏHƏR»DƏ GÖRÜLƏN İŞLƏRLƏ TANIŞLIQ

*24 dekabr 2017-ci il........................................................................ 228*

RUSİYA FEDERASİYASININ İQTİSADİ İNKİŞAF NAZİRİ MAKSİM OREŞKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 dekabr 2017-ci il........................................................................ 234*

DÜNYA AZƏRBAYCANLILARINA

*25 dekabr 2017-ci il........................................................................ 236*

XALQ ARTİSTİ FƏRHAD BƏDƏLBƏYLİYƏ «İSTİQLAL» ORDENİNİ TƏQDİMETMƏ MƏRASİMİ

*25 dekabr 2017-ci il........................................................................ 238*

RUSİYA FEDERASİYASINA İŞGÜZAR SƏFƏR

*26 dekabr 2017-ci il*........................................................................... *241*

MDB DÖVLƏT BAŞÇILARININ QEYRİ-RƏSMİ
GÖRÜŞÜNDƏ İŞTİRAK

*26 dekabr 2017-ci il*........................................................................... *242*

KUBA RESPUBLİKASI DÖVLƏT ŞURASININ VƏ
NAZİRLƏR ŞURASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB
RAUL KASTRO RUSA

*28 dekabr 2017-ci il*........................................................................... *252*

SUDAN RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ÖMƏR HƏSƏN ƏHMƏD ƏL-
BƏŞİRƏ

*28 dekabr 2017-ci il*........................................................................... *253*

MEHDİABAD–DİGAH–MƏMMƏDLİ AVTOMOBİL
YOLUNUN AÇILIŞI MƏRASİMİ

*29 dekabr 2017-ci il*........................................................................... *254*

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ
GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN
XALQINA TƏBRİK

*31 dekabr 2017-ci il*........................................................................... *257*

AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA

*4 yanvar 2018-ci il*.............................................................................. *262*

MONQOLUSTANIN AZƏRBAYCANDA YENİ TƏYİN
OLUNMUŞ SƏFİRİ BOLD RAVDAN İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il*.............................................................................. *263*

NİGERİYA FEDERATİV RESPUBLİKASININ
AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ
SƏFİRİ HAMZAT İBRAHİM İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il.......................................................................... 265*

EKVATORİAL QVİNEYA RESPUBLİKASININ
AZƏRBAYCANDA YENİ TƏYİN OLUNMUŞ SƏFİRİ
XOSE ESONO MİÇA AKENQ İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il.......................................................................... 267*

BOSNİYA VƏ HERSEQOVİNANIN AZƏRBAYCANDA YENİ
TƏYİN OLUNMUŞ SƏFİRİ BAKİR SADOVİÇ
İLƏ GÖRÜŞ

*8 yanvar 2018-ci il.......................................................................... 268*

BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANI
KOMPLEKSİNDƏ RO-RO TERMİNALININ AÇILIŞI
MƏRASİMİ

*9 yanvar 2018-ci il.......................................................................... 269*

2018-ci İLİN «AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ İLİ»
ELAN EDİLMƏSİ HAQQINDA SƏRƏNCAM

*10 yanvar 2018-ci il........................................................................ 274*

NAZİRLƏR KABİNETİNİN 2017-ci İLİN SOSİAL-
İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA
DURAN VƏZİFƏLƏRƏ HƏSR
OLUNMUŞ İCLASI

*10 yanvar 2018-ci il........................................................................ 275*

YEKUN NİTQİ

*10 yanvar 2018-ci il*........................................................................ *286*

GÜRCÜSTAN RESPUBLİKASINA BAŞSAĞLIĞI

*10 yanvar 2018-ci il*........................................................................ *300*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HƏSƏN RUHANİYƏ

*15 yanvar 2018-ci il*........................................................................ *301*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
BOYKO BORİSOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*15 yanvar 2018-ci il* ....................................................................... *302*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*15 yanvar 2018-ci il*........................................................................ *303*

BOLQARISTAN RESPUBLİKASININ BAŞ NAZİRİ
BOYKO BORİSOV İLƏ BİRGƏ MƏTBUATA
BƏYANATLARLA ÇIXIŞLAR

*15 yanvar 2018-ci il*........................................................................ *305*

TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN XARİCİ
ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ VOLKAN BOZKIRIN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*16 yanvar 2018-ci il*........................................................................ *311*

«AZƏRİŞIQ» ASC-nin BAKI PAYLAYICI ŞƏBƏKƏSİNİN
YENİ İNZİBATİ BİNASININ VƏ YARIMSTANSİYA -
LARININ AÇILIŞI MƏRASİMİ

*17 yanvar 2018-ci il* ........................................................................*313*

1918-ci İL AZƏZRBAYCANLILARIN SOYQIRIMININ
100 İLLİYİ HAQQINDA SƏRƏNCAM

*18 yanvar 2018-ci il..........................................................................317*
ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ŞAVKAT MİRZİYOYEVƏ

*19 yanvar 2018-ci il..........................................................................319*

ÜMUMXALQ HÜZN GÜNÜNDƏ ŞƏHİDLƏRİN XATİRƏSİNİ YADETMƏ MƏRASİMİ

*20 yanvar 2018-ci il..........................................................................320*

İSVEÇRƏ KONFEDERASİYASINA SƏFƏR

*22 yanvar 2018-ci il..........................................................................323*

ABŞ-ın «BLACK ROCK» ŞİRKƏTİNİN TƏSİSÇİSİ LOURENS FİNK İLƏ GÖRÜŞ

*22 yanvar 2018-ci il..........................................................................324*

LUKOYL ŞİRKƏTİNİN PREZİDENTİ VAHİD ƏLƏKBƏROV İLƏ GÖRÜŞ

*22 yanvar 2018-ci il..........................................................................325*

«ŞEVRON» ŞİRKƏTİNİN VİTSE-PREZİDENTİ CEY PRAYER İLƏ GÖRÜŞ

*22 yanvar 2018-ci il..........................................................................326*

«ROYAL PHİLLİPS» ŞİRKƏTİNİN BAŞ İCRAÇI DİREKTORU FRANS VAN HOUTEN İLƏ GÖRÜŞ

*22 yanvar 2018-ci il..........................................................................327*

«MASTERCARD» ŞİRKƏTİNİN İDARƏ HEYƏTİNİN ÜZVÜ TİM MÖRFİ İLƏ GÖRÜŞ

*22 yanvar 2018-ci il..........................................................................328*

CİSCO ŞİRKƏTİNİN İCRAÇI VİTSE-PREZİDENTİ
XANIM KELLİ KRAMER İLƏ GÖRÜŞ

*22 yanvar 2018-ci il*..........................................................................*329*

OPEC-in BAŞ KATİBİ MƏHƏMMƏD BARKİNDO
İLƏ GÖRÜŞ

*23 yanvar 2018-ci il*..........................................................................*330*

DAVOS DÜNYA İQTİSADİ FORUMU ÇƏRÇİVƏSİNDƏ
KEÇİRİLƏN «STRATEJİ BAXIŞ: AVRASİYA»
MÖVZUSUNDA İNTERAKTİV İCLASDA
İŞTİRAK

*23 yanvar 2018-ci il* .........................................................................*331*

QEYDLƏR......................................................................................... 338

*Şəxsi adlar göstəricisi*.........................................................................*367*

*Coğrafi adlar göstəricisi*...................................................................... *372*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.